Bəxtiyar Süleymanlı

6563

# ƏBƏDİYAŞARLAR

AZƏRBAYCAN DÖVLƏT NƏŞRİYYATI

Bakı-2010

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

45.2.2
S-97

**Redaktor:** **Rəfail İncəyurd**
**İdeya rəhbəri:** **Azər Süleymanlı**

**Bəxtiyar Süleymanlı. "Əbədiyaşarlar"** *(publisistik xatirələr),* Azərbaycan Dövlət nəşriyyatı, Bakı, 2010, 263 səh.

*Kitabda istefada olan polkovnik-leytenant Bəxtiyar Süleymanlının ulu öndərimiz Heydər Əliyev və gördüyü, tanıdığı görkəmli dövlət, elm, mədəniyyət və din xadimləri haqqında publisistik xatirələr toplanmışdır.*

*Xatirələr müəllifin özünəməxsus yazı üslubu ilə və xronoloji ardıcıllıqla verilmişdir.*

*Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

4502020000 / M-651(07)-2010 Qrifli nəşr

© B.Süleymanlı, 2010.

# Redaktordan

Tarix dünyanın və bəşər övladının olaylarından bəhs etdiyinə görə dəqiqliyi sevir. Baxmayaraq ki, keçmişin qaranlıq səhifələrində qalmış bir sıra həqiqətlər insan təsəvvürünün, məntiqinin, ehtimalının da məhsulu ola bilər. Bu, ən qədim tarixdir və insanın özünüdərkdən sonra mənbəyini, mənşəyini öyrənmək cəhdidir. Sonralar tarix elmi arif, kamil, müşahidəçi insanların keçdikləri, gördükləri, bildikləri zaman kəsiyinin yazı vasitəsilə nəsildən-nəsilə, əsirdən-əsirə ötürülmüş faktlar toplusu kimi özünü büruzə verib.

Bu fikirlər Azərbaycanın xüsusi xidmət orqanlarının tanınmış nümayəndələrindən biri, gözəl ziyalı, hörmətli el ağsaqqalı Bəxtiyar Süleymanlının qarşınızdakı "Əbədiyaşarlar" kitabının əlyazmasını oxuyanda ağlımdan keçdi. Bu kitabda toplanmış ayrı-ayrı xatirə-oçerklər, publisistik məqalələr müəllifin özünün şəxsən tanıdığı həyatı və xidməti təmasda olduğu görkəmli şəxsiyyətlər haqqında yazılmış memorial topludur. Xalqımızın ulu öndəri Heydər Əliyev başda olmaqla bu toplunun qəhrəmanlarının hər biri Azərbaycanımızın bütün nəsillərə örnək olacaq görkəmli simalarıdır. Və elin-elatın, millətin mədəniyyətinin, mənəviyyatının, elminin canlı daşıyıcılarıdır. Bir qismisə xalqımızın kişilik, mərdanəlik məktəbinin bünövrəsini qoyaraq qəhrəmanlıq salnaməsini yaradanlardır. Belə görkəmli vətən oğullarından bəhs edən bu kitab ona görə diqqəti cəlb edir, maraqla oxunur ki, hadisələr müəllifin gözü önündə, özünün iştirakı ilə cərəyan edir. Müəllif dünya görmüş, müdrik insanların dilindən çıxan kəlamları ən incə detallarla və təfsilatı ilə yerli-yerində işlətdiyinə görə xatirələrinə bədii don geyindirib, daha da oxunaqlı edib. Burasını da qeyd edim ki, bu yazıların böyük əksəriyy-

əti müxtəlif dövlət və mətbuat orqanları tərəfindən ayrı-ayrı vaxtlarda sifariş edilib, qəzet səhifələrində çap olunmuşdur. Indi müəllif bu yazıları bir araya gətirərək bir kitabda toplum şəklində verməklə bir insan ömrünün ehtiva etdiyi dövrün tarixini yazıya gətirib. Kitabın oxunaqlı olamsının ikinci əsas səbəbi də budur ki, müəllifin qəhrəmanları ayrı-ayrı sahənin, sənətin adamlarıdır. Ayrı-ayrı yaşam tərzi, dünya baxışı olan bu tanınmış şəxsiyyət sahiblərinin müəlliflə — Bəxtiyar Süleymanlı ilə həyatı bağlılığı müxtəlif formalarda təzahür edir.

Qeyd etdiyimiz kimi kitabda toplanan xatirələr müxtəlif vaxtlarda, ayrı-ayrı şəxslərə həsr edildiyindən məqalənin məzmununa, hadisələrin dinamik inkişafının düzgün qurulmasına, məğzinin açılmasına rəğmən müəllifin özünün xidməti işlərinin zaman və məkan göstəriciləri təkrarlanıbdır. Bunları nəzərə alıb, xatirə-oçerklərin məzmununa xəsarət yetirməkdən ehtiyatlanaraq həmin təkrarları olduğu kimi verməyi lazım bildik.

Bəxtiyar Süleymanlının "Əbədiyaşarlar" kitabı xalqın önündə gedən, onun şərəfinin daşıyıcılarına çevrilən, əməli gələcək nəsillərə nümunə olan insanların həyatının təsfiri və tərənnümü olduğu üçün çox önəmlidir. Bu kitab təkcə bir canlı müşahidəçinin və onun əhatə dairəsinin könül xoşluğu deyil, şəcərə söhbəti deyil real faktlar üzərində qurulmuş bir tarix əsəridir. Ona görə də bu kitabın yeni tariximizi yazan alimlər və geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılanacağına tam əminik. Bu kitabın qəhrəmanlarına Ulu Tanrıdan rəhmət, Bəxtiyar müəllimə isə can sağlığı diləyirik.

*Rəfail İNCƏYURD*



# Dövlət, partiya və hərbçi xadimlər

# DÖVLƏTÇİLİK MEMARI VƏ İDARƏETMƏ USTADI ULU ÖNDƏR

Heydər Əliyev kimi böyük bir şəxsiyyətin fəaliyyəti, onun dövlət başçısı kimi qeyri-adi idarəetmə məharəti, müqayisə olunmaz dərəcədə sinədəftər natiqliyi və digər ali dəyərləri barədə fundamental əsərlər külliyatlarında, dövri mətbuatda çox yazılıb. Heç şübhə yoxdur ki, belə bir nadir istedad sahibinin həyat və fəaliyyəti tarixçi alimlərimiz, elm adamları, qurub-yaratmaq arzusunda olan bütün insanlar üçün uzun illər tədqiqat obyekti, gələcək nəsil üçün örnək olacaq.

Ümummilli liderimizlə uzun illər xidməti təmasda olmuş, həyata keçirdiyi bir çox tədbirlərin iştirakçısı olmaq səadətinə nəsib olmuş, tabeçiliyində olanlara həm tələbkarlıq, həm də qayğıkeşliyinin canlı şahidi olan bir insan kimi onun barəsində bəzi xatirələrimi qələmə almağı özümə borc bilirəm.

SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin (DTN) Azərbaycan Dəmiryolu idarəsi üzrə 1952-ci ilin iyununda xidmətə başlamışam. Bütün SSRİ məkanında olduğu kimi, bizim idarəmiz də Moskvanın tabeçiliyində idi. Məhz buna görə bizim respublikanın Xüsusi Xidmət orqanları ilə birbaşa xidməti əlaqəmiz olmurdu. Doğrudur, keçirdiyimiz tədbirləri əlaqələndirirdik, amma tabeçiliyimiz birbaşa Moskvaya idi.

1953-cü ilin yanvarında Culfa stansiyasındakı bölmədə xidmətə başladım və 5 ilə yaxın burada çalışdım. Həmin illərdə Heydər Əliyev haqqında naxçıvanlı dostlarımdan, həmkarlarımdan eşitmişdim ki, o, Bakıda nazirlik aparatında rəhbər vəzifədə çalışır. Onunla ilk görüşümü xatırlayıram. 1955-ci ilin



payızında Bakıda ezamiyyətdə idim. Bakı-Yerevan qatarı ilə Culfaya qayıdarkən vaqona daxil oldum və dəhlizdə Culfa RPK-nın 1-ci katibi, yaxın dostum, əslən Naxçıvanın Xıncab kəndindən olan Kamil Məmmədovu gördüm. O, bir nəfər tanımadığım adamla söhbət edirdi. Mən Kamil müəllimlə salamlaşdım. O, söhbət etdiyi adamı təqdim edərək dedi:

— Bəxtiyar, yoldaş Əliyevi tanımırsan? Sizin nazirliyinizdə rəhbər vəzifədə işləyir.

Kamil müəllim məni Heydər Əliyevə DTK-nın Culfa şöbəsinin baş əməliyyat müvəkkili və partiya təşkilatı katibi kimi təqdim etdi. Heydər Əliyev mənim harada, nə vaxtdan işlədiyimi, hansı vəzifədə olduğumu və haralarda xidmət keçirdiyimi soruşdu.

Sonralar uzun illər silahdaşı olduğum Heydər Əliyevlə ilk tanışlığım bu vaxtdan başlandı. 1959-cu ilə kimi Heydər Əliyevlə mənim görüşüm çox təsadüfi hallarda olurdu. Səbəbi isə yuxarıda qeyd etdiyim kimi, nəqliyyat və ərazi DTK orqanlarının başqa strukturlar olması idi. Nəhayət bu orqanlar 1959-cu ildə birləşdirildi.

1958-ci ildə Aleksandr Şelepin SSRİ DTK-nın rəhbərliyinə gələndən sonra bu orqanın əməliyyat işlərinin təkmilləşdirilməsi məqsədi ilə məşhur bir əmr imzaladı. Həmin əmrin respublikanın rayon və şəhər orqanlarında müzakirəsi təşkil olundu. Mənim xidmət etdiyim Zəngilan şöbəsi də daxil olmaqla, Cəbrayıl, Füzuli, Beyləqan (o vaxt Jdanov adlandırılırdı) və Imişli rayon şöbələrinin bütün əməkdaşlarının iştirakı ilə 1959-cu ilin iyun-iyul aylarında (ola bilsin ki, 1960-cı ilin həmin aylarında) Füzuli şəhərində müşavirə keçirildi.

Müşavirəni keçirmək üçün, respublika DTK-nın əkskəşfiyyat şöbəsinin rəisi və kollegiya üzvü kimi Heydər Əliyev təhkim olunmuşdu. Seminar-müşavirədə məqsəd yeni əmrdən irəli gələn məsələləri və onların həyata keçirilməsinin icra mexanizmini əməliyyat işçilərinə izah etmək və onun tələblərinə riayətin yollarını öyrətməkdən ibarət idi. Müşavirə-seminarın

gündəliyində duran məsələnin müzakirəsi ilə yanaşı, Heydər Əliyev öz zəngin xidməti təcrübəsindən ayrı-ayrı nümunələr, həyata keçirdiyi çox maraqlı əməliyyat tədbirləri barədə söhbət etdi və müşavirəni daha maraqlı və xüsusən gənclər üçün böyük maraq doğuran bir hadisəyə çevirdi. Bütün bunlarla yanaşı, respublikanın, mövcud əməliyyat şəraitini, müzakirə olunan əmrin həyata keçirilməsinin sərhəd rayonlarında böyük əhəmiyyət kəsb etməsini və bu barədə əməliyyat işlərinə nəzarətin daha da artırılması barədə öz təklif və tapşırıqlarını verməsi bu müşavirəni daha yaddaqalan etdi. Bu mövzuda söhbəti inkişaf etdirərək konkret misallarla izah etdi ki, repressiya illərində dünyagörüşü olmayan, lakin halal zəhmətilə yaşayan insanlar bəzən cinayətkar ünsürlərin təsiri altına düşərək, partiya və dövlət əleyhinə düşünülməmiş bir ifadə işlədirdilərsə, həmin adamlar ağır cəzaya, ən yaxşı halda isə uzaq Sibirə sürgünə göndərilirdilər. Bundan sonra isə fəaliyyətimizdə yeni ab-havanın gəldiyini söyləyərək dövlət, partiya əleyhinə praktiki düşmənçilik fəaliyyəti olmayıbsa, hər hansı bir vətəndaşı kiçik səhvlərini başa salmaqla faydalı əməyə qaytarmaq üçün barəsində profilaktik tədbirlər həyata keçirilməsinin zəruri olduğunu izah etdi. Eyni zamanda müzakirə olunan əmri DTK-nın fəaliyyətində yeni dövrün başlanması kimi qiymətləndirdi.

* * *

Aylar, illər bir-birini əvəz etdikcə Heydər Əlirza oğlu da vəzifə pillələrilə zirvəyə doğru irəliləyirdi. 1963-cü ildə şöbə rəisi vəzifəsindən DTK sədrinin 1-ci müavini vəzifəsinə təyin olundu. 1967-ci ilin iyununda isə, təxminən 38 ildən sonra (1930-cu ildən 1967-ci ilə kimi Azərbaycan SSR Dövlət Təhlükəsizlik orqanlarına başqa millətlərdən olanlar başçılıq edirdilər. B.S.) ilk dəfə olaraq milli kadr kimi Heydər Əliyev DTK-ya sədr təyin olundu. Eyni zamanda ona general-mayor ali hərbi rütbəsi verildi. Həmin il dekabrın 20-də SSRİ ÜFK-DTK-nın



50 illik yübileyi qeyd olunurdu. Bu peşə bayramı ilə əlaqədar respublika şəhər və rayon şöbə rəisləri də Bakıya dəvət olunmuşdular. Həmin gün ilk dəfə olaraq Heydər Əliyev DTK-nın kollegiya üzvləri ilə və bizimlə birlikdə xatirə şəkli çəkdirdi.

Böyük məmnuniyyət hissi ilə qeyd etməliyəm ki, Heydər Əliyevin Respublika DTK-nın rəhbərliyində olduğu bütün müddətdə keçirdiyi kollegiya iclasları, müşavirələr və digər tədbirlər hamısı maraqlı və yaddaqalandır. Ondan aldığımız tövsiyələr, məsləhətlər, xidmətini DTK-da davam etdirən əməkdaşlar üçün həmişə ibrət dərsi və böyük məktəb olmuşdur. Lakin 1969-cu il fevralın 2-də, onun Azərbaycan KP MK-nın 1-ci katibi seçilədək keçirdiyi sonuncu geniş kollegiya iclası barədə xüsuslilə qeyd etmək istərdim. Həmin iclasa mən də Zəngilan şöbəsinin rəisi olaraq dəvət olunmuşdum. Orada bizim şöbənin ünvanına deyilən yüksək fikirlər, demək olar ki, mənim də xidmətimdə dönüş nöqtəsi yaradan hadisə kimi yadda qaldı.

Əsas deyəcəyim məsələyə keçməzdən əvvəl bir haşiyəni qeyd etmək istərdim. Barəsində danışacağım kollegiyadan 40 ilə yaxın zaman keçməsinə baxmayaraq, həmin iclasın keçirildiyi ay və günü dəqiq xatırlayıram. Bütün həmkarlarım kimi, mənim üçün də çox əlamətdar olan bu iclasın keçirilməsi nədənsə xatirimdə 1968-ci il kimi qalmışdı. 2004-cü ildə şəhərdə keçirilən bir tədbirdə MTN-nın idarə rəisi, polkovnik, yaxın dostum Xəqani Bağırov və Ulu öndərimizin həyat və fəaliyyəti barədə yazılacaq çoxcildli kitabın müəllifi, yazıçı-publisist Elmira Axundova ilə birlikdə olduq. Orada, MTN rəhbərliyinin tövsiyəsi ilə Heydər Əliyevlə 1950-60-cı illərdə DTK-da rəhbər vəzifələrdə işləmiş veteranlardan Elmira xanıma müsahibə verəcəklərindən söz düşdü. Həmin veteranların biri kimi, bu ərəfədə Elmira xanımla mənim də bir neçə saatlıq bir görüşümüz olmuşdu. Xəqani müəllim eşidəndə ki, bizim yazıçı ilə bir daha görüşümüz və müsahibənin davamı gözlənilir, 1969-cu il 2 fevral tarixində, mənim də çıxış etdiyimi bir daha

xatırladaraq, Heydər Əliyevin keçirdiyi çox maraqlı kollegiya barədə deməyi unutmamağı təklif etdi. Mənim, "Kollegiya 1969 yox, 1968-ci ildə olub" deməyimə birmənalı və çox qısa cavab verdi: "... Əgər dediyimiz kollegiya iclası 68-ci ildə olsaydı, mən orada iştirak edə bilməzdim. Ən azı ona görə ki, mən həmin ilin sonunda DTK-da xidmətə başlamışam", — dedi. O, sözünü davam etdirərək əlavə etdi ki, DTK-da yenicə əməliyyat işinə başlamış əməkdaş kimi, ilk dəfəydi ki, geniş və çox maraqlı iclasda iştirak etdiyindən, orada deyilənlərin hamısı onun yaddaşına əbədi həkk olunub. Sonra isə o, bütün çıxış edənləri və digər yaddaqalan məqamları bir daha tam dəqiqliyi ilə mənə xatırlatdı.

İndi isə iclas barədə. Adıçəkilən geniş kollegiya iclası o zamanlar DTK-nın Dzerjinski adına klubun böyük iclas zalında keçirilirdi. Burada Moskvanın üç nəfər yüksək rütbəli məsul şəxsləri də iştirak edirdilər. İclas ötən 1968-ci ilin yekunlarına və cari ildə qarşıda duran əməliyyat tədbirlərinin həyata keçirilməsinin yollarına həsr olunmuşdu. Böyük məruzə ilə DTK-nın sədri, general-mayor Heydər Əliyevin çox maraqlı məruzəsi dinlənildi. Həmişə olduğu kimi, hesabat məruzəsində ətraflı təhlillə yanaşı, çatışmazlıqların tənqidinə də geniş yer verilmişdir. Mən də başqa rayon şöbə rəisləri kimi, tənqid olunacağımı istisna etmirdim. Amma, gözləmədiyim halda sədr məruzəsində bir neçə şöbələrlə birlikdə, Zəngilanın da ötən ildəki işini yüksək qiymətləndirdi. Bu barədə dediyinin yekunu kimi qeyd etdi ki, 2-ci əkskəşfiyyat şöbəsinin rəisi polkovnik Ə.Xalıqovun, DTK-nın mərkəzi aparatından soyadını unutduğum daha bir nəfər rəhbər həmkarımızın və təvazökarlıqdan uzaq olsa da, Ulu öndərimizin tarixə dönmüş qiymətli fikri kimi deməliyəm ki, Zəngilan şöbəsinin rəisi kimi bu sətrlərin müəllifinin adını çəkərək, hər üçümüzü tabeçiliyimizdə olan əməkdaşlar üçün nümunə kimi qiymətləndirdi.

DTK sədrinin məruzəsindən sonra ilk çıxış edən iki nəfər — sədrin kadrlar üzrə müavini polkovnik H.Səmədov və xarici



kəşviyyat şöbəsinin rəisi, polkovnik İ.Hüseynovun çıxışlarından da (onlara həmməruzəçilər də demək olar) Zəngilan şöbəsinin hesabat dövründəki işini müsbət qiymətləndirdilər.

Kollegiyanın işi bütün gün ərzində davam etdi. Mənim çıxışım nəzərdə tutulmamışdı. Lakin, nahar fasiləsinə çıxanda sədrin köməkçisi M.Eçkalov fasilədən sonra mənim çıxışa hazır olmağımı sədrin adından mənə tapşırdı. Belə də oldu. İclasın sonunda sədr rayonlardan gəlmiş rəislərdən qəbulda olmağı arzulayanları axşam saat 1900-dan sonra qəbul edəcəyini elan etdi. Mən də bu fürsətdən istifadə edərək qəbula yazıldım. Axşam mən onun qəbulunda olarkən ilk növbədə yaxşı xidmətə görə mənə təşəkkürünü bir daha bildirdi. Mən, də öz növbəmdə, sadə əməyimə yüksək qiymət verdiyinə görə onun qarşısında minnətdarlıq hissi ilə öz təşəkkürümü bildirdim. Sonra isə qəbula gəlməyimin səbəblərini ona məruzə etdim. İlk növbədə şöbənin maşınının köhnə olduğunu dedim. Həmin an təsərrüfat şöbəsinin rəisinə zəng edərək yeni alınmış maşınlardan birinin Zəngilana ayrılması göstərişini verdi. İkinci xahişim uzun illərdən bəri Zəngilanda tikmək istədiyim inzibati və yaşayış binasının smeta və layihəsi hazır olduğu və Zəngilanda podratçı tikinti təşkilatının olmadığını bildirərək, mənə köməklik göstərməsini ondan xahiş etdim. O, hökümət telefonu ilə Kənd Tikinti naziri mərhum Əhmədov Tofiq Cahangir oğluna zəng etdi və ətraflı danışandan sonra, o, həmin binanı yaxın müddətdə tikəcəyinə söz verdiyini bildirdi. Üçüncü xahişim, hələ 68-ci ildə onun qarşısında qaldırdığım məsələni xatırlatdım. Bir çox obyektiv və subyektiv səbəblərdən respublikanın başqa şəhər və rayonuna dəyişilməyimi bir daha xahiş etdim. Bu məqamda sədrin 1-ci müavini polkovnik Krasilnikov onun otağına daxil oldu. Bu zaman Heydər Əlirza oğlu özünə xas olan təbəssümlə Krasilnikova üzünü tutaraq dedi:

— Gəl, Vitali Sergeyeviç, yaxşı vaxtında gəlmisən. Bu Bəxtiyar Süleymanovun dediklərindən, qaldırdığı məsələlərdə mən məntiq görmürəm. Maşın istədi verdim. Zəngilanda inzi-

bati yaşayış binası tikmək istəyir, podratçı təşkilat tapmadığından məndən xahiş etdi və mən də Kənd Tikinti Nazirliyindən xahiş elədim, o da yaxın vaxtlarda tikəcəyinə söz verdi. Üçüncü xahişi isə Zəngilandan başqa rayona dəyişilməkdir. Bəxtiyarın bu məntiqsizliyinə siz necə baxırsınız?

Krasilnikov da eyni təbəssümlə belə cavab verdi:

— Heydər Əliyeviç, son qərar sizinki olacaq. Necə məsləhətdir, elə də olsun.

Son dərəcə mənim üçün yadda qalan bu xoş əhval-ruhiyyəli dialoqdan sonra onların söhbətlərinə mane olmamaq üçün durub çıxmaq istəyəndə, Heydər Əliyev məni saxladı və dedi:

— Get, ilin axırına kimi sənin başqa işə dəyişilməyin haqqında bir fikrə gələrik...

Beləliklə, mən onlarla xüdafizləşib, kabinetdən çıxdım.

Həmin il iyulun 12-14-də xarici kəşfiyyat şöbəsinin iki nəfər əməkdaşı Zəngilanda ezamiyyətdə oldular. Birlikdə, mən də qatılmaqla, onların həyata keçirməli olduqları tədbiri icra etdik və 14-də axşam sərnişin qatarı ilə Bakıya qayıtdıq. Bizi qarşılayan maşının sürücüsü Mixaylov gülə-gülə bizə dedi:

— Xəbəriniz var, Heydər Əliyeviç getdi.

Bizim üçün çox gözlənilməz bu xəbəri dəqiqləşdirmək üçün — "hara getdi?" — sualımıza o belə cavab verdi:

— Dünən, 14 iyulda, Mərkəzi Komitənin pleniumunda Heydər Əliyeviç Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1-ci katibi seçildi.

Əlbəttə, bu şad xəbər bizim üçün həm təəcüb, həm də sevinc ovqatı yaratdı. Beləliklə, həmin gün mərkəzi aparatda, demək olar ki, bütün kabinetlərdə əsasən Heydər Əliyevin respublika rəhbərliyinə getməsindən danışır, böyük hadisə kimi qiymətləndirir və sevinc hissi keçirirdilər. Eyni zamanda onun bizim bilavasitə rəhbərliyimizdən getdiyindən hamıda müəyyən məyusluq da hiss olunurdu. Mən də eyni hissləri yaşasam da, daxilən bu dəfə də başqa işə dəyişmək məsələmin unudulacağı qənatində qaldım.



Mən öz düşüncələrimlə Zəngilanda xidmətimi davam etdirməyimdə olum, həyatda baş verəcək hadisələr də öz axarı ilə davam etməkdə olsun...

1970-ci ilin yazında SSRI Ali Sovetinin Millətlər Sovetinə deputatlığa namizədliyi irəli sürülmüş DTK-nın sədri Vitali Krasilnikov Zəngilana gəldi. Məqsəd Qubadlı seçki dairəsinə daxil olan Zəngilan, Qubadlı və Laçın seçiciləri ilə onun seçkiqabağı görüşü idi. Hər üç rayonlarda keçirilən bu görüşlərdə deputatlığa namizədi müşayət etməli oldum. Görüşlər çox yüksək səviyyədə keçirildi. Qubadlı və Laçın səfərlərindən sonra yenə də Zəngilana qayıtdı. Həmin vaxt, yuxarıda göstərdiyim kimi, tikdirdiyim inzibati və yaşayış binasının son tamamlama işləri aparılırdı. O işlərin gedişindən razı qalaraq, şöbəyə gəldi və mənə — nə xahişin var, nə köməklik edə bilərəm? — suallarını verdi. Fürsətdən istifadə edərək 1969-cu il fevralın 2-də Heydər Əliyev yoldaşın qəbulunda olarkən başqa rayona dəyişilmək barədə mənə verdiyi sözü Krasilnikova xatırlatdım. O, məsələnin həmin ilin sonuna qədər müsbət həll olunacağına söz verdi. Nəhayət Mingəçevir rayonlararası şöbəyə rəis təsdiq olunmaq üçün 12 noyabrda keçiriləcək Mərkəzi Komitənn bürosuna dəvət olundum. Qəbul olunmuş qaydaya görə, həmin günün birinci yarısı təsdiq olunacaq kadrları MK-nın 1-ci katibi Heydər Əliyev tək qəbul edir, bu söhbətdən sonra isə büronun təsdiqinə dəvət olunurduq. Mənimlə söhbət aparanda uzun illər tabeçiliyində olduğum kadrı kimi, söhbətimiz uzun çəkmədi. İlk növbədə Zəngilanın əhalisinin güzəranı, rayonun zəhmətkeşlərinin məşğuliyyəti ilə və ümumiyyətlə, rayondakı vəziyyətlə maraqlandı. Sonra Zəngilanın əməliyyat şəraitinin bütün dəqiqliyi ilə qısa şərh edərək, bu rayonun da yerləşdiyi yerin coğrafi mövqeyinə görə strateji cəhətini qeyd etdi. Ötən illərdə, hələ onun DTK-ya sədrlik etdiyi vaxtlarda Zəngilandan dəyişilməyim barədə ona müraciətlərimi xatırladı. Söhbət əsnasında yeni gedəcəyim Mingəçevir şəhər şöbəsinin xidmət dairəsinə daxil olan şəhər və rayonların

iqtisadi, siyasi, əhalinin etnik quruplarının çox olması və nəhayət bəzi rayonların kriminagen durumlarına aydınlıq gətirdi. Söhbətinin sonunda məni, xidmət ərazisinin ən böyük olan şəhər şöbəsinə göndərilməyim münasibətilə təbrik etdi, göstərilən etimadı doğruldacağıma əminliyini bildirdi. Beləliklə, mən 1971-ci ilin yanvarında Mingəçevir şöbəsini qəbul etdim.

Azərbaycan SSR DTK-nın yerli orqanları içərisində, istər xidmət ərazisinə daxil olan rayon və şəhərlərin çoxluğuna, istərsə də mövcud əməliyyat şəraitinin mürəkkəbliyinə görə, ikinci böyük cayılan Mingəçevir şəbəsində işlədiyim dövrdə cənab Heydər Əliyevlə görüşlərimiz daha intensiv olurdu. Belə ki, o, ildə bir neçə dəfə respublikanın Şirvan və Qarabağ bölgələrinə səfərlər edərdi. Bunun üçün Bakıdan xüsusi qatarla xidmət ərazimizə daxil olan Yevlağa gələrdi. Oradan özü seçdiyi rayona, respublikanın başqa rəhbər işçilərini isə ətraf rayonların, əsasən pambıqçılıq və kənd təsərrüfatının digər sahələrinin işləri ilə tanış olmaq və lazımlı köməklik göstərmək üçün göndərərdi. Sonda təyin etdiyi rayon mərkəzində müşahidə olunan müsbət və mənfi cəhətləri ətraflı müzakirə edərdi.

Əlbəttə, mən və DTK-da uzun illər xidmətdə olan həmkarlarım Heydər Əliyevin bu orqanların rəhbərliyində olduğu illərdə necə təşkilatçılıq və idarəetmə məharətinə malik olmasına yaxşı bələd olmuşduq. Etiraf edim ki, mən onun respublikanın rəhbərliyinə gəldiyi vaxtdan keçən qısa müddət ərzində xalq təsərrüfatının bütün sahələrini, o cümlədən heç vaxt işləmədiyi kənd təsərrüfatı sahəsinin bütün incəliklərini bu qədər dəqiq öyrənməsini təsəvvürümə gətirə bilməzdim. Lakin, onun bölgələrdə olduğu vaxt gözümüz önündə apardığı təşkilatçılıq işlərini, hər sahənin rəhbərləri və mütəxəssisləri ilə peşəkarcasına söhbət aparmasını, yüksək tələbkarlıq göstərməsini, lazımı səviyyədə müsbət nəticələrə nail olmasını görəndə, açığını deyim ki, heyrətlənməmək mümkün deyildi. Onun bir daha hərtərəfli, ən yüksək səviyyəli rəhbər, unikal şəxsiyyət olmasının şahidi olduq.



Respublika rəhbərinin DTK-nın Mingəçevir şöbəsinin xidmət ərazisinə daxil olan Qarabağ və Şirvan bölgələrindəki pambıqçılıq rayonlarına hər ildə bir neçə dəfə gəlməsi adi hal idi. Bizim şöbənin əməkdaşları da Bakıdan gələn həmkarlarımızla birlikdə öhdəmizə düşən təhlükəsizlik və başqa xidməti borcumuzu yerinə yetirirdik. Belə tədbirlərin hər biri barədə ətraflı söz açmağa ehtiyac yoxdur.

Bəzən elə hallar olurdu ki, bizim şöbənin xidmət ərazisinə daxil olmayan bölgələrdə Heydər Əliyev tərəfindən həyata keçirilən tədbirlərə qatılmağım barədə Bakıdan göstəriş alırdım. Bu tədbirlərdən mahiyyətinə görə yaddaqalan ikisi, o cümlədən 1979-cu ilin yanvarında Dağlıq Qarabağ Muxtar Vilayətinə (DQMV-ə), həmin ilin sentyabrında isə Bərdə rayonuna olan səfərlər barədə qeyd etmək istəyirəm.

Ulu öndərin DQMV-nə tarixi səfərinin şərhindən öncə bir məqamı qeyd etməyi lazımlı sayıram.

Məlum olduğu kimi respublikamızın bu dilbər guşəsində 160 il öncə (1828-ci ildən sonra) məskunlaşmış ermənilər bütün sovetlər dövründə vaxtaşırı İrəvan və Moskvada yaşayan erməni siyasətbazlarının təhriki ilə guya Azərbaycan rəhbərliyi tərəfindən onlara ögey münasibət, sosial ədalətsizlik və başqa böhtanlarla Ermənistanla birləşmək tələbi irəli sürüblər. Hər dəfə də onların uydurulmuş iddiaları əsassız sayılaraq, rədd edilib. Bu bəhanələrə əsas verməmək üçün bütün dövrlərdə respublika rəhbərliyi bu bölgənin hərtərəfli inkişafına diqqət yetirib. Heydər Əliyev respublika rəhbərliyində olduğu 1969-82-ci illərdə vilayətə qayğı daha geniş vüsət alıb. Burada yaşayan bütün əhali üçün yeni iş yerlərinin açılması, rifahının daha da yaxşılaşdırılması məqsədilə 14 ildə həyata keçirilən məqsədyönlü tədbirlər DQMV-nin həmin dövrə qədər mövcud olduğu yarım əsrə qədər müddətdə görülmüş bütün işləri müqayisə olunmaz dərəcədə geridə qoydu. Vilayətdə yeni fabrik-zavodların, emal müəssisələrinin yaradılmasını, kənd təsərrüfatının inkişafını, bölgənin tam elektrikləşdirilməsini, qazlaşdırılması-

nı, Xankəndində yeni pedaqoji institut və texnikumların açılması və başqa işləri sadalamaqla qurtarmaz.

Ulu öndərimizin bu vilayət üçün həyata keçirdiyi xalq təsərrüfatının bütün sahələri ilə yanaşı strateji əhəmiyyətli unikal layihə kimi Xankəndinə dəmir yolunun çəkilməsini xüsusilə qeyd etmək lazımdır.

1979-cu il yanvarın 11-də DTK sədrinin 1-ci müavini general-mayor Ziya Yusifzadə Bakıdan telefonla mənə Heydər Əliyevin Yevlağa gəlməsi və oradan da Xankəndinə getməsilə əlaqədar müvafiq göstərişlər verdi. Eyni zamanda həmin gün axşam onu və DİN-nin 1-ci müavini general-mayor Vasiliy Vısoçenkonu Yevlaxda qarşılamağımı, sabahısı onlarla birlikdə respublika rəhbərini bu səfərdə müşayət etməyə hazır olmağımı tapşırdı. Eyni zamanda Z.Yusifzadə Xankəndinə edilən bu səfərin məqsədini də mənə bildirdi.

Beləliklə, yanvarın 12-də səhər tezdən hər üçümüz, Yevlax şəhər partiya komitəsinin 1-ci katibi E.Tağıyevlə birlikdə xüsusi qatarla gələn AKP MK-nın 1-ci katibi Heydər Əliyevi qarşıladıq. Z.Yusifzadə və V.Vısoçenko ilə bir neçə dəqiqə söhbətindən sonra Xankəndinə yola düşdük.

(**Bir haşiyə:** Azərbaycanın Dövlət Təhlükəsizlik orqanlarinin 84-cü ildönümü münasibətilə, bu orqanların veteranı kimi, mənim geniş müsahibəm "Azərbaycan" qəzetinin 28 mart 2003-cü il tarixli sayında dərc olunmuşdu. "Xalqa hər zaman xidmət etmək mümkündür" başlıqlı bu yazıda respublika rəhbəri Heydər Əliyevin Xankəndinə etdiyi bu səfərini 12.01.1979-cu il tarixi əvəzinə, "1977-ci ilin dekabrı" kimi göstərmişəm. Yol verdiyim bu texniki səhvə görə qəzet redaksiyası rəhbərliyindən və oxuculardan üzr istəyirəm. B.S.).

Həmin gün tək Xankəndinin yox, Muxtar Vilayətin başqa rayonlarının nümayəndələrinin də iştirakı ilə izdihamlı şəraitdə Ağdam-Xankəndi dəmir yolu xəttinin təntənəli açılışı tədbiri həyata keçirildi.

Respublika rəhbəri Heydər Əliyevin mərasim iştirakçıları-



nın dəfələrlə alqışlarla qarşılanan böyük nitqi dinlənildi. O, bildirdi ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki bütün idarə və müəssisələri, eləcə də əhalisi bütün yüklərini indiyə kimi Ağdam, Yevlax və Horadiz dəmir yol stansiyalarından daşıyırdılar. Bundan sonra heç bir əziyyət çəkmədən həmin yükləri öz qapılarında — Xankəndində alacaqlar. Eyni zamanda bildirdi ki, buranın əhalisi bu gündən başlayaraq Bakı-Xankəndi və Xankəndi-Bakı marşrutu ilə işləyən sərnişin qatarlarından rahat istifadə edəcəklər. Bu qatara qoşulan əlavə Xankəndi-Moskva sərnişin vaqonlarında bu marşrutda yerləşən bütün şəhərlərə gedib-gələ biləcəklər.

Heydər Əliyevin nitqinin sonunda dediyi ürəkaçan sözlər və bu münasibətlə DQMV əhalisinə ünvaladığı təbrik toplaşanlar tərəfindən sakitləşmək bilməyən alqışlarla qarşılandı. Respublika rəhbəri nitqindən sonra rəmzi qırmızı lenti kəsdi və ilk qatar Xankəndi stansiyasına daxil oldu. Mərasim qurtarandan sonra minlərlə iştirakçılar sanki hamısı bir nəfər kimi Heydər Əliyevi maşına kimi müşayət etməyə axışdı. Yerli ermənilərin az qala onu maşını ilə birlikdə çiyinlərində aparmaq cəhdlərini sezmək çətin deyildi...

Bu tədbir qurtarandan sonra vilayət partiya və sovet orqanları rəhbərləri ilə birlikdə Heydər Əliyevin Şuşa şəhərinə səfərini müşayət etdik.

Şuşa RPK-nın 1-ci katibi Əhəd Kərimov respublika rəhbərinə rayonda görülmüş və görüləcək işlər barədə qısa məruzə edib, şəhərin bəzi yerlərinə baxmağa dəvət etdi. Respublika rəhbəri Şuşa mədəniyyət evi qarşısında dayanaraq DQMV və şəhər partiya-sovet rəhbərləri ilə təxminən yarım saata kimi söhbət apardı. Şəhərin abadlaşdırılması, bəzi tikinri işlərini, o cümlədən görkəmli Azərbaycan şairi M.P.Vaqif məqbərəsilə bağlı tapşırıqlar verdi. Tövsiyələrinin sonunda bu şəhərin Azərbaycan klassik musiqi mədəniyyətinin konservatoriyası olması, habelə başqa ölkə və SSRİ respublikalarından gələn turizm marşrutuna daxil olmasını xatırladaraq, konkret tapşı-

6563

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi PREZİDENT KİTABXANASI

rıqlar verdi. Ancaq nə etməli ki, xeyirxah niyyətlər məqsədi ilə tikilmiş dəmir yolu xəttinin respublika rəhbəri Heydər Əliyev tərəfindən açılışı zamanı sevincdən timsahsayağı gözyaşı tökən ermənilər bütün bunları çox tez unutdular. Bir neçə ildən sonra Dağlıq Qarabağ ətrafında başlanan məlum münaqişənin ilk günlərindən Xankəndinin küçələrində mitinqə toplaşaraq "birləşmək, birləşmək", yəni vilayəti Azərbaycandan ayırıb, Ermənistana birləşdirmək tələbilə ayağa qalxdılar. Bu azmış kimi, muxtar vilayətin əhalisinin güzaranının yaxşılaşdırılmasına xidmət üçün Xankəndinə çəkilmiş dəmir yolu ilə Azərbaycanın bu bölgəsində yaşayan əhalisinə, dövlət müəssisə və təşkilatlarına daşınan ərzaq, tikinti materialları və digər həyat üçün zəruri yüklərin arasında gizlədilmiş külli miqdarda silah və sursat aşkar edilirdi. Söz yox ki, bu təhlükəli "yüklər" torpağında yaşadığı və çörəyini yediyi azərbaycanlılara qarşı yönəltmək üçün idi... Ermənilərin bu cinayətkar əməlləri onların xarakterlərinə uyğun gələn riyakarlıq, nankorluq, nəhayət çıxdıqları ağacda oturduqları budağı kəsmək kimi əsl erməni xislətidir.

Yaxşı demişlər ki, haqsızlıq və şər iş müvəqqəti ayaq tutsa da, uzaq gedə bilməz. İndi ermənilər özləri də başa düşüblər ki, hansısa havadarlarının köməyi ilə törətdikləri vəhşiliklər özlərinin əleyhinə işləyir, Azərbaycanın haqq işi isə dünya ictimayyəti tərəfindən müdafiə olunur. Yaxın gələcəkdə ərazi bütövlüyümüzün bərpası heç kəsdə şübhə doğurmur.

* * *

Xalqımız yaxşı xatırlayır ki, ulu öndər Heydər Əliyevin respublika rəhbərliyində olduğu ilk 10 il müddətində ittifaqda heç bir respublikanın əldə edə bilmədiyi nailiyyətlərə nail olmuşdu. Ona görə də Azərbaycanın xalq təsərrüfatının bütün sahələrində, o cümlədən neft sənayesi, kənd təsərrüfatının pambıqçılıq, üzümçülük, taxılçılıq, baramaçılıq, maldarlıq sahəsində respublika tarixində misli görünməmiş nailiyyətlərə



görə SSRİ Ali Sovetinin fərmanı ilə o, Sosialist Əməyi Qəhrəmanı kimi ölkənin ən yüksək fəxri adına layiq görülmüşdü. Həmin mükafat 1979-cu il, sentyabrın əvvəllərində Moskvada siyasi büronun bütün üzv və üzvlüyə namizədləri, ölkənin digər rəhbərlərinin iştirakı ilə təntənəli mərasimdə ona təqdim olunmuşdur. Bütün bunları biz mərkəzi və respublika televiziyası ilə izləmişdik. Mən həmin günlərdə məzuniyyətdə olduğum üçün Bakıdakı mənzilimdə idim. Sentyabrın 9-da respublika DTK-nın sədr müavini general-mayor Bahadır Hüseynov mənə zəng vurdu. — "Nə ilə məşğulsan?" -sualına, mən onun özü tərəfindən ayrılmış iki ədəd putyovka ilə Moskvaaltı "Kratovo" sanatoriyasına getmək üçün sabah, yəni ayın 10-da Moskvaya uçmağa hazırlaşdığımı bildirdim. Bahadır müəllim mənə təklif etdi ki, Moskvaya uçuşumu 2-3 gün müddətinə təxirə salım. Belə ki, Heydər Əliyev Moskvadan yenicə qayıdıb, ayın 10-da Yevlax və Bərdə rayonunda olmalıdır. Ona görə də mənə onunla həmin gün axşam Yevlaxda olmağı, sabahı gün xüsusi qatarla ora gələn respublika rəhbərini qarşılayıb həmin səfərdə onu müşayiət etməyi tapşırdı. Elə də oldu. Biz sentyabrın 10-da Bərdə və Yevlax rayonlarının birinci katibləri Rüstəm Səfərəliyev, Elman Tağıyev, respublikanın daxili işlər naziri general C.Vəliyey və Bakıdan gəlmiş digər rəhbər işçilər, elm və mədəniyyət xadimləri ilə birlikdə həmin qatarı qarşıladıq. Vağzalqabağı meydançada qısa müddət ərzində əziz qonaqla görüş, onun yüksək dövlət mükafatı alması münasibəti ilə təbrikdən sonra birbaşa Bərdə rayonuna yollandıq. İlk dayanacaq və görüş rayonun girəcəyindəki Güloğlular kəndindəki "Moskva" kolxozunun iqamətgahı qarşısındakı meydançada oldu. Burada toplanmış kənd əhalisindən və rayonun rəhbər işçilərindən ibarət 1500 nəfərdən artıq əhali respublikanın rəhbərini gurultulu alqışlarla qarşıladı. Əmək adamları Heyder Əliyevin döşündəki "Qızıl ulduz"un parıltısını görəndə sevinclərinin həddi-hüdudu olmadı.

Onun ünvanına ürəklərindən gələn bütün xoş sözləri dedilər

və daha böyük uğurlar, cansağlığı arzuladılar. Heydər Əliyev burada qısa bir nitq söylədi və onun əsas məzmunu bundan ibarət oldu ki, ona verilən bu yüksək mükafatı tək onun əməyinə görə yox, onu həm də respublikanın bütün namuslu və vicdanlı zəhmət adamlarının, o cümlədən ən qabaqcıl rayonlardan biri olan Bərdə rayon zəhmətkeşlərinin əməyinə verilən yüksək qiymət kimi dəyərləndirdi. Oradan birbaşa rayonun Qaradəmirçi kəndindəki "Kommunizm" kolxozunun ərazisinə, daha doğrusu yenicə adı dillər əzbəri olmağa başlamış gənc mexanizator Tərlan Musayevanın sahəsinə gəldik. Biz ora çatanda, artıq 1970-ci illərin ortalarında özünə mərhum pambıq ustası, Sosialist Əməyi Qəhrəmanı Sevil Qazıyevanın peşə yolunu seçmiş bir qədər utancaq, bir qədər də çəlimsiz görünən Tərlan xanım "mavi köhləninin" (pambıqyığan maşının) yanında start vəziyyətində dayanmışdı. Respublika rəhbəri bu qızla mehriban görüşdü, onun başına sığal çəkdi, işlərini soruşdu və sonra: — Buyur maşınını işə sal, düş yola,-dedi. Tərlan xanım ox kimi sıçrayaraq sükan arxasına keçdi, ağ örpəyə bürünmüş, dənizi xatırladan pambıq tarlası ilə irəli tərpəndi. Gözdən itənə qədər və ucu-bucağı görunməyən tarlanın o biri başına çatana qədər o, bir dəfə bunkerini "ağ qızılla" doldurub, onu müşayət edən yük maşınına boşaltdı və işinə davam elədi. Biz hamımız Tərlan xanımın start nöqtəsinə qayıdıb gəlməsini gözləyərkən, sükutu Bakıdan respublika rəhbərini müşayət edənlərlə gəlmiş xalq şairi Nəbi Xəzri pozdu. O, Heydər Əliyevin icazəsi ilə yenicə yazdığı və ona həsr etdiyi "Qəhrəmanlıq nəğməsi" şeirini oxumağa başladı:

*Zəhmət də uludur, zəfər də ulu,*
*Eşidin qəlbimin qürur səsini.*
*Qəhrəman yurdumun qəhrəman oğlu*
*Yazdı qəhrəmanlıq salnaməsini...*

*Elə təzələndi söz də, nəğmə də,*
*Elə təzələndi dağım, aranım!..*



*Ömrümüz üstünə on il gəlsə də*
*Yüz il cavanlaşdı Azərbaycanım.*

*Xalqın arzusudur onun arzusu.*
*Xalqını ucaldıb özü ucaldı.*
*Parlaq rəşadətin — parlaq ulduzu*
*Parlaq bir ürəkdən nurunu aldı.*

*Xoş xəbər gör necə xoş günə düşdü.*
*Çoxdan gözləyirdim bu günü, çoxdan.*
*Ömrüm qəhrəmanlıq dövrünə düşdü*
*Rəhbərim qəhrəman, xalqım qəhrəman!*

*Elə qanadlanır göylərə şerim,*
*Sözünü mehriban-mehriban deyir!*
*Var olsun mərd əsrim, qəhrəman əsrim,*
*Əsl qəhrəmana — qəhrəman deyir!*

Dərin məzmunlu, hamımızın ürəyincə olan bu şeiri müəllif özünəxas olan yüksək pafosla oxudu və biz alqışlarla qarşıladıq. Rəhbər Nəbi müəllimi bağrına basaraq onun əməyinə verilən yüksək qiymətə görə ona öz təşəkkürünü bildirdi.

Söylədiyim kimi, biz xoş əhval-ruhiyyədə olduğumuz bu məqamda Tərlan xanım tarlanın o biri başından geri qayıdıb, ikinci dəfə maşının bunkerini "ağ qızıl"la dolduraraq bizim yanımızda dayandı. Bu rəşadətli əmək öncülü gənc qız gözlərində və çöhrəsində sevinc parıltısı ilə rəhbərin yaxınına gəldi. O, sanki respublika rəhbərinə rəşadətli əməyilə raport verirdi. Respublika rəhbəri bu hərəkəti belə də qəbul etdi. Beləliklə, Heydər Əliyev bu utancaq qızı öz doğma balası kimi bağrına basaraq, onun əməyinə yüksək qiymət verdi, gələcək işində və şəxsi həyatında uğurlar dilədi. Bu unudulmaz görüşdən sonra Heydər Əliyev onu müşayət edən şəxslərlə rayonun digər sahələrində və sənaye obyektlərində oldu. İşlərlə tanış olandan so-

nra müvafiq göstərişlərini verdi və beləliklə, həmin iş günü qurtardı. Nəhayət, həm Bərdə rayonundakı, həm də ətraf rayonlardakı vəziyyət rayonun mərkəzində keçirilən geniş müşavirədə müzakirə edildi. Nəbi müəllim oxuduğu şeiri raykomda üç nüsxə çap etdirdi. Birini özünə saxladı, birini rayon qəzetinin redaktoru Inqilab Əliyevə nəşr etdirmək üçün verdi. Üçuncü nüsxəni isə mənə bağışladı, görüşdən yadigar kimi bu gün də mən onu öz arxivimdə saxlayıram.

Beləliklə, 10 sentyabr Heydər Əliyevin Bərdə rayonu ərazisində 14 saatdan artıq çəkən gərgin, həm də demək olar ki, istirahətsiz iş günü başa çatdı.

Həmin gün biz onu Bakıya yola salmaq üçün Yevlağa gələndə səhər qarşıladığımız kimi gümrah olduğunu gördük. Çünki adəti üzrə, xüsusilə kənd yerlərində zəhmət adamları ilə iş başında görüşməkdən o, həmişə böyük zövq alırdı. Bütün bu amillər ona yorğunluq yox, əksinə gümrahlıq gətirirdi. Ona görə də, bəlkə də kimlər üçünsə belə bir gərgin iş yorucu görünə bilər, amma Heydər Əliyev üçün yox, onun üçün adi iş günlərindən biri idi. Nəhayət, biz respublika rəhbərini Bakya yola salmaq üçün Yevlax dəmiryol stansiyasına kimi müşayət etdik, onu gətirən xüsusi qatarla, təxminən gecə yarısına yaxın Bakıya yola saldıq.

* * *

Ulu öndərin 1969-82-ci illərdə respubliknın hərtərəfli inkişafı üçün əldə etdiyi misli görünməmiş nailiyyətlər tək Azərbaycanda deyil, bütün SSRİ məkanında böyük əks-sədaya səbəb olmuşdu. Həmin dövrün KİV-də bu barədə ətraflı məlumatlar indiki orta və yaşlı nəslin yaxşı xatirində olduğu üçün, onların hamısının təfərrüatına varmaq istəməzdim. Lakin gözüm önündə baş verən və mənim də, həmin dövrlərdə, hərbiəməliyyat xidmətimlə yanaşı, rayon-şəhər partiya təşkilatları fəalı olaraq, respublika rəhbərinin həyata keçirdiyi bəzi tədbirlərin iştirakçısı kimi, yaddaqalan bəzi maraqlı məqamları



bir daha qürur hissilə qeyd etmək istəyirəm.

Bildiyimiz kimi, 1970-ci illərin əvvəllərinə kimi Azərbaycanda təsərrüfatın ən geridə qalan sahəsi kənd təsərrüfatı məhsullarının istehsalı idi. Xüsusilə ən acınacaqlısı üzümçülük və şərabçılıq idi. Bu gəlirli sahənin inkişaf etdirilməsi məsələsi Heydər Əliyevin diqqətini xüsusilə cəlb etdi. İlk növbədə bu sahənin görkəmli alimləri və başqa təcrübəli mütəxəssisləri ilə məsləhətləşmələr apararaq, hətta heç vaxt üzümçülük və şərabçılıqla məşğul olmayan rayonlar üçün də kontrol rəqəmlər müəyyən edilməsinə nail oldu.

Beləliklə, respublikanın imkanlarını hərtərəfli götür-qoy edərək, yaxın gələcəkdə respublikada üzüm istehsalının üç milyon tona çatdırılmasını kənd təsərrüfatı zəhmətkeşləri qarşısında öhdəçilik kimi qəbul edilməsinə nail olmuşdu. Yeri gəlmişkən bir məqamı da qeyd etmək lazımdır ki, bu nəhəng öhdəçiliyin reallığına inanmayanlar tək respublikamızda deyil, hətta onun kənarında da az olmamışdı. Onlardan SSRİ-də üzümçülük və şərabçılıq sənayesində öndə gedənlərdən birinin, Moldova Respublikası partiya təşkilatına 20 ildən artıq rəhbərlik etmiş görkəmli dövlət xadimi İvan Bodyulun etirafını deməyi lüzumlu sayıram.

1980-ci ildə Azərbaycanda Sovet hakimiyyətinin bərqərar olmasının 60 illik yubileyi ilə bağlı Bakıda, respublika səviyyəsində təntənəli mərasim keçirilirdi. Bu məqsədlə bütün Sovet Respublikalarının, eləcə də bəzi ölkə və vilayətlərin partiya təşkilatları rəhbərləri də bu tədbirlərə qatılmışdı. Adıçəkilən yubileylə bağlı keçirilən təntənəli iclasda İvan Bodyul çıxış edərək, Heydər Əliyevin Azərbaycanda üç milyon ton üzüm istehsalı barədə öhdəçiliyini eşidəndə, bu rəqəmin onun üçün də inandırıcı olmadığını qeyd etdi. Qeyd etdi ki, kənd təsərrüfatı sahəsində məhsul istehsalının əsas istiqaməti pambıqçılıq olan bir respublikada, qısa müddətdə bu nəhəng planın doldurulması onun özü üçün də real görünmürdü. Lakin, çox keçmədən respublikada üzüm istehsalının 2 milyon 200 min tona çatdırıl-

ması, burada şərabçılıq üzrə çoxsaylı emal müəssisələri şəbəkə-sinin yaradılmasını biləndən sonra Heydər Əliyevin nələrə qadir olmasını düzgün qiymətləndirilmədiyini və barəsində səhv etdiyini səmimi etiraf etməli oldu. O, çıxışını davam etdirərək Azərbaycan rəhbərinin çox yüksək təşkilatçılıq, idarəçilik respublika əməkçilərini səfərbər etmək məharətinə malik olan ən böyük şəxsiyyətlərdən biri kimi, onun qarşısında baş əydiyini və əldə olunan nailiyyətlərə görə onu və bütün Azərbaycan xalqını səmimi qəlbdən təbrik etdi.

Respublikada keçirilən yubiley tədbirlərindən təxminən il yarım sonra Azərbaycanda strateji kənd təsərrüfatı məhsulu sayılan pambıq istehsalı respublikanın 62 illik tarixində ilk dəfə olaraq bir milyon ton, üzüm istehsalı isə üç milyon tona çatdırıldı. Beləliklə, Heydər Əliyev fenomeni bir daha özünü göstərdi.

* * *

1982-ci il noyabrın 10-da Sov.İKP MK-nın Baş katibi L.Brejnyev vəfat etdi. İttifaq rəhbərinin dəfn mərasimində iştirak etmək üçün bütün respublikaların rəhbərləri, o cümlədən Heydər Əliyev də dəvət olunmuşdu. Həmin günlərdə Mərkəzi Komitənin növbədənkənar keçirilən plenumunda Sov.İKP MK-nın Baş katibi vəzifəsinə, uzun illər DTK-nə rəhbərlik etmiş, daha sonra Mərkəzi Komitənin katibi işləyən Yuri Andropov seçildi. Həmin plenumda Heydər Əliyevin Azərbaycan Respublikasında rəhbərlik etdiyi illərdə əldə etdiyi ən yüksək nailiyyətləri nəzərə alaraq, onun böyük rəhbərlikedici potensialının ölkə miqyasında daha geniş istifadə olunması məqsədilə, Y.Andropovun təklifilə o, MK-nın Siyasi Bürosunun üzvü seçilməklə, SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini kimi ən yüksək vəzifəyə təyin olundu. Bu hadisədən bir neçə gün sonra o, respublika ictimayətilə xüdafizləşmək üçün Bakıya gəldi. Dekabrın 3-də Dzerjinski adına klubda respublikanın bütün şəhər və rayonların rəhbərləri, təsərrüfat qabaqcılları toplaşa-



raq, xalqımızın böyük oğlunun belə yüksək vəzifəyə təyin olunması münasibətilə qürur hissi keçirməsi respublikada ümumxalq bayramı kimi yadda qaldı. Beləliklə, həmin gün Heydər Əliyev xalq qarşısında geniş çıxış edərək, əldə olunan nailiyyətlərin tək ona yox, bütün Azərbaycan xalqına mənsub olması və onun bu qədər yüksək vəzifəyə təyin olunmasını da Azərbaycan xalqının ona göstərdiyi böyük dəstək kimi qiymətləndirdi.

SSRİ kimi nəhəng dövlətin rəhbərliyində işlədiyi ilk 5 aydan sonra — 1983-cü ilin mayında Heydər Əliyev ittifaqın ən yüksək mükafatı olan Sosialist Əməyi Qəhrəmanı adına ikinci dəfə layiq görüldü. Zaman keçdikcə Heydər Əliyev də tutduğu bu yüksək vəzifədə uğurla böyük nailiyyətlər əldə edir, həm özünə, həm də mənsub olduğu Azərbaycana beynəlxalq aləmdə dünya şöhrəti gətirirdi...

1985-ci ilə kimi SSRİ rəhbərliyində baş verən dəyişikliklər hamıya məlum olduğu üçün bunları yenidən ətraflı təkrar etməyə ehtiyac duymuram. Ən böyük bəla onda idi ki, həmin il Sov.İKP MK-nın Baş katibi vəzifəsinə tək Azərbaycana deyil, SSRİ kimi qüdrətli bir dövlətə, onun xalqına bəlalar gətirən Mixayıl Qorbaçov seçildi. Belə bir səriştəsiz şəxsin SSRİ-nin ən yüksək postuna gəldiyi vaxt Heydər Əliyev SSRİ rəhbərliyində 3 ilə yaxın idi ki, fəaliyyətini uğurla davam etdirirdi. Onun tək SSRİ-də deyil, həm də beynəlxalq aləmdə günü-gündən artan nüfuzu nə Qorbaçovu, nə də onun ətrafında toplaşmış erməni və ermənipərəst qüvvələri rahat buraxmırdı. Eyni zamanda Qorbaçov Sov.İKP MK-nın Siyasi Bürosu üzvləri arasında Heydər Əliyevi gələcəkdə öz vəzifəsinə real namizəd kimi görürdü. O, (Qorbaçov) ittifaq rəhbərliyində olduğu ilk günlərdən başlayaraq yeritdiyi düşünülməmiş, bəzən də iflasa aparan siyasəti və məkrli addımları ilə özü yaradırdı. Ən rüsvayçı hadisə kimi tarixə düşən bir faktı, xüsusilə gənclərə çatdırmaq üçün bir daha qeyd etmək istəyirəm.

Uzun illər Qazaxstan SSR-na rəhbərlik etmiş, Sov.İKP Si-

yasi Bürosunun üzvü olmuş, görkəmli dövlət xadimi D.Kunayev 1985-ci ildə istefaya getməli oldu.. Onun yerinə SSRİ-da az tanınan Kolbin soyadlı başqa millətdən olan bir nəfərin namizədliyi Siyasi Büroda Qorbaçov tərəfindən irəli sürüldü. Bu təklifin müzakirəsi vaxtı Heydər Əliyev Qazaxstanda bu vəzifənin öhdəsindən gələ biləcək milli kadr potensialının mövcudluğunu nəzərə alaraq, Kolbinin ora rəhbər göndərilməsini məqsədə müvafiq olmadığını bildirdi. Təəssüf ki, səsvermədə siyasi büro üzvlərinin səsçoxluğu ilə Qorbçovun təklifi qəbul olundu. Beləliklə, Kolbin Qazaxstan KP MK-nın birinci katibi seçildi. Bu başıbəlalı rəhbərin seçildiyi vəzifədə təsadüfü olması və onun acı taleyini bilmək üçün bütün ittifaq məkanında çox gözləmək lazım gəlmədi. 1986-cı ildə Kolbinin əlehinə etirazlarını bildirmək üçün qazax xalqının nümayəndələri respublikanın o vaxtkı paytaxtı Alma-Atanın küçələrinə axışdı. Etirazçılarla hüquq-mühafizə orqanları nümayəndələri arasındakı qarşıdurma qan tökülməsilə nəticələndi. Respublikada yaranmış qeyri-sabitlik şəraitində Kolbin Qazaxstanı tərk etməli oldu. Bu hadisə Qorbaçovun irəli sürdüyü "yenidənqurma"sı yolunda ən uğursuz kadr siyasətinin ilk, həm də ölkədə böyük əks-sədaya səbəb olan nümunəsi oldu. Eyni zamanda o, (Qorbaçov) Heydər Əliyevlə müqayisəolunmaz dərəcədə zəif siyasətçi, səriştəsiz rəhbər olmasını dərk etmək zorunda qaldı.

Gözləmək olardı ki, SSRİ rəhbərliyinə təsadüfi gəlmiş ölkə başçısı Heydər Əliyevin qeyri-adi uzaqgörənliyindən, idarəçilik məharətindən, beynəlxalq səviyyəli siyasətçi olmasından ümumi işin xeyrinə səmərəli istifadə etsin. Çox təəssüf ki, o, başqa yol seçdi. Gələcək fəaliyyətində düşünülməmiş, ağılsız təkliflərinin həyata keçirilməsində Heydər Əliyev fenomeninin özünə böyük manеə ola biləcəyindən ehtiyatlanaraq, onun sovetlər birliyi rəhbərliyində tutduğu vəzifələrindən uzaqlaşdırılması yolunu seçdi və bu iyrənc niyyətinə 1987-ci ildə nail ola bildi... Həmin ildən başlayaraq Qorbaçov özü üçün yaratdığı "sərbəstlik" şəraitində başqa sovet respublikalarında da birinin ardınca qantökmələrlə nəticələnən tədbirlər həyata keçirməyə cəhd etdi ki, bunların da böyük əksəriyyəti faciələrlə nəticələndi. Bunları bilmək üçün 1987-91-ci illərdə Baltikyanı respublikalarda baş verən hadisələri, Gürcüstanda 9 aprel 1989-cu il qırğınını, Azərbaycanda 20 yanvar 1990-cı il faciəsini, Moldovada, Rusiyanın özündə aramsız qantökülmələrini xatırlamaq kifayətdir.

Bu sətirləri qələmə alarkən görkəmli kinorejissor Vaqif Mustafayevin Heydər Əliyevin həyat və fəaliyyətinə həsr etdiyi telefilmlərdən birinə — "İstoriya odnoy zavisti" ("Bir həsədin tarixi") seriyasına bir daha diqqətlə baxdım. Filmin bu seriyası, tamaşaçıların bildiyi kimi, Heydər Əliyevlə M.Qorbaçov münasibətinə həsr olunub. Bir daha xatırladım ki, 1970-ci ilin oktyabrında Azərbaycanın sovetləşməsinin 50 illik yubileyi böyük təntənə ilə qeyd olundu. Bu şənliklərdə SSRİ-nin rəhbəri Brejnyev və bütün müttəfiq respublikaların partiya rəhbərləri, eləcə də yaxın qonşularımız kimi, Şimali Qafqaz muxtariyyatları rəhbərləri də dəvət olunmuşdular. Sonuncular sirasında Stavropol ölkəsi partiya təşkilatının 1-ci katibi kimi Qorbaçov da iştirak edirdi. Ulu öndərlə onun ilk şəxsi tanışlıqları da həmin gündən başlamışdı. Filmdə deyildiyi kimi, onlar arasında isti münasibət yüksələn xətlə 1985-ci ilə kimi davam etmişdi. Bu illər arasında (1970-1985) SSRİ rəhbərliyində baş verən dəyişikliklər barəsində də geniş şərhə ehtiyac yoxdur. Qeyd etdiyim kimi, ən acınacaqlı dəyişiklik Qorbaçovun Sovetlər birliyinin rəhbərliyinə gəlməsi olmuşdu. Elə həmin ildən də bu təsadüfi rəhbərdə, Heydər Əliyevin öz ifadəsilə desək, ona qarşı qısqanclıq meyilləri baş qaldırmış, günü-gündən münasibətlər pisləşməyə doğru inkişaf etmişdi. Süni yaradılmış bu qeyrisağlam münasibət, heç bir əsas olmadan Heydər Əliyevin, guya səhhəti ilə bağlı 1987-ci ildə istefaya göndərilməsi ilə nəticələndi.

Özünün sərbəst hərəkəti üçün yaratdığı şəraitdən istifadə edən Qorbaçovun son dərəcə səriştəsizliyi ilə ölkədə milli qar-

şıdurmalara, cinayətkar separatizmə və bölgələrdə günahsız insan qırğınına yol açdı. Müstəqil respublikalar içərisində baş verən qeyri sabitliyin ən ağır nəticələri Azərbaycanda baş verdi. Bunları bir daha xatırlamaq üçün 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda sovet imperiya ordusu tərəfindən törədilən vəhşilikləri və XX əsrin ən amansız soyqırımı kimi respublikanın qan yaddaşından silinməyəcək Xocalı faciəsini xatırlamaq kifayətdir.

2003-cü ilin martında Milli Təhlükəsilik Nazirliyi əməkdaşlarının peşə bayramı ərəfəsində, nazirlik rəhbərliyinin təklifi ilə, orqanın veteranı kimi mənə "Azərbaycan" qəzetinə müsahibə vermək təklif olundu. Qəzetin 28 mart tarixli sayında "Xalqa hər zaman xidmət etmək mümkündür" başlığı ilə gedən yazıda DTO-da xidmətdə olduğum 1952-1987-ci illərdə, əsasən də sovetlər birliyinin süqutundan sonra ölkəmizdə baş verən bəzi hadisələrlə bağlı suallara cavab verdim. Respublikamızda baş verən hadisələr içərisində ən dəhşətliləri sayılan adları çəkilən hər iki faciələr barədə verilən sualı və ətraflı cavabımı oxuculara çatdırmaq istərdim:

— Sizcə, 1988-ci ildən başlanan Dağlıq Qarabağ münaqişəsinin, o cümlədən 1990-cı il yanvar qırğınının qarşısını almaq olardımı?

— Sualınıza mahiyyəti üzrə cavabdan əvvəl qeyd edim ki, Dağlıq Qarabağla bağlı münaqişə 1988-ci ildən yox, XIX əsrin sonlarından başlayaraq davam edir. Sovetlər birliyi illərində də dəfələrlə Azərbaycanın bu bölgəsini ələ keçirmək üçün ermənilər SSRİ rəhbərliyinə müraciət ediblər. Hər dəfə onların bu məkrli ərazi iddiaları əsassız olduğundan, tələbləri rədd edilib. Dağlıq Qarabağla bağlı zəncirvari fitnəkarlığın sonuncu 1988-ci il. Bu qanlı faciələrin başlanmasına heç bir əsas yox idi. Çox təəssüflər olsun ki, onlar baş verdi.

Adlarını çəkdiyimiz hər iki faciələrin, ümumiyyətlə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin qarşısının alınmamasının səbəbinə ən qısa cavab versəm, həmin hadisələrin törədildiyi illərdə cənab Heydər Əlievin Azərbaycanın və SSRİ-nin rəhbərliyində olmaması ucbatından baş verməsi kimi səciyyələndirərdim. Bu tam reallıqdır. Güman edirəm ki, oxucularda, xüsusilə gələcəyimiz olan gənclərdə tam təsəvvür yaratmaq üçün bu qanlı cinayətlərə aparan yollara bir qədər ətraflı nəzər salmaq lazımdır.

Məlum olduğu kimi, M.Qorbaçov SSRİ-nin rəhbəri olaraq, 1987-ci ilin noyabrında Fransaya rəsmi səfərə getdi. Onu müşayət edən nümayəndə heyətinə özünün baş məsləhətçisi Y.Şahnazaryan da daxil olmaqla, Kreml ətrafında dolaşan 13 nəfər erməni daxil edilmişdi. Qorbaçov Fransa rəsmiləri ilə danışıqlar apardığı vaxt ora gedən erməni alimi Aqanbekyan da Fransadakı erməni icması nümayəndələri ilə görüş keçirirdi. Fransalı ermənin Dağlıq Qarabağ barədə verdiyi sualını cavablandırarkən o, bildirmişdi ki, bu məsələnin lap yaxın vaxtlarda müsbət həll olunmasına Qorbaçov söz verib. Onun bu bəyanatı Parisdə çıxan Fransa kommunistlərinin orqanı "Humanite" qəzetinin həmin ilin 18 noyabr tarixli sayında dərc olunması, ermənistanda və Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni hərəkatına "start" işarəsi oldu.

Hadisələrin sonrakı gedişi göstərdi ki, Azərbaycanın bu dilbər güşəsinin Ermənistana birləşdirilməsinin ssenarisinin həmmüəllifi rolunda çıxış edən Qorbaçov bildirdi ki, əsirliyində olduğu ermənilərin bu iddiasını həyata keçirmək münbit şərait yarada biləcək şəxs, milli hislərdən xeyli uzaq olan köhnə dostu Ə.Vəzirov ola bilər. Məhz bu səbəbə görə də onu 1988-ci ildə Azərbaycana rəhbər göndərdi. Bu başa bəla rəhbər isə başımız üzərində görünən qara buludları qovmaq əvəzinə, ağılsız hərəkətləri ilə onu daha da qatılaşdırdı. Moskvadakı şefinə sədaqət andı içən bu "rəhbər"in əsas işi vaxtilə ona qayğı göstərmiş, rəhbər vəzifələrə irəli çəkilmiş Heydər Əliyevə qarşı mübarizə kompaniyası oldu. O, bu məqsədlə mərkəzi və yerli mətbuat səhifələrində ona qarşı irihəcmli şər və böhtanlarla dolu yazılara yol açdı. Əsas məqsədi isə Heydər Əliyevin 1969-

82-ci illlərdə Azərbaycan xalq təsərrüfatnın bütün sahələrində əldə etdiyi misli görünməmiş yüksək nailiyyətlərə qarayaxma və heçə endirməkdən ibarət idi. O, bu iyrənc yolla, kağız üzərində olsa da, istədiyinə qısa müddət üçün nail ola bildi...

Ə.Vəzirov belə bir dönüklük fəaliyyətinə başlamazdan əvvəl heç olmasa, Heydər Əliyevin SSRİ-nin rəhbərlərindən biri olanda, səfirlik etdiyi Nepaldan ona ünvanladığı təbrik məktubunu xatırlamalı idi. Həmin təbrikdə o, Azərbaycan rəhbərinin daha böyük vəzifəyə irəli çəkilməsinin Nepal və Hindistan mətbuatında geniş işıqlandırılmasını, çoxsaylı təbriklər olduğunu və sonsuz qürur hissi keçirdiyini bildirmişdi. Təəssüf ki, yaddaşı gödək olan bu insan həqiqəti unudaraq, başqa yol seçdi ki, nəticələri hamıya məlumdu.

Bir daha acı təəssüflə qeyd edək ki, sovetlər birliyinin birinci və sonuncu üzdəniraq prezidenti Qorbaçovun ağlasığmaz məntiqsiz siyasəti bu nəhəng ölkəni vətəndaş müharibəsi həddinə çatdırdı. Bütün bunlardan zinhara gəlmiş xalqlar onun idarə edə bilməyəcəyi bu birliyə "yox" demək üçün ayağa qalxdı. Azərbaycanda da xüsusi qəddarlıqla törədilmiş ədalətsizliyə etiraz səsini qaldırarq küçələrə axışan, azadlığa can atan əliyalın günahsız insanların üstünə zirehli texnika, ölümsaçan mərmilərlə silahlanmış çox böyük miqdarda sovet imperiyası hərbi kontingenti yeridildi.

Belə bir ağır gündə xalqın heç olmasa kədərinə şərik olmaq əvəzinə, öz təşəbbüsü ilə Bakıya və respublikanın digər bölgələrinə yeridilmiş faşist ordusu tərəfindən tökülən qanlar soyumamış Vəzirov elə həmin məşəqqətli Yanvar qırğını gecəsi respublikadan Moskvaya qaçdı... Onun heç vaxt görməyə cəsarəti çatmayacağı işi Ulu öndər Heydər Əliyev gördü. O, yanvarın 21-də, səhər tezdən həyatının təhlükə altında ola biləcəyini bilərəkdən Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəldi. Heydər Əliyev burada toplaşan soydaşlarımız qarşısında geniş çıxış edərək, sovet imperiyası rəhbərliyinin ünvanına, Bakıda törədilmiş faciəyə görə ciddi ittihamlar irəli sürdü. Eyni zamanda bu ağır gündə xalqımızı birliyə səsləyərək, şəhidlərə Allahdan rəhmət, doğmalarına səbr və yüzlərlə yaralananlara şəfa dilədi.



Xalqımızın qan yaddaşına əbədi yazılmış "Yanvar faciəsi" və ondan sonra baş verən hadisələr barədə ətraflı danışmağa ehtiyac yoxdur. Belə ki, xalqımızın indiki nəsli bu barədə yetərincə məlumatlıdır. Bir də ona görə ki, adları çəkilən hər iki faciələr də daxil olmaqla, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi, onun ətrafındakı daha yeddi rayonda cərəyan edən hadisələr təkcə keçmiş sovet məkanında deyil, bütün dünyanın KİV-ində əsas müzakirə mövzularından birinə çevrilib. Məlum səbəblərdən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi 20 ilə yaxındır ki, BMT başda olmaqla bütün nüfuzlu beynəlxalq təşkilatların və dövlətlərin siyasi müstəvisində baxılmaqdadır. Bu məsələnin ədalətli həllinə mane olan amillərdən ən əsası ermənistan rəhbərliyinin qeyri-konstruktiv mövqeyi artıq hamıya məlumdur. Eyni zamanda, bəzi ermənipərəst qüvvələrin işğalçı dövlət kimi hamı tərəfindən tanınan ermənistana münasibətdə rəsmi bəyanatları ilə "pərdəarxası" fəaliyyətlərinin üst-üstə düşməməsini də ciddi maneələrdən biri kimi nəzərdən qaçırmaq olmaz.

Nə etməli? Hələ ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ləngiyir, bu qanlı faciələri törətmiş, on minlərlə günahsız insanların şəhid olmasında, bir milyona kimi soydaşlarımızın qaçqın-köçkün taleyi yaşamasında, Qorbaçov başda olmaqla müqəssirlər cəzasızlıq ömürlərini yaşayırlar.

Döğrudur, Qorbaçov 1985-ci ildən sonra bütün ittifaq məkanında törətdiyi cinayətlərə görə öz xalqı və SSRİ rəhbərliyindəki həmkarları tərəfindən prezident vəzufəsindən çox rüsvayçılıqla qovuldu. Bunu bir daha xatırlamaq üçün "Foros, avqust-91" hadisələrini xatırlamaq kifayətdir. Bu hadisələrin qısa məzmunu belədir ki, Qorbaçov 1991-ci ilin avqustunda SSRİ-nin prezidenti kimi, Krımın Foros qəsəbəsinə istirahətə

yola salındı. Bir neçə gündən sonra onun dincəldiyi, Moskvanın yüksək elitası üçün olan "Zarya" sanatoriyasının bütün hökümət və yerli rabitə əlaqələri qapadılaraq, ölkə rəhbəri blokadaya salındı. Ölkədən və dünyadan təcrid olunmuş Qorbaçov, oradan Moskvaya "əff" fərmanı ilə azad olunmuş keçmiş məhbus qismində gətirildi. Bütün bunlar tam təfərrüatı ilə tək SSRİ-nin yox, bütün dünyanın telekanalları və digər KİV-də işıqlandırıldı. O vaxtlar mən oxuduğum qəzetlər içərisində, bu barədə ən dəqiq və kiçik detallarına kimi ətraflı məlumatları Moskvada nəşr olunan "İzvestiya" qəzetinin 1 oktyabr 1991-ci il sayında yazılmış "Foros, avqust-91" başlığı altında prezidentin köməkçisi "Anatoliy Çernyayevin gündəliyi"də oxudum. Həmin qəzetin sonrakı 11 və 24 dekabr 1991-ci il saylarında da bu hadisə barədə maraqlı yazılar dərc olunub. Bizim respublikada da az yazılmayıb. Ancaq çox səriştəsiz və yetərincə bacarıqsız ölkə rəhbəri kimi yaddaqalan Qorbaçovun mənsub olduğu millətin mediyasında, onun biabırçılığı, misgin həyatı barədə oxumaq daha maraqlıdır. Deyilmi?

Doğrudur, Qorbaçovun Azərbaycan xalqına qarşı törədilmiş erməni vandalizminə, ümummilli liderimiz Heydər Əliyev barəsində etdiyi ədalətsizliyinə və başqa çoxsaylı günahlarına görə başına gələn Faros hadisələrinin ağır nəticələri onun üçün müvafiq cəza sayıla bilməz. Bütün bunlarla yanaşı, dünyanın super dövlətlərindən birinin başçısı kimi, başqasına qazdığı quyuya özünün, həm də çox biabırçı formada düşməsi baş verdi. O, uzaqgörənlikdən məhrum "lider" kimi miskin olduğu qədər də taleyikəmlik aqibətinə layiq idi. Belə bir şərəfsiz həyəcanlı anlar yaşadı da...

* * *

Xalqımızın Ümummilli lideri Heydər Əliyevin istər dövlət təhlükəsizlik orqanlarında rəhbər vəzifələrdə işlədiyi, eləcə də Azərbaycana rəhbərlik etdiyi hər iki dövrə aid xatirələrimi onun anadan olmasının 85-ci ildönümü ərəfəsində qələmə alıb



tamamladım. Başqa daha 10 nəfərdən artıq görkəmli dövlət, elm və mədəniyyət xadimləri haqqında dövri mətbuatda və onların həyat və fəaliyyətinə həsr olunmuş xatirələr toplusu kitabına daxil etmək üçün yazılarımı da yenidən işləməli oldum. Bütün bu yazıları bir kitabda birləşdirmək üçün nəşriyyata təhvil verməyə hazırlaşırdım. Bu zaman məlum səbəbdən Bakıda məskunlaşan Zəngilan rayon İcra Hakimiyyəti başçısının müavini Eldar Eyvazov telefonla zəng vurdu və mənimlə görüşmək istədiyini bildirdi. Görüşün səbəbi kimi bildirdi ki, ulu öndər üçün Bakıda təşkil edəcəkləri muzey üçün materiallar toplayırlar. Belə bir təklif tövsiyə olunub ki, muzeydə toplanacaq digər eksponatlarla yanaşı, mərhum prezidentimizin Zəngilanlı silahdaşlarının qəzetlərdə dərc olunmuş xatirələri və onunla birlikdə olan şəkilləri də yerləşdirilsin. Bu səbəbdən də Eldar müəllim təklif etdi ki, məndə olan bu yönümlü materialları özümlə götürüm. Beləliklə, bir gün sonra bizim görüşümüz baş tutdu. Muzeyə vermək üçün apardığım qəzet və fotoşəkillərin üzünü çıxarıb qaytarmaq şərtilə onları da məndən götürdü.

Sonradan Eldar müəllim xahiş etdi ki, mərhum prezident Heydər Əliyev barədə bəzi xatirələrimi videoya yazmaq üçün müsahibə verim. Təbii ki, mən bu təklifə böyük məmnunuyyətlə razılıq verdim. E.Eyvazov prezident aparatından aldığı göstərişin icrası üçün getdiyindən, videokamera qarşısında müsahibəni "Zəngilanın səsi" qəzetinin nəşrinin bütün ağırlığını çiynində daşıyan şair və jurnalist Salam Cavadlıya verməli oldum.

S.Cavadlının verdiyi sualları imkanım daxilində cavablandırdım. Sonda isə Heydər Əliyevin SSRİ-nin rəhbərliyində işləyərkən onunla görüşümün olub-olmaması barədə sual verdi. Bu sual mənim üçün həm çətin, həm də üzücü idi. İlk növbədə bildirdim ki, 1982-87-ci illərdə Sov.İKP-nin Siyasi Büro üzvü və NS sədrinin 1-ci müavini kimi böyük vəzifə sahibi ilə heç bir xidməti əlaqəm olmayıb. Həmin illərdə respublika DTK-nın

mərkəzi aparatında xidmətdə olsam da, vəzifələrimiz arasında müqaisə olunmaz dərəcədə böyük fərq var idi. Ona görə də onunla xidməti görüşüm birmənalı istisna olunur. Lakin mənim üçün ağır da olsa onun həyat yoldaşı, görkəmli oftolmoloq, akademik Zərifə xanım Əliyevanın vəfatı ilə əlaqədar, onun dəfn mərasimi günü Moskvada Azərbaycandan gəlmiş nümayəndə heyəti və Əliyevlər ailəsi ilə bir yerdə olduq. Bu barədə bir qədər təfsilatı ilə danışmazdan öncə, Zərifə xanım ilə ilk tanış olduğum 1964-cü ilə qayıtmaq istərdim.

Yaxşı yadımdadı, həmin ilin payızında Bakıda ezamiyyətdə idim. Nəzərdə tutulan müşavirə bitdikdən sonra, o vaxtlar DTK sədrinin birinci müavini işləyən polkovnik Heydər Əliyevin qəbulunda oldum. Bir qədər Zəngilanda mövcud əməliyyat şəraiti və ondan irəli gələn məsələlərlə bağlı onu maraqlandıran işlər barədə məruzə etdim. Xidməti məsələlərlə bağlı söhbətimizdən sonra, iki gün Bakıda qalmağa icazə istədim. Təbii ki, səbəbini soruşdu. Məruzə etdim ki, anamın gözündə müalicəyə ehtiyac olduğundan, Zəngilan rayon göz həkiminin məsləhəti ilə onu Bakıya gətirmişəm. O, Bakının hansı klinikasına müraciət edəcəyimlə maraqlandı. İlk növbədə DTK-nın poliklinikasına müraciət edəcəyimi və orada həkimlər məsləhət bildikləri xəsrəxanaya göndəriş alacağımı bildirdim. Məni diqqətlə dinlədikdən sonra DTK tibbi xidmətinin rəisi polkovnik Ağakərim Mirzəyevə zəng vurdu. Məruzə etdiyim məsələ barədə onu qısa məlumatlandırdı. Sonra anamı hansı klinikaya göndərəcəkləri ilə maraqlandı. Mirzəyevin telefonla dediklərini eşitməsəm də, hiss etdim ki, anamı Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstituna (ETGXİ) göndərmək istəyirlər. Heydər Əliyev A.Mirzəyevə xəstə üçün zəruri köməkliklərin göstərilməsini tapşırdı. Sonra məni DTK-nın sərhəd rayon şöbəsi rəisi kimi Bakıda çox saxlamaq məqsədilə, lazım gəlsə həmkarına da deməyi, mənə icazə verdiyini və çətinlik olsa ona bildirməyi tapşırdı.

Ertəsi günü anamla polkovnik Mirzəyevin qəbuluna gəldik.



Həmişə olduğu kimi, öz xarakterinə uyğun bizi çox mehribanlıqla qəbul etdi. Sonra anamı tez müayinə edib, ETGXİ-na göndəriş hazırlamasını göz həkiminə tapşırdı. Sonra ikilikdə söhbətimizi mahiyyəti üzrə davam etdirdik. O, Heydər Əliyeveviçin (o vaxtlar belə müraciət forması qəbul olunmuşdu. B.S.) həyat yoldaşı Zərifə xanımı tanımağım barədə mənə sual verdi. Mən onu tanımadığımı deyəndən sonra bildirdi ki, Zərifə xanım göz xəstəlikləri üzrə alimdir və siz getdiyiniz İnstitutda işləyir. Dünən sən Heydər Əliyevin yanında olanda telefonla mənə "lazım gəlsə həmkarınıza da deyərsiniz" deyəndə, Zərifə xanımı nəzərdə tuturdu, — dedi. Məsələnin mahiyyəti barədə Zərifə xanımla telefonla danışdığını da bildirdi. Eyni zamanda Heydər Əliyeviçin tapşırığına istinadən, mənim Bakıda ləngiməməyim, həm də xəstənin hərtərəfli lazımı səviyyədə müayinəsi və müalicəsinin təşkili üçün, ilk növbədə Zərifə xanıma müraciət etməyi təkidlə tapşırdı.

Beləliklə, ETGXİ-na yollandıq və ilk növbədə Zərifə xanım Əliyevaya müraciət etdik. O da bizi gözlədiyini bildirərək, çox mehribanlıqla qarşıladı. Xəstənin gözünə baxandan sonra, cərrah-oftolmoloqla da məsləhətləşməyi lazım bildi. Bu məqsədlə soyadını unutduğum cərrah və həkim-terapevti də (səhv etmirəmsə Sara Abramovna kimi müraciət edirdilər. B.S.) dəvət etdi. Onlar üçlükdə xəstə ilə məşğul olanda mən çıxıb dəhlizdə gözləməli oldum. Bir neçə dəqiqədən sonra anamın bir az səsini qaldıraraq, "yox, yox, opiratsiya istəmirəm" deməsini eşitdim. İcazə ilə otağa daxil oldum. Gördüm Zərifə xanım gülə-gülə anama — "Məşədi xala, (anamın adı Məşədi Əzət idi) gözünüzdə cərrahiyyə əməliyyatına ehtiyac yoxdur", — deyə onu sakitləşdirir. Sonra mənə izah etdi ki, biz həkimlər öz aramızda rus dilində qərarımızı dilə gətirdik ki, xalanın gözünün birində olan buğda dənəsi boyda "kista"nı məlhəmlər və damcılarla müalicə etmək olar, cərrahiyyə əməliyyatına (operatsiyaya) ehtiyac yoxdur. Xala isə "operatsiya" sözünün mənasını bildiyi üçün narahatlıq keçirir. Hər üç həkimin çöhrələ-

rində təbəssüm söhbətlərini davam etdirdilər, lazımı dərmanlar resepti yazıb, istifadə qaydalarını izah etdilər. Son olaraq Zərifə xanım dedi ki, müalicə qurtarandan sonra da, başqa istədiyimiz vaxt onlara müraciət etməyi tövsiyə etdi. 1960-cı illərin sonuna kimi bir neçə dəfə də onlara müraciət etdik. Qısa deyim ki, müalicələrin nəticələri də müsbət oldu...

1975-ci ilin ortalarında Səhiyyə Nazirliyi 4-cü Baş İdarəsinin Bakıdakı xəstəxanasında (o vaxtlar ora "Leçkomissiya" da deyirdilər. B.S.) müalicə olunan yaxın dostum, alim, Kənd Təsərrüfatı nazirinin müavini Vəli Qasımova baş çəkməyə getmişdim. Orada təsadüfi olaraq Zərifə xanımla rastlaşdıq. O, başqa bir həkim xanımın müşayəti ilə dəhlizlə çıxışa tərəf gedirdi. Mən salam verən kimi tanıdı. Qısa söhbətdən bildim ki, onu bu xəstəxanaya hansısa xəstəyə baxmağa dəvət ediblər. Bu, əsl həkimlərə xas olan qeyri-adi həssas insan və ziyalı ilə son görüşümüz idi.

Yəqin kimsə düşünə bilər ki, adi bir xəstənin həkimə müraciətindən bu qədər uzun-uzadı yazmağa ehtiyac varmı? Əlbəttə, yox. Özümə bəraət kimi yox, bir reallığı bildirmək istərdim. İlk növbədə deyim ki, göründüyü kimi, mən Heydər Əliyevdən anamın müalicəsini təşkil etməyi xahiş etməmişdim. Yəqin ki, bu işin öhdəsindən özüm də gələ bilərdim və bunu etmək mənim övladlıq borcum idi. Mən, hərbi qulluqçu kimi, Bakıda qalmaq üçün ondan icazə istəmişdim. O, öz alicənablıq və silahdaşına qayğıkeşliyi bir daha nümayiş etdirərək göstərdi ki, bu da bir çox rəhbər işçilərə həmişə örnək ola biləcək ali dəyərdir. Beləliklə, qeyri adi xarakter sahibi, alicənab insan kimi adı dillər əzbəri olan, respublikamızda yeganə oftolmoloq akademik Zərifə xanım kimi nəcib bir şəxsiyytlə tanış olmaq mənə də nəsib olmuşdur.

İndi isə bu yazının əvvəlində qeyd etdiyim kimi, Əliyevlər ailəsi ilə birlikdə həm də respublikanın elmi ictimaiyyətinə ağır itki akademik — Zərifə xanımın dünyasını dəyişməsi və onun Moskvada dəfn mərasimində iştirakıma aparan səbəblər



barədə.

1980-ci illərin əvvəllərində həyat yoldaşım Simuzər xanım ən ağır göz xəstəliyi sayılan qlukomaya düçar oldu. Elə həmin illər Bakıda hər iki gözlərində ağır cərrahiyyə əməliyyatları aparıldı. Nəticəsi isə uğursuz olduğundan yeni fəsadlar baş qaldırdı. ETGXİ-nin direktoru professor N.Əfəndiyev səhiyyə nazirinin göndərişi ilə fəsadları aradan qaldırmaq üçün bizi 1983-cü ildə Moskvaya göndərdi. DTK poliklinikası göz həkimi Xalidə xanım təkidlə tapşırdı ki, bütün imkanlardan istifadə edib, dünya şöhrətli oftolmoloq akademik Arkadiy Nesterovun qəbuluna düşək. Xoşbəxtlikdən heç kəsə müraciət etmədən, SSRİ səhiyyə nazirliyi qəbul şöbəsində (ittifaqın bütün respublikalarından gəlmiş xəstələr bu şöbədə müayinə edilir, Moskvanın müvafiq klinikalarına göndərilirdi. B.S.) bizi akademik A.Nesterovun rəhbərlik etdiyi göz xəstəlikləri kafedrasına göndərdilər. Xəstəni qəbul və ilkin müayinə edən, çox nurani görkəmli xanım (həkim) xəstənin düşdüyü vəziyyətdən son dərəcə narahat olduğunu, hətta gözlərin birində cərrahiyyə əməliyyatı keçirilməsini yersiz hesab etdi. Sonra bildirdi ki, gedəcəyimiz Moskvanın 15-ci ŞKX-da N.Piraqov adına şəhər 2-ci tibb institutunun göz xəstəlikləri kafedrası fəaliyyət göstərir. Oranın müdiri də Rusiyada qeyri-rəsmi "qlukomanın Allahı" adlandırılan, o vaxtlar SSRİ Tibb Akademiyasının akademiki A.P.Nesterovdur. Həm də bizi arxayın etdi ki, belə ağır fəsadlı xəstələrə o özü baxır. Hər ehtimala qarşı özümüzün də, onun özü məşğul olması üçün müraciətimizi tapşırdı. Belə də oldu.

Əsas mövzudan uzaqlaşmamaq məqsədilə qısa bildirim ki, 1983-87-ci illər ərzində A.Nesterov xəstənin gözlərində 6 dəfə mərhələli plastik və başqa cərrahiyyə əməliyyatları apardı. Bir sözlə, onu tam kor olmaqdan xilas etdi. Arabir müayinə və qısa müddətli stasionar-profilaktik müalicə üçün Moskvaya gəlməyimizi də tövsiyə etdi.

Hələ 80-ci illərin əvvəllərində A.Nesterovla aramızda yara-



*Görkəmli oftolmoloq alim, akademik Zərifə xlnım Əliyeva*

nan xoş məramlı münasibət nəticəsində, tək-tək hallarda Bakıda olmağından, tanıdığı adamlardan, əsasən də göz həkimlərindən, başqa görkəmli adamlardan , akademik Zərifə xanım Əziz qızı ilə elmi əməkdaşlıqlarından söz salardı. Onun yüksək elmi potensialından, qeyri-adi insani dəyərlərindən çox razılıqla danışardı.

Hələ ötən ilin payızında stasionar müalicəni alandan sonra, biz Moskvadan Bakıya yola düşəndən əvvəl akademik A.Nesterov bizə gələn ilin aprelin ortalarında onunla əlaqə saxlamağı tapşırdı. Ona görə də mən 1985-ci il aprelin 14-də ona zəng etdim. Xahiş etdim ki, bizi qəbul etmək üçün vaxt təyin etsin. Başqa günlər ciddi məşğul olacağını bildirərək, aprelin 15-nə görüş təyin etdi. Qısa müddətli məzuniyyətdə olduğumdan elə həmin gün biz Moskvaya yola düşdük. Təyin olunan gün o, xəstəni hərtərəfli müayinə etdi. Növbəti cərrahiyyə əməliyyatının həmin ilin payızında baş tutacağını bildirdi və bizimlə xüdafizləşdi.

Qeyd etməliyəm ki, hər dəfə bizi xoş əhval-ruhiyyə ilə qarşılayan akademik A.Nesterov, nədənsə gözümüzə bədbin durumda göründü. Mən bunu onun səhhətiylə bağladım. Mənim narahatçılığımı o da hiss etdi və söhbət əsnasında məlum oldu ki, buna səbəb görkəmli oftolmoloq alim, akademik Zərifə xanım Əliyevanın dünyasını dəyişməsidir. Əlbəttə, bu xəbər məni və Simuzər xanımı çox mütəəssir etdi. Eyni zamanda akademik bildirdi ki, aprelin 17-də Moskvanın Kropotkin küçəsindəki alimlər evində mərhumə ilə vida, sonra da dəfn mərasimləri keçiriləcəkdir. Çox fikirləşmədən mən həmin gün Bakıya dönüşümü təxirə salıb, təyin olunan gün Zərifə xanımın son mənzilə yola salınması mərasimində iştirak edəcəyimi bildirdim. Elə bu anda A.Nesterovun suallarına cavab olaraq mərhumənin hələ 1960-cı illərdə Bakıda anamın gözünü müalicə etməsini və bunun nəticəsində aramızda tanışlıq münasibəti yaranmasını danışdım. Beləliklə, biz A.Nesterovla aprelin 17-də vida mərasimi keçiriləcək Alimlər evində görüşmək şərtilə vidalaşdıq.

Həmin gün axşam "Pekin" mehmanxanasında təsadüfi rastlaşdığım həmkarım, bu günə kimi yaxın dostluq münasibətində olduğum Cabbar Bəylərovla vida mərasiminə getməyi qərara aldıq. Biz Alimlər evinə gələrkən ilk növbədə DTK-nın sədri, general-leytenant Ziya Yusifzadə, onun müavini general-mayor Bahadur Hüseynov və 70-ci illərdən başlayaraq mənim həmkarım olmuş, bakılı həmyerlimiz, Heydər Əliyevin Moskvada işlədiyi bütün müddətdə onun mühafizə bölməsinin rəisi işləyən polkovnik Aleksandr İvanovla görüşdük. Bir qədər sonra həmin illərdə Azərb. KP MK-da məsul vəzifədə işləyən, indiki Ədliyyə naziri, görkəmli dövlət xadimi Fikrət Məmmədovla, Bakı Göz Xəstəlikləri İnstitutunun direktoru professor Nazim Əfəndiyev, onun müavini prof. Fəridə xanım Nəsrullayeva və başqa həmyerlilərimizlə görüşdüm. Biz, Cabbarla birlikdə cənazənin önündən keçəndən sonra mərasim keçirilən zalda qaldıq. Həmin vaxt general B.Hüseynov hər ikimizi qapısı böyük zala açılan otaqların birinə dəvət etdi. Orada xidmət göstərən bir nəfəri yanına çağırıb, bizi təqdim edəndən sonra ondan xahiş etdi ki, hər ikimizi cənazənin yanında fəxri qaravulda durmaq üçün hazırlasın (hazırlamaq deyəndə qollarımıza matəm əlaməti olan sarğının bağlanması nəzərdə tutulurdu. B.S.). Bir neçə dəqiqədən sonra zaldan xəbər gəldi ki,

fəxri qaravula göndərilmə dayandırılsın. Səbəb — Sov. İKP siyasi büro üzvləri (əlbəttə, Qorbaçovdan başqa) və üzvlüyə namizədlərinin, mərhumə ilə vidalaşmaq üçün zala daxil olması idi. Bizə bildirdilər ki, proqrama görə ölkə rəhbərliyinin mərhumə ilə vidalaşmasından sonra cənazə matəm mitinqi və dəfn mərasimi keçirilməsi üçün "Novaya Deviçiya" qəbirstanlığına aparılmalıdır. Bundan sonra vida mərasiminə toplaşan həmyerlilərimiz, Moskvada yaşayan azərbaycanlı ziyalılar, mərkəzin tibb ictimaiyyəti nümayəndələri və başqaları ilə birlikdə cənazəni adı çəkilən qəbirstanlığa qədər müşayət etdik. Qəbul olunmuş ənənəyə uyğun olaraq burada da akademik Zərifə xanım Əliyevanın həyat və yaradıcılığı, yüksək elmi nailiyyətləri barədə Respublikanın Səhiyyə naziri T.Qasımovun, akademik Mirməmməd Cavadzadənin, uzun illər mərhumə ilə elmi əməkdaşlıq etmiş SSRİ TEA-nın (indiki RTEA. B.S.) həqiqi üzvü, professor A.Nesterovun və başqa görkəmli alimlərin məruzə və çıxışları dinlənildi. Sonra isə bir neçə saniyəlik sükutu mərasimdə iştirak edən SSRİ Xalq artisti, dünya şöhrətli müğənni Müslüm Maqomayev pozdu. Onun heç bir musiqi müşayiəti olmadan, əzəmətli, hamını kövrəldən səsi ilə "Sənsiz" mahnısını ağır kədərli notda oxuması, mərhumənin doğmaları ilə yanaşı bütün toplaşanları sonsuz riqqətə gətirdi.

Həmin an hamımızın diqqəti, həmişə dəyanətli, dözümlü, əyilməz və məğrurluq zirvəsində duruşuna vərdiş etdiyimiz Heydər Əliyevə dikilmişdi. Yarım əsirdən artıq müddətdə tanıdığım və təmasda olduğum bu şəxsi ilk dəfə idi ki, bu qədər ağır, üzücü sarsıntı içində görürdüm. O, alın yazısı, ömrün belə sonluğunun hamı üçün qaçılmaz olması reallığı ilə barışmaq zorunda olsa da, taleyin belə ədalətsiz hökmü ilə, heç vaxt sönməyəcək sonsuz sevgisi və əbədi məhəbbəti ilə vidalaşmaqla barışa bilmirdi. Axı, akademik Zərifə xanım Əliyevanın çox vaxtsız ölümü Əliyevlər ailələri ilə yanaşı, həm də bütün mənalı həyatını həsr etdiyi doğma xalqı və milli elmimiz üçün çox ağır itki idi...



İzdihamlı matəm mərasimi başa çatdıqdan sonra mərhumə torpağa tapşırılmaq üçün qəbrstanlığın müsəlman əsilli görkəmli dövlət, partiya, elm və mədəniyyət xadimlərinin dəfn olunması məqsədilə ayrılmış sahəsinə aparıldı. Havanın yağışlı olmasına baxmayaraq, keçirilən bu tədbirlərə toplanan insanların demək olar ki, dəfn mərasiminin son dəqiqəsinə kimi mərhumənin doğmaları ilə birlikdə oldular. Beləliklə, mən də insanların gözlərinə şəfa və ürəklərinə sevinc bəxş edən akademik Zərifə xanımın heç olmasa müqəddəs ruhu qarşısında, cuzi də olsa mənəvi borcumu yerinə yetirə bildim.

1980-ci illərin sonlarında Moskvada və eləcə də Bakıda Heydər Əliyev ətrafında törədilən süni ədalətsiz olaylar hamıya məlumdur. Bu yazımda da bəzi məqamlara toxunulub və təkrara ehtiyac yoxdur. Bir onu qeyd etmək istəyirəm ki, ulu öndər rastlaşdığı bütün çətinlikləri dəf etdi və bədniyyət opponentlərinin istək və arzularının əksinə olaraq, ikinci dəfə hakimiyyətdə olduğu 10 ildən artıq müddətdə nəyə qadir olduğunu bütün dünyaya göstərdi. Yazımın bu bölümünə son olaraq ən əsas deyəcəyimdən birini də xüsusilə qeyd etmək istəyirəm. Xalqımızın ulu öndəri ötən əsrin 90-cı illərinin əvvəllərində doğma Azərbaycana döndü. Elə həmin vaxtda da görkəmli oftolmoloq, akademik Zərifə xanım Əziz qızı Əliyevanın cənazəsi də Moskvadan gətirilərək Vətən torpağında — Bakıdakı Birinci Fəxri xiyabanda dəfn olundu. Onun adına layiq ucaldılmış abidə kompleksi xalqımızın və bütün səviyyəli xarici qonaqların ziyarətgahı oldu və həmişə də belə olacaq. Allah rəhmət eləsin.

* * *

Dövlət başçısı kimi dünya şöhrəti qazanmış Heydər Əliyev dövlətçiliyin təşkili və onun idarə olunmasında fitri istedada malik olan şəxsiyyət olmaqla, həm də beynəlxalq səviyyəli siyasətçi kimi dünyada məşhur olması birmənalıdır. Onun ikinci dəfə Azərbaycanın rəhbərliyinə qayıdışı bir çox baxımdan

onun həyat və fəaliyyətində, eləcə də müstəqil respublikamızın tarixində xüsusi dövrdür. Bu barədə istər dövrü mətbuatda, istərsə də çoxcildli kitablarda kifayət qədər yazılıb. Təkrar da olsa yenə də qeyd etmək lazımdır ki, Heydər Əliyev Azərbaycanın çıxılmaz vəziyyətində, 1993-cü ildə respublikanın rəhbərliyinə gəldi. Bundan öncə blokada şəraitində olan Azərbaycanın Naxçıvan Muxtar Respublikası əhalisini düşdüyü, ağır vəziyyətdən çıxarmasını hamımız yaxşı xatırlayırıq. 1993-cü ildə Azərbaycan siyasətinin olduqca böhranlı, iqtisadiyyatının isə iflic vəziyyətdə, dövlətçiliyinin təhlükə qarşısında olmasını da yaxın keçmişin olayları olduğundan, xalqımızın indiki nəsli onları yaxşı xatırlayır. Həmin dövrlərdə bütün baş verənləri, o cümlədən respublikamızı düşdüyü ağır vəziyyətən çıxarılmasında Heydər Əliyevin atdığı çox cəsarətli addımları, yeritdiyi düşünülmüş daxili və xarici siyasətin uğurlu nəticələri də göz qabağındadır. Bütün bunları təkrarlamağa ehtiyac yoxdur.

Prezident Heydər Əliyevin həyat və fəaliyyətinin bilavasitə şahidi olduğum böyük bir hissəsi barədə bu yazıya daxil etdiyim, eləcə də son illər dövlət mətbuatında dərc etdirdiyim başqa yazılarımda əks etdirdiyim xatirələrim mənim Dövlət Təhlükəsizlik orqanlarinda xidmətdə olduğum 1950-87-ci illərə təsadüf edir. Məhz bu səbəbdən də xidmət ərazimə daxil olan bölgələrdə ulu öndərimizin həyata keçirdiyi tədbirlərə qatılmağım da xidməti vəzifə borcumun icrası ilə bilavasitə əlaqədar olub.

Xalqın tələbilə 1993-cü ildə Heydər Əliyevin böyük siyasətə — Azərbaycanın rəhbərliyinə qayıdışını, həmin dövr ölkəmizdəki mövcud durumu tam dəqiqliyi ilə bir daha yada salmaq hamımız üçün vacibdir. Heç olmasa, müqayisə etmək baxımından. Bunun üçün 1990-93-cü illərdə Naxçıvan MR-dakı olaylar da daxil olmaqla, bütövlükdə Azərbaycanın bütün bölgələrində baş verənləri bir daha xatırlamaq üçün, tanınmış yazıçı-publisist Elmira xanım Axundovanın Moskvada çıxan "Pravda" qəzetinin 4 avqust 1993-cü il tarixli sayında dərc etdirdiyi "Vozvraşeniya Aliyeva" ("Əliyevin qayıdışı") başlıqlı çox əhatəli, həm də yetərincə cəsarətlə qələmə aldığı bu yazısını oxumaq kifayətdir. Bu məqalənin tam mətni bir gün sonra Bakıda çıxan "Azərbaycan" qəzetinin 5 avqust sayında dərc edilmişdi. Yeri gəlmişkən, bir daha qeyd etmək istərdim ki, Elmira xanım bu məqaləsində hər bir hadisəni öz adı ilə oxuculara çatdıra bilmişdir. Eyni zamanda Azərbaycanın düşdüyü ağır vəziyyətdən çıxarmağın yeganə çarəsi kimi, o vaxt respublikanın prezidenti Əbülfəz Elçibəyin Heydər Əliyevə ünvanladığı Bakıya, respublika rəhbərliyinə qayıtması xahişini də unutmamışdır.

İkinci dəfə respublikanın rəhbərliyinə qayıdışı vaxtı mən artıq istefada idim. Bu müddət ərzində onunla xidməti təmas və görüşlərim, demək olar ki, olmayıb. Lakin həmin müddətdə, Mingəçevir şəhərində 1995-ci ildə barəmdə keçirilmiş xoşməramlı bir tədbirə respublika prezidenti Heydər Əliyevin mənə göstərdiyi və heç vaxt unuda bilməyəcəyim dəstək və diqqəti, 1997-ci ildə isə Milli Təhlükəsizlik Nazirliyi işçilərinin peşə bayramı günü bizimlə birlikdə olmasını qeyd etmək istərdim.

Xronoloji ardıcıllığa riayət edərək bu məsələlər barədə bir qədər ətraflı:

Mingəçevir şəhərində 10 ildən artıq xidmətimi başa vurduqdan sonra 1981-ci ilin yanvarından Bakıda, DTK-nın mərkəzi aparatında hərbi xidmətimi davam etdirdim. 1987-ci ildə isə istefaya çıxdım. 1995-ci il avqustun ortalarında Mingəçevir şəhəri İcra Hakimiyyətinin başçısı (ŞİH) Bəkir Bəxtiyarovdan, avqustun 24-də bu şəhərdə keçiriləcək tədbirdə iştirak etmək üçün dəvət aldım. Bu barədə uzun illər həmkarlıq və bu günə kimi dostluq etdiyim, 1961-1980-cı illərdə Mingəçevirdə işləmiş və yaşamış Həsən Ələkbərova da dedim. O, səbəbini soruşdu. Mən 1970-80-ci illərdə hələ Mingəçevir və Bakıda işlədiyim illərdə, əvvəllər xidmət etdiyim Zəngilan, eləcə də xidmət ərazimə daxil olan Qubadlı və Cəbrayıl rayonlarında da 1970-80-cı illərdə dəbdə olan və keçirilən "Məhsul bayram"la-

rına dəvətlər aldığımı xatırladaraq, bu dəvətə də təəccüblənmədiyimi bildirdim. O da mənimlə getmək istədiyini bildirdi. Orta məktəbi bu şəhərdə bitirmiş övladlarım Azər, Hikmət, ailəmizin digər üzvü Fazil də mənimlə getmək, bütün ailəmiz üçün doğmalaşmış şəhəri bir daha ziyarət üçün bu imkandan istifadə etmək istədilər. Beləliklə, adları çəkilənlərlə və Həsən müəllimin dəvətilə həmkarımız Sabir Nağıyev və hüquqşünas dostumuz, prokurorluq orqanları veteranı Əli Hacıyevlə birlikdə həmin gün Mingəçevirdə olduq.

Tədbir öncəsi Bəkir müəllim bizi kabinetində qəbul etdi. Söhbət əsnasında məlum oldu ki, keçiriləcək tədbir mənim bu ayın sonunda tamam olacaq 70 illik yubileyimlə bağlıdır. B.Bəxtiyarov tədbirin təfərrüatını açıqlamasa da, yarıciddi, yarızarafat mənə bildirdi ki, bu şəhərdə xidmət etdiyim illərdə barəmdə belə bir tədbir keçirilsə idi, bəlkə də etirazımı bildirərdim. Amma bu tədbir şəhərin rəhbərliyi, veteranları və başqa ziyalıları ilə razılaşdırılmış və əsaslandırılmış tədbir olduğunu qeyd etdi.

Bu söhbətdən sonra böyük iclas zalına dəvət olunduq. Burada şəhərin bütün idarə, təşkilat, sənaye müəssisələri rəhbərləri, başqa ziyalılar və mənə daha yaxın olan müharibə və əmək veteranları toplanmışdı. Mərasim iştirakçılarının böyük əksəriyyəti bütün 70-ci illərdə, şəhərin partiya və sovet fəalları kimi, mənimlə birlikdə çalışan insanlar idi. Şəhərin rəhbəri giriş sözü ilə, gündəliyi elan etdi, "Bəxtiyar Süleymanlı haqqında söz"lə çıxış (buna məruzə də demək olar) etmək üçün ŞİH başçısının müavini, DTK veteranı, istefada olan polkovnik Mayis Hacıyevə söz verdi. O, çıxışının əvvəlində çox qısa bioqrafik arayışdan sonra, ötən əsrin 70-ci illərində respublikada mövcud ictimai-siyasi duruma aydınlıq gətirdi. Bildirdi ki, 1969-cu ildə Azərbaycanın rəhbərliyinə gəlmiş Heydər Əliyev respublika xalq təsərrüfatının hərtərəfli inkişafı üçün yeni tələblər qoyur və ciddi təşkilatçılıq siyasəti yeridirdi. Eyni zamanda keçmişdə respublikada baş vermiş neqativ halların aradan qaldırılması yönümündə də mübarizə gücləndirildi. Belə bir ciddi tələbkarlıq durumu Dövlət Təhlükəsizlik Komitəsindən də yan keçmədi. Belə bir ciddi rejimli işin başlaması ilə yubilyarın DTK-nın Mingəçevir şəhər şöbəsinə rəisi təyin olunması eyni vaxta təsadüf etdi. Natiq çıxışında başqa bir məqamı da xüsusilə vurğuladı. Bildirdi ki, nəzərə alsaq ki, bizim şöbə (M.Hacıyev 1969-78-ci illərdə DTK-nın bu şəhər şöbəsində əməliyyat işçisi kimi xidmət edib. B.S.) Mingəçevirdən başqa xidmət ərazisi daha 9 rayon və şəhərdə təhlükəsizlik işlərini həyata keçirirdi, şöbənin işinin gərginliyini təsəvvür etmək çətin deyildir.

M.Hacıyev son olaraq qeyd etdi ki, B.Süleymanlı xidməti işlərlə yanaşı ŞPK-nın büro üzvü, ştatdankənar mühazirəçisi, şəhər sovetinin deputatı və daimi deputat komissiyasının sədri və digər ictimai vəzifələrdə də 70-ci illərdə fəallıq göstərmişdir. Bu sözlərlə o, yubilyar tədbirini ləyaqətli hesab etdiyini bildirdi.

M.Hacıyev çıxışını qurtarandan sonra vaxtilə Mingəçevirdə rəhbər vəzifələrdə işləmiş ziyalılar (70-ci illər də daxil olmaqla B.S.), şəhər hüquq-mühafizə orqanları rəhbərləri və mənimlə Bakıdan gəlmiş həmkarlarım təbriklə çıxış etdilər. Bunlar içərisində bir nəfərin, Prezident yanında Xüsusi İdarənin rəisi, polkovnik Elman Qənbərovun çıxışı respublika rəhbəri Heydər Əliyevin tapşırığı ilə bağlı olduğu üçün, onun dediklərini olduğu kimi oxuculara çatdırmaq istəyirəm (bu sətirləri qələmə almazdan əvvəl tədbirin lentə alındığı video-kasetə bir daha baxmalı oldum):

— Hörmətli tədbir iştirakçıları, məlum olduğu kimi mən, birbaşa prezidentin tabeçiliyində olduğum üçün, Bakıdan kənara ancaq onun icazəsi ilə çıxa bilərəm. Bu gün bura gəlmək üçün dünən mən onun qəbulunda oldum. Bəzi xidməti məsələləri məruzə edəndən sonra, Mingəçevirə gəlmək üçün ondan icazə istədim. Təbii ki, cənab prezident də bunun səbəbini soruşdu. Məruzə etdim ki, 10 ildən artıq DTK-nın Mingəçevir şəhər şöbəsinin rəisi olmuş Bəxtiyar Süleymanlının anadan ol-

masının 70-ci ildönümü ərəfəsində yubiley tədbiri keçirmək istəyirlər. Eşitdiyimə görə ona "Mingəçevirin fəxri vətəndaşı" adını vermək planlaşdırılıb. Mən də, bir mingəçevirli və bu şəhərin yetirməsi kimi, ŞİH-i başçısı B.Bəxtiyarovdan bu tədbirə qatılmaq üçün dünən telefonla dəvət olunmuşam. Hörmətli cənab prezident məni dinləyəndən sonra dedi ki, Bəxtiyar Süleymanlını yaxşı tanıyır. Onun Zəngilanlı olmasını da qeyd etdi. Sonra əlavə etdi ki, onun (Süleymanlının) uzun illər DTK-nın Zəngilan rayon, sonra Mingəçevir şəhər şöbələrinin rəisi, sonra isə Bakıda mərkəzi aparatda işləməsini, indi isə istefada olmasını tam dəqiqliyi ilə xatırladı. Sonra isə mənim bura gələcəyimə icazə verdi və tapşırdı ki, B.Süleymanlını anadan olmasının 70 illik yubileyi və ona "Mingəçevirin fəxri vətəndaşı" adının verilməsi münasibətilə onun adından təbrik edim. Mən hörmətli cənab prezidentin bu tapşırığını böyük məmnunluqla sizə çatdırıram (prezident Heydər Əliyevin təbriki mərasim iştirakçılarının sürəkli alqışları ilə qarşılandı).

E.Qənbərov çıxışını yubilyarı öz adından təbrik edərək və bütün mərasim iştirakçılarını bir daha salamlayaraq, şəhərin rəhbərliyini onu bu tədbirə dəvətinə görə təşəkkürü ilə tamamladı (E.Qənbərov 10 ilə yaxın bu vəzifədə xidmət edərək, general-leytenant ali hərbi rütbəsinə layiq görüldü. 2004-cü ildən isə Müdafiə Nazirliyində məsul vəzifədə hərbi xidmətini davam etdirir).

Tədbirin aparıcısı Bəkir müəllim "Mingəçevirin fəxri vətəndaşı" və adının "Mingəçevir şəhərinin fəxri kitabı"na daxil edilməsi barədə həmin gün imzaladığı sərəncamın və şəhərin rəhbərliyi, ziyalıları və bütün ictimayyəti adından qəbul olunmuş təbrik məktubunun mətnlərini elan etdikdən sonra, həmin sənədlər olan qovluqları mənə təqdim etdi. Son olaraq, çıxış üçün mənə söz verdi.

Təbii ki, ilk növbədə Azərbaycan prezidenti Heydər Əliyevin respublikamızın ölkədaxili və beynəlxalq səviyyəli problemlərinin həlli ilə məşğul olduğu gərgin bir vaxtda məni təb-



rik etməyə vaxt tapmasına, barəmdə keçirilən bu tədbiri dəstəyinə görə qürur hissi keçirdiyimi bildirdim. Etiraf edim ki, gözləmədiyim halda mənə göstərdiyi diqqətə görə səmimi minnətdarlığımı və təşəkkürümü cənab prezidentə çatdırmağı Elman Qənbərovdan xahiş etdim.

Çıxışımın sonunda ŞİH başçısı B.Bəxtiyarova, o vaxt mövcud olan Şəhər Soveti sədri M.Qarabağlıya, bütün tədbir iştirakçılarına, xüsusilə barəmdə dedikləri qiymətli sözlərə görə çıxış edənlərə, bundan sonra həmyerlilərim hesab edəcəyim bütün mingəçevirlilərə dərin minnətdarlığımı bildirdim. Bu tədbirdə səslənən alqışları da bütünlükdə ancaq prezident Heydər Əliyev cənablarının ünvanına aid olmasını elan etdim.

Bu tədbir barədə Mingəçevir ŞİH-nin orqanı "Səda", Azərenerji Dövlət Şirkətinin orqanı "Azərbaycan işıqları" və Milli Təhlükəsizlik Nazirliyinin orqanı "Sərhəd" qəzetlərinin müvafiq olaraq 25 avqust, 1 sentyabr və 27 sentyabr 1995-ci il saylarında ətraflı yazılar dərc olunmuşdur.

* * *

Prezident Heydər Əliyev mənalı həyatının 25 ildən artığını həsr etdiyi Respublika Dövlət Təhlükəsizlik orqanlarının şəxsi heyyəti və veteranları ilə sonuncu görüş 1997-ci ildə, MTK-nın inzibati binasındanda, təntənəli şəraitdə, çox əlamətdar hadisə kimi yaddaşımızda əbədi yaşayacaqdır. Bu tarixi görüşü zəruri edən səbəbə və ona aparan yola bir qədər ətraflı nəzər salmaq yerinə düşərdi.

Bu yerdə haşiyə məzmunlu bir məqamı qeyd edək. Belə ki, 1991-ci ildə Sovetlərin süqutuna kimi DTO-nın peşə bayramı ittifaq miqyasında, Rusiyada oktyabr inqilabının qələbəsindən sonra təsis edilmiş xüsusi xidmət orqanlarının yaranma günü kimi, 1917-ci il dekabrın 20-dən başlayaraq hər il bu gün qeyd olunurdu. Azərbaycanda isə sovetləşmənin elan olunduğu 1920-ci il 28 apreldən başlayaraq, həmin gün, əski ifadə ilə desək, çekistlərin peşə bayramı kimi qəbul olundu. Azər-

baycan respublikası ikinci dəfə müstəqilliyini elan etməsi və DTO-nın peşə bayramına yenidən baxılması məsələlərinə, respublikamız üçün xarakterik olan tarixi hadisələrə qısa da olsa toxunmaq lazımdır. Deyəcəyim tarixi hadisələr xalqımızın indiki nəslinə yaxşı məlum olsa da, gələcəyimiz olan gənc nəsil üçün bir daha aydınlıq gətirmək istəyirəm.

Məlum olduğu kimi, 1918-ci il mayın 28-də, o dövrdə fəaliyyətdə olan Azərbaycan Milli Şurası Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılmasını bəyan etdi. Bu da məlumdur ki, 1920-ci ilin aprelində 11-ci Rus Sovet ordusunun işğalı nəticəsində AXC-nin süqutu baş verdi. Həmin il aprelin 28-də Azərbaycanda sovet hakimiyyəti bərqərar oldu...

Artıq tarixə dönmüş keçmiş SSRİ də 1991-ci ildə çökdü. Müstəqilliyini bərpa edən Azərbaycan Respublikası 1918-ci ildə yaradılmış AXC-nin varisi kimi, 28 mayı Respublika günü kimi elan etdi.

1993-cü ildə 2-ci dəfə Azərbaycan Respublikası rəhbərliyinə gələn Heydər Əliyev cənabları 1918-20-ci illərdə AXC-ni hakimiyyətdə olduğu illərdə Hökumət tərkibinə daxil olan bütün hüquq-mühafizə və başqa nazirliklərinin həmin dövrlərdə yarandığı günləri müvafiq sərəncamları ilə yeni yaradılmış eyniadlı nazirlik işçilərinin peşə bayramı kimi elan etdi. Respublika MTO əməkdaşlarının peşə bayramı isə 1918-19-cu illərdə AXC-nin müdafiə naziri işləmiş artilleriya general-leytenantı Səməd bəy Mehmandarovun 28 mart 1919-cu il tarixli, 157 saylı əmri ilə Baş qərargah nəzdində kəşfiyyat və əkskəşfiyyat bölməsinin yaradılmasından qaynaqlandı. Beləliklə həmin əmrə əsaslanan dövlət başçısı bu tarixi sənədə istinadən, 20 mart 1997-ci il tarixli sərəncamı ilə, həmin günü MTN işçilərinin peşə bayramı günü kimi təsis etdi. Bu sərəncam mətbuatda dərc olunandan bir neçə gün sonra hamımıza 28 martda yeni təsis olunmuş peşə bayramının 78-ci ildönümünə həsr olunmuş təntənəli iclasa gəlməyimiz barədə xəbərdarlıq edilmişdi. Bu mərasimdə prezident Heydər Əliyevin iştirakı barə-





*Ulu Öndər Heydər Əliyev*



*Azərb. SSR DTK-nın sədri, general-mayor Heydər Əliyev.*
*Bakı 1967-ci il, oktyabr*



*Bakı, 20 dekabr 1967-ci il. DTO (UFK - DTK)-50. DTK-nın sədri Heydər Əliyev Kollegiya üzvləri və şəhər, rayon şöbə rəisləri ilə*



*Azərb. KP 29-cu qurultayında Heydər Əliyev DTK-dan olan nümayəndələr arasında. 30.01.1976-cı il, Bakı*



Bakı, 20.12.1977-ci il. ÜFK-DTK (BÇK-KQB) - 60, AKP MK 1-ci katibi H. Əliyev təltif olunan əməkdaşlar arasında



Heydər Əliyev Yevlax rayonu Qarxun kəndinin pambıq tarlasında, may 1972-ci il



Heydər Əliyev, sentyabr 1979-cu il



*Heydər Əliyevin Ağdaş rayonunda RPK-nın 1-ci katibi Xəlifə İbrahimov və yerli əhali tərəfindən qarşılanması. Iyun 1975-ci il*



*13 may 1978-ci il, Heydər Əliyev Qəbələ RLS tikinti meydanında marşallar Koldunov,Gelevani, RPK-nın 1-ci katibi Bullayev və başqa hərbiçilərlə söhbət edir*



*Heydər Əliyevin Qəbələ şəhər əhalisilə görüşü*



*Yevlax şəhəri, 12 yanvar 1979-cu il. Xüsusi qatarla gələn Xankəndi və Şuşaya gedən Heydər Əliyevin qarşılanması*



*Ağdam-Xankəndi dəmiryolu xəttinin açılışı 12.01.1979-cu il*



*Şuşa, 12.01.1979-cu il. Heydər Əliyev rayon və Muxtar Vilayət rəhbərlərinə şəhərin abadlaşdırılması barədə göstərişlər verir*

də də rəsmi xəbərdar edilmişdik.

Sonradan məlum oldu ki, respublika rəhbəri Heydər Əliyev dövlətdaxili və beynəlxalq səviyyəli tədbirlərlə məşğul olduğu üçün, bayram tədbiri bir qədər təxirə salınıb.

Nəhayət, düz üç ay sonra, 28 iyun 1997-ci ildə ölkə prezidentinin iştirakı ilə həmin peşə bayramı MTN-nin inzibati binasının böyük iclas zalında baş tutdu. Bu mərasimdə prezident Heydər Əliyev geniş olduğu qədər də maraqlı nitq söylədi.

Dövlət başçısı ilk növbədə MTN əməkdaşlarını və veteranlarını bu gün qeyd olunan peşə bayramı münasibətilə səmimi təbrik etdi. Müstəqil Azərbaycan dövlətinin müasir beynəlxalq şəraitdə təhlükəsizliyinin daha da etibarlı təmin olunmasının vacibliyini qeyd etdi. Bu orqanların normal fəaliyyəti üçün respublika rəhbərliyi tərəfindən lazım olan maddi-texniki təchizatla yanaşı əməkdaşlar üçün zəruri təminat yaradılacağını qeyd etdi.

Heydər Əliyev nitqində bəzi məsələlərə, o cümlədən onun respublikada olmadığı illərdə Azərbaycanda baş verən hərcimərcliyə də toxundu. Qeyd etdi ki, 1983-1990-cı illərdə respublikada baş verən siyasi oyunlar dövrü 1969-82-ci illərdə qurub-yaradılmış xalq təsərrüfatının bütün obyektlərinin, xüsusilə kənd təsərrüfatı sahəsində əldə edilmiş ən yüksək nailiyyətlərin bərbad hala salınmasını ürək ağrısı ilə bir daha xatırlatdı. Eyni zamanda bildirdi ki, həmin vaxtlar respublikaya rəhbərlik edənlər heç olmasa, özlərindən qabaq əldə olunan yüksək nəticələri qoruyub saxlamaq əvəzinə, Qorbaçovun fitnəkarlığına rəvac verərək, antiəliyev kompaniyasına qoşulmağa üstünlük verdilər. Azərbaycana rəhbərlik etdiyi illərdə irəli çəkdikləri, yüksək vəzifələrə təyin etdiyi bəzi kadırların dönüklüyünə də eyham vurdu. Bütün bu yaramaz hərəkətlərin nəticəsində ölkədə hökm sürən özbaşınalığın ağır nəticələri xalqı acınacaqlı vəziyyətə salmasını xüsusilə vurğuladı. Bu deyilənlərə bənzər tənqidi sözlər MTO-nın fəaliyyətindən də yan keçmədiyinə toxundu, dediklərini konkret faktlarla əsas-

landırdı...

Nitqini davam etdirən dövlət başçısı, Ali Baş komandan yenə də Milli Təhlükəsizlik Nazirliyinin fəaliyyəti barədə əsasən müsbət fikir desə də, onun daha da təkmilləşdirilməsi barədə konkret təkliflər irəli sürdü. Bu barədə MTO-da xidmət edənlərin hansı keyfiyyətlərə malik olmaları barədə daha geniş fikir söylədi. Qeyd etdi ki, hələ sovetlərin hakimiyyətə gəldiyi ilk illərdən DTO əməkdaşlarının hansı deviz altında xidmət etmələri şüar kimi irəli sürülmüşdü. Bu devizdə deyilirdi: "Çekistin başı sərin, ürəyi isti, əlləri təmiz olmalıdır". Bu barədə fikrini tamamlayaraq əlavə etdi ki: "Bu sözlərin kim tərəfindən deyilməsini bilmək indi o qədər də vacib deyil. Əsas odur ki, həmin deyim bu gün üçün də öz əhəmiyyətini saxlayıb. Müstəqil Azərbaycan dövlətinin təhlükəsizliyinin təmini kimi şərəfli işdə çalışan hər bir şəxs bu keyfiyyətlərə malik olmalıdır".

Ulu öndərin dediyi bu sözləri bütün tədbir iştirakçıları, xüsusilə də sovetlərin süqutana kimi DTN-da xidmətdə olmuş, bu sözləri daha çox eşitmiş əməkdaşlar və veteranlar tərəfindən ruh yüksəkliyi ilə dinlənildi və sürəkli alqışlarla qarşılandı. "Sovetlərin süqutuna kimi xidmətdə olmuş"ları ona görə xüsusi qeyd etdim ki, onların hamısı istər Azərbaycanda, istərsə də başqa respublikalarda, Moskva, Kiyev, Daşkənd, Minsk və Alma-Ata şəhərlərindəki SSRİ DTK-nın xüsusi məktəblərində keçirilən tədbirlər vaxtı həmin şüar görünən yerdən asılırdı.

Ulu öndər bu mərasimdə MTN-nin qarşısında duran məsələlərin həlli istiqamətində verdiyi tövsiyələr nazirliyin rəhbərliyi və şəxsi heyyəti tərəfindən gələcək fəaliyyət üçün proqram sənədi kimi qəbul olundu.

Mərasimin sonunda MTN rəhbərliyi və toplantı iştirakçıları adından respublika prezidenti Heydər Əliyevə müraciət qəbul olundu.

MTN-nin inzibati binasında bayram əhval-ruhiyyəsi şəraitində respublika rəhbəri və Ali Baş Komandanı Heydər Əliyevlə bu bizim son görüşümüz oldu.



Heydər Əliyev bundan sonra da ömrünün sonuna kimi respublikanın hərtərəfli inkişafını uğurla davam etdirdi. Əldə olunan nailiyyətlər possovet məkanında, eləcə də uzaq xarici ölkələrin mediyasında daim işıqlandırıldı. Onun 1969-cu ildən başlayaraq respublikaya rəhbərlik etdiyi hər iki dövrdə, eləcə də SSRİ rəhbərliyində olduğu illərdə əldə etdiyi nailiyyətlər, həm də Qorbaçovun Heydər Əliyev barəsindəki fitnəkarlığa qoşulmuş dönüklər barədə yaxşı məlumatı olan moskvalı müxbirin ondan aldığı müsahibəsi də maraqlıdır.

Bu barədə "Komsomolskaya pravda" qəzetinin 19 avqust 1998-ci il sayında dərc olunan müsahibəsində müxbir Andrey Vandenkovun "...Siz nəinki rəhbər vəzifələrdə olmadığınız müddətə görə də, həm də özünüzə qarşı siyasi xəyanətlərin sayına görə rekordçusunuz..." sualına Heydər Əliyev cavabında deyir:

"Bu doğrudur. Hətta təsəvvürümə gətirməzdim ətrafımda nə qədər adam mənim büdrəməyimə bənd imiş..."

Heydər Əliyev müxbir Vandenkova verdiyi müsahibəsində Kremlə təsadüfi rəhbərlik edənin onun barəsində etdiyi ədalətsizliyi nəzərdə tutaraq belə bir ifadə işlətsə də, o, heç vaxt büdrəməyib. Əksinə, bütün rəhbər vəzifələrdə inamla, qətiyyətlə yüksəkliyə doğru addımlayıb...

Lakin çox acı təəssüflə qeyd edək ki, vətənin və təmsil etdiyi xalqın işıqlı gələcəyi naminə gənclik həvəsi və enerjisi ilə çalışdığı bir vaxtda ömrünün 81-ci ilində dünyasını dəyişdi. Beş ilə yaxındır ki, onun uyuduğu məzar kompleksi respublika əhalisinin və ölkəmizə gələn xarici ölkələrin başçıları, digər dövlət rəsmiləri və başqa qonaqların müqəddəs ziyarətgahına çevrilib. Nə qədər ki, Azərbaycan var, ulu öndərin əziz xatirəsi həmişə anılacaq, dövlətimizin tarixində əbədi yaşayacaqdır.

Böyük razılıq və inam hissi ilə bildirək ki, ulu öndərin yetirməsi, onun zəngin dövlətçilik məktəbindən keçmiş siyasi varisi prezident İlham Əliyev müstəqil Azərbaycanın memarının siyasi və iqtisadi inkişaf kursunu uğurla davam etdirir. Bunun

üçün iqtisadiyyatımızın əsasını təşkil edən Xəzər dənizinin enerji ehtiyatlarının dünya bazarına çıxarılmasının uğurlu davamı və ilbəil artması, regionların hərtərəfli inkişafının vüsət alması, dövlətimizin dünya ölkələrinə inteqrasiyası kursunun genişlənməsi, iqtisadiyyatımızın bütün keçmiş sovet respublikaları sırasında birinciliy əldə saxlamasını göstərmək kifayətdir.

Ulu öndərin həyat və fəaliyyətinə həsr olunmuş unikal layihənin həyata keçirilməsini xüsusi qeyd etmək lazımdır. Bu yazının əvvəlində tanınmış yazıçı-publisist Elmira xanım Axundovanın bu layihə ilə bağlı sənədlər, müsahibələr toplamasına qısa toxunmuşdum. İndi isə yazıçının bu axtarışlarının nəticəsi barədə bir qədər ətraflı.

2004-cü ilin aprelində sovet illərində Moskvada çıxan "Literaturnaya qazeta"nın Azərbaycan üzrə müxbiri kimi qiyabi tanıdığım Elmira xanım Axundova mənə zəng etdi. Özünü təqdimdən sonra bildirdi ki, Heydər Əliyev barədə çoxcildli kitab yazmağa başlayıb. Ulu öndərin DTO-da xidmət etdiyi, eləcə də respublikaya rəhbərlik etdiyi illərdə onunla silahdaşlıq etmiş, həyata keçirdiyi tədbirlərdə iştirak etmiş əməkdaş və veteranlardan müsahibə götürmək üçün MTN-dən ona verilən siyahıda mənim adımın da olduğunu, bununla bağlı görüşmək istədiyini bildirdi. Telefon danışığımızın ertəsi günü onunla görüşdük. Mənim şəxsi arxivimdə olan ulu öndərlə çoxsaylı görüşlərim barədə qeydlərim, qəzetlərdə dərc olunmuş yazılarım, başqa materiallar, DTK-nın əməkdaşları ilə bölgələrdə olduğumuz vaxtlar əmək kollektivləri ilə birgə çəkilmiş fotoşəkillər Elmira xanımın diqqətini cəlb etdi. Söylədiyim xatirələrimin əksəriyyəti diktafon lentinə yazıldı, təqdim etdiyim fotoşəkilləri isə istifadə edib qaytarmaq şərtilə götürdü. Bir məqamı da qeyd edim ki, kitab işıq üzü görənə kimi vaxtaşırı millət vəkili Elmira xanımla əlaqə saxlayır, bəzi dəqiqləşdirmələr aparırdıq. Sonradan öyrəndim ki, son 3-4 il müddətində aylarla Bakı və Moskvanın arxivlərində gərgin iş aparıb. Yüzlərlə Moskvada və Azərbaycan respublikasında rəhbər vəzifələrdə işləmişlərlə görüşlər keçirib, müsahibələr toplayıb. Həmin işləri Azərbaycan DTK-nın Əməkdaşları, eləcə də bütün respublika rəhbərliyində işlədiyi illərdəki silahdaşları, digər dövlət, partiya, elm, mədəniyyət və ictimai xadimləri ilə də yorulmadan işləmişdir.

Layihənin müəllifi Elmira xanımın özünün etiraf etdiyi kimi, üzərində işlədiyi, yazıçılıq fəaliyyəti dövründə ən böyük və məsuliyyətli işi ulu öndərə həsr etdiyi VI cildlik sənədli roman olacaq. Rus dilində hazırlanan "Qeydar Aliyev: Liçnost i epoxa" ("Heydər Əliyev: Şəxsiyyət və zaman") nəfis tərtibatda I və II cildləri 2008-ci ildə işıq üzü gördü.

Böyük məmnunluq hissi ilə qeyd edim ki, müəllifin mənə təqdim etdiyi ilk ikicildliyə verdiyim müxtəlif məsələlərə aid olan xatirələrimdən altısı, şəkillərin isə beşi daxil edilmişdir. Elmira xanım Axundovaya, misilsiz zəhməti bahasına həyata keçirdiyi çox samballı layihəyə görə təşəkkürümü bildirirəm.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, yaxın gələcəkdə layihənin növbəti cildləri ilə də müəllif öz oxucularının görüşünə gələcək. Bir daha əminliklə bildirirəm ki, ulu öndərin həyat və fəaliyyətinə həsr olunmuş nəşrlər birincilər olmadığı kimi, sonuncular da deyil. Onun dövlətçilik və idarəçilik irsi, ümumilikdə desək — Heydər Əliyev məktəbi gələcəkdə də öyrəniləcək, təhlil olunacaq və gələcək nəsl üçün örnək kimi yeni nəşrlərdə əksini tapacaq.

* * *

Bir dəfə Elmira xanım mənə gözlənilməz olsa da, təəccüb doğurmayan bir sualla da müraciət etdi.

— Bəxtiyar müəllim görüş və söhbətlərimizdən mənə məlum oldu ki, siz 20 ilə yaxın DTK-da ulu öndərin silahdaşı, onun 1-ci dəfə respublika rəhbərliyində olduğu 14 il ərzində də onunla xidməti təmasda, həyata keçirdiyi tədbirlərin iştirakçısı olmusunuz. Mən də 1993-2003-cü illərdə Azərbaycanda və

bütün dünya ölkələrinə rəsmi səfərlərində onu müşayət edən nümayəndə heyyətinin tərkibində olmuşam. Hər ikimiz onu çox ciddi, tələbkar olduğu kimi, həm də qayğıkeş rəhbər kimi tanıyırıq. Deyirlər o, bəzən fəhlə və kolkoxçularla görüşəndə, yeri gələndə onlarla yumorla danışır, zarafat edirdi. Belə bir hadisə xatirinizdə qalıbmı?

— İlk növbədə bildirim ki, ötən əsrin 70-ci illərini respublikanın digər rəhbər işçiləri və həmkarlarımla ulu öndəri respublikanın Qarabağ və Şirvan bölgələrində olduğu vaxtlar vaxtaşırı müşayət etmişik. O, bir qayda olaraq, əsasən kənd təsərrüfatının mövsümi işlərinin yaxşı təşkil olunduğu, yüksək nəticələrə nail olan kollektivlərdə, o cümlədən sənaye, tikinti-quraşdırma işlərində qızmar günəş altında, şaxtalı günlərdə fədakarlıqla çalışanlarda xoş əhval-ruhiyyə, xoş ovqat yaratmaq üçün yumordan da istifadə edirdi. Belə hallar ani məqamlarda, belə demək mümkündürsə, ötəri oldugu üçün hansısa konkret faktı xatırlamaqda çətinlik çəkirəm. Lakin heç vaxt unuda bilməyəcəyim, DTK səviyyəsində keçirilən bir yubiley tədbirində Azərbaycan KP MK 1-ci katibi Heydər Əliyevin 2-3 dəqiqə ərzində yaratdığı xoş ovqat barədə, indi mənə çox kövrək görünən bir olayı demək istəyirəm:

1970-ci ilin aprelində Azərbaycanın sovetləşməsinin, eləcə də respublika DTK-nın 50-illik yubileyi keçirilirdi. Respublika səviyyəsində olacaq ümumxalq şənliklərini həmin il oktyabrın 2-də keçirilməsi planlaşdırılmışdı. Səbəbi bu idi ki, həmin vaxtda SSRİ-nin rəhbəri L.Brejnyevin Bakıya ilk səfəri gözlənilirdi. Qısa qeyd edim ki, həmin tədbir təyin olunduğu vaxtda yüksək səviyyədə keçirildi...

DTK-nın yarım əsrlik yubileyi isə həmin aprel günlərində qeyd olundu. Azərbaycan çekistlərinin (bu ifadə bütün Sovet illərində rəsmi sənədlərdə və çıxışlarda işlənirdi) peşə bayramının rəsmi hissəsi lazımı səviyyədə qeyd olundu. Onun ertəsi günü, nahar fasiləsi vaxtına peşə bayramı şərəfinə respublika rəhbəri Heydər Əliyevin adından 100 nəfərlik ziyafət təşkil



olunmuşdu. Onlardan 50 nəfəri respublikanın partiya, hökumət və parlamentin rəhbər işçiləri, nazirlər və Bakı hərbi qarnizonunun yüksək rütbəli komandanları, 50 nəfəri isə DTK mərkəzi aparatının rəhbər işçiləri, rayon və şəhər şöbələrinin rəislərindən ibarət idi. Bu tədbirin keçirilməsi Bakının Dağüstü parkındakı "Drujba" ("Dostluq") restoranında nəzərdə tutulmuşdu.

Tapşırığa görə dəvət olunanlar təyin olunmuş vaxtdan 10-15 dəqiqə tez gəlib, "Drujba"nın girəcəyi önündəki meydançada toplaşmalıydılar. Həm də elə bir münasib, təxminən yarımdairə şəklində gözləməliydik ki, respublika rəhbəri hər birimizlə fərdi qaydada görüşə bilsin. Heydər Əliyev gəldi, bütün qonaqlarla əl verib görüşdü və bayram münasibətilə hamını təbrik etdi. Restorana dəvət olunub, hamı öz yerində əyləşəndən sonra Heydər Əliyev yanında əyləşən Nazirlər Soveti sədri Əli İbrahimova müraciətlə:

— Əli İsmayıloviç, kimi gözləyirik? Ziyafəti açın, çekistlərimizi təbrik edin ki, camaat işə başlasın.

Ə.İ.İbrahimov qəbulu açıq elan etdi. Sonra sözünü davam etdirərək təklif etdi ki, bugünkü qəbulu idarə etməyi, mənalı ömrünün böyük bir dövrünü bu orqanlarda ləyaqətlə xidmət etmiş, sıravi əməkdaşdan general rütbəsinə kimi yol keçmiş, indi isə MK-nın 1-i katibi Heydər Əliyeviçdən xahiş edək (Həmişə olduğu kimi bu qəbulda da bütün danışıq və çıxışlar dövrün tələbinə uyğun rus dilində gedirdi. Bu yazını öz ana dilimizdə yazsam da, hər iki rəhbərin müraciətlərini öz ifadələrində qeyd edəcəyəm).

Heydər Əliyev:

— Xeyr, Əli İsmayıloviç, ziyafətin pulunu kim ödəyəcəksə, məclisə rəhbərliyi də o etməlidir.

Əli İbrahimov:

— Heydər Əliyeviç, and içirəm ki, bu ziyafətin pulunun ödənilməsi barədə sərəncama mən yox, mənim 1-ci müavinim İsmayıl Əliyeviç qol çəkib, — deyərək yaxınlığında oturan 1-

ci müavinini, uzun illər Neft-Kimya institutunun rektoru işləmiş akademik İsmayıl İbrahimovu göstərdi (Akademik İ.İbrahimov bir neçə ay idi ki, NS sədrinin 1-ci müavini və MK-nın büro üzvü seçilmişdi).

Heydər Əliyev:

— Siz deyən sərəncama kimin qol çəkməsinin nə mənə, nə də başqa yoldaşlara aidiyyatı yoxdur. Məclisi sizin ikinizdən biriniz idarə etməlisiniz.

Respublikanın rəhbəri ilə hökumət başçısı arasındakı bu yaddaqalan, hamı üçün ürəkaçan dialoqdan sonra, ziyafəti akademik İsmayıl İbrahimov apardı. Heydər Əliyevin müdaxiləsi ilə yaradılmış xoş ovqat məclisin sonuna kimi davam etdi.

Belə bir xoş əhval-ruhiyyəyə sadəcə gülüş doğuran olay kimi baxmaq istəməzdim. Buna başqa, daha ciddi mövqedən də yanaşmaq istərdim. Əvvələ, yuxarıda qeyd etdiyimi təkrar edim ki, Heydər Əliyev çox ciddi və tələbkar olduğu kimi, insanlara qayğı ilə yanaşmağı bacaran, çox rəhbərlərə örnək ola bilən şəxsiyyət olmasından xəbər verir. Digər tərəfdən, ən əsası budur ki, belə bir sərbəstlik, hamıda əsl bayram ovqatı yaradılması, respublikanın iki aparıcı rəhbəri arasında olan normal, hamı üçün ürəkaçan münasibətdən xəbər verir ki, bunu əldə olunan yüksək nailiyyətlərin rəhni kimi qiymətləndirmək olar. Bunun üçün 1970-ci illərin respublika nailiyyətlərini xatırlamaq kifayətdir. Bunlar da yaradılmış yüksək intiziazmın parlaq nəticəsi idi.

Bununla da, Ulu Öndərin 1970-ci illərin əvvəllərindən başlayaraq bütün sahələrdə zirvəyə doğru irəliləməsinə başladığı dövrə rəğmən, haqqında yazdığım xatirələrimi belə bir əhval ruhiyyə ilə tamamlamaq istəyirəm.

*25 may 2008-cu il*



# DÖVLƏTƏ SƏDAQƏT VƏ PAK ƏQİDƏ ÖRNƏYİ



*General-mayor Ə.S Xalıqov*

Azərbaycan Respublikasının Sovetlər birliyi dövründə Dövlət Təhlükəsizliyi orqanlarında uzun illər qüsursuz xidmət edənləri xatırlayarkən general-mayor Əbdül Süleyman oğlu Xalıqovun adını birincilər sırasında çəkmək ədalətli olardı. Bu qeyri-adi xarakter sahibi ilə mənim ilk tanışlığım 1959-cu ilin ortalarından başladı. Bu illərdə mayor Ə.Xalıqov Respublika Dövlət Təhlükəsizliyi Komitəsinin Mərkəzi Aparatında, Ulu Öndərimiz Heydər Əliyevin başçılıq etdiyi əkskəşfiyyat şöbəsində bölmə rəisi, mən isə DTK-nın Zəngilan rayonu şöbəsində xidmətdə idim. Əməliyyat işinə 1952-ci ildən SSRİ DTK-nin Azərbaycan Dəmiryolu üzrə İdarəsində başlasam da, 1959-cu ilə kimi bu idarənin Respublika DTK-sı strukturuna daxil olmaması, yəni birbaşa Moskvanın tabeçiliyində olması səbəbindən, bizim xidməti əlaqəmiz bu orqanların birləşdiyi həmin 1959-cu ildən başladı.

Zaman keçdikcə Ə.Xalıqov vəzifə pillələri ilə inkişaf edərək, 1970-ci ilə kimi 2-ci əkskəşfiyyat şöbəsində rəis müavini, rəis və nəhayət, 1985-ci ilə kimi sədr müavini vəzifələrində şərəfli xidmət yolu keçmişdir. Mən isə 1970-ci ilin sonuna kimi Zəngilan rayon şöbəsində, 70-ci illəri isə 10 ildən artıq Ming-

əçevir şəhər şöbəsində xidmətimi davam etdirdim. Bütün bu illər ərzində Ə.Xalıqovla daima xidməti əlaqə və görüşlərimiz davam edirdi. Bu yerdə Ə.Xalıqova xas olan bir məqamı xüsusilə qeyd etmək istərdim.

Mən ilk tanış olduğum ildən onun xidmətinin sonuna kimi, bölmə rəisliyindən nazir müavininə, mayor rütbəsindən general-mayor ali hərbi rütbəsinə kimi yüksəlsə də, bu qəribə insanın xarakterində heç bir dəyişiklik hiss olunmurdu. O, yenə də dəyişmir, sadə, hamı üçün münasib həmsöhbət olurdu.

Etiraf edim ki, 1981-ci ilin əvvəllərinə kimi mən Ə.Xalıqovu Şamaxı rayonunun Nabur kəndində dünyaya gəlmiş kimi bilirdim. Eyni zamanda, onun xidmət yolunun əvvəlləri barədə heç bir məlumatım yox idi. Tale belə gətirdi ki, 1981-ci ilin yanvarında DTK-nın Mingəçevir şəhər şöbəsi rəisliyindən Bakıya, Komitənin Kadrlar aparatında bölmə rəisliyinə təyinat aldım. Beləliklə, general Ə.Xalıqov istefaya getdiyi 1985-ci ilə kimi bilavasitə onun tabeliyində xidmətimi davam etdirdim.

Bu müddət ərzində Əbdül müəllimin xarakterinin bütün incəliklərinə, xidmətə sədaqətli və tabeliyində olanlara yüksək diqqətcilliyi və qayğıkeşliyinə daha dərindən bələd oldum. Yaxşı deyiblər ki, yüz dəfə eşitməkdənsə bir dəfə görmək daha yaxşıdır.

1982-83-cü illərdə xidmət prosesində Əbdül Süleyman oğlunun xidmət kartı («Poslujnoy spisok»u) əlimə düşdü. Bu sənədlə tanışlıqdan sonra ilk dəfə mənə məlum oldu ki, o, 24 yanvar 1915-ci ildə Nabur kəndində yox, Çar Rusiyasının Amur vilayəti Blaqoveşşensk şəhərində anadan olmuşdur. Bunun səbəbi mənim üçün bir qədər təəccüb doğursa da, onun valideynlərinin çar imperiyası illərində hansı səbəbdənsə sürgünlük taleyi yaşamalarına məruz qalmalarını təxmin etdim. Sonradan belə bir imkan yarandı ki, Ə.Xalıqov özü mənim üçün maraqlı olan bu məsələ ilə bağlı ətraflı danışdı. İndi isə bu barədə bir qədər ətraflı...

1983-cü ilin payızında general Ə.Xalıqovla birlikdə Naxçıvana 3 günlük ezamiyyətə getdik. Sərnişin qatarında iki yerlik kupedə getdiyimiz vaxt yolboyu qeyri-xidməti mövzularda maraqli söhbətimiz oldu. Bakıdan yola düşəndə axşam çay süfrəsi arxasında Əbdül müəllim mənim valideynlərimlə, özümün gənclik illərilə və DTK-nə xidmətə başlayana kimi məşğuliyyətimlə maraqlandı. Yaranmış məlum şəraitdən istifadə edərək mən də onun Blaqoveşşensk şəhərində doğulması ilə maraqlandım. Mənim sualıma cavabdan əvvəl bir qədər gülümsədi və «...Bəxtiyar, bu uzun məsələdir»,-deyərək söhbətini davam etdirdi. Onun dediklərini öz sözləri ilə qeyd etmək istəyirəm:

— Bizim həmyaşıdlarımız, ümumiyyətlə, bütün ittifaq məkanında «repressiya»dan danışarkən çoxları ancaq Sovet dövrünü, əsasən də 30-cu illəri xatırlayırlar. Əslində belə deyil. Məlum səbəblərdən Azərbaycanın da rus imperiyasının əyalətlərindən biri olduğu XIX əsrin əvvəllərindən çar məmurları yerlərdə əhali arasında imkanlı və nüfuz sahibi olanları nəzarətdə saxlayırlarmış. Səbəbi isə çox sadə, — həmin nüfuzlu kişilərin təhriki ilə, guya xalq arasında hakimiyyətə qarşı itaətsizlik meyllərinin baş verməsi ehtimalı ilə qısqanclıq olub. Məhz bu səbəbdən də bölgədə imkanlı və nüfüzlu olan gənc atam Süleyman bəy də 1898-ci ildə bir neçə həmyerliləri ilə birlikdə «arzuolunmaz şəxs»lər kimi uzaq Amur vilayətinin Blaqoveşşenski şəhərinə sürgün olunublar. Atam həm də uzaqgörən adam olub. Nə vaxtsa Vətənə dönmək arzusu ilə yaşayıb. Məhz bu səbəbdən də ailə qurmaq barədə tələsməyib. Çox güman ki, başqa millətdən olan yerli qızlarla ailə qurmağın onun Vətənə qovuşmasına mane olacağını nəzərə alıb. Bu səbəbdən də elə həmin şəhərdə sürgünlük taleyini yaşayan həmkəndlisinin qızı ilə ailə qurub. Bu nigahdan da mən 1915-ci il yanvarın 24-də Blaqoveşşenski şəhərində dünyaya gəlmişəm. Ümumiyyətlə, valideynlərim 25 ildən çox sürgündə olandan sonra doğma Nabur kəndinə qayıdırlar. O vaxt mənim 9 yaşım olub...

Əbdül Süleyman oğlu Xalıqovlar ailəsinin nağıllarda deyilənlərə bənzər başlarına gətirilən müsibətlərdən danışanda arabir köksünü ötürür, həm də gülümsünürdü. Son olaraq «indi bildinmi mənim Amur vilayətində doğulmağım hekayəti necə baş verib»-deyərək, bu barədə söhbətini qurtardı.

Yuxanda qeyd etdiyim kimi Ə.Xalıqovun «xidmət kartından» onun keçdiyi maraqlı həyat yolu artıq mənə məlum idi. O, Vətənə döndükdən sonra 11 yaşında atasını, qısa vaxtdan sonra isə anasını itirir. 1934-36-cı illərdə Azərbaycan diviziyasının 77 artilleriya alayında hərbi xidmətdə olur. 1936-41-ci illərdə Şamaxı rayon milis şöbəsində işləyir. 1941-1985-ci illərdə isə fasiləsiz olaraq respublikanın Dövlət Təhlükəsizlik orqanlarında müxtəlif vəzifələrdən işləyib. O cümlədən, bu orqanların Şamaxı, Kürdəmir və Yevlax rayon şöbələrinin rəisi, 1950-ci illərin sonundan DTK-nın mərkəzi aparatında bölmə rəisi vəzifəsindən nazir müavini vəzifəsinə kimi yüksəlmişdir.

Ə.Xalıqov BDU-nun hüquq fakültəsini bitirmişdir. Onun qüsursuz xidməti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, Lenin, iki dəfə Qırmızı Ulduz ordenləri, 20-dən artıq müxtəlif medallarla mükafatlandırılmışdır. DTK-nın fəxri əməkdaşı və respublikanın Əməkdar Hüquqşünası fəxri adlarına layiq görülmüşdür.

General Ə.Xalıqovun Vətənə sədaqətli xidməti və zəhmətsevərliyi xalqımızın ulu öndəri Heydər Əliyev tərəfindən həmişə yüksək qiymətləndirilmişdir. Bunlarla bağlı tarixə dönmüş və mənim üçün də əlamətdar olan bir olayı tam dəqiqliyi ilə qeyd etmək istəyifəm.

1969-cu il fevralın 2-də Bakıda Dzerjinsiki adına klubun böyük zalında DTK-nın geniş kollegiya iclası keçirildi. Gündəlikdə olan məsələ ötən ildə görülmüş işlərin yekunu və cari ilə qarşıda duran məsələlərin həyata keçirilməsinə həsr olunmuşdu. Kollegiyada Moskvadan gəlmiş SSRİ DTK-nın da üç nəfər yüksək rütbəli nümayəndələri iştirak edirdi. Qeyd





*Əbdül Xalıqov ömür-gün yoldaşı Ayna xanımla*

edim ki, H.Əliyevin həmin ilin iyulunda respublikaya rəhbər seçilməsinə qədər, DTK-nın sədri olaraq, keçirdiyi sonuncu geniş və yaddaqalan kollegiya idi. Hesabat məruzəsi ilə sədr, general-mayor Heydər Əliyev çıxış etdi. Məruzədə xarici kəşfiyyat, əkskəşfiyyat, digər xidmətlərlə yanaşı, kadr məsələsinə də geniş yer verildi. Məruzəçi üç nəfər rəhbər işçinin işinə çox yüksək qiymət verərək, onları həm də öz tabeçiliklərində olanlara nümunə kimi səciyyələndirdi. Həmin üç nəfərdən ilk olaraq komitənin əkskəşfiyyat şöbəsi rəisi Əbdül Xalıqovun adını çəkdi. Çox təəssüf ki, 2-ci adıçəkilən həmkarımızın adını unutmuşam. Təvazökarlıqdan kənar olsa da, ulu öndərimizin dediyi, tarixə dönmüş 3-cü qiymətli söz, deməliyəm ki, o vaxt Zəngilan rayon şöbəsinin rəisi işləyən bu sətrlərin müəllifinin adını çəkdi.

Ə.Xalıqovun bilavasitə rəhbərlik etdiyi kadrlar şöbəsində birgə xidmət keçirdiyim illər ərzində ondan əxz etdiyim, dövlət qulluqçusuna vacib olan müsbət dəyərləri bu gün də məmnunluq hissi ilə xatırlayıram.

Xidmət illəri ilə bağlı xatirələrim barədə son olaraq bir mə-

qamı qeyd etmək istəyirəm. 1985-ci il avqustun sonuna yaxın general Ə.Xalıqovun istefaya çıxması barədə Moskvadan əmr gəldi. Kollegiya üzvləri ilə birlikdə respublika DTK-nın rəhbərliyi onun uzun illər dövlətə qüsursuz xidməti yüksək qiymətləndirilərək layiq olduğu səviyyədə istirahətə yolasalma mərasimi qeyd olundu. Buna bənzər tədbir 28 avqust 1985-ci il tarixdə bizim kadrlar şöbəsində keçirildi. Bu tədbirdə bir qədər kövrək məqamlar da oldu. Sonda Əbdül müəllim şəxsi sənədlərini saxladığı qovluğu götürərək bizimlə sağollaşaraq kabinetindən çıxdı. Lakin dəhlizdən qayıdaraq qovluğu seyfə qoydu və «onsuz da sabah bura gələcəyəm»-deyib evə yollandı. Ertəsi günü təxminən saat 11.00 radələrində şöbənin katibi A.Bajenova bütün əməkdaşları Ə.Xalıqovun kabinetinə dəvət etdi. Hamı toplanandan sonra hər şey aydın oldu. Həmin gün zabitlərdən birinin yuvarlaq rəqəmlə ifadə olunan doğum günü öncə, həmişə olduğu kimi Əbdül Süleyman oğlunun təşəbbüsü və iştirakı ilə yubilyara alman xatirə hədiyyələrinin təqdimatı və təbrik olunması mərasimi keçirildi. Bu tədbiri həyata keçirəndən sonra Əbdül müəllim xoş əhval-ruhiyyə ilə qeyd etdi ki, o, özü doğma kollektivi ilə ürəyincə olan belə şəraitdə ayrılmaq üçün bu gün bura qayıtmaq qərarına gəlib. İş yerində silahdaşları ilə Ə.Xalıqovun bu sonuncu görüşü idi. Bəli, o, belə səmimi və qayğıkeşliyi ilə bir çox rəhbər işçilərə örnək olan şəxsiyyət kimi, qəlblərdə əbədi yaşayacaq.

Zaman keçdikcə tale hər bir adam barəsində öz qaçılmaz hökmünü verir. Əbdül Xalıqov da öz taleyinin tələbilə 30 iyul 1996-cı ildə dünyasını dəyişərək haqqın dərgahına qovuşdu. Xalıqovlar ailəsinə və respublika ictimaiyyətinə üz verən bu ağır itki ilə əlaqədar Bakının Şəhriyar adına mədəniyyət mərkəzində (keçmiş Dzerjinski adına klubda) dövlət səviyyəsində mərhumla izdihamlı vidalaşma mərasimi keçirildi. Dövlətin digər rəhbər işçiləri ilə respublika Prezidenti Heydər Əliyevin Ə.Xalıqovun son mənzilə yola salınmasında şəxsən iştirakı



mərhuma ümumxalq məhəbbəti olmasının təzahürü kimi qiymətləndirilə bilər.

2005-ci il yanvarın 24-də Ə.Xalıqovun anadan olmasının 90 illik yubileyi Respublika Milli Təhlükəsizlik Nazirliyi səviyyəsində layiqincə qeyd olundu. Həmin gün nazirliyin rəhbərliyi, idarə və şöbə rəisləri, şəxsi heyətin xidmətdə olan digər nümayəndələri, veteranlar Ə.Xalıqovun ailə üzvləri və başqa yaxınları Fəxri xiyabana gələrək mərhumun qəbrüstü abidəsi önünə tər çiçəklər qoyaraq, geniş anım mərasimi keçirdilər.

Anım günü axşam «Azərbaycan» mehmanxanasının «Mərmər» zalında Ə.Xalıqova həsr olunmuş xatirə gecəsi keçirildi. Gecənin keçirilməsini aparmaq mərhumun övladları Sevil xanımın və Süleymanın təklifilə general Xalıqovla birlikdə uzun illər respublika DTK-də kollegiya üzvü olmuş, Azərbaycan SSR ərazisindəki sərhəd qoşunları komandanı işləmiş general-mayor Mustafa Nəsirova və bu sətrlərin müəllifinə həvalə olundu...

Ə.Xalıqovun 90 illik yubileyi ilə bağlı qeyd etdiyimiz anım mərasimlərindən bir neçə gün sonra tanınmış şair Zülfüqar Şahsevənli mənə telefonla zəng etdi. O, özünü mənə «Günay» qəzetinin baş redaktoru kimi təqdim etdi. Sonra isə bildirdi ki, general-mayor Ə.Xalıqovun yubileyi ilə bağlı onun barəsində silahdaşlarının xatirələrindən ibarət xüsusi səhifə hazırlamaq planlaşdırılıb. Müsahibə vermək üçün uzun illər dövlət təhlükəsizliyi orqanlarında rəhbər vəzifələrdə işləmiş veteranların MTN-dən verilən siyahısında mənim də adımın olduğunu dedi və məsələyə münasibətimi soruşdu. Bu təklifə böyük məmnunluqla razı oldum və mərhumla bağlı xatirələrimi yazıb, yaxın günlərdə redaksiyaya təqdim edəcəyimə söz verdim. Zülfüqar müəllim qəzetin növbəti sayının yazılarının tam hazır olduğunu dedi və gecikdirməmək üçün verəcəyim müsahibənin qısa mətnini elə həmin an diktafona yazmaq üçün telefonla söyləməyi təkidlə xahiş etdi. Mən onunla razılaşmalı ol-

dum və heç bir hazırlıq olmadan xatirəmdə olan bəzi məqamları söylədim.

Ə.Xalıqov barəsində toplanmış xatirələr «Günay» qəzetinin 12 fevral 2005-ci il tarixli sayında «Ömür sənə verilib ki...» ümumi başlığı altında nəşr olundu. Səhifədə «Əzablı yollarla» başlığı altında Xalıqovlar ailəsinin başına rus imperiyasının XIX əsrin sonu, XX əsrin əvvəllərində gətirilən müsibətlər çox ustalıqla, böyük oxucu marağına səbəb olan kövrək sətirlərlə şərh olunmuşdu. Bunları həyacansız oxumaq mümkün deyil. Bütün qarşılaşdığı işgəncəli və əzablı çətinliklər Ə.Xalıqov dəyanəti və cəsarəti qarşısında indi çox aciz görünür. O rastlaşdığı bütün çətinliklərə mərdliklə sinə gərərək, onları dəf edə bilmişdi...

Qəzet səhifəsindəki yazılardan general-mayor Mustafa Nəsirovun «O, əvəzsiz insan idi», «DTK sədrinin sabiq müavini general-mayor B.Hüseynovun dediklərindən» və polkovnik A.Adnayevin «Ağır da olsa dözməlisən...» başlıqları altındakı xatirələr xüsusilə böyük oxucu marağını cəlb edir. Ən azı ona görə ki, həmin yazılarda Ə.Xalıqovun bütün insani dəyərləri, dövlətə, xalqa sədaqətli xidməti, prinsipial mövqeyi yetərincə obyektiv şərh olunur.

Mənim telefonla söylədiyim ayaqüstü müsahibəyə «Əsl general» başlığını da Zülfüqar müəllimin özü seçmiş və qəzetin 1-ci səhifəsinə çıxarmışdı. Doğrudur, mənim söylədiklərimi genişləndirmək məqsədilə Zülfuqar müəllim öz yazı üslubu ilə bəzi kiçik əlavələr də etmişdi. Lakin bu əlavələr yazının məzmununa xələl gətirməmişdir. Həmin müsahibəni qəzetdə dərc olunduğu məzmunda çox cüzi düzəliş və əlavələrlə oxuculara təqdim edirəm:

**« Əsl general**

Polkovnik-leytenant Bəxtiyar Süleymanovun dediklərindən: Əbdül Süleyman oğlu sadəlik, böyüklük, saflıq, xeyirxahlıq timsalıydı. Onunla ilk tanışlığımız 1959-cu ilin əvvəlində olub. Mən o vaxt DTK-nın Zəngilan şöbəsində işləyirdim.



Xidməti işimizlə bağlı ara-sıra görüşürdük. Əbdül müəllim son dərəcə pak, zəhmətkeş, insanı diqqətlə dinləməyi bacaran, ona kömək etməyə çalışan bir insan idi. Onda nəsildən, nəcabətdən gələn yüksək mədəniyyət, zadəganlıq, böyük ziyalılıq, həm də hər insanın dərdini, düşüncəsini, qayğısını gözündən oxumaq duyğusu vardı. Bu, əsl çekistlərə xas olan nadir keyfiyyətdir.

Yadıma həyatımla bağlı kədərli bir epizod düşür. 60-cı illərin əvvəllərində ailəmizdə çox ağır xəstə vardı. Sarsıntı içindəydim. Təcili məzuniyyətə çıxmaq, xəstəni Bakıya gətirmək zərurəti yaranmışdı. Kadrlar şöbəsində qəti şəkildə dedilər ki,



*Respublika partiya təşkilatının XIX qurultayında DTK-dan seçilmiş nümayəndələr. (Ə.Xalıqov ön sırada, sağdan 2-ci)*

mümkün deyil, cədvəldə növbən çatan vaxt məzuniyyətə gedəcəksən. Üçüncü mərtəbənin dəhlizində dilxor vəziyyətdə var-gəl edirdim. Əlimi hər yerdən üzmüşdüm. Bu vaxt gördüm ki, Əbdül Süleyman oğlu qoltuğunda qovluq mənə sarı gəlir. Dövlət Təhlükəsizlik Komitəsində ən böyük şöbə vardı — Ək-

skəşfiyyat Şöbəsi. Onun da rəisi xalqımızın böyük oğlu Heydər Əliyev idi. Əbdül Xalıqov Heydər Əliyevin kabinetindən çıxıb gəlirdi. Məni görüb çox səmimi görüşdü: «Bəxtiyar, xeyirdirmi?» Dedim ki, Əbdül müəllim, bəs belə, gəlmişdim kadrlar şöbəsinə bu məsələdən ötrü. Dedi ki, bəs niyə dilxorsan? Demək istəmədim. Əl çəkmədi. «Yox, gözlərindən oxuyuram ki, nəyi isə gizlədirsən». Vəziyyəti ona danışdım. Hiss elədim ki, tutuldu. Fikirli-fikirli məndən aralandı, dedi ki, gəlirəm. Düşündüm ki, nəsə bir işdən ötrü getdi. Az sonra Heydər Əliyevin kabinetindən çıxıb mənə yaxınlaşaraq dedi: «Bəxtiyar, təcili get kadrlar şöbəsinə, İsmayıl Abdullayevin yanına. Bir saatacan məzuniyyətini də, məzuniyyət pulunu da alacaqsan». Sonralar öyrəndim ki, Əbdül müəllim Heydər Əliyevə vəziyyəti danışıb, o da Dövlət Təhlükəsizlik Komitəsinin o vaxtkı sədr müavini Eyvaz Məmmədova zəng edib ki, Bəxtiyarın xəstəsi var, onu təcili məzuniyyətə göndərmək lazımdır. Eyvaz müəllim DTK nəqliyyat şöbəsinin rəisi olandan tanıyırdım. O da məni tanıyır, hörmətlə yanaşırdı. Məsələ beləcə həll olundu. Bu adicə bir epizod olsa da, ömrüm boyu onu unutmuram. Çünki, mənim üçün ağır məqamda Heydər Əliyev, Əbdül Xalıqov və Eyvaz Məmmədov kimi ali dəyərli insanların qayğısını görmüşəm.

Əbdül müəllim təmtərağı, hay-küyü sevməz, sadə, səmimi insanlarla oturmağı xoşlardı. Vaxtı ilə rayon şöbələrində illik və yarımilliyin yekunu olan zona müşavirələri olardı. Mənim 1956-1970-ci illərdə işlədiyim Zəngilan şöbəsi də DTK-nın bölgədəki bir neçə sərhəd rayon şöbələrinin əməliyyat işçiləri ilə birlikdə Füzuli rayonunda keçirilən zona müşavirəsində iştirak edərdi. 1967-70-ci illərdə belə toplantıları keçirmək üçün DTK-nın kollegiya üzvü kimi Əbdül Xalıqov da arabir gələrdi. Adətən, əvvəllər Bakıdan gələn rəhbər işçilər rayon şöbə rəisləri ilə birlikdə nahar fasiləsində gənc əməkdaşlardan ayrı otururdular. Hamıya xidmət eyni olsa da, bu, qonağa hörmət əlaməti olaraq belə olurdu. Amma Ə.Xalıqov belə «bölgü»



ilə heç vaxt razılaşmırdı. Deyirdi ki, necə işləmişik, o qayda ilə bir yerdə çay içməliyik. Sadə əməkdaşlarla birlikdə olmağı xoşlayırdı...

1970-ci ilin sonuna kimi Zəngilanda xidmətdə oldum. 1971-81-ci illəri isə DTK-nın Mingəçevir rayonlararası şöbə rəisi vəzifəsində oldum. Bu illər ərzində, şöbənin işinin miqyası əvvəlki illərlə müqayisədə xeyli böyük və çoxşaxəli idi. Məhz bu baxımdan da Ə.Xalıqov da daxil olmaqla komitənin rəhbərliyi, şöbə rəisləri ilə xidməti əlaqələrim daha çox olurdu. Qeyd etdiyim kimi, 1981-ci ilin yanvarından Bakıya, DTK-nın mərkəzi aparatında, kadrlar şöbəsində bölmə rəisi təyin olundum. Həmin vaxt Ə.Xalıqov DTK sədrinin kadrları üzrə müavini idi. Beləliklə, bu nəcib insanın bilavasitə tabeçiliyində beş ilə qədər işlədim. Bu müddətdə onun xarakterinin qibtə etməli incəliklərinə bələd oldum. 1985-ci ildə o, 1987-ci ildə isə mən istefaya çıxdıq. Bu xidməti ayrılıq bizim şəxsi əlaqələrimizə mane olmadı. Bu qayğıkeş insanın təşəbbüsü ilə tək-tək hallarda telefon əlaqlərimiz və təsadüfi görüşlərimiz mərhumun ömrünün sonuna kimi davam etdi. Mən, ağsaqqalım kimi onun rahatlığına mane olmamaq məqsədilə ancaq ad günü və peşə bayramlarından başqa vaxtlar zəng etməməyimə görə bu mehriban kişinin iradlarını da qəbul etməli olurdum.

Ə.Xalıqovun mənə göstərdiyi daha bir diqqəti qeyd etmək istərdim. 1988-ci ilin yayında qohum-əqrəbalarımla görüşmək üçün Zəngilanda öz kəndimiz Bartaza getmişdim. Kəndin mərkəzi məhəlləsindəki rabitə şöbəsinin həyətində həmkəndlilərimlə söhbət edirdim. Bu vaxt ATS-də növbədə olan telefonçu qız məni «Bakıdan sizi istəyirlər» deyib telefona çağırdı. Əbdül müəllimin səsini eşidəndə bir qədər məmnunluqla yanaşı, təəccüb hissi də keçirdim. O, özünəxas astadan gülərək, «Bəxtiyar, Bakıdan qaçmaqla əlimdən qurtara bilməzsən»-deyib məni ad günümlə əlaqədar təbrik etdi və xoş arzularını bildirdi. Bir neçə gündən sonra Bakıya qayıtdım. Öy-

rəndim ki, Əbdül Süleyman oğlu mənim olduğum istiqaməti Bakıdakı mənzilimə zəng edib həyat yoldaşımdan öyrənib. Bu dəyərli insanın tək məni yox, əksər həmkarlarını, 30-40-cı illərdən dostluq və yaxın qonşuluq etdiyi insanları arayıb-axtarmasının, insanlara diqqət göstərməsinin şahidi olmuşam. Məhz buna görə də Əbdül müəllim onu tanıyanların qəlbində əbədi yaşamağa layiq olan şəxsiyyətlərdəndir».

Güman edirəm ki, Azərbaycan oxucularında istər «Günay» qəzetinin səhifəsindəki maraqlı yazılarda, istərsə də bu sətrlərdə Xalıqovlar ailəsinin sovetləri hakimiyyətə gətirən inqilabdan əvvəl rus imperiyası illərində keçirdikləri əzab-əziyyətlər barədə müəyyən təsəvvür yarada bildik. Eyni zamanda general Ə.Xalıqovun yetərincə maraqlı həyat yolu, onun dövlətə sədaqətli xidməti, pak əqidəsi haqqında danışmaqla Azərbaycan dölətçiliyinin və xalqının təhlükəsizliyinin təminatının əsas dayaqlarından biri olan respublika MTN-nin indiki və gələcək nəsillər üçün örnək ola biləcək bəzi məqamlarını xatırlatdım. Bu baxımdan Əbdül müəllim kimi nəcib, xeyirxah əməllər sahibi insanların nəsillərə nümunə olan nümunəvi fəaliyyətini vaxtaşırı xatırlamaq onların silahdaşları olan bizlərin şərəfli işidir. Bütün bu dediklərimizə rəğmən əminliklə bildirim ki, general Əbdül Süleyman oğlunun hamımıza əziz olan xatirəsi onu tanıyanların və gələcək nəsillərin qəlbində əbədi yaşayacaq.

*24.01.2006-cı il*



# QƏHRƏMANLIQ VƏ CƏSURLUQ NÜMUNƏSİ

**Əsl vətənpərvər insan odur ki, ... Vətəninin yüksəlişi, xalqının səadəti naminə canını qurban verməkdən çəkinməsin.**

*M.F.Axundov*



*İsmayıl Sayılov*

Azərbaycanın Sovetləşməsi 1920-ci ildən başlayaraq 70 ildən artıq bir müddətdə hamımızın vətənimiz «SSRI» adlanırdı. Məhz bu səbəbdən də Sovetlər birliyi təhlükəsizliyinin təmin olunması hamımızın konstitutsiya borcumuz idi.

Alman faşizmi dünyaya ağalıq etmək iddiası ilə bir çox Avropa ölkələrini işğal etdikdən sonra, «hücum etməmək» barədə SSRI ilə bağlanmış sülh müqaviləsinə xəyanət edərək, 1941-ci ilin iyununda vətənimiz üzərinə qəflətən hücum etdi. Dünyada misli görünməmiş irimiqyaslı ölüm-dirim savaşında təcavüzkarla mübarizəyə yüz minlərlə azərbaycanlı oğlu və qızları da ayağa qalxdılar və müharibənin məntiqi sonuna kimi düşmənə qarşı vuruşaraq qələbənin təmin olunmasında fəal iştirak etdilər.

1941-45-ci illər Böyük Vətən Müharibəsində düşmənə qarşı amansız döyüşlərdə mərdlik və böyük qəhrəmanlıq nümunəsi göstərərək, təmsil etdiyi millətin qəhrəmanlıq səlnaməsi-

nə öz qanı ilə yeni səhifə yazanlardan biri də, 1943-cü ilin oktyabrında Melitopol şəhərini düşməndən azad edərkən həlak olmuş «Əfsanəvi kapitan» kimi adı dillər əzbəri olan Ismayıl Sayılovdur. Onun cəbhə həyatına keçməzdən öncə, xalqımızın bu igid oğlunun kimliyinə qısa nəzər salmaq istəyirəm:

Ismayıl Sayılov 1901-ci ildə Zəngilan rayonunun Bartaz kəndində ortabab kəndli ailəsində anadan olmuşdur. Gənclik illərini atası Məşədi Cəbrayıl kişinin fərdi təsərrüfatında işləyir. Eyni zamanda, 20-ci illərin əvvəllərindən başayaraq gecə kurslarında və ümumtəhsil məktəblərində təhsil alır. Komsomolçu, 1927-ci ildən isə bolşeviklər partiyasının üzvü olub. Ictimai işlərdə fəallığını nəzərə alaraq məsul işdə çalışdığı Cəbrayıl Rayon Partiya Komitəsinin *(bundan sonra RPK — B.S.)* göndərişi ilə Gəncə partiya məktəbini bitirərək, bir neçə il yenə də Cəbrayıl RPK-də şöbə müdiri və Zəngilan rayon torpaq şöbəsində müdir vəzifələrində işləyir. 1934-cü ildə Bakı Ali Partiya Məktəbini bitirdikdən sonra o, Ağcəbədi RPK-də şöbə müdiri vəzifəsinə göndərilir.



***BVM qəhrəmanı İsmayıl Sayılov (ortada) döyüş yoldaşları ilə 1942-ci il.***

I.Sayılov 1936-1941-ci illərdə rəhbər partiya və dövlət işlərində fəaliyyəti Naxçıvan MSSR-də davam edir. 1936-38-ci illərdə Culfa RPK-nin şöbə müdiri işləmişdir. Sonrakı illəri isə Muxtar Respublika üzrə Tədarük Müvəkkilliyi rəhbəri, «Şərq qapısı» qəzetinin şöbə müdiri, redaktor müavini, baş redaktor, nəhayət, Naxçıvan MSSR Xalq Komissarları Soveti yanında Incəsənət işləri idarəsinin rəisi vəzifələrində çalışmışdır...



1930-cu illərin əvvəllərindən başlayaraq I.Sayılov ədəbi yaradıcılıqla məşğul olmuşdur. Ədəbi fəaliyyətinin Naxçıvan dövründə onun şair və yazıçı kimi yaradıcılığı daha məhsuldar olmuş, çoxsaylı şeir və mənzum səhnə əsərləri dövrü mətbuatda çap olunmuşdur. Həmin illərdə o, yenicə ədəbi yaradıcılığa başlayan yazıçı kimi Respublika Yazıçılar Ittifaqının üzvlüyünə qəbul olunur. Həmin illərdən başlayaraq M.S.Ordubadi, S.Vurğun, M.Ibrahimov, S.Rəhimov, S.Rüstəmov, Ə.Vəliyev, Ə.Sadiq kimi böyük şöhrət qazanmış ədiblər və şairlərlə yaxın dostluq əlaqələrində olur.

Ədəbi yaradıcılıq illərində «Cəbhə səni gözləyir», «Cəbhədən gələn səslər» şeir kitablarının, «Babək», «Təyyarəçi qız» mənzum səhnə əsərlərinin müəllifi olmuşdur.

BVM-in başlaması ilə bağlı vətənimizin səmasını qara buludlar alanda, şair I.Sayılov «Şərq qapısı» qəzetində nəşr etdirdiyi «Vuruşlar» şerində xalqın adından belə deyirdi:

*Bu yurduma yad adamlar*
*Ayaq basıb girə bilməz,*
*Bu açılan qönçə güldən*
*Əl uzadıb dərə bilməz...*

Vətənimizin gələcəyi təhlükədə olduğu məqamda ölüm-dirim müharibəsi cəbhəsində baş verənləri uzaqdan seyr etməyi, vətən eşqi ilə döyünən ürək sahibi I.Sayılov özünə rəva bilmədi. Naxçıvanlı hərbi mükəlləflər səfərbər olunduğu vaxt o da könüllü olaraq ərizə ilə ehtiyatda olan zabit kimi cəbhəyə göndərilmək üçün hərbi komissarlığa müraciət etdi. Beləliklə, Naxçıvandakı hərbi hissədə xidmətə səfərbər olundu.

Bütün varlığı ilə millətinə və dövlətinə bağlı olan Ismayıl Sayılovun vətən uğrunda döyüşlərdə qəhrəmanlıqla həlak olmasına və şəhidlik zirvəsinə aparan döyüş yolu məhz buradan, Naxçıvan torpağından başlandı. I.Sayılovun xidmətə başladığı hərbi hissə Moskvanın göstərişi ilə ilk növbədə 41-ci ilin avqustunda Iranın Təbriz şəhərinə göndərildi. Orada üç aydan artıq qaldıqdan sonra, yenə də həmin hərbi birləşmə vətənə dönür və Naxçıvandan keçməklə birbaşa cəbhəyə göndərilir. Artıq 41-ci ilin dekabrında Kerç, 42-ci ilin yanvarında isə həmin hərbi hissə Feodosiyaya doğru irəliləyirdi. 1942-ci ilin aprelində I.Sayılov bataylon komandiri, eyni zamanda həmin batalyonun (tabor) siyasi rəhbəri təyin olunur. Bir neçə döyüş əməliyyatından sonra hərbi hissə Krasnodar ərazisinə qayıdır. Orada bir neçə ay qaldıqdan sonra 42-ci ilin iyununda ordunun bir neçə hərbi hissə komandiri və siyasi hissə üzrə komandir müavini Tibilisi şəhərindəki zabit təkmilləşdirmə məktəbinə göndərilir. Bu məktəbdə hazırlıq kurslarını bitirdikdən sonra Ismayıl Sayılov da daxil olmaqla bir neçə zabit əvvəlki xidmət etdiyi hərbi hissəyə yox, 416-cı Azərbaycan atıcı diviziyasının sərəncamına göndərilir. Elə həmin vaxtdan diviziyanın 1368-ci alayının birinci taboru komandirinin siyasi hissə üzrə müavini vəzifəsinə təyin olunur. Ismayıl Sayılov burada xidmətə başladığı ilk gündən döyüş əməliyyatlarında iştirak etmək üçün həmişə əsgərlərin önündə gedər, onların düşmənə qarşı döyüşə hazırlanmasında çox böyük məharət göstərərdi. Bir qayda olaraq, I.Sayılov boş vaxtını hərbi hissə qərargahının dəhlizlərində keçməsini xoşlamırdı. O, həmişə ön cəbhədə əsgərlərlə çiyin-çiyinə döyüşər, onları həmişə irəli getməyə, düşmənə zərbə endirməyə sövq edərdi. Yazıçı Mehdi Hüseyn «Dörd yüz on altı» adlı əsərində yazır: Ukraynalı serjant Babenko I.Sayılov barəsində şüar yaratmışdı: «Əgər siz I.Sayılovu görmək istəyirsinizsə, ön cəbhəyə gedin». Başqa bir şüarda deyilir: «I.Sayılov bizimlədirsə, qələbə də bizimdir»...



1368-ci alayın batalyonlarının hamısı döyüşə eyni vaxtda başlayan zaman I.Sayılovun siyasi rəhbər olduğu birinci batalyon xüsusilə fərqlənirdi. Bu da ondan ibarət idi ki, Ismayıl bir əlində tapança, bir əlində qumbara «Oğlanlarım, Vətən uğrunda irəli, ura!» deyərək əsgərləri döyüşə ruhlandırırdı. Belə döyüşlərin birində I.Sayılov bir neçə faşist əsgərini məhv edəndən sonra bir alman zabitini yaxalayıb qərargaha gətirir. Bundan sonra döyüşçülər arasında sevimli siyasi rəhbərləri I.Sayılov barədə yeni şüarlar deyilməyə başladı. Ona «Kürd pəhləvanı», yaxud da «əsgər atası» deyirdilər. Döyüş əməliyyatlarının ən çətin məqamlarında da qələmini yerə qoymurdu. Vaxt tapdıqca düşmənə nifrət dolu və əsgərləri döyüşə ruhlandıran şeirləri və başqa yazıları «Döyüşçünün cib dəftəri», «Boyevoy listok» («Döyüşçünün vərəqəsi») və başqa nəşrlərdə dərc olunurdu. Onun ən maraqla oxunan, kövrək misralarla ifadə etdiyi bir şerinin adını çəkmək üçün bir qədər geri, 42-ci ilin yanvarına qayıtmalı olacağam. Hələ o, 416-cı diviziyaya gələndən əvvəl 42-ci ilin yanvarında döyüşlərin birində yaralanır. Həmin yaradan müalicə olunmaq üçün hərbi hospitalların birində olduğu vaxt aldığı yaradan qan ləkəsi düşmüş şinelinə baxaraq, sanki onunla söhbət edirdi. Yazdığı şeirin adını «Boz şinel» qoyur. Bu şerdə o, qələbəyə qəti inamını bildirməklə Böyük Vətən müharibəsinin bizim ordumuzun qələbəsi ilə bitəndən sonra vətənə qayıdacağını və şinelinə düşən qan ləkəsini anasına yuduzduracağına söz verir. Lakin taleyin hökmü ilə qanlı döyüşlərin birində o, qəhrəmancasına həlak olduğundan, verdiyi vədə əməl edə bilmir. Indi isə həyəcansız oxunması mümkün olmayan «Boz şinel» şerini bu yazının oxucularına təqdim etmək istərdim:

## BOZ ŞINEL

*Bir ananın qoynu tək*
*çox istisən, boz şinel,*
*Geydim səni əsəndə*
*cəbhələrdə soyuq yel.*
*Varlığımı qorudun*
*min yağışdan, borandan,*
*Bədənimə qoymadın*
*soyuq dəyə bircə an.*
*Torpaq səngər qoynunda*
*sənə ümid bağladım,*
*Mən səninlə, a dostum,*
*çox yeri ayaqladım!*
*Şaxtalı gecələrdə*
*nə dəyişdin, nə soldun,*
*Illər boyu yorğanım,*
*yastığım da sən oldun.*
*Yadındamı o günü*
*qanlı döyüş meydanı?*
*Güllə dəydi qoluma…*
*bədənimin al qanı*
*Axdı-axdı, boz şinel,*
*soldu rəngim saraldı,*
*Bir zülmət gecə kimi*
*qəlbim evi qaraldı.*
*Mən güllə yağdırarkən*
*yağı olan tərəfə,*
*Yağı düşmən gülləsi*
*sənə dəydi ilk dəfə.*
*Unutmaram o günü,*
*mənimlə sən o zaman,*
*Bir yerdə, bir döyüşdə*



*yara aldım qolumdan…*
*Boz şinel, uzaqlarda*
*gözü yolda qalan var,*
*Qayıdaram evə mən…*
*ağır yaram sağalar,*
*Anam öz əli ilə yuyar*
*qanlı ləkəni,*
*Durub yenə sevinclə*
*geyinərəm mən səni.*

Indi isə əfsanəvi kapitan, ölümün gözünə dik baxaraq vətən torpağının düşmənlərdən azad olması üçün qatıldığı, onun üçün sonuncu olan döyüş əməliyyatı barədə bir qədər ətraflı:

1943-cü il oktyabrın 14-də gecə saat 3-də alay komandiri Əli Əliyev zabit heyətini toplayaraq qarşıda duran mühüm döyüş əməliyyatının həyata keçirilməsinin planı barədə göstərişlər verir. Bu əməliyyatın məzmunu ondan ibarət idi ki, Melitopol şəhərini düşməndən azad etmək üçün birinci batalyon ən strateji yüksəklik olan 155,8-ci təpəsini ələ keçirməli idi. Elə həmin toplantıda alay komandirinin siyasi hissə üzrə müavini I.Sayılovun tabe olduğu mayor Mirəli Əliyev ona ehtiyatda olmaq, yəni batalyonda qalmaq, müavininə isə döyüşçülərlə təpəni alma əməliyyatını həyata keçirməyi əmr edir. Lakin Ismayıl batalyona qayıdan kimi öz müavini Ağamoğlan Rzayevə deyir:

— Mayorun mənə ehtiyatda qalmaq haqqında verdiyi göstərişi mən qəbul edə bilmirəm. Axı mən həmişə döyüşçülərlə birlikdə olmuşam, onları arxamca aparmışam, onları döyüşə ruhlandırmışam. Melitopolun azad olması uğrunda gedən bu döyüş ən ağır döyüşdür. Əsgərlərimin ürəyinə gələr ki, indi mən də arxada gizləndim. Yox, sən batalyonun qərargahında qal, mən getdim, — deyir.

Beləliklə, səhər saat 5-də tapşırığı yerinə yetirmək üçün böyük əməliyyat başlanır. Mayor M.Əliyev I.Sayılovun ön cəbhədə olmasını eşidəndən sonra bir qədər əsəbi halda onunla telefon əlaqəsi saxlayır. Öyrənir ki, batalyonun birinci rotasının komandiri Telnov öldüyü üçün, onun da vəzifəsini öz üzərinə götürüb. Telefon danışığında Sayılovun ağır yaralandığını hiss edir, lakin o, boynuna almır. Ismayılın nisbətən zəif də olsa açıq eşidilən səsi ilə vəziyyətin son dərəcə ağır olduğunu məruzə edir. O bildirir ki, düşmən hiylə işlədərək alman əsgərlərinə sovet ordusu hərbiçilərinin geyim formasını geyindirərək onların sağ və yaxud sol cinahından arxalarına keçdiyini bildirir. Bildirir ki, onlar artıq mühasirədədirlər. Onların düşmən tərəfindən öldürülməsi və yaxud da əsir götürülməsi labüd ola bilər. Ismayıl bir daha təkidlə və qətiyyətlə xahiş edir ki, onun olduğu yerə, yəni komanda məntəqəsinə toplardan atəş açsınlar. Əks halda düşmən bizimkilərdən qabaq hücuma keçib bizə böyük itki verə bilər. Mayor Əliyev yenə də bununla razılaşmaq istəmir. Ismayıl sonuncu dəfə çətin eşidilən səsi ilə atəş açılmasını təkrarən təkid edir. Komandanlıq yeganə çıxış yolu kimi həmin yerə toplardan mərmilər yağdırılmasına əmr verir. Ismayıl mayora çox çətin eşidilən səsi ilə nə isə demək istəyir, ancaq deyə bilmir... Məlum olur ki, Ismayıl artıq həlak olub. Lakin uğurla həyata keçirilən döyüş əməliyyatı nəticəsində düşmən böyük itki verərək geri otuzdurulur və Melitopol şəhəri işğaldan azad olunur ki, bu da bilavasitə Ismayıl Sayılovun adı ilə bağlıdır. Döyüş əməliyyatı bir qədər səngiyəndən sonra Ismayılın və onunla birlikdə olan döyüşçülərin cəsədlərinin Melitopol şəhəri yaxınlığındakı Moloçnaya çayı sahilindəki qəbirstanlıqda hərbi ənənəyə uyğun olaraq yaylım atəşi altında dəfn olunma mərasimi həyata keçirilir.

Haqqında danışılan dəfn mərasimi barədə çox kövrək bir məqamı xatırlatmaq istərdim. I.Sayılovun siyasi rəhbər olduğu birinci batalyonda xidmətdə olan əsgərlərdən biri də, sonradan respublikanın görkəmli şairlərindən biri, əməkdar incəsənət xadimi Islam Səfərli idi. Yeri gəlmişkən deyim ki, Islam Səfərli ilk şerlərini də elə müharibə illərində, orduda olduğu vaxt qələmə alıb və özünü şairlikdə sınamağa başlayıb. I.Sayılovun dəfn mərasimində iştirak edən hərbiçilərdən biri də igid kəşfiyyatçı Islam Səfərli olur. O, yenicə qələmə alğıdı dörd misradan ibarət bir bənd şeri də mərhumun qəbri üzərinə qoyur. Həmin şeri oxucuların diqqətinə təqdim etmək istəyirəm:

*Inan, and içirik məzarına ki,*
*Düşmən üzərində qələbəmiz var.*
*Rahat yat, Ismayıl, komandirimiz,*
*Intiqam eşqilə gur səsimiz var.*

I.Sayılovun vətən torpağının düşmən işğalından azad olması uğrunda keçdiyi şərəfli döyüş yolu və qəhrəmancasına həlak olması barədə istər hərbi mətbuatda, istərsə də respublika qəzetlərində geniş oçerklər dərc edilmişdir ki, bu barədə bir qədər sonra.

1943-cü il, noyabrın əvvəllərində Zəngilanda rayon rəhbərliyinin I.Sayılovun qəhrəmanlıqla həlak olmasına həsr edilmiş matəm tədbirində iştirak üçün respublika rəhbərliyinin göstərişi ilə Yazıçılar Ittifaqının üzvü, xalq şairi S.Rüstəm Zəngilana ezam olundu. O, rayon ictimaiyyətinin iştirak etdiyi yas mərasimində üç gün olur. Görkəmli şair qələm dostu I.Sayılovun ədəbi yaradıcılığı və Böyük Vətən Müharibəsində göstərdiyi şücaət barəsində fikirlərini söyləyir. Elə həmin günlərdə «Kommunist» qəzetində xalq yazıçısı Mehdi Hüseynin «Kürd pəhləvanı», hərbi müxbir-yazıçı Dmitri Minkeviçin «Bakinskiy raboçi» qəzetində «Leqendarnıy kapitan» («Əfsanəvi kapitan»), hərbi müxbir-yazıçı Məmməd Aranın

«Azərbaycan dəyanəti» başlıqlı oçerki mətbuatda dərc olunur.

Yaxşı demişlər ki, «Igid ölər, adı qalar». Adı çəkilən yas mərasimləri keçiriləndən sonra I.Sayılovun adının əbədiləşdirilməsi barədə müvafiq orqanlar tərəfindən müəyyən tədbirlər həyata keçirilir. Bu məqsədlə Zəngilanın Seyidlər kəndindəki kolxoza, Zəngilan şəhərinin mərkəzindəki küçələrdən birinə və Azərbaycanın Sovetləşməsinin ilk illərində Ismayılın təhsil aldığı Bartaz kəndindəki orta məktəbə onun adı verilir. Həmin məktəb indi məlum səbəblərdən Sumqayıt şəhərində fəaliyyət göstərir. 1970-ci ilin mayında qələbənin 25-ci ildönümü ərəfəsində rayonun Razdərə kəndi ərazisində yerləşən Avropada birinci təbii çinar meşəsindəki məşhur «Kinav» bulağına da mərhumun adı verilir. I.Sayılovun müharibədən əvvəlki partiya dövlət işində işləməsi, əbədi yaradıcılığı və müharibə illərindəki göstərdiyi misilsiz qəhrəmanlıq barədə, eyni zamanda onun adının əbədiləşdirilməsi haqqında məlumatlar Azərbaycan Sovet Ensiklopediyasında (ASE) bir qədər bəsit də olsa qeyd olunur (bax: ASE, 1984-cü il, VIII cild, 260-cı səhifə).

Qeyd etdiyimiz kimi, I.Sayılov döyüş əməliyyatında ölümcül yaralandıqdan sonra sonuncu dəfə onun səsini telefonla eşidən də məhz onun yaxın silahdaşı və dostu, tanınmış hərbi və siyasi xadim M.Əliyev olmuşudur. Böyük Vətən Müharibəsi qurtarandan sonra o, vətəninə qayıdır. Müharibədən sonrakı quruculuq illərində ilk olaraq Qubadlı, sonra isə Qarabağ bölgəsinin rayonlarının birində RPK birinci katibi, 50-ci illərin ortalarında isə o vaxtlar yeni yaradılmış Kirovabad (indiki Gəncə) Vilayət partiya komitəsinin katibi vəzifələrində işləyir. 50-ci illərin sonu, 60-cı illərin əvvəlindən isə ömrünün sonuna kimi Azərbaycan Dövlət Pedaqoji Institutunda tarix fakultəsinin dosenti kimi pedaqoji fəaliyyətlə məşğul olur. Mirağa müəllim 1966-cı ildə qələmə aldığı «Səadət naminə» adlı kitabı Azərnəşrdə çap etdirir. Ümumiyyətlə, bu kitab Böyük Vətən Müharibəsi illərində sovet adamlarının istər döyüş cəbhəsində, istərsə də arxa cəbhədə necə fədakar iştirak etməsinə həsr olunur. Bu kitabda o, yaxın silahdaşı və dostu I.Sayılov haqqında belə yazır:

— Xalqımızın səadəti naminə mərdliklə öz canlarını qəhrəmancasına qurban verənlərdən biri də həmyerlimiz kapitan Ismayıl Sayılovdur. O, 1943-cü il oktyabrın 14-də səhər saat 5-də, Melitopol şəhərinin azad olunması əməliyyatını həyata keçirərkən qəhrəmancasına həlak oldu. Onun göstərdiyi bu qəhrəmanlıq Sovet Ittifaqı Qəhrəmanı kapitan Qostellonun göstərdiyi şücaəti təkrar etmişdir. Ölümündən sonra Sovet Ittifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüş təyyarəçi kapitan Qostello, düşmən atəşindən zədələnmiş təyyarəsi yandığı vaxt paraşutla özünü xilas etmək imkanı olsa da bunu etmədi. Yanan təyyarəsini düşmən tanklarına çırpıb faşist tanklarını məhv etdi və özü də həlak oldu. I.Sayılov da, yuxarıda qeyd etdiyimiz kimi, özünü ölümdən yayındırmaq imkanı olsa da, bunu etmədi. O, özü olduğu yerə atəş açılmasını təkidlə xahiş edərək, kapitan Qostellonun qəhrəmanlığını təkrar etdi... (M.Əliyev, «Səadət naminə», Bakı, 1966-cı il, səh. 91-93)

M.Əliyev Pedaqoji Universitetdə işlədiyi vaxt I.Sayılovun qardaşı oğlu, yarım əsrə yaxın bu ali təhsil ocağında elmi pedaqoji fəaliyyətlə məşğul olmuş professor Cəmil Sayılovla yaxın münasibətdə olmuşlar. Mirağa müəllim söhbətlərinin birində Cəmilə bildirmişdir ki, onun əmisi I.Sayılov həlak olandan sonra alay və diviziya rəhbərliyində ona ölümündən sonra Sovet Ittifaqı Qəhrəmanı adının verilməsi barədə söz-söhbət dolaşırdı. Nədənsə o təqdimat verilmədi. Onun ancaq birinci dərəcəli Vətən Müharibəsi Ordeninə təqdim olunması ilə kifayətləndirildi...

Qədirbilən Zəngilanlı həmyerliləri öz övladları saydıqları

I.Sayılovun xatirəsini heç vaxt unutmur və vaxtaşırı anım və digər mərasimlər keçirirlər. 1975-ci il Qələbənin 30 illiyi ərəfəsində rayon mərkəzində onun xatirəsinə həsr olunmuş növbəti böyük toplantı keçirilmişdir. 7 may 1982-ci ildə isə Azərbaycan SSRI «Bilik» cəmiyyəti, Respublika Elmlər Akademiyası, Tarix və Nizami adına Ədəbiyyat Institutları, Azərbaycan KP-nin Zəngilan Rayon Komitəsi Böyük Vətən Müharibəsi qəhrəmanı, yazıçı və ictimai xadim I.Sayılovun anadan olmasının 80 illiyinə həsr olunmuş hələ bir il öncə keçirilməsi planlaşdırılan, üzürlü səbəbdən təxirə salınan izdihamlı gecə keçirmişdir. Adları çəkilən hər iki tədbirə Bakıdan, Naxçıvandan, Qubadlıdan və respublikanın digər rayon və şəhərlərindən qəhrəmanın müharibədən əvvəlki illərdə birgə işlədiyi və dostluq etdiyi adamlar, müharibə illərində onunla çiyin-çiyinə vuruşmuş Böyük Vətən Müharibəsi veteranları dəvət olunmuşdular. Mən hər iki tədbirin iştrakçısı kimi burada gördüklərimi və çıxış edən natiqlərin dediklərini xatırlayarkən, bir daha I.Sayılovun göstərdiyi şücaət qarşısında baş əyirəm. Keçirilən tədbirlərin hər ikisi barədə bütün təfərrüatını yazmaq istəmirəm. Lakin adı çəkilən 80 illik yubileydə bu toplantını, sözün həqiqi mənasında matəm ovqatı yaradan çıxışların bir neçəsini qeyd etmək istərdim. I.Sayılovun həyat və yaradıcılığına həsr olunmuş məruzə ilə AMEA Ədəbiyyat Institutunun baş elmi işçisi Rasim Tağıyevin, həmin institutun şöbə müdiri FED, professor Kamran Məmmədovun, yazıçı, müharibə veteranı Garay Fəzlinin və Ismayılın böyük dostu, həmyerlimiz, 416-cı diviziya üzrə «SMERŞ» hərbi əks-kəşfiyyat şöbəsinin əməliyyat işçisi olmuş Məmməd Heydərovun, nəhayət, Ismayılın yavəri (köməkçisi), əslən Qubadlının Teymur Müskanlı kəndindən olan Mikayıl Rzayevin çıxışlarını həyacansız dinləmək mümkün deyildi. Yeri gəlmişkən qeyd edim ki, sonuncunun təbirincə desək, istəkli komandirinin döyüş meydanında qalan meyidini, iki nəfər



başqa hərbiçilərlə birlikdə həlak olduğu gün qaranlıq düşəndən sonra göydən düşmən güllə və mərmilərinin yağış kimi yağdığı bir şəraitdə sürünə-sürünə dəfn yerinə gətirən də elə o olmuşdur.

I.Sayılovun uşaqlıq və gənclik illərini keçirdiyi Zəngilan şəhəri və Bartaz kəndi, müharibədən əvvəl Naxçıvan Muxtar Respublikasında işlədiyi dövr və nəhayət, yuxarıda adları çəkilən keçirilmiş tədbirlər barədə bəzi məqamlar lentə alınaraq, onun haqqında qısa metrajlı telefilm yaradıldı. Həmin film 70-ci illərin sonu 80-cı illərdə böyük qələbənin il dönümləri ərəfəsində bir neçə dəfə Azərbaycan televiziyası ilə nümayiş etdirildi.



*İ.Sailovun qızları Sümbül və Şəfiqə. 1947-ci il.*

Mərhum yazıçı Rasim Tağıyev hələ 70-ci illərin sonlarından başlayaraq Böyük Vətən Müharibəsində iştirak etmiş döyüşçülərə baş çəkərək, onları qələbəyə ruhlandırmaq məqsədilə onlarla görüşə getmiş respublikanın görkəmli şair və yazıçıları barədə xeyli tədqiqat aparmış və nəhayət, 1985-ci ildə «Xatirələrdə yaşayanlar» adlı, böyük tirajla sanballı kitab nəşr etdirmişdir. Bu kitabda «Süngü ilə qələm yanaşı olanda» ümumi başlığı altında İ.Sayılovun müharibə başlayana kimi partiya-dövlət işində olduğu 1930-40-cı illərdə ədəbi yaradıcılıq sahəsində əməkdaşlıq və dostluq etdiyi, bu yazının əvvəlində adları çəkilən görkəmli şair və yazıçılar barəsində, xüsusilə onların cəbhə həyatları ilə bağlı yazılar daxil edilmişdir. Bunlarla yanaşı, ön cəbhədə qanlı döyüş əməliyy-

atlarında daha fəal iştirak etmiş görkəmli ustad qələm sahibləri İ.Şıxlı, H.Arif, G.Fəzli, C.Xəndan, M.Aranlı, S.Vəliyev, H.Abbaszadə və b., ümumilikdə I.Sayılovun da daxil olduğu 40-a qədər başqa qələm sahibləri barədə çox maraqlı yazılar verilmişdir. Bu yazılarda onların Böyük Vətən Müharibəsi mövzusuna həsr etdikləri nəsr və poeziya əsərləri ilə yanaşı, döyüş əməliyyatlarında iştirak edən yazıçı və şairlərin vətən uğrunda göstərdikləri böyük rəşadət və hünərdən bəhs olunur. Yeri gəlmişkən bir məqamı da xatırlatmaq istərdim. Bu yazıda adını çəkdiyim və çəkmədiyim qələm sahiblərinin hər biri barədə 6-8 səhifəlik tək Ismayıl haqqında isə 40 səhifəlik yazı verilmişdir. Bu yazıda onun müharibədən əvvəl Bakı və Naxçıvan dövlət arxivlərindəki rəsmi sənədlərdə partiya və dövlət işində göstərdiyi fəaliyyətdən, müharibə illərində isə onunla çiyin-çiyinə vuruşmuş 416-cı Azərbaycan diviziyasının müharibədən sonra vətənə qayıtmış müharibə veteranlarından aldığı çox maraqlı müsahibələr dərc edilmişdir.

Kitaba əfsanəvi kapitanın 1982-ci ildə təşkil olunmuş 80 illik yubileyində iştirak etmiş görkəmli alim, Geologiya-mineralogiya elmər doktoru, hazırda AMEA-nın Geologiya Institutunun professoru, tanınmış şair Hikmət Mahmudun «Azərbaycan dəyanəti» adlı çox maraqlı şeri də daxil edilmişdir. Baxmayaraq ki, bu dəyərli şerin müəllifi I.Sayılovla heç vaxt şəxsi təmasda olmamışdır, lakin onun barəsində mətbuatda gedən yazılarla və arxiv sənədləri ilə tanış olaraq onun xarakterinin bütün məziyyətlərini, düşmənə qarşı göstərdiyi döyüş şücaətini dərindən öyrənə bilmiş və çox ustalıqla, əhatəli qələmə ala bilmişdir. Hazırda müharibə şəraitində oduğumuz bir dövrdə, xüsusilə də işğalçı-cinayətkar ermənistan faşist ordusunun əsgərləri ilə səngərlərdə üz-üzə dayanmış igid döyüşçülərimizin hərbi vətənpərvərlik ruhunun yüksəldilməsində əhəmiyyətini dərk edərək, həmin şeiri bu yazıya daxil etmək istərdim:



**Azərbaycan dəyanəti**

*Keçdin döyüşlərdən Koroğlu yolu,*
*«Odlar ölkəsi»nin a qartal oğlu,*
*Sənin ömür yolun hünərlə dolu,*
*Qoluna güc verdi elin qüdrəti,*
*Qanında qaynadı Vətən qeyrəti.*

*Düşdün min alova, düşdün min oda,*
*Qoymadın verilsin torpağın yada.*
*Dedilər Sayılov Ismayıl harda,*
*Orda qələbə var, orda zəfər var,*
*Belə görüb səni cəbhəçi dostlar.*

*Görmüsən qatilin zülmün, zillətin,*
*Ancaq əyilməyib o dağ qamətin.*
*Duymusan dərdini elin, millətin,*
*Satqından, cahildən qisas almısan,*
*«Azərbaycan dəyanəti» olmusan.*

*Süngünlə qələmin qoşa döyüşdü,*
*Sənin hər hünərin dillərə düşdü.*
*Nəcib arzuların qəlbimə köçdü,*
*Adını tarixə əbədi yazdın,*
*Ey şair qardaşım, döyüşçü dostum.*

«Xatirələrdə yaşayanlar» kitabının müəllifi I.Sayılovla müharibədən əvvəlki 30-40-cı illərdə çoxsaylı görüşlərim və məktublaşmalarım, müharibə illərində isə həlak olduğu vaxta qədər daima məktub əlaqəsi saxladığım barədə xəbər tutduğundan, mənim də xatirələrimi bu kitaba daxil etmişdir. I.Sayılovun döyüş silahdaşı və qələm dostu, mənim də yaxın münasibətdə olduğum mərhum şairimiz Islam Səfərlinin təbiri ilə desək, qartal baxışlı və pəhləvan cüssəli, heç vaxt unuda bilməyəcəyim, yetərincə mehriban və əziz dayım barəsində

yazdığı bu kövrək misraları da bu yazının oxucularına təqdim etmək istəyirəm:

Polkovnik-leytenant Bəxtiyar Süleymanlı «müharibə veteranı, Ismayıl Sayılovu xatırlayaraq yazır: «Əziz və çox mehriban dayım Ismayıl Sayılovla görüşlərim çoxdur — 30-cu illərin əvvəllərindən Böyük Vətən Müharibəsinə səfərbər olunana kimi, hamısı yadımdadır. Bunlardan ən kövrəyi, yaddaşıma əbədi hopmuşu 1938-1941-ci illərdə onunla görüşlərim və cəbhədə olduğu vaxtlarda məktublaşmalarımdır.

Onun yüksək vətənpərvərliyi, humanistliyi, qayğıkeşliyi, xüsusilə nikbinliyi söhbətlərində və məktublarında çox güclü hiss olunurdu. Zaman ötdükcə bu hisslər xatirimdə daha böyük bir duyğu və həyəcanla baş qaldırır.

Hər dəfə bizə gələndə o, mütləq mənim oxumağımla maraqlanardı. Mənə hesabdan məsələlər həll etdirər və Səməd Vurğunun «Fanar» şerlər kitabından oxutdurub, sonra əzbərlədərdi...

Ismayıl dayım təhsilimi davam etdirmək üçün məni əvvəlcə Naxçıvana, sonra ali təhsil almaq üçün Bakıya aparacaqdı.

1941-ci ilin birinci yarısına qədər bu fikri o, bir neçə dəfə təkrarən bildirsə də, valideynlərim mənim fikrimi soruşmadan Naxçıvana göndərilməyimə razı olmadılar. Səbəbi isə yol çətinliyi, ev işlərinə — mal-qaraya baxmaq, ot toplamaq, odun gətirmək, sadəcə olaraq «göz qabağında» olmaq idi.

Nəhayət, Böyük Vətən Müharibəsi başlandı və Ismayıl dayımın məni oxutdurmaq haqda fikri öz-özlüyündə unuduldu...

Dayımın cəbhədən ailəmizə üç məktubu gəldi. Naxçıvandan yazılan məktublardan fərqli olaraq cəbhə məktublarının başlanğıcında valideynlərimlə yanaşı mənim də adımı yazırdı, yəni «Əzizlərim Ibrahim, bacım Məşədi Əzət» sözlərindən sonra «...bacıoğlu Bəxtiyar» da yazırdı ki, bu da məni son



dərəcə sevindirirdi.

Onun cəbhə məktublarında faşizm üzərində qələbəyə möhkəm inam, vətənpərvərlik, nikbinlik ilə yanaşı, ölkəmiz üzərinə xaincəsinə basqın etmiş düşmənə qarşı nifrət, qəzəb çox qüvvətli nida ilə səslənirdi.

Məktublarını oxuduqca adamda cəbhəyə getmək, mənfur düşmən üzərində qələbədə iştirak etmək hissləri canlanırdı. Düzünü deyim ki, «frits», «dil gətirmək» ifadələrini mən ilk dəfə onun məktublarında oxudum və məzmununu isə tez dərk edə bilmirdim, yaşlı və təcrübəli adamlardan öyrənirdim. O yazırdı ki, 416-cı atıcı diviziyasının mərd azərbaycanlı oğulları döyüşlərdə qəhrəmanlıqla düşmənə sarsıdıcı zərbələr vururlar. O, özü həmişə ön xətdə olur, «frits»lərin məhv olunmasında və «dil» gətirilməsində şəxsən özü fəal iştirak edirdi.

Ikinci məktubunu gərgin vuruşmadan sonra hərbi hissənin fasilədə olduğu vaxt yazmışdı və həmin məktubla kapitan rütbəsində mənə fotoşəklini göndərmişdi. Şəklə baxarkən sağ qaşının üstündəki qövsvari çapıq dərhal anamın diqqətini cəlb etdi və təcili məktub yazıb onun səbəbini soruşmağı tapşırdı. Həmin gün yola saldığım məktubuma cavabda, həm də axırıncı məktubunda yazırdı ki: «...kiçik məsələlərlə özünüzü yormayın, qaşımın üstünü «kol cızıb», hələlik məktub yazmayın, cəbhəyə yola düşürük». Sən demə, «kol» «qəlpə» imiş...

Hər üç məktubunda o, mənə dərslərimlə ciddi məşğul olmağımı tapşırır və müharibə bizim qələbəmizlə başa çatandan sonra Vətənə qayıdacağına, təhsil almağım barədə öz arzularını həyata keçirəcəyinə söz verirdi. Bir də son məktubunda orduya səfərbər olunsam mütləq ünvanımı ona bildirməyimi və bu mümkün olmasa harada oluramsa-olum Vətənə sədaqətlə, namusla xidmət etməyimi tapşırırdı.

Doğrudur, mən 1944-1945-ci illərdə Sovet Ordusu sırala-

rında xidmət etdim. Lakin mən orduya səfərbər olunana kimi Ismayıl dayım Melitopol şəhəri uğrunda faşistlərlə şiddətli vuruşmada artıq həlak olmuşdu.

Böyük Vətən müharibəsi sovet xalqının alman faşizmi üzərində qəhrəmancasına qələbəsi ilə qurtardı. Mən də, onun qızı Şəfiqə də, nəvəsi Yaqut da ali təhsil aldıq, hətta kiçik nəvəsi Ramiz də ali məktəbdə təhsilini davam etdirir. Lakin bunların heç birini Ismayıl dayım görmədi.

*09.05.1982-ci il*

* * *

İ.Sayılov BVM-də həlak olduqdan sonra onun ailəsinin acınacaqlı taleyi barədə qısa məlumat vermək istərdim. O, 1930-34-cü illərdə Bakı Ali Partiya məktəbində oxuduğu vaxt həmkursu, əslən şuşalı Məhbubə xanımla evlənmişdi. Ailə həyatının ən xoşbəxt illərini yaşadıqları 1935-1940-cı illərdə Sayılovların 3 övladı dünyaya gəlmişdi. İsmayıl 1941-ci ildə, ehtiyatda olan zabit kimi, orduya, alman faşistlərinə qarşi ölüm-dirim müharibəsində iştirak etmək üçün cəbhəyə gedəndə, canından əziz tutduğu Şəfiqə, Şükufə və Sünbülün talelərini Məhbubə xanıma tapşırdı. Nə qədər ağır olsa da deyim ki tale bu uşaqların üzünə gülmədi. Atalarının qəhrəmancasına həlakından bir neçə ay sonra ismayılsızlığa dözməyən anaları da qəflətən dünyasını dəyişdi. Valideyn nəvazişindən məhrum olan bu uşaqların sonbeşiyi Sünbül isə 1945-ci ildə 5 yaşında vəfat etdi. Ailənin digər iki övladı, 1935-ci il təvəllüdlü Şəfiqə və 1937-ci il təvəllüdlü Şükufə nənələri, — Məhbubə xanımın anası, Rəxşəndə xanımın himayəsində, Sayılovlara məxsus Bakı şəhəri Kommunist (indiki İstiqlal) küçəsi 14 ünvanındakı mənzildə 1950-ci illərin sonlarına kimi yaşadılar. Şəhərin abadlaşdırılması və bu ünvanda indiki M.Ə.Sabir adına parkın salınması ilə əlaqədar həmin bina da söküldü. Sayılovlar ailəsinin övladlarına dövlət tərəfindən





***Zəngilan şəhəri, 7 may 1982-ci il. İ.Sayılovun anadan olmasının 80-ci ildönümü tədbirində iştirak edən doğmalarından bir qrup.***

uzun illər yüksək qayğı göstərilərək, şəhərin digər mərkəzi yerlərində mənzillə təmin olundular.

Zaman keçdikcə Şəfiqə və Şükufənin həyat yolları da özünəməxsus axarlarla davam edirdi. Hər iki bacı ailə həyatı qurdu. Eyni zamanda Şəfiqə BDU-da ali təhsil aldı və uzun illər fasiləsiz Ç.İldırım adına Azərbaycan Dövlət Politexniki İnstitutunda (indiki Texniki Universitetdə) işlədi.

Taleyin heç kəs üçün qaçılmaz hökmü ilə Şəfiqə xanım 1989-cu ildə, Şükufə xanım isə 2001-ci ildə dünyalarını dəyişdilər.

* * *

Şəxsi arxivimdə uzun illərdən bəri saxladığım qəzetlərdən seçmələr arasında Zəngilan RPK və RIK orqanı olan «Stalinçi» qəzetinin 20 dekabr 1943-cü il tarixli sayı da var. 63 il

ərzində saralmış bu qəzet nüsxəsində «Misilsiz kapitan Şayılov Ismayılın qəhrəmanlığı əbədi olaraq qəlbimizdə yaşayacaqdır» başlığı altında diqqəti çəkən bir yazı da var. I.Sayılovun döyüş silahdaşları və Zəngilanlı həmyerlilərinin alman faşistlərinə nifrət və «Qisas qiyamətə qalmayacaq» məzmunlu ürək sözləri aşağıdakı misralarla qurtarır.

«Bütün döyüşçülər İ.Sayılovun ölümündən qəzəblənərək and içmişlər ki, nemes faşizmi darmadağın olana kimi inadlı mübarizələrini Sayılovun öyrətdiyi kimi davam etdirəcəklər. Zəngilan rayonunun bütün kolxozçuları, kolxozçu qadınları, yeniyetmələri və qocaları da öz oğulları olan misilsiz kapitan Sayılov Ismayılın igidlik simasına and içirlər ki, onun ölməz xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır».

Alman faşist ordusuna qarşı döyüşləri davam etdirən I.Sayılovun silahdaşları, arxa cəbhədə isə həmyerliləri bütün Azərbaycan xalqı ilə bərabər qəhrəmanın ruhu qarşısında qəbul etdikləri anda sadiq qaldılar. Düşmənə qarşı amansızcasına qəhrəmanlıqla döyüşənlər ön cəbhədə, qələbə naminə bütün bilik və bacarıqlarını əsirgəməyən əməkçilər isə arxa cəbhədə var qüvvələri ilə gecə-gündüz əllərindən gələni əsirgəmədilər. Bütün bunların nəticəsində vətənimizə qarşı ədalətsiz müharibə planının hazırlandığı Berlindəki Reyxstaqın qülləsində 62 il öncə qələbə bayrağı sancıldı ki, bununla da 10 milyonlarla insan həyatına son qoymuş, misli görünməmiş dağıntılara səbəb olmuş 2-ci Dünya müharibəsi başa çatdı.

Indi isə bütün dünyada sülhsevər millət kimi tanınmış xalqımızın qarşısında daha riyakar, həm öz tarixini, həm də başqa dövlətlərin, xüsusilə azəri və osmanlı türklərinin tarixini saxtalaşdırmağa cəhd edən, «Asala» adlı quldur bandalarının cinayətkar fəaliyyəti nəticəsində bütün dünyada terrorçu dövlət kimi tanınan Ermənistana da layiq olduğu cavabın verilməsi vəzifəsi durur. Ağlasığmaz işğalçılıq niyyətlərindən daşınmasalar, yəqin ki, onlar da alman faşizminin acı aqibətinə məruz qalmalı olacaqlar.



Bildiyimiz kimi, məlum səbəbdən son iki əsr müddətində əzəli Azərbaycan torpaqlarında dövlətlərini yaratmağa nail olmuş bu rüsvayçı xalqın siyasətbazları dənizdən-dənizə «Böyük Ermənistan» dövləti yaratmaq sərsəm xülyaları ilə azəri və osmanlı türklərinə meydan oxumaq cəhdlərindən əl çəkmək istəmirlər. Bunun nəticəsidir ki, onlar bəzi xarici havadarlarına arxalanaraq Dağlıq Qarabağı, bu yazını həsr etdiyimiz Vətən uğrunda həyatını qurban vermiş I.Sayılovun Vətəni Zəngilan da daxil olmaqla daha yeddi rayonumuzu uzun illərdir ki, işğal altında saxlayırlar. Öz xalqını dibi görünməyən uçurumlara doğru sürükləyən bu dövlətin başçıları məsələnin sülhə aparan danışıqlar yolu ilə həllində qeyri-konstruktiv mövqelərindən əl çəkməsələr, ərazi bütövlüyümüzün bərpasını xalqımız özü başqa yolla həll edəcəkdir. Bunu bizdən uzun illərdir unudulmuş, dağlar arasından boylanan, neçə illərdir xilaskarını gözləyən ata və babarımızın uyuduğu yurd yerlərimiz tələb edir.

Azərbaycan dövlətçiliyi və xalqımızın xoşbəxt gələcəyi naminə ərazi bütövlüyümüzün bərpası kimi taleyüklü məsələni həll etməyə qadir olan qüdrətli ordumuz mövcuddur. Belə bir zərurət yarandığı vaxtda ordumuzla yanaşı bütün xalqımız da ayağa qalxmalı olacaq. Buna hamımız əmin olmalıyıq. Yalnız belə birlik nəticəsində bizim haqq işimiz şər qüvvələr üzərində qələbə çalacaq. Məhz bundan sonra xalqımızın indiki nəsli, istər 1941-45-ci illər BVM-də, istərsə də 1988-ci ildən davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ savaşında canlarını qurban vermiş Vətən övladlarının müqəddəs ruhları qarşısında tarixi borcunu yerinə yetirmiş hesab edə bilər. Bu, belə də olacaq. Amin!

*25.04.2007-ci il*

# İLK ZƏNGİLANLI GENERAL



*General M.Əsədov*

Yaxşı yadımdadır, 1990-cı ilin may ayında həmyerlim və dostum 1980-83-cü illərdə respublika Dövlət Təhlükəsizliyi orqanlarında həmkarım olmuş Məhəmməd Əsədovun Azərbaycan SSR Daxili İşlər naziri təyin olunması barədə məlumat KİV-də yayımlandı. Eyni zamanda ona general-mayor hərbi rütbəsi verilməsi də hamımızın sevincinə səbəb oldu. Məlumatı eşidən kimi ona ətraflı təbrik teleqramı göndərmək istədim. Bundan öncə Məhəmməd müəllimin zəngilanlılardan neçənci general olmasını bildirmək məqsədilə xalqımızın hərbi tarixini nəzərdən keçirməli oldum. Respublikamızın tarixilə bağlı oxuduğum ədəbiyyatı və tanış olduğum rəsmi sənədləri xəyalımdan keçirərək, həmin vaxta kimi zəngilanlılardan heç kimin bu ali rütbəyə layiq görülmədiyi qənaətinə gəldim. Beləliklə, Məhəmməd Əsədova ünvanladığım teleqramda onun ilk zəngilanlı general olmasını da xüsusilə qeyd etdim.

M.Əsədovun həyatında baş verən bu ürəkaçan hadisədən çox keçmədən onun təşəbbüsü ilə DİN-də görüşümüz oldu. Həmişə olduğu kimi, yenə də bu mehriban insan məni xoş əhval-ruhiyyə ilə qarşıladı. O, yarızarafat-yarıciddi mənə, yaşlı nəslin nümayəndəsi kimi doğrudanmı onun ilk zəngilanlı general olmasını məndən soruşdu.



Mənim tərəddüdsüz, müsbət cavabımdan sonra yenə də bu barədə düşünməli olduq. İlk növbədə hər ikimizə yaxşı məlum olan 1920-ci il aprel çevrilişindən sonra Sovetlər dövründə respublikamızın hərb tarixini nəzərdən keçirdik. SSRİ-nin süqutuna kimi general rütbəsi almış milli sərkərdə və dövlət xadimlərimizi xatırladıq. Bunlar arasında zəngilanlı həmyerlilərimizin olmaması ilə razılaşdıq. Sonra isə keçmiş tarixə nəzər saldıq. XIX əsrdə baş vermiş məlum Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri nəticəsində Azərbaycanın inqilabdan əvvəlki Rus imperiyasının əyalətlərinin birinə çevirilməsini yada saldıq. Bu dövrdən Oktyabr inqilabına kimi imperiya ordusunda xidmət etmiş görkəmli milli hərbçi sərkərdələrimizi xatırlatmalı olduq. Onların hamısını bu yazıda sadalamağıma ehtiyac görmürəm. Lakin barələrində ətraflı məlumatımız olan, Rus imperiyasının süqutundan sonra 1918-1920-ci illərdə Azərbaycan Demokratik Cümhuriyyəti illərində və aprel inqilabından sonra da Sovet ordusunda xidmət etmiş artilleriya general-leytenantları Səmədbəy Mehmandarov və Əliağa Şıxlinski barəsində bildiklərimiz məlumatları dilə gətirdik.

Bu mövzu ətrafında hər ikimiz üçün maraqlı olan söhbəti davam etdirərkən mən hələ 1950-ci illərdə oxuduğum görkəmli rus Sovet yazıçısı Aleksandr Stepanovun "Port Artur" romanına da toxundum. 1904-1905-ci illər Rus-Yapon müharibəsinə həsr olunmuş bu romanda və başqa tarixi arxiv sənədlərində deyildiyi kimi, Azərbaycanın milli hərbiyyəsinin fəxri kimi tarixə düşmüş, əslən Qazax rayonundan olan general Əliağa Şıxlinski barədə çox maraqlı və fəxrəlayiq məlumatlar verilirdi. Rusiyanın Uzaq Şərqindəki Port-Artur şəhərinin müdafiəsində göstərdiyi igidliyə görə, ordu komandanlığı tərəfindən onun "Qızıl Xəncər"lə mükafatlandırılmasını xatırladıq. Bununla yanaşı, Rusiya imperiyasının hərb tarixinə general-leytenant Ə.Şıxlinskinin "Rus artilleriyasının Al-

lahı" kimi daxil olmasından hər ikimiz qürur hissi keçirdiyimizi dilə gətirdik.

Güman edirəm ki, bu yazıda milli hərbi tariximizi xatırlamaq rus imperiya ordusunda xidmət etmiş adları çəkilən iki generallar barədə qeydlərimi hörmətli oxucular mövzudan kənara çıxmaq kimi qəbul etməyəcəklər. Ən azı ona görə ki, bu xatırlamalar M.Əsədovun marağına səbəb olan söhbət əsnasında dilə gətirildi. Həm də milli hərbi sərkərdələrimiz general-leytenantlar Ə.Şıxlinski və S.Mehmandarov, eləcə də 1941-1945-ci illər BVM-i illərində millətimizə şöhrət gətirən generalı, iki dəfə "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülmüş Həzi Aslanovu və digər onlarla başqa sərkərdələrimizi, gənc nəslə örnək kimi yazılarımızda zaman-zaman xatırlamaq hamımızın mənəvi vətəndaşlıq borcumuzdur.

İndi isə xalqımızın unudulmaz oğlu M.Əsədovla ilk tanışlığım və 1960-1990-cı illərdə olan çoxsaylı görüşlərimizdən bəzilərini xatırlamaq istəyirəm.

M.Əsədov 1941-ci il dekabrın 5-də Zəngilan rayonunun Baharlı kəndində dünyaya gəlmişdi. O, ibtidai təhsili öz kəndlərində al\dıqdan sonra təhsilini yaxınlıqdakı Mincivan dəmiryolçular qəsəbəsində davam etdirərək, 1958-ci ildə orada orta məktəbi bitirmişdir. Bakı statistika texnikomunu bitirdikdən sonra Zəngilan rayon statistika şöbəsinə təyinat almışdı. Orada iki ilə yaxın iqtisadçı mütəxəssis kimi işləmişdi. Elə həmin vaxtlarda rayon statistika şöbəsinin müdiri, əslən Qubadlı rayonundan olan, mənim də yaxın dostum Ağarza Rzayev mənə Zəngilan şəhərində gənc Məhəmmədi Nəbi əminin oğlu kimi təqdim edərək, tanış etdi. Orduya çağırılana kimi onunla vaxtaşırı görüşər, hal-əhval tutardıq.

M.Əsədov orduda xidmətini başa vurduqdan sonra gələcək həyat yolunu müəyyənləşdirmək istəyi onu 1964-cü ildə Xəzər sahilindəki qaynar inkişaf ahəngilə dillər əzbəri olan gənclik şəhəri Sumqayıta apardı. Həmin ildən orada tikinti



təsərrüfatlarının birində fəhlə kimi işə başlamışdı. Onun işgüzar və zəhmətsevərliyi müəssisə rəhbərliyinin diqqətindən yayınmamışdı. Çox qısa müddətdə inkişaf pillələri ilə iqtisadçı, sonra isə plan-iqtisad şöbəsinin müdiri vəzifəsinə irəli çəkilmişdir. O, istehsalatdan ayrılmadan təhsilini də davam etdirərək 1965-1970-ci illərdə Bakıda D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutunda (indiki İqtisadiyyat Universiteti) oxuyaraq ali təhsil almışdı.

Desək ki, intibah dövrünün ən qızğın çağlarını yaşayan, Sumqayıtda işə başlayan halal zəhmətinə söykənən M.Əsədov üçün uğurlu olmuşdur, yanılmarıq. Onun işlədiyi müəssisənin həm də səhərin ictimai-siyasi həyatındakı fəallığı şəhər partiya təşkilatının da diqqətindən kənarda qalmamışdı. 1960-cı illərin sonunda partiya işinə irəli çəkilmişdir. 1978-ci ilə kimi Sumqayıt Şəhər Partiya Komitəsində (ŞPK), təlimatçı, sənaye şöbəsinin və aparıcı şöbə sayılan partiya təşkilait şöbəsinin müdiri vəzifəsində işləmişdir.

Burada bir məqamı da qeyd etmək istərdim. Mən 1970-1980-ci illərdə Dövlət Təhlükəsizliyi Komitəsinin (DTK) Mingəçevir rayonlararası şöbəsində işləyirdim. Səhv etmirəmsə, 1976-cı ildə məzuniyyətdə olduğum vaxt M.Əsədov bu şəhərdə ezamiyyətdə olur. Qayıdandan sonra üzvü olduğum ŞPK-nin növbəti büro iclasında 1-ci katib Xalid Kərimov mənə yarızarafat "...harada gəzirdin? Özün məzuniyyətə qaçmısan, həmyerlin M.Əsədovu da göndəriblər bizim işləri yoxlamağa..." dedi. Sonradan mənə məlum oldu ki, həqiqətən də həmin vaxt M.Əsədov Azərbaycan KP MK-nın başqa bir məsul işçisi ilə birlikdə Mingəçevirdə, hansısa bir məsələni araşdırmaq üçün ezamiyyətdə olub. Mənim "bəs niyə Sumqayıt PK-nin işçisi?" sualıma Xalid müəllim çox qısa, həm də mənim üçün ürəkaçan cavab verdi. Bildirdi ki, Məhəmməd müəllim yetərincə təcrübəli sənaye şəhərində partiya işinin təşkilini yaxşı bilən püxtələş\miş rəhbər işçi kimi, Mərkəzi

Komitənin perspektivli kadrları siyahısındadır. Məhz bu səbəbdən də Əsədovun MK tərəfindən hər hansı bir komissiyanın tərkibində yoxlamaya göndərilməsini tam normal hal kimi qiymətləndirdi.

1977-ci ilin təxminən yazın sonları olardı, mən Mingəçevirdən Bakıya getmişdim. DTK-nin mərkəzi aparatında olarkən xarici kəşfiyyat şöbəsinin bölmə rəisi, hazırda istefada olan polkovnik Əli Hacıyev məni kabinetinə dəvət etdi. Söhbət əsnasında mənim Sumqayıt ŞPK-nin şöbə müdiri, həmyerlim M.Əsədovla görüşməyimə zərurət olduğunu bildirdi. Səbəbini izah etdi ki, xidməti baxımdan onu maraqlandıran gənc mühəndisin işlədiyi sənaye müssəisəsində ŞPK yoxlama aparıb. Həmin adamın onlara (DTK-ya) təqdim etməli olduğu xidməti və partiya xasiyyətnamələrinin verilməsi yoxlamanın burada müzakirəsi gecikməsinə görə təxirə salınır. Xahiş etdi ki, M.Əsədovdan bu məsələnin müzakirəsinin vaxtını və imkan dairəsində həmin gəncə müsbət xasiyyətnamələr verilməsinin mümkünlüyünü bildirsin.

Beləliklə, mən ezamiyyətə çağırıldığım əsas işlərimi qurtarandan sonra, yəni Əli müəllimlə görüşəndən iki gün sonra Sumqayıta getdim. Məhəmməd müəllim məni son dərəcə mehribanlıqla qarşıladı. Tələsmədən hərtərəfli səmimi söhbət etdik. Bir-birimizin işindən, rayonlardakı qohum və dostlarımızdan xəbər tutduq. Nəhayət, yanına gəlməyimin səbəbini bildirdim. Bir qədər gülümsəyərək dedi ki, yoxlama ŞPK-nin iş planına əsasən aparılıb. Toplanmış materialların onda olmasını deyərək, yaxın günlərdə müzakirəyə çıxarılacağını bildirdi. Son olaraq aparılan yoxlamanın və müzakirənin bizi maraqlandıran gənc mühəndisə heç bir mənfi təsiri olmayacağını və bürodan sonra ona müsbət xasiyyətnamələrin veriləcəyini əminliklə bildirdi. Həmin gün M.Əsədovla olan söhbətimizi Ə.Hacıyevə bildirdim. Təxminən 15-20 gündən sonra öyrəndim ki, məsələ Məhəmməd müəllim dediyi kimi həll





*M.Əsədov və hələ də yolunu gözləyən vəfalı ömür-gün yoldaşı Məleykə xanımla*

olunub.

M.Əsədovun Sumqayıtda işlədiyi illər ərzində bu şəhərdə onunla ilk və sonuncu görüşüm idi. Bir neçə aydan sonra — 1978-ci ildə onun müstəqil işə, Ağsu Rayon İcraiyyə Komitəsi sədri vəzifəsinə göndərilməsindən xəbər tutdum. Təbii ki, onu telefonla təbrik etdim. Bütün 70-ci illər ərzində mənim xidmət ərazimə daxil olan Şirvan və Qarabağ rayonlarında əsasən pambıqçılıqla yanaşı, digər kənd təsərrüfatı işlərinin vəziyyəti ilə bağlı, respublikanın rəhbəri Heydər Əliyev başda olmaqla MK-nın digər büro üzvləri də bölgələrdə olardılar. Yoxlamaların nəticəsi zona müşavirələrində müzakirə olunardı. Belə toplantıların birində Məhəmməd müəllimlə görüşümüz oldu. O, məni yenə də arabir telefonla dediyi kimi, Ağsuya dəvət etdi. Söz versəm də, məlum səbəbdən, — xidmət ərazisindən kənara icazəsiz çıxmağın mümkünsüzlüyü ilə bağlı vədimə əməl edə bilmədim.

Nəhayət, 1980-ci ilin yazında M.Əsədov səhər tezdən Mi-

ngəçevirə zəng etdi. Mənə DTK-nin Moskvadakı F.Dzerjinski adına Akademiyasındakı iki illik ali kursa göndərilməsini bildirdi. Bununla bağlı bəzi məqamlar barədə suallar da verdi. Bununla əlaqədar Sov. İKP MK-nin tövsiyəsilə 70-ci illərin əvvəllərindən nisbətən gənc və perspektivli partiya-sovet orqanlarının rəhbər işçilərinin həmin kursa göndərilməsi üçün bizim respublika DTK-nə də hər dərs ilinə bir yer müəyyən edildiyini bildirdim. Beləliklə, həmin ilin sentyabrından M.Əsədov Moskvaya göndərildi. 1981-ci ilin yanvarından mən də Bakıya DTK-nın kadrlar şöbəsinə təyinat aldım. Məhəmməd müəllim Moskvada oxuduğu vaxt, 1982-ci ilin yazında bu şəhərdə ezamiyyətdə olarkən onunla yaddaqalan bir görüşümüz oldu...

Bu görüşümüzdən təxminən 2 ay sonra M.Əsədov bir neçə günlüyə Bakıya gəlmişdi. Mənimlə də telefonla danışdı. Elə həmin gün işdən sonra hər ikimizin yaxın qohumu və dostumuz respublika KTN-nin baş idarə rəisi Abdullayev Məhiyəddinin kabinetində bir neçə saat bir yerdə olduq. Söhbət əsnasında bildirdi ki, həmin ilin iyulunda, dövlət imtahanından öncə bütün kurs dinləyiciləri SSRi-nin müxtəlif respublika və vilayətlərinə bir həftəlik təcrübə mübadiləsinə göndəriləcəklər. Onun oxuduğu qrupdan beş nəfərin Bakıya, Məhəmmədin özünün isə Sverdlovska, yaxud Novosibirsk şəhərlərindən birinə göndərilməsi planlaşdırıldığını dedi. Eyni zamanda bildirdi ki, Bakıya gələn qrupun rəhbəri kursun partiya təşkilatı katibi, onun yaxın dostu Pyotr Roqov olacaq. İmkan daxilində onun qrup yoldaşlarına, ən azı P.Roqova xidmətdənkənar boş vaxtlarda diqqət göstərməyimi xahiş etdi.

M.Əsədovu diqqətlə dinləyəndən sonra onun təklifinə bir qədər ətraflı cavab verdim. Bildirdim ki, Moskvadan DTK-nın müxtəlif xidmətləri xəttilə təcrübə üçün gələn qrupların qarşılanma, mehmanxana və digər məişət problemlərinin həlli rəhbərlik tərəfindən bizim şöbəyə tapşırılıb. Onların hansı



şöbələrdə təcrübə keçmələrinin cədvəli və ona nəzarət də kadrlar şöbəsinin xidməti borcudur. Bütün bunlarla yanaşı, onun qrup yoldaşlarına qonaqpərvərlik baxımından diqqət göstəriləcəyinə tam əmin etdim.

Bu görüşümüz olduqca xoş əhval-ruhiyyədə keçdi. Sonda Məhəmməd müəllim mənə və Məhyəddinə ünvanlanan bir neçə yumor deməyi də unutmadı. Həmkəndlisi, görkəmli hüquq-şünas alim, hər ikimizin çox mehriban dostu Məmmədxan Rəsulovun bəzən bizim kəndin danışıq ləhcəsində dediyi zarafatlardan bir neçəsini dedi...

1982-ci ildə, iyulun birinci ongünlüyündə, M.Əsədovun dediyi həmkarları Bakıya gəldilər. DTK rəhbərliyinin rəsmi qəbulundan sonra onlar xidməti fəaliyyətə başladılar. Eyni zamanda iş vaxtından sonrakı boş vaxtlarının və istirahət günlərinin necə keçiriləcəyi barədə də mən təklifimi onlara elan etdim. P.Roqov və yaşca hamısından böyük olan, yoldaşlarının "komandir" deyə müraciət etdikləri Mixail Tişkin təklifimə tərəddüdlə baxdılar. Mənim yarızarafat "...qeyri-rəsmi tədbirlər planı Mamed Nəbiyeviçin tapşırığı ilə tərtib olunub"-deməyimdən sonra hamısı gülüşüb razılığını bildirdilər. Həmin vaxtdan başlayaraq qonaqların xidmətdənkənar vaxtlarına xüsusi diqqət yetirildi.

Unudulmaz M.Əsədovun dostlarına göstərilən qonaqpərvərliyin detallarını sadalamağı yersiz sayıram. Ümumi formada deyə bilərəm ki, boş vaxtlarında Bakının görməli yerlərini ziyarət etmək üçün oğlum İbrahimin idarə etdiyi şəxsi maşınımı onlara təhkim etdim. Məhiyəddin müəllimlə birlikdə onların yaşadığı "Azərbaycan İnturist" mehmanxanasında, şəhərdə və Abşeron bağlarında müəyyən xidmət göstərə bildik. Qonaqlar Moskvaya qayıdan günü nahar süfrəsi arxasında onların dedikləri razılıq sözlərini, əsasən xalqımıza və Məhəmməd müəllimə ünvanladıqları üçün qeyd etmək istəyirəm. Beş nəfərlik qrupun adından ürək sözlərini çatdıran P.Roqov

dedi:

"...Biz hamımız qafqazlıların, əsasən Azərbaycan xalqının qonaqpərvərliyi barədə çox eşitmişdik. Son iki ildə M.Əsədovla təmasda olmağımız, onun səmimiliyi və mərdliyi xalqınız barədə bilgilərimizi daha da atırırdı. Bakıda olduğumuz günlər ərzində bizə göstərilən qeyri-adi diqqəti ifadə etməyə



*M.Əsədovun DTK Akademiyasında həmkursları: M.Tişkin, P.Roqov, A.Yudintsov və b. 1982-ci ilin yazı.*

söz tapmırıq. Sadəcə olaraq xalqınız bütün bu hörmətin təşəbbüskarı Mamed Nəbiyeviçin, nəhayət sizin qarşınızda daim minnətdarlığımızı bildiririk".Qrupun yaşca ağsaqqalı "komandir" ləqəbli M.Tişkin əlavə edərək bildirdi ki, onlara qayğı göstərən Məhiyəddin Abdullayevə və şənbə günü bağ şəraitində (Fatmai sahəsində) yüksək səviyyədə istirahətlərini təşkil edən Zakir Hacıyevə dərin minnətdarlıqlarını çatdırmağı xahiş eidi. Əlavə etdi ki, bütün bunlar barədə Mamed Nəbiyeviçə yazılı məruzə etməyi öz üzərinə götürür...

Bizim respublikadan "Partnabor" (o vaxtlar qısaca belə adlanırdı. B.S.) xəttilə Moskvaya göndərilənlərin hamısı eh-



tiyatda olan kiçik zabitlər idi. Ali kursları bitirəndən sonra hamısına böyük rütbələr verilirdi. Əksəriyyəti "mayor", dərsdə və Akademiyanın ictimai həyatında nisbətən fərqlənənlərə isə "polkovnik-leytenant" verilirdi. M.Əsədov da müsbət mənada fərqlənən kimi yüksək rütbə ilə Bakıya qayıtdı və həm də başlanğıc üçün kursların məzunu kimi Ən yüksək vəzifə sayılan DTK mərkəzi aparatında əkskəşfiyyat şöbəsinə rəis müavini təfin olundu. Bu vəzifədə o, 8 aya yaxın xidmətdə oldu. Respublika partiya təşkilatının rəhbərliyi M.Əsədovun partiya-sovet işində yüksək təcrübəsini və təşkilatçılıq qabiliyyətini nəzərə alaraq onu 1983-cü ilin mayında Jdanov (indiki Beyləqan) RPK-nə 1-ci katib vəzifəsinə göndərdi.

Bu rayonda işlədiyi illər ərzində heç vaxt dostluq əlaqəmiz kəsilməyib. O, Bakıya ezamiyyətə gəldiyi vaxtlarda əksər hallarda telefon əlaqəsi saxlayırdı. Sovet illərində ittifaq miqyasında böyük təntənə ilə qeyd olunan inqilabi bayramlarda da təbriklər mübadiləsi öz yerində. Bir neçə dəfə rayona da dəvət etdi. Lakin dövrün ciddi iş rejimi buna imkan vermirdi. Nəhayət qonşu İmişli rayonuna ezamiyyət almağımdan xəbər tutub, çox mehriban dost görüşümüzü təşkil etdi. Bu barədə bir qədər ətraflı:

1984-cü ilin mart ayında DTK-nin rəhbərliyinin göstərişi ilə başçılıq etdiyim bölmənin əməkdaşı mayor Rövşən Nağıyevlə (indi o, polkovnik-leytenantdır, Cəmşid Naxçıvanski adına hərbi kollecdə müəllimdir) İmişli rayonunda işlərimizi qurtardıqdan sonra apardığımız araşdırmaların nəticəsini həmin rayon şöbəsinin əməkdaşları ilə müzakirə etdiyimiz vaxt M.Əsədov mənə telefon etdi. İmişlidə olmağım barədə məlumat əldə etməsini zarafatla mənə bildirdi və işi qurtarandan sonra axşam Beyləqana getməyi təklif etdi. Mənim o qədər də hiss olunmayan tərəddüdümü anlayırmış kimi qeyd etdi ki, marşrutdan çıxmaq meylimin olmamasını bilir və lazım olsa rəhbərliklə danışa bilər. Sonra da əlavə etdi ki, səni rayona

gətirmək üçün rayonun rəisi Qeys Əliyevi göndərmişəm İmişliyə, elə etmə ki, o, tək qayıtsın.

İş vaxtımın sonunda DTK sədrinin müavini general Əbdül Xalıqova telefonla işlərimi yekunlaşdırmağım və Bakıya qayıtmağa hazır olduğumu məruzə etdim. Sonra M.Əsədovun məni rayona dəvət etməsini deyəndə, o, artıq məsələdən xəbərdar olduğunu və bu barədə onun özünə zəng edildiyini bildirdi. Həmin vaxt artıq DTK-nın Beyləqan şöbəsinin rəisi İmişlidə idi. Biz onunla görüşüb, R.Nağıyevlə birlikdə Beyləqana yollandıq.

Beyləqana çatandan sonra Məhəmməd müəllim bizi çox səmimi qarşıladı. Söhbət əsnasında bir qədər Zəngilan, Sumqayıt, Şirvan görüşlərimizi xatırladıq. Şirin xatirələrimiz 1982-ci ilin baharında Moskvadakı görüşlərimizin yada salınması ilə bağlı oldu. O vaxt Məhəmməd müəllim Moskvada oxuyurdu. Və mən də həmin şəhərə ezamiyyətə getmişdim. Məhəmməd müəllimlə görüşəndə o, ömür-gün yoldaşı, mərd və qonaqpərvər Məleykə xanımın da burada olduğunu bildirərək məni təkidlə evinə dəvət etdi. Hətta mənim bir qədər tərəddüd etdiyimi görüb zarafatla əlavə etdi ki, Moskvada olmalarına baxmayaraq, məni ləziz Azərbaycan xörəklərinə qonaq edəcəklər. Mərhum dostum Hidayətin qızı Məleykə xanımın qonaqpərvərliyinə bələd olduğumu Məhəmməd müəllimə bildirdim və həmin gün onlara getməyə imkanım olmadığını deyib, səhərisi gün onunla "Pekin" mehmanaxasında görüşməyi şərtləşdik.

Çox yaddaqlan və maraqlı keçən bu görüşümüzü ətraflı şəkildə xatirimizdə canlandırdıq. Məhəmməd müəllim mənim yadıma saldı ki, evə getməməyimə baxmayaraq, Məleykə xanım mənim Bakıya uçacağımı bildiyindən ən ləziz milli xörəklərimizdən birini bişirib mənə yol azuqəsi göndərmişdi.

Daha sonra Məhəmməd müəllim 1980-1982-ci illərdə SSRİ DTK-nin Akademiyasının rəhbər kadrlar hazırlayan



fakültəsində oxuduğu zaman rastlaşdığı maraqlı epizodlardan danışdı və mənim də tanıdığım həmkarlarımızı yada saldıq.

Beyləqana gəldiyimiz həmin axşam apardığımız xatirələr mübadiləsindən sonra, nəhayət məni rayona dəvət etməsinin səbəblərini açıqlayaraq DTK-də az müddətli xidmətdən sonra yenə də partiya işinə qayıtmasının və gələcəkdə hərbi xidmət stajı hesablanarkən necə nəzərə alınacağı barədə fikirlərini general Ə.Xalıqova məruzə etməyimi xahiş etdi.

Mən Məhəmməd müəllimi maraqlandıran məsələlərlə bağlı özüm dəqiq bildiyim bir məqamı bildirdim. Belə ki, Moskvanın göstərişinə əsasən DTK-da xidmətə çağırılanların 2 illik ali kursa göndəriləndən əvvəl rəhbər partiya, sovet və komsomol işində olarkən stajlarının hərbi xidmət kimi hesablanmasını dedim. İkinci dəfə DTK-nə xidmətə çağırılmaqla bağlı xahişimi general Ə.Xalıqova məruzə edəcəyimi vəd etdim. Sonradan xəbər tutdum ki, M.Əsədov Bakıda olduğu vaxt bu məsələ ilə bağlı Ə.Xalıqovla görüşüb.

M.Əsədov mənim təxminimə görə 1986-cı ildə Bakıda, MK-nın əsas şöbələrindən biri olan inzibati orqanlardala iş üzrə şöbəsinə müdir vəzifəsinə təyinat aldı. Bu vəzifədə olduğu vaxt DTK-nin Mərkəzi Komitəsinin nomenklatur siyahısında olan rəhbər kadrların büro və katiblikdə baxılması üçün göndərilən təqdimatlarla bağlı xidməti əlaqəmiz mənim istefaya çıxdığım 1987-ci ilin ortalarına kimi davam etdi. Məhəmməd müəllim 1988-1990-cı illərdə Ağdaş və Quba RPK-lərinin 1-ci katibi vəzifələrində işlədi.

M.Əsədova yenidən daha böyük etimad göstərilərək respublikada ictimai-siyasi durumun ən ağır olduğu bir vaxtda, 23 may 1990-cı ildə Azərbaycan SSR Daxili İşlər naziri təyin edildi, və general-mayor ali hərbi rütbəsi verildi.

Bu təyinatla bağlı mənim M.Əsədova göndərdiyim çox geniş məzmunlu teleqramı alandan sonra onun təşəbbüsü ilə



*Yenicə Daxili İşlər naziri təyin olunmuş general-mayor M.Əsədov*

DİN-də yaddaqalan görüşümüz oldu. Həmin görüş barədə bu yazının əvvəlində ətraflı qeyd olunduğundan təkrara ehtiyac qalmır.

Həmin görüşü M.Əsədovla son görüş də adlandırmaq oalr. Doğrudur, bundan bir neçə ay sonra Zəngəzurun Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan bölgələrindən qayıtmasından xəbər tutanda onunla görüşmək cəhdim olsa da, bu, baş tutmadı. Belə ki, mənim telefon zəngimə köməkçisi, hazırda Bakı şəhəri Baş Polis İdarəsi Qeydiyyat və Şəxsiyyət vəsiqəsi şöbəsinin rəisi, polis polkovniki Fazil Mamedov (həmin vaxt o mayor idi) bildirdi ki, nazir harasa çıxmağa hazırlaşır. Bu səbəbdən də onunla qısa telefon danışığımız oldu. Məqsədim ondan ezamiyyətdə olduğu Ermənistanla sərhəd rayonlarda, o cümlədən hər ikimizin doğmalarımızın yaşadıqları Zəngilanda vəziyyəti öyrənmək idi. Məhəmməd müəllim əvvəllər olduğu kimi, yenə də xoş əhval-ruhiyyədə danışmaq istəyirdi. Amma özündən asılı olmadan bu alınmırdı. Danışığından daxilən keçirdiyi gərginliyi sezmək çətin deyildi. Rayonumuzda və ətraf bölgələrdəki durum barədə sualıma ətraflı cavablandırmasa da, gərginliyin azalmasından danışmağın mümkünsüzlüyünü mənə çatdırdı...



M.Əsədovun nazir işlədiyi bütün müddətdə istər döyüş bölgələrində və istərsə də ölkədaxili ictimai -siyasi gərginliyin artdığı dövrə təsadüf etdi. Belə bir çətin şəraitdə ölkə başçısının 18 noyabr 1991-ci il tarixli sərəncamı ilə o, nazir vəzifəsindən azad edilərək, Dövlət müşaviri vəzifəsinə təyinat aldı. (M.Əsədovun Daxili İşlər naziri vəzifsəinə təyin olunması və başqa işə keçməsinin dəqiq tarixi bu nazirliyin veteranı, istefada olan polis polkovniki, tanınmış yazıçı-publisist Elbrus Şahmarın 1999-cu ildə nəşr etdirdiyi "Daxili işlər orqanları generalları" kitabından götürülmüşdür. B.S.)

Prezidentin İcra aparatının Dövlət müşaviri kimi M.Əsədovun ilk, həm də sonuncu ezamiyyəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ən qaynar nöqtəsi olan Ağdam rayonuna oldu. Onunla birlikdə bu bölgəyə gələn görkəmli dövlət xadimlərindən ibarət böyük dəstə elə həmin gün, 20 noyabr 1991-ci il tarixdə axşamüstü hərbi vertolyotla Bakıya qayıtmalı olurlar. Bu, son dərəcə uğursuz, misli görünməmiş faciə ilə nəticələnən səfərin nəticəsini qeyd etməyə acizlik çəkirəm. Bu dəhşətli qəzanın ağırlığı insan təfəkkürünə sığmadığı kimi, hər hansı bir məntiqi fikir söyləmək də mümkünsüzdür! Bəli, həmin gün axşam Xocavənd (keçmiş Martuni) rayonunun Qarakənd səmasında vertalyotun vurulması barədə AzTV-1-lə yayımlanan qara xəbər tək Azərbaycanı deyil, bütün postsovet məkanını lərzəyə gətirdi. Bu dəhşətli faciə qurbanlarının acı taleyi barədə təfərrüatı ilə təkrarlamağa ehtiyac yoxdur. Reallıq budur ki, M.Əsədov da daxil olmaqla şəhidlərin böyük əksəriyyəti ümumxalq matəm izdihamı ilə Bakıda 1-ci Fəxri xiybanda torpağa tapşırıldı. Onların ailə üzvləri, başqa doğmaları və dostları Vətən yolunda baş verən faciə qurbanlarının məzarlarını vaxtaşırı ziyarət edirlər. Mən də səhhətimlə bağlı mütəmadi olmasa da, imkanım daxilində Vətənin ləyaqətli övladlarının ruhu qarşısında mənəvi borcumu arabir yerinə yetirirəm.

Azərbaycan xalqı üçün bu qədər ağır itkinin səbəbi bu günə kimi yetərincə araşdırılmayıb. Doğrudur, onlar Vətənin ağır günündə öz vətəndaşlıq və xidməti borclarını yerinə yetirərkən azğınlaşmış erməni terroruna məruz qalmışlar. Ancaq on səkkiz nəfər görkəmli dövlət xadimləri və ziyalıları bir vertolyota doldurulub, faktiki olaraq nəzarətimizdən çıxmış, barıt çəlləyini xatırladan bölgənin səmasına göndərilməsinin nə qədər düşünülmüş tədbir olması hələ də müəmmalı olaraq qalmaqdadır...

Hələlik hamımız M.Əsədovun 14 ildən artıq aramızda olmaması reallığını qəbul etmək zorunda qalırıq. "Vertalyot qəzası" adlı terrorun qurbanları olan digər dövlət xadimləri kimi, general M.Əsədovun da əziz xatirəsi xalqımız tərəfindən unudulmur. Onun xatirəsinin əbədiləşdirilməsi məqsədi-


Дорогой Бахтияр Ибрагимович!
Горячо и сердечно поздравляю Вас
с наступающим Новым годом!
Желаю Вам крепкого здоровья, благо-
получия в жизни. Пусть успех
всегда сопутствует Вам.
Хочу, чтобы в Вашей семье всегда
была радость.
Мамед.
22/XII-1981 г. г. Москва

***M.Əsədovun müəllifə Moskvadan göndərdiyi təbrik məktublarından biri***

lə Bakının Xətai rayonunda, Sumqayıt, Zəngilan, Beyləqan, İmişli, Ağdaş və başqa rayonlarda onlarla küçə və məktəblərə M.Əsədovun adı verilmişdir. Məktəblərin pedaqoji və şag-



ird kollektivləri tərəfindən onun əziz xatirəsi anılır və həmişə də anılacaq.

Xalqımızın vətənpərvər oğlu, unudulmaz M.Əsədovun əziz xatirəsinə həsr etdiyim bu yazını onun taleyi ilə bağlı vəfalı ömür-gün yoldaşı Məleykə xanımın nikbin düşüncələrilə tamamlamaq istərdim. General M.Əsədovun aramızda olmadığı üzücü illər ərzində Məleykə xanımla vaxtaşırı görüş və telefon danışıqlarımızda M.Əsədovla bağlı olan xatirələri keçmiş vaxta aid etməyi qəbul etmir. Heç kəsin "Allah rəhmət eləsin" sözləri ilə daxilən razılaşmır. Yetərincə dəyanətli, mərd və qeyrətli bu xanım istəkli övladları Natiq, Nazim və Rasimin gələcək həyat yolllarının müəyyənləşdirilməsində mənəvi ehtiyac duyduqları ata qayğılarının yükünün ağırlığını da ləyaqətlə öz çiyinlərində daşıyır. 1999-cu ildə nəşr olunan M.Əsədovun yaşadığı şərəfli ömür yolunu işıqlandıran xatirələr toplusu kitaba "yolunu gözləyirik" adı da Məleykə xanımın istək və arzularına uyğun seçilib. Onun belə ümidverici duyğuları ilə razılaşmamaq da mümkün olmur. Eyni zamanda nikbin düşüncəsinə sadiq olan bu xanım ümid çırağının zəif işartısının çox uzaqda olması ilə razılaşmalı olur. Bütün bu deyilənlərə rəğmən mən də M.Əsədovun həyat yolunun bəzi məqamlarına həsr etdyim bu yazını da hələlik qeyri-müəyyən vaxta kimi tamamlamağı da təxirə salıram...?

***05.12. 2006-cı il***

# QƏHRƏMANLAR ÖLMÜR, ULDUZLAR SÖNMÜR



*Milli qəhrəman Riad Əhmədov*

Respublika Milli Təhlükəsizlik Nazirliyinin əsas inzibati binasının girişindəki böyük dəhlizdə şəxsi heyətin ziyarətgahına çevrilmiş bir müqəddəs guşə var: Bu guşənin divarında «Milli Qəhrəmanlar» başlığı altında bir xatirə lövhəsi yerləşir. Lövhədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin başlandığı 1988-ci ildən başlanan, ərazi bütövlüyümüz uğrunda gedən qanlı döyüşlərdə və müstəqil Azərbaycanın dövlətçiliyinə qarşı yönəlmiş silahlı qarşıdurmada canlarını qurban vermiş, dövlətin ən yüksək mükafatı — «Azərbaycan Respublikası Milli Qəhrəmanı» fəxri adına layiq görülmüş 6 nəfər Vətən övladlarının adları yazılmışdır.

Bu lövhədə adları xalqımızın qəhrəmanlıq salnaməsinə əbədi həkk olmuş aşağıdakı Vətən igidlərinin adlarını oxuyuruq:

***Əhmədov Riad Fikrət oğlu (1956-1992)***
***Əliyev Nadir Alış oğlu (1962-1993)***
***Əliyev Əmiraslan Rza oğlu (1960-1995)***
***Məmmədov Eldar Harun oğlu (1974-1993)***
***Səfərov Faiq Əliqulu oğlu (1974-1999)***
***Mansurov Bəhruz Qəhrəman oğlu (1975-1995)***



1941-1945-ci illər Böyük Vətən Müharibəsində (BVM) alman faşizmi üzərində qələbənin, eləcə də MTN işçilərinin peşə bayramları və dövlət səviyyəsində keçirilən digər anım mərasimləri keçirilərkən nazirliyin rəhbərliyi, şəxsi heyətin nümayəndələri və veteranları tərəfindən bu xatirə lövhəsi önündə qəhrəmanların əziz xatirəsi anılır. Bu məqsədlə ora tər çiçəklər qoymaqla, lövhə önündə ənənəvi ehtiram rəmzi kimi sükut dəqiqəsi və əsgəri təzim icra olunur.

Adları çəkilən Milli Qəhrəmanların siyahısına başçılıq edən Əhmədov Riaddan başqa beş nəfər mən istefaya çıxandan sonra hərbi xidmətə çağırıldıqları üçün, heç biri ilə tanışlığım olmayıb. Bu səbəbdən də onların barəsində məlumatım çox bəsitdir. Bildiyim ancaq odur ki, Əliyev Nadir MTN-nin əkskəşfiyyat xidmətində, qalan dörd nəfər — Ə.Əliyev, E.Məmmədov, F.Səfərov və B.Mansurov isə 2002-ci ilə kimi MTN-nin tabeliyində olmuş Sərhəd Qoşunlarında xidmət keçirmişlər. Onların hamısı hərbi anda sədaqət nümayiş etdirərək Vətən qarşısında ləyaqətlə xidmət edib, xalqımızın tarixinə «Milli Qəhrəman» kimi əbədi daxil olublar. Onların göstərdikləri şücaət gənc nəslə əbədi örnək olduğu üçün, həmişə onların ölməz xatirələri hörmət və ehtiramla anılacaq.

Təbiətən əsl qəhrəmanlıq nümunəsi göstərmiş, bu yöndə tərbiyə görmüş Vətən qeyrətli Riad Əhmədov barədə bir qədər ətraflı. Azərbaycan Dövlət Təhlükəsizliyi orqanlarında xidmətə çağırıldığı 1981-ci ilin avqustundan istefaya çıxdığım 1987-ci ilin yayına kimi onunla xidməti təmaslarda olmuşam.

R.Əhmədov barədə xatirələrimi qələmə almazdan əvvəl onun MTN-də saxlanılan şəxsi işindən tərtib olunmuş qısa «Bioqrafik arayış»ı bu yazıya daxil etmək istəyirəm.

"Əhmədov Riad Fikrət oğlu 1956-ci il dekabr ayının 20-də Bakı şəhərində anadan olmuşdur. 1964-cü ildə, Bakı şəhəri 134 saylı ümumtəhsil məktəbində oxumağa başlamış və 1974-cü ildə oranı bitirmişdir. Həmin il Bakı Dövlət Universiteti-

nin hüquq fakültəsinə qəbul olunmuş və 1979-cu ildə təhsilini başa vurmuşdur.

Riad Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirdikdən sonra 3 il Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası İnstitutunun xəttşünaslıq şöbəsində laborant vəzifəsində, sonra isə Qanun Layihələrinin Hazırlanması və Qanunvericiliyin Sistemləşdirilməsi İdarəsində məsləhətçi, nazirliyin kadrlar şöbəsinin baş məsləhətçisi işləmişdir.

1980-ci ilin sentyabrında Riad Əhmədov Dövlət təhlükəsizlik orqanlarında həqiqi hərbi xidmət keçməyə tövsiyə olunmuş və SSRİ DTK-nın 23 sentyabr 1981-ci il tarixli 379 nömrəli əmri ilə o, müdavim qismində SSRİ Nazirlər Soveti yanında DTK-nın Minsk şəhərində yerləşən ali kursuna qəbul olunmuşdur. Təhsil aldığı ilk günlərdən başlayaraq Riad nəinki müəllim heyətinin, hətta tələbə yoldaşlarının da hörmətini qazanaraq özünü son dərəcədə müsbət tərəfdən göstərmişdir. Təhsilini uğurla bitirərək 1982-ci ilin avqust ayında diplom alan Riad Əhmədov Azərbaycan SSR DTK-nın 2 sentyabr 1982-ci il tarixli əmri ilə 1-ci şöbənin 1-ci bölməsinə kiçik əməliyyat müvəkkili vəzifəsinə təyin edilmişdir. Bir il sonra həmin bölməyə əməliyyat müvəkkili vəzifəsinə keçirilmiş, sonra SSRİ DTK-nın Y.Andropov adına İnstitutuna kəşfiyyatın rəhbər və əməliyyat heyətinin təkmilləşdirilməsi üzrə beş aylıq kursa göndərilmiş və oranı 1984-cü ildə bitirmişdir.

O, 1986-cı ildə baş əməliyyat müvəkkili vəzifəsinə təyin edilmiş, 1991-ci ilin əvvəlində SSRİ DTK-nın 1-ci İdarəsinə baş əməliyyat müvəkkili vəzifəsinə keçirilmiş, Azərbaycan Respublikasının suverenlik qazandığı və Milli Təhlüksəizlik Nazirliyi yarandığı günədək orada işləmişdir.

Riad Əhmədov öz xahişi ilə dəfələrlə Milli Təhlükəsizlik Nazirliyinin digər əməkdaşları ilə birgə döyüş bölgəsinə göndərilmiş və hərbi əməliyyatlarda iştirak etmiş, təhlükəsizlik



orqanlarında qüsursuz xidmətlərinə və göstərdiyi cəsurluğa görə dəfələrlə mükafatlandırılmışdır.

2 yanvar 1992-ci ildə Riad Əhmədov Azərbaycan Müdafiə Nazirliyinin sərəncamına göndərilmiş və Kəşfiyyat İdarəsinə rəis müavini təyin edilmişdir.

22 yanvar 1992-ci ildə polkovnik-leytenant Riad Əhmədovun rəhbərlik etdiyi kəşfiyyat qrupu yenidən döyüş əməliyyatına göndərilmiş, lakin o, ailədə narahatlıq yaratmamaq üçün öz yaxınlarına Əli Bayramlıya xidməti ezamiyyətə gedəcəyini söyləmişdir.

Həmin ilin yanvar ayının 26-da Daşaltı əməliyyatı zamanı itkin düşmüşdür.

Azərbaycan Respublikasının Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanına əsasən Riad Fikrət oğlu Əhmədova Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdir."

Bu kiçik arayışdan oxucuya çox məqamlar aydın olur. Soruşula bilər ki, MTN-nin Kəşfiyyat İdarəsində nisbətən rahat iş şəraitindən Müdafiə Nazirliyinin hərbi kəşfiyyat xidmətinə, oradan isə bir başa döyüş cəbhəsinə tələsməyi Riadı vadar edən nə idi? Cavabı çox qısa və aydındır — həyatını Vətənə həsr edən bu igidin ərazi bütövlüyümüzün təhlükə qarşısında olduğu vaxtda rahat kabinetdə oturmağı özünə rəva bilməməsidir...

Riad Əhmədovla ilk tanışlığımı Bakı-Minsk-Bakı görüşlərimi, ordumuzun tarixinə qara ləkə kimi düşən çox uğursuz «Daşaltı əməliyyatı»nda itkin düşəndən sonra barəsində keçirilən anım mərasimləri barədə xatirələrimi hələ 2005-ci ildə qələmə almışdım. Bu yazım bir qədər ixtisarla «Azərbaycan» qəzetinin 12 iyul 2005-ci il tarixli sayında «Ordumuza Riad Əhmədov kimi igidlər gərəkdir» başlığı ilə dərc olunmuşdur. Həmin xatirələrimin tam mətnini, kiçik əlavələrlə, bu kitabın oxucularına təqdim edirəm.

Xalqımızın qəhrəman oğlu Riad Əhmədovla ilk tanış ol-

duğum ötən əsrin 80-ci illərinin əvvəllərində, sonralar isə birgə xidmətimiz dövründə arabir şirin söhbətlər etdiyim vaxtlarda heç ağlımıza gəlməzdi ki, o, belə tez bir müddətdə aramızdan qeybə çıxacaq və onsuz üzücü uzun illəri yaşamaq zorunda qalacağıq. Nə biləydik ki, ata-babalarımız təxminən iki əsr bundan öncə dünyanın müxtəlif ölkələrindən qovulmuş erməniləri torpağımızın ən füsunkar guşələrindən olan Qarabağın dağlıq hissəsində və digər yerlərdə yerləşdirəcək, onlar nə vaxtsa verdiyimiz çörəyin əvəzində nankorluq edərək «yersiz gəldi, yerli qaç» xislətinə sığınaraq bizi olmazın müsibətlərə düçar edəcəklər. Bunun da nəticəsində on minlərlə oğul və qızlarımızı qanına qəltan edəcək və bir milyondan artıq soydaşlarımız öz doğma vətənində vətənsiz qalacaq.

Ancaq nə etməli ki, biz belə bir ağlasığmaz olduğu qədər də acı həqiqətlə müvəqqəti də olsa üz-üzə qalmadıq. Ağır nəticəsi də göz qabağındadır ki, Riad kimi Vətənə, torpağa bağlı cəsur igidlər barəsində elegiya söyləyib, bədbin notda fikirlərimizi kağıza köçürmək məcburiyyətində qalacağıq. Bəli, bunları etməyə məhkumuq. Nə qədər ki, Riadımızın aqibətini müəyyənləşdirə bilməmişik, ölümün gözünə dik baxan, düşmən qabağında əyilməz qartal baxışlı bu cəngavər igidi həm qəlbimizdə, həm də yazılarımızda gələcək gənc nəslin tərbiyəsi üçün yaşatmalıyıq. Lap elə Riadla möcüzəli görüşümüz baş verənə kimi...

İndi isə bir qədər Riadlı günlərimizə qısa ekskurs edək:

Mən 1970-ci və 80-ci illərin əvvəlinə kimi Mingəçevir şəhərindəki rayonlararası şöbədə işləyəndən sonra, 81-ci ilin yanvarında Respublika Dövlət Təhlükəsizlik Komitəsinin mərkəzi aparatında kadrlar şöbəsində işləməli oldum. Bu şöbədə mənim başçılıq etdiyim bölmə bizim orqana əməliyyat, əməliyyat-texniki və digər işçilərin qəbulu və bütün respublikada fəaliyyətdə olan orqanlarda işləyən əməkdaşlarımızın kuratorluğu ilə məşğul idi. Həmin ilin təxminən mart-aprel aylarında orqana qəbul olunmaq üçün tərtib olunan şəxsi işlər içərisində Riad Əhmədovun da sənədləri ilə tanış olmalı oldum. Elə həmin il Riadla birlikdə bir neçə nəfərin də şəxsi işləri hazırlandı və ilin ortasında SSRİ DTK-nın Minsk şəhərindəki ali kursuna göndərməli olduq. Riadın sənədlərindən o da mənə məlum olmuşdu ki, o, Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirəndən sonra təyinatla Ədliyyə Nazirliyinə göndərilmiş, orada bir qədər işləyəndən sonra gələcək xidmətini Dövlət Təhlükəsizlik orqanında keçirmək üçün ərizə ilə orqanın rəhbərliyinə müraciət etmişdir. Onun ərizəsinə müsbət baxılmışdır. Zəruri yoxlama işləri qurtarandan sonra 81-ci ilin sentyabrın 1-dən o, həmin ili ali kursda təhsil almağa göndərildi. İş elə gətirdi ki, 1982-ci il fevralın əvvəllərində SSRİ DTK-nın rəhbərliyi tərəfindən Minsk şəhərindəki adı çəkilən məktəbdə müttəfiq, muxtar respublika və bir neçə vilayətdən DTK-nın kadr qurumları rəhbər işçilərinin beş günlük seminar-müşavirəsi təşkil olunmuşdu. Həmin müşavirəyə Azərbaycandan mən və Naxçıvan Muxtar Respublikası DTK sədrinin kadrlar üzrə müavini mayor Skudarnov da dəvət olunmuşduq. Ezamiyyətin proqramına görə biz müşavirə müddətində tərəfimizdən ora göndərilən kursantlarla da görüşməli və vəziyyətləri ilə tanış olmalı idik. Bunun üçün ilk növbədə məktəbdə kursantlarla dərs müddətində və dərsdən kənarda məşğul olan şəxs kimi kurs rəisi ilə soy adını unutduğum bir mayorla görüşməli idik. Belə də oldu. Onu da qeyd edim ki, kurs rəisinin bizim kursantların heç birindən şikayəti olmadı. Riad Əhmədov haqqında xüsusilə müsbət fikir söylədi. O, qeyd etdi ki, Əhmədov istər dərsdə, istər idmanda və istərsə də məktəbin ictimai həyatında fəal, ümumiyyətlə, bütün məsələlərdə öndə gedən kursant kimi xarakterizə etdi. Bizim respublikadan olan kursantlarla görüşərkən Riad məktəbdə dinlədikləri mühazirə və seminarlarda baxılan məsələlərə böyük maraq göstərdiyini, onün ürəyincə olduğunu və bu

orqana xidmət etmək seçimini düzgün saydığını qeyd etdi.

Minskdə olacağımız günlərin proqramında şəhərin yaxınlığındakı Xatın memorial kompleksinə ekskursiya də nəzərdə tutulmuşdu. Ezamiyyətin son günü müşavirə iştirakçıları ilə birlikdə Xatın abidə komleksinin tarixini yaxşı bilən bir bələdçi ilə biz ora yollandıq. Söz yox ki, mən də və bütün həmkarlarım da Xatında baş verən vəhşiliklər barədə əvvəlcədən də mətbuatdan xəbərdar idik. Lakin bütün bunlara baxmayaraq, biz orada ekskursiyada olduğumuz müddət də gördüklərimizə və deyilənlərə inanmaq mümkün deyildi. Həmin yerdə, yəni Belorusiyanın faşistlər tərfəindən xarabalığa çevrilmiş Xatın kəndinin yerində memarlıq-heykəltaraşlıq abidə kompleksi ayrı-ayrı adlar altında, o cümlədən «Xatın həyəcanı», «Xatın tüstüləri», «Kəndlər qəbiristanlıqları» və nəhayət, parçalanmış uşağın meyitini əlində tutmuş atanı əks etdirən «Əyilməz insan» heykəlinə və digər səhnələrə baxmaq asan deyildi. Xatından şəhərə qayıdarkən həmin məktəbin baş korpusunun dəhlizində bir neçə nəfər başqa millətlərdən olan kursantlarla Riadın söhbət etdiyini gördük. Riad onlardan ayrılaraq mənim yanıma gəldi, bir qədər utana-utana qoluma girdi və harada ekskursiyada olduğumuzdan xəbərdar olduğunu mənə bildirdi. Sonra isə dərindən köks ötürərək özünün də qrup yoldaşları ilə birlikdə Xatında olduğunu və viranəyə çevrilmiş kənd əhalisinin başına gətirilən müsibətlərin acı təəssüratından hələ də ayrıla bilmədiyini qeyd etdi. Həmin görüşümüz demək olar ki, bizim onunla Minskdə sonuncu görüşümüz oldu. Mən söhbətimin sonunda Riada bildirdim ki, sabah onun dərsdə olduğu vaxt biz Bakıya uçmalı olacağıq və beləliklə, onunla səmimi xudahafizləşdik. Son sözü, bir qədər də gülümsəyərək, — «Bəxtiyar müəllim, Bakıya məndən salam de» oldu.

Zaman keçdi, Riad Minskdə təhsilini başa vuraraq 1982-ci ilin, səhv etmirəmsə, iyul ayında Bakıya gəldi və bizim növbəti görüşümüz kadrlar şöbəsində oldu. Qəbul olunmuş qaydaya görə ali kurslardan yenicə qayıtmış gənc əməkdaşlarımızın bölgüsü üçün DTK rəhbərliyi müvafiq əmr hazırladı. Həmir əmrlə Riad xarici kəşfiyyat şöbəsinə təyinat aldı. Onlar əmrlə tanış olduqdan sonra iş yerlərinə yollandılar. Bir-iki dəqiqə keçməmiş Riad mənim kabinetimə gəldi və mənə belə bir sualla müraciət etdi:

— Bəxtiyar müəllim, Həmid Əhmədovu tanıyırsınızmı? O mənim babamdır.

Mən qısaca cavab verdim ki, nəinki babasını, hətta atasını da tanıyıram. Onun növbəti suallarından hiss etdim ki, o valideynləri haqqında, xüsusilə babası haqqında nəyisə öyrənməyə maraq göstərir. Bunları nəzərə alaraq mən ona əyləşmək təklif etdim və maraqlandığı suallara bir qədər ətraflı cavab verdim.

Bildirdim ki, beş ili, yəni 1953-1957-ci illəri Naxçıvanın Culfa şəhərində xidmət keçdiyim üçün və həm də əməliyyat xidmət ərazimə Muxtar Respublikanın dövlət sərhəddi boyu uzanan dəmir yol obyektləri daxil olduğu üçün Naxçıvan şəhəri də daxil olmaqla, Şahbuzdan başqa, bütün rayon mərkəzlərində, sərhəd komendatlıqları və zastavaları ilə daim xidməti əlaqəm olurdu. Həmin illərdə podpolkovnik Həmid Əhmədov Naxçıvan şəhərindəki 41-ci sərhəd dəstəsində xidmət edirdi. Belə bir məqamı da izah etdim ki, sərhəd qoşunları DTK tərkibində olduğu üçün dövlətin təhlükəsizliyi, onun sərhədlərinin mühafizəsi məsələləri xidmətimizin ən vacib sahəsi kimi qarşıda dururdu. Həmin məsələlərin həllini biz qarşılıqlı tərtib olunmuş plan əsasında icra edir, vaxtaşırı müşavirələrdə müzakirə də edirdik. Elə bu səbəbdən də onun babası ilə görüşümüz adi hal idi. Mərhum Həmid müəllimlə demək olar ki, son görüşümüz DTK-nın Zəngilan rayon şöbəsində işlədiyim zaman, səhv etmirəmsə, 1950-ci illərin sonuna yaxın Bakıda keçirilən müşavirədə oldu. Həmin müşavirəyə

o, Naxçıvan sərhəd dəstəsinin Şahtaxtı komendatlığında rəis, yaxud da rəis müavini işləyirdi. Bir məsələni də qeyd etdim ki, sovet imperiyası illərində kapitalist düşərgəsinə daxil olan müsəlman ölkələri İran və Türkiyə ilə SSRİ sərhədlərində azərbaycanlı əsgər və zabitlərə demək olar ki, az rast gəlmək olurdu. Bunun səbəbini dəqiq bilsəm də Riada bunu açıqlamadım. Çünki o dövr üçün gənc zabitlərə, əməliyyat işçilərinə belə məsələləri olduğu kimi açıq demək məsləhət deyildi. Amma əsl səbəb ondan ibarət idi ki, sadəcə olaraq azərbaycanlı zabitlərə belə xidmətlərdə, yəni müsəlman kapitalist ölkələri ilə həmsərhəddə xidmət etməyə qısqanır və açığını desək, etibar olmurdu. Əlbəttə bu, daha geniş və başqa bir söhbətin mövzusudur.

Mən Riada atası Fikrət müəllimlə də görüşlərimiz haqqında qısa məlumat verdim. Bildirdim ki, onunla ilk görüşümüz 1967-68-ci illərdə Naxçıvanda olimuşdu. Həmin vaxt Az.KP MK-nın göstərişi ilə respublikanın bütün rayon partiya komitələri büro üzvlərinin zonalarda iki günlük seminar-müşavirələri keçirilirdi. Naxçıvan şəhərində keçirilən tədbirə Muxtar Respublikanın bütün rayonları ilə yanaşı, bu bölgəyə ən yaxın olan Zəngilan və Qubadlı rayon partiya komitələri büro üzvləri də dəvət olunmuşdular. Həmin iki günlük müşavirədə Mərkəzi Komitənin məsul nümayəndəsi kimi Fikrət Əhmədov iştirak edirdi, daha doğrusu, onun rəhbərliyi altında keçirilirdi. Müşavirənin gedişi vaxtı bizim onunla ümumi tanışlığımızdan sonra, müşavirənin sonunda Vilayət Partiya Komitəsinin birinci katibi Hacıağa İbrahimovu ora dəvət olunmuş qonaqların şərəfinə Naxçıvanın ən gözəl guşələrindən biri Xalxal meşəsində təşkil etdiyi nahar süfrəsi arxasında çox yaddaqalan görüşümüz oldu. Sonralar Bakıda keçirilən yüksək səviyyəli partiya-təsərrüfat fəalları və digər toplantılarda da görüşlərimiz olurdu. Biz dostluq etməsək də belə görüşlərdə keçmiş tanışlar kimi ünsiyyətdə olurduq.



Mən Riada atası və babası haqqında dediyim xoş sözlərdən və onların respublikada böyük nüfuz sahibi olmalarından danışmağın, həm də onun DTK-nın sərhəd qoşunlarında rəhbər zabit vəzifələrində ləyaqətlə xidmət etmiş babasının yolunu seçməsini bəyəndiyimi deyəndə bunlardan böyük məmnunluq və qürur hissi keçirdiyini hiss etdim. Bütün bunları nəzərə alaraq söhbətimizin sonunu bir qədər yumor ovqatına yönəldərək, onun doğum gününün də 1917-ci ildə çekist orqanlarının yaradıldığı 20 dekabra təsadüf etdiyi üçün bu orqanda daha sədaqətlə xidmət edəcəyinə əminliyimi bildirdim. O, öz növbəsində bir qədər gülümsəyərək «Yəqin ad günümü şəxsi işimlə tanışlıqdan yadınızda saxlamısınız», — deyərək mənimlə xudahafizləşdi və birinci şöbədə iş yerinə yollandı. Bundan sonra mən istefaya gedənə kimi altı il müddətində eyni nazirliyin mərkəzi aparatının əməkdaşlarının gündəlik təsadüfi görüşləri səviyyəsində, arabir keçirilən müxtəlif toplantılarda bir yerdə olmağımız davam edirdi.

Mən istefaya çıxandan təxminən 4 il sonra, yəni 1992-ci



***Riad (sağdan 2-ci) döyüş bölgəsi "N" saylı hərbi hissədə***

ilin əvvəllərində DTK-da xilmətdə olan qonşularmıdan eşitdim ki, Riad həmin vaxtlarda hərbi xidmətini davam etdirmək üçün Müdafiə Nazirliyinə keçib. Bu yerdəyişmənin səbəbini bilməsəm də, mənə bir qədər təəccüblü gəldi. Ancaq nə etməli. Çox keçmədən Şuşa yaxınlığındakı bədnam Daşaltı əməliyyatında satqınlığın hədəfinə tuş gəlib və xəbərsiz İtkin düşməsi məni dəhşətə gətirdi. Həmin anlarda onunla Minskdə Xatın faciəsi barədə, Bakıda babası ilə bağlı səmimi söhbətlərimiz gözüm önünə gəldi. Bu mehriban, qartal baxışlı, Vətəninə, xalqına bağlı cəsurluq mücəssiməsi kimi tanıdığım və yadımda qalan Riadın Vətən uğrunda gedən ölüm-dirim savaşında kənardan sadəcə seyrçi kimi baxmasına inana bilmirdim. Bəli, bu istək onu erməni faşizmi ilə döyüş meydanına apardı və o, xalqımızın on minlərlə igid oğlan və qızları ilə birlikdə ön cəbhədə böyük şücaət göstərərək, xalqının qəhrəmanlıq salnaməsinə yeni səhifə yazdı...

Bu gün Riadın aramızda olmadığı bir vaxtda onunla Minsk görüşlərimiz, yer üzündən silinmiş Xatın barədə acı təəssüratlarımızı bölüşməyimiz bir daha gözüm önünə gəlir. Həmin 80-ci illərin əvvəllərində ağlımıza da gətirə bilməzdik ki,



*Riad döyüşə gedir*





*R.Əhmədov döyüş yoldaşları ilə (sağdan 1-ci)*

çox keçmədən Xatın faciəsini kölgədə qoyan, daha dəhşətli, dünyada misli görünməmiş, daha üzücü və işgəncəli Xocalı faciəsi xalqımızın başına gətiriləcək. Hitlerçi faşizm kommunist ideologiyasına və sovetlərə qarşı ən qanlı müharibəyə başlamışdısa da, Ermənistan faşizmi türk dünyaksına əsassız düşmənçilik edərək, torpaq iddiası ilə, mononasional erməni dövləti qurmaq üçün və daha çirkin niyyətlərlə bizimlə savaşa qalxdı. Nəticədə bizi qorumağa söz vermiş «şanlı sovet ordusu» Xocalıya yeridilmiş 366-cı alayının tankları və digər zirehli texnikalarının tırtılları altından yayınaraq qanı axa-axa şaxtalı qış gecəsində Ağdam istiqamətində sığınmaq üçün qaçan silahsız qocaları, qadınları və körpə uşaqları arxadan gülləbarana tutdu. Onları kütləvi surətdə qırması faciəsini xüsusi qəddarlığına görə XX əsrin ən dəhşətli faciəsi adlandırmaq olar. Bu erməni vandalizmini qələmə almağa qələm də acizlik çəkir. Bütün bunların baş verməsinin «xeyir-duaçısının» SSRİ-nin ən şərəfsiz ermənipərəst başçısı Qorbaçovun




*MTN-də "Milli Qəhrəmanlar" guşəsi*

olması da heç kəsə sirr deyil.

Bəli, xalqımızın qeyrətli oğlu Riad Fikrət oğlu da belə bir ədalətsiz savaşın nəticəsində ərazi bütövlüyümüzün qorunması yolunda canından keçdi. «Canından keçdi» sözünü dilə gətirmək mənim üçün nə qədər ağır olsa da, 15 ildən artıqdır ki, Riadımız əziz anası Bahar xanımın, vəfalı ömür-gün yoldaşı Elmira xanımın, böyüdükcə daha çox ata nəvazişinə ehtiyacı olan şirin balaları Leylanın və Fərizənin, bacısı Mehriban xanımın, DTK-da həmkarlıq etdiyi əməkdaşların, döyüş cəbhəsində çiyin-çiyinə vuruşduğu silahdaşlarının və başqa dostlarının, doğmalarının gözünün yolda qalması danılmazdır...

Bəli, Riad nümunəvi xidmət etdiyi hər iki güc strukturlarına, yəni Milli Təhlükəsizlik və Müdafiə nazirliklərimiz üçün başucalığı və şərəf gətirdi. Və buna görə də xalqımızın gələcək nəsillərə örnək və nümunə ola biləcək qəhrəman oğlunun əziz xatirəsinin bu nazirliklərin şəxsi heyəti və ümumiyyətlə, xalqımız tərəfindən vaxtaşırı anılması təqdirəlayiqdir.





*Milli Təhlükəsizlik naziri, general leytenant Eldar Mahmudov başda olmaqla şəxsi heyyət peşə bayramı günü anım mərasimdə 28.03.2007-ci il*

Bu baxımdan MTN rəhbərliyi tərəfindən 2005-ci ilin martında nazirlik əməkdaşlarının peşə bayramı, eləcə də 1941-45-ci illər müharibəsində faşizm üzərində qələbənin 60 illiyi və 28 May Respublika günü ərəfələrində veteran çekistlərlə paytaxtın bir çox təhsil müəssisələrində pedaqoji kollektivlərində, tələbə və ictimaiyyətin nümayəndələrinin silsilə görüşlərinin keçirilməsinin xeyirxah və faydalı tədbirlər olmasını xüsusilə qeyd etmək istərdim. Belə tədbirlərdən ikisində, yəni Milli Qəhrəman Riad Əhmədovun adını daşıyan 203 saylı orta məktəbdə və 6 saylı liseydəki görüşlərdə Milli Təhlükəsizlik Nazirliyinin məsul əməkdaşları, indi xidmətdə olan Raman Kazımov, Nizami Allahverdiyev və Xatirə xanım Tağıyeva ilə birlikdə mən də iştirak etdim. Hər iki görüşdə ölkəmizdəki ictimai-siyasi durum, ərazi bütövlüyümüzün bərpası ilə bağlı ölkədə həyata keçirilən tədbirlərlə yanaşı, Ermənistan işğalçı-

larına qarşı qanlı döyüşlərdə Milli Təhlükəsizlik Nazirliyi çoxsaylı əməkdaşlarının da fəal iştirakından ətraflı söz açdıq. Həmin görüşlərdən martın 26-da Səbail rayonundakı 203 saylı orta məktəbdə qəhrəmanın anası Bahar xanım və bacısı Mehriban xanımın iştirakı ilə keçən görüş barədə xüsusilə qeyd etmək istərdim. Bu məktəbin şagirdləri tərəfindən Riadın qəhrəmanlıq obrazı ilə bağlı hazırlanmış məzmunlu poetik, bədii təsviri və televiziyada göstərilən qanlı döyüş əməliyyatlarında qəhrəmanın iştirakı yazılan lent və həyəcansız baxılması mümkün olmayan süjetlər hamımızı riqqətə gətirdi. Bütün bunlardan sonra bu sətirlərin müəllifinin yuxarıda qeyd etdiyi Bakı-Minsk görüşləri, onunla olan kövrək xatirələr, 80-ci illərin əvvəllərində, yəni Riadın Minskdə kursu bitirəndən sonra kəşfiyyat şöbəsində xidmətə başlayarkən ilk rəisi olmuş istefada olan polkovnik Əli Orucovun xatirələri şagirdlər və pedaqoji kollektiv tərəfindən çox böyük maraqla qarşılandı.

Bir daha ümidvar olduğumu bildirmək istəyirəm ki, ölkədə həyata keçirilən ordu quruculuğu strategiyası, eləcə də gənclərlə aparılan hərbi vətənpərvərlik tədbirləri yaxın gələcəkdə öz müsbət nəticələrini verəcək. Xalqımız qarşısında duran ən ümdə istək və arzularımız — zorla qatıldığımız Dağlıq Qarabağımız uğrunda gedən ədalətsiz qanlı döyşülərdə tökülən Vətən övladlarının qanı yerdə qalmayacaq, nəhayət, ərazi bütövlüyümüzün bərpası ədalətli həllini tapacaq. Eyni zamanda xalqımızın qəhrərman oğlu Riad Əhmədov da daxil olmaqla minlərlə itgin düşmüş Vətən övladlarının taleyinə aydınlıq gətiriləcək.

*26.05.2005-ci il*



# «MƏN GÖRƏN KİŞİLƏR»DƏN BİRİ

***Bu yazını görkəmli dövlət, partiya və ictimai xadim V.İsmayılovun 24.XI.2006-cı ildə tamam olacaq 75 illik yubileyinə ithaf edirəm.***

**Bəxtiyar Süleymanlı**



*Vahid İsmayılov*

Yazıçı-publisist Məmməd Əfşanın «Mən görən kişilər» kitabını *(Bakı, Azərbaycan nəşriyyatı, 2003-cü il)* hər dəfə vərəqləyəndə xəyallar məni keçmişə aparır, çoxsaylı xatirələr yenidən duyğulandırır, düşüncələrə dalıram. Tanınmış partiya, siyasi, dövlət, elm və mədəniyyət xadimlərinin həyat və fəaliyyəti barədə deyilən, yazılan hər söz ötənlər barədə çağdaş və sabahkı oxucuya gərəkli bilgilər çatdırır. «Mən görən kişilər» kitabı bu baxımdan əsl kişilərin xatirəsinə ucaldılan söz abidəsidir. Kitabda adı çəkilən şəxsiyyətlərdən böyük əksəriyyətini tanıyıram və bəziləri ilə müəyyən münasibətlərim də olub. Ancaq mən onlardan biri haqqında söz açmaq istəyirəm. Bu dəyərli nəşrdə xalqımızın ləyaqətli oğlu Vahid İsmayılovdan hörmət və məhəbbətlə söhbət açılır. Vahid İsmayılovdan çoxları yazıblar, hələ yazacaqlar da. Bəzən düşünürəm ki, artıq Vahid İsmayılovla bağlı demək olar ki, hər şey deyilib, yazılıb, daha yeni

sözə ehtiyac qalmayıb. Amma qeyd etdiyim kitabda Vahid müəllim barədə «Xatirəyə dönmüş ömür» başlığı ilə müəllifin qələmə aldığı çox səmimi və kövrək yazını oxuduqdan sonra həm kədərli, həm də sevincli hissələr yenidən məni çuğladı. Etiraf edim ki, bu yazıya yenidən qayıtmağa məni həm də Məmməd müəllimin bu dəyərli yazısının gücü sövq etdi...

Düşünərm ki, Vahid İsmayılovla bağlı deyilmiş sözlər zaman-zaman təkrarlanmalı, yenilənməlidir. Onda onun həyatı, fəaliyyəti yenidən canlanacaq...

Onun adı çəkiləndə indi də ürəklər işıqlanır. Vahid İsmayılov ömrünün işığı bu gün də bərq vurur. Gərgin zəhməti, çalışqanlığı, hünəri, istedadı sayəsində onu təmizlik, düzlük etalonu adlandırıblar. O, ləyaqət timsalı idi. Vahid İsmayılov ömrünün işığı sönəməzdir. Bu işıq ürəkləri, xatirələri nurlandırıb.

Dünyagörmüş adamlar bilirlər ki, mənalı həyatı və el məhəbbəti ilə dərin iz buraxmış şəxsləri tarix yaddaşında möhkəm saxlayır və gələcək nəsillərə xatırladır. Vahid İsmayılov da belə adamlardan olmuşdur. Xalqın gözü tərəzidir, kimin Kim olduğunu yaxşı bilir və hər bir şəxsi onun xidmətlərinə, keçdiyi ömür yoluna görə dəyərləndirməyi bacarır. Zaman axarında çox şey dəyişsə də, yaxşı əməllər heç vaxt itib batmır. Həqiqət işığında namuslu həyat sürənlər heç vaxt yaddan çıxa bilməz.

Duyğu — düşüncələrim hələ də məni tərk etmir. Fikirləşdim ki, yenə də duyğu-düşüncələrimi qələmə alım. "Mən görən kişilər" kitabının təsiri altında... Hərçənd ki, mən "Yaşatmaq üçün yaşanmış yarımçıq ömür" adlanan kitabımı Vahid İsmayılova həsr etmişəm. Elə kitablar var ki, tarixi faktlarla zəngin olduğuna görə ona tez-tez müraciət etməli olursan. Dostlarım, tanışlarım, ünsiyyətdə olduğum insanlar mənə deyiblər ki, Vahid İsmayılovdan bəhs edən müəllifi olduğum kitab da məhz belələrindəndir. Mənim öz şəxsi kitabxanamda həmişə gərəkli olan, təkrar-təkrar oxuduğum əsərlər çoxdur. Lakin qeyd etdiyim kitabı əlimə götürən kimi hər dəfə həm ağırlı-acılı, həm də şirin hisslər məni bürüyür... Yəqin ona görə də bu kitab mənə çox əzizdir ki, məhz ilk kitabımı unudulmaz dostum, qısa ömür sürməsinə baxmayaraq olduqca dolğun və mənalı həyat yolu keçən Vahid İsmayılovun əziz xatirəsinə həsr etmişəm. Bəlkə də ona görə ki, kitab həyatın ağır sınaqlarından mərdi-mərdanə çıxan, xarakter və mənəviyyat etibarı ilə nadir adamlardan olmuş, nəcib insan, xalqına, Vətəninə laiyqincə xidmət etmiş, lakin qoca dünyanın namərd gərdişinə məruz qalan, ömrü faciəli sonluqla başa çatmış Vahid İsmayılovdan bəhs edir.

Bir də ona ki, mən kitabda qəlbimin dərinliyində bəslədiyim məhəbbət, sədaqət, həyəcandolu düşüncələrimi, ən xoş, ən səmimi sözləri qələmə almışam. Xatirələrimi kitab şəklinə salmaqla Vahid İsmayılovun nakam ruhu qarşısında mən həm də öz dostluq borcumu yerinə yetirmişəm.

Bax belə təsirli, kövrək düşüncələr məni bu yazını yazmağa vadar etdi. Düşünürəm ki, fikirlərim mərhum Vahid İsmayılovu indiki nəsillərə tanıtmaq, sevdirmək baxımından da ibrətamiz ola bilər. Axı, insan həyatı elə anlardan ibarətdir ki, həmin anlar birləşəndə nəticədə bütöv bir ömrə çevrilir. Əks halda həyat mənasız və sıxıntılı olardı. Bu baxımdan mərhum Vahid İsmayılovla bağlı xatırlamalı, danışmalı hələ çox şey var. Axı, o, nəsillərə örnək olan qısa bir ömür yaşadı.

O, sözün əsl mənasında həyatı dərindən duymağa, dərk etməyə, ondan zövq almağa çağıran həssas bir insan idi. Onun hərəkətlərində, söhbətlərində qeyri-etik, normadan kənar heç nə sezmək mümkün deyildi. Sadəliyi, təvazökarlığı ilə yanaşı, sərt, ciddi tələbkarlığı da vardı. Riyakar, tənbəl, yaltaq, məsuliyyətsiz adamlardan zəhləsi gedərdi. O, torpaq, zəhmət cəfakeşi idi.

Elə insanlar var ki, dünyalarını dəyişəndən sonra da ikinci

ömürlərini yaşayır, yaddan çıxmırlar. Dönə-dönə, ehtiramla xatırlanıb yad olunurlar. Saf əməl, təmiz əqidə sahibi Vahid İsmayılov bu gün də daim anlılır, Adı hörmətlə çəkilir.

Bütün bu düşüncələrə rəğmən, həm də V.İsmayılovun əziz xatirəsinə həsr etdiyim bu yazının oxucuların müəyyən hissəsinin sədaqətli dostumun acı taleyinə işıq salan ilk kitabım barədə məlumatsız olduqlarını nəzərə alaraq, Vahid müəllimin həyat yolu barədə qısa məlumatları bir daha qeyd etmək istəyirəm.

Vahid Aslan oğlu İsmayılov 1931-ci il noyabrın 24-də Cəbrayıl rayonu Çərəkən kəndində doğulub. 1953-cü ildə Gəncə (keçmiş Kirovabad) Kənd Təsərrüfatı İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir. 1963-cü ilə kimi Cəbrayıl rayonunda ixtisası üzrə müxtəlif vəzifələrdə çalışmışdır. Onun aqronomluq peşəsinə zəngin təcrübəsi və nail olduğu yüksək nəticələrini nəzərə alaraq 1963-cü ildən Zəngilan rayon Kənd Təsərrüfatı İstehsalıtı İdarəsinə rəis təyin edilmişdir. Bu vəRRzifədə işlədiyi iki ildən az müddətdə nail olduğu uğurlara görə qabaqcıl kənd təsərrüfatı mütəxəssisi kimi, 1964-cü ildə Moskvada bu sahəyə həsr olunmuş Sov.İKP MK-nın Plenumuna dəvət olunmuşdu. 1965-ci ilin yanvarında isə növbəti Konfransda Zəngilan RPK-nə 1-ci katib seçilmişdir. Beləliklə, V.İsmayılovun fəaliyyətinin Zəngilan dövrünü qısa qiymətləndirməli olsaq, bu dövrü onun zirvəyə doğru yüksəlişinin başlanğıcı adlandırmaq olar.

Zaman keçdikcə Vahid müəllimin zəhmətsevərliyi, topladığı təşkilatçılıq və idarəetmə bacarığı respublika rəhbərliyinin diqqətini cəlb etdi. Onun bacarığından daha geniş istifadə etmək məqsədilə Azərbaycan KP MK-nın qərarı ilə onun daha böyük kənd təsərrüfatı rayonu Ağcabədiyə 1-ci katib göndərilməsini tövsiyə etdi. Ağcabədi kommunistləri 1968-ci ilin sentyabrında V.İsmayılovu yekdilliklə özlərinə rəhbər seçdilər. Çox keçmədən Heydər Əliyev 1969-cu il iyulun 14-





*Yarışa girmiş qonşu Zəngilan və Cəbrayıl RPK-nın 1-ci katibləri V.İsmayılov və V.Əhmədov (ön sıra sağdan 2-ci və 3-cü) və qarşılıqlı toxlama briqada üzvləri. 1967-ci il.*

də Respublika Partiya Təşkilatlarına rəhbər seçildi. V.İsmayılovun fəaliyyətinin 10 illik Ağcabədi dövründə əldə etdiyi misli görünməmiş nailiyyətlər dillər əzbəri oldu. Həmin dövr ərzində respublika rəhbəri H.Əliyevin dəfələrlə bu rayona gəlişi, zəhmət adamları ilə görüşləri yüksək tələbkarlıqla yanaşı, görülmüş işləri yüksək tribunalardan müsbət qiymətləndirməsi zəhmət adamlarının ruh yüksəkliyini və marağını daha da artırdı.

Bu amillər Ağcabədi rayonu tarixində heç vaxt nail olunmayan nailiyyətlərlə nəticələndi. Vahid müəllimin rəhbərliyi rayon zəhmətkeşlərinin 1968-1978-ci illərdə əldə etdikləri ürəkaçan uğurlar barədə həmin illərdə və sonralar da KİV-də kifayət qədər işıqlandırılıb. Mən onları təkrar etmək istəmirəm. Ancaq bu yaxınlarda Milli Məclisin ağcabədili deputatı Tahir Rzayevin «Azərbaycan» qəzetinin 3 iyun 2004-cü il sayın-












***Respublika rəhbəri Heydər Əliyev və RPK-nın 1-ci katibi Vahid İsmayılov Ağcabədi rayonu pambıq tarlalarında və yekun müşavirəsində, 1975-ci il.***

da «Vətənə və xalqa bağışlanan ömür əbədidir» başlıqlı maraqlı bir yazı oxudum. Bu məqaləni görən kimi ilk növbədə yazıdakı mənə çox tanış olan, V.İsmayılov ömrünün Ağcabədi dövrünü xatırladan fotoşəkil diqqətimi cəlb etdi. Bu şəkil ötən əsrin 70-ci illərinin ortalarında Heydər Əliyevin Ağcabədiyə gəlişinin birində Vahid müəllimlə birlikdə rayonun pambıq tarlalarında zəhmət adamları ilə görüşünə aid idi. Hər iki rəhbərin çöhrəsindəki xoş əhval-ruhiyyədən xəbər verən təbəssüm, rayonda işlərin necə getməsindən xəbər verirdi.

Bu yazı, söz yox ki, Ulu Öndərin respublikaya rəhbərlik etdiyi illərdə xalqımızın güzəranının yüksəkdilməsi yolunda müstəsna xidmətlərinə həsr olunub. Tahir müəllim bu məqalədə rayonun 70-ci illərdə nail olduğu inkişafının göstəricisi kimi, maraqlı müqayəsə rəqəmlərinə müraciət edir. O, yazır:

"... Ümummilli liderimizin kənd rayonlarına ilk səfərlərindən biri də Ağcabədiyə olmuşdur. O dövrdə respublikamızda hökm sürən durğunluq Ağcabədi rayonundan da yan keçməmişdi. Belə bir vaxtda — 1970-ci ilin avqust ayında Heydər Əliyevin Ağcabədiyə gəlişi, təsərrüfat sahələrini gəzib əhalinin, iqtisadiyyatın vəziyyəti ilə yaxından tanış olması, rayonun gələcək inkişafı üçün müvafiq orqanlara mühüm tapşırıqlar verməsi və həmin göstərişlərin həyata keçirilməsini daim nəzarətdə saxlamasını Ağcabədinin gələcək inkişafında və bugünkü taleyində müstəsna rol oynamış tarixi hadisə kimi yadda qalmışdır. Bundan sonra Ulu Öndərimizin bir neçə dəfə — 1970, 1972, 1974, 1976, 1982-ci illərdə Ağcabədiyə gəlişi də rayonun iqtisadi həyatı, əhalinin firavanlığı üçün yeni səhifələr açmış, sosial obyektlərin tikintisinə, yolların çəkilməsinə, körpülərin salınmasına, bir sözlə, sürətli inkişafa imkan yaratmışdır. Həmin illərdə rayon pambıqtəmizləmə zavodu, dəmir yolu xətti, neft anbarı, tikiş fabriki inşa edilmiş, neçə-neçə yeni məktəb, səhiyyə, mədəniyyət obyektləri və digər sosial obyektlər tikilmişdir. Bu qayğıkeşliyə, atalıq qayğısına



rayon əhalisi də respublikanın iqtisadi-sosial həyatına bəxş etdiyi yüksək əmək göstəriciləri ilə cavab vermiş, böyük rəhbərin ümidlərini əməli işlə doğrutltmuşdur.

Fikir verin, Ağcabədi rayonunda 1969-cu ildə 23.533 ton pambıq, 9.465 ton taxıl istehsal edildiyi halda, 1985-ci ildə həmin göstəricilər 86.791 və 35.476 ton olmuşdur. O dövrdə mal-qaranın sayı 24.675 başdan 41.663 başa çatldırılmışdır. Bu rəqəmlər rayonun təsərrüfat həyatının üç sahəsini əhatə etsə də iqtisadiyyatı bilən, təsərrüfatı təhlil etməyi bacaran hər kəs üçün vacib mətləbləri xatırladır. Müqayisə olunan illər ərzində rayonda pambıq istehsalını 63.258 ton, taxıl istehsalını 26.110 ton artırmaq, eləcə də təsərrüfatın bütün sahələrində, sosial-iqtisadi həyatda böyük uğurlar qazanmaq asan olmasa da, reallıqdır."

Respublika rəhbərinin Ağcabədiyə yuxarıda göstərilən 1970-ci illər səfərlərinin hamısının şahidi kimi, mənim də yaddaşıma həkk olunub. H.Əliyev və Vahid müəllimlə çoxsaylı görüşlərimin müəyyən hissələridir. Belə ki, 70-ci illərdə DTK-nın Mingəçevir şəhər şöbəsində xidmətdə olmuşam.

Bu dövrdə Respublika Partiya təşkilatının rəhbəri H.Əliyev hər ildə 2-3 dəfə kənd təsərrüfatında, xüsusilə pambıqçılıqda işlərlə yerində tanış olmaq üçün Şirvan və Qarabağ bölgələrinə səfər edərdi. Bunun üçün o, Bakıdan xüsusi qatarla xidmət ərazimə daxil olan Yevlax şəhərinə gələrdi. Oradan özü seçdiyi rayona, respublikanın digər rəhbər işçiləri isə ətraf rayonlara gedərdilər. Beləliklə, Millət vəkili T.Rzayevin məqaləsində H.Əliyevin Ağcabədiyə gəlişini göstərdiyi bütün illərdə bu rayonun 1-ci katibi V.İsmayılovla birlikdə səhər tezdən respublika rəhbərini gətirən qatarı Yevlaxda qarşılamışıq. Burada qatarın gəlməsini gözləyən Mərkəzi Komitənin digər büro üzvləri və RPK-nin 1-ci katibləri ilə həmişə olduğu kimi, Heydər Əliyevin ayaqüstü fikir mübadiləsindən sonra, o, Vahid müəllimin müşayiəti ilə Ağcabədiyə gedərdi...





Tahir müəllimin qəzetdə göstərdiyi müqayisəli rəqəmlərlə və oradakı fotoşəkillə tanışlıqdan sonra, ulu öndərin Ağcabədidə olduğu vaxtlar verdiyi göstərişlərin icrasını həyata keçirilməsinin, misli görünməmiş böyük uğurların əldə olunması-





nın bu rayonun hansı birinci katibinin işlədiyi dövrə təsadüf etməsinin şərhinə ehtiyac qalmır.

İllər bir-birini əvəz etdikcə o illərdə yüksəlişə aparan yollarda da maraqlı hadisələr də öz sözünü deyirdi. 1978-ci ildə V.İsmayılov Beyləqan RPK-nin 1-ci katibi vəzifəsinə seçildi. Onun bu rayonda işlədiyi 5 ilə yaxın müddətdə Beyləqan da intibah dövrünü yaşayırdı. Həmişə yenilikçi rəhbər və ictimai xadim kimi tanınan





*Respublika rəhbəri Heydər Əliyev və Beyləqan RPK-nın 1-ci katibi rayonun pambıqçılıq təsərrüfatlarında. 1979-1982-ci illər.*

V.İsmayılov bu rayonda işə başladığı ilk günlərdə qarşısında "nədən başlamalı?" sualını qoydu. Bu sualın cavabını tapmağa çox vaxt itirmək lazım gəlmədi. Ən azı ona görə ki, böyük həyat təcrübəsi olan Vahid mülə llim hələ Ağcabədi rayonunda işlədiyi 10 ildə, qonşu Beyləqan rayonunun da həllini gözləyən problemlərinə də bələd idi. Onlardan ən vacibi və rayon üçün böyük iqtisadi səmərə verə biləcək pambıq zavodunun inşa edilməsi idi. Belə ki, uzun illərdən bəri rayonda istehsal edilən bol pambıq məhsulunun uzaq Əli-Bayramlı və Horadiz pambıq zavodlarına daşınıb təhvil verilməsi bu strateji məhsulun maya dəyərinin yüksəlməsi ilə başa gəlirdi. Bu vacib məsələnin həlli respublikanın müvafiq orta səviyyəli məmurlarının bürokratik əngəllərləindən də yan keçmədi. Lakin V.İsmayılov prinsipiallığı bu maneələri də dəf edərək, zavodun tikilməsinə nail oldu. Rayonun kənd təsərrüfatının üzümçülük, taxılçılıq, maldarlıq və digər sahələrində də böyük uğurlara nail oldu.



Vahid müəllimin bu rayonda ən yaddaqlan və rayon əhalisinin sevincinə səbəb olan işlərinin biri də yeni tikinti, emal müəssisələri, abadlaşdırma və mədəni-məişət sahələrinə xüsusi, heç vaxt görülməmiş diqqət ayrılması və yüksək nəticələr əldə edilməsi olmuşdu...

V.İsmayılovun fəaliyyətinin Zəngilan, Ağcabədi və Beyləqan dövrü onun bu rayonlara rəhbərlik etdiyi 1960-80-ci illərin əvvəllərinə kimi respublika rəhbərliyi tərəfindən yüksək dövlət mükafatları ilə qiymətləndirilmişdi. Bütün bunlar barədə KİV-də, respublika və ittifaq səviyyəli yüksək tribunalarından xalqa çatdırılmışdı. Məhz ona görə də yenidən müqayisəli rəqəmlərə müraciətə ehtiyac duymuram.Bu fədakar, dövlətə və zəhmət adamlarına sədaqətlə xidmət göstərmiş insanın qazandığı uğurlara verilmiş mükafatları, qısa da olsa, qeyd etmək lazımdır. Bu illərdə Vahid müəllim iki dəfə Lenin, bir dəfə Oktyabr inqilabı, iki dəfə Qırmızı Əmək Bayrağı ordenləri, bir neçə müxtəlif medallarla mükafatlandırılmışdı. Bütün çağırışlar (1960-70-ci illər) Azərbaycan SSR Ali Sovetinin deputatı, bir çağırış parlamentin Rəyasət Heyətinin üzvü kimi yüksək ictimai vəzifəyə layiq görülmüş, Azərbaycan SSR ASRH-nın Fəxri Fərmanını alımşdı. Demək olar ki, bu mükafatların böyük əksəriyyəti, bəlkə də hamısı, Vahid müəllimə 1969-82-ci illərdə Respublikaya rəhbərlik etmiş, Ulu öndərimiz Heydər Əliyev tərəfindən şəxsən təqdim edilmişdi. Hələ 70-ci illərin sonuna yaxın onun Adı SSRİ-nin Sosialist Əməyi Qəhrəmanı kimi ən yüksək mükafatına təqdim olunmağa namizədlər sırasında hallandırılırdı. Bu barədə Vahid müəllim dünyasını dəyişəndən sonra dəfələrlə xatırlanıb. Amma yaxşı deyiblər ki, «Sən saydığını saxla, gör fələk nə sayır...»

Sovet hakimiyyəti illərində hər yerdə olduğu kimi, Azərbaycanda da Respublika Partiya Təşkilatı MK tərəfindən şəhər və rayon PK-nin fəaliyyətinin yoxlanılıb, büronun müza-

kirəsinə çıxarılması normal sayılırdı. Amma V.İsmayılovun parlaq fəaliyyətinin Beyləqan dövrünün yoxlanılmasının «qiymətləndirilməsi» müzakirədən xeyli qabaq müəyyən edilmişdi. Zəngilan, Ağcabədi və Beyləqan rayonlarına rəhbərlik etdiyi 1964-1983-cü illərdə gördüyü işlərin müzakirələri vaxtlarında ən yüngül partiya cəzası sayılan «xəbərdarlıq» da almayan bu zəhmət fədaisinə heç bir tutarlı əsas olmadan ən ağır partiya cəzası — şəxsi işinə yazılmaqla şiddətli töhmət verilməklə, RPK-nin birinci katibi vəzifəsindən azad edilməsinin necə uydurulmuş səbəblərə «əsaslandırılma»sını bu günə kimi anlamaq olmur. Bəli, V.İsmayılov haqqında MK-nın bürosu 12 aprel 1983-cü ildə belə bir qərar qəbul etdi. Bu qərarı Vahid müəllim özü də, onu yaxşı tanıyan respublika ictimaiyyəti də «günəşli gündə qəfləti ildırım çaxması» kimi qəbul etdi. Hələ bu azmış kimi, Mərkəzi Komitə bürosu qərarının Beyləqan RPK-nin, 3 may 1983-cü il tarixə planlaşdırılan plenumunda müzakirəsi vaxtı çıxış edənlərin «hazırlanması» nəhayət, müzakirənin nəticəsi kimi, barəsində qəbul ediləcək daha məkrli və iyrənc qərarın mətni də Bakıda hazırlanmışdı. Bütün bu sifarişli oyunların ağır nəticələri barədə «yaşatmaq üçün yaşanmış yarımçıq ömrü» kitabımda bir qədər ətraflı şərh etmişəm. Həmin şərhin əsas fraqmentlərini bu yazımın oxucularının da diqqətinə təqdim etmək istəyirəm:

«...Əgər nəzərə alsaq ki, V.İsmayılovun əməyinə verilən yüksək qiymətlər uzun illər respublikaya rəhbərlik etmiş və faciəli sonluğa aparan qərar qəbul olunan vaxt SSRİ kimi nəhəng bir dövlətin başçılarından biri olan Heydər Əliyev cənabları tərəifndən verilmişdi, bu məntiqsizliyi həm də onun özü üçün hörmətsizlik hesab etmək olardı. Bunu məntiqi qanunauyğunluqların özü deyir. Görünür, bəzi qərəzli və ədalətsiz hakimi-iqtidarlara H.Əliyevin ancaq respublikadan uzaqlaşması kifayətimiş.

Beləliklə, indi daha aydın görünür ki, V.İsmayılova doğru



yönələn bəd niyyətlərin həyata keçirilməsi üçün hətta Heydər Əliyevin büdrəməsini gözləmək gec olarmış...

Məlum qərardan təxminən 10 gün sonra Vahid müəllimlə Bakıda görüşdük. Həyat yoldaşımın göz xəstəlikləri institutunda keçirdiyi cərrahiyyə əməliyyatından xəbər tutduğu üçün xəstəyə baş çəkməyi təklif etdi. Mənim ciddi etirazıma baxmayaraq, getdik. Xəstəxanadan çıxandan sonra iki saata qədər gəzişib söhbət etdik. Tanıdığım 23 ildən artıq müddət ərzində onu bu qədər mənəvi sarsıntı keçirmiş vəziyyətdə, əzgin və ruh düşgünlüyü halında görməmişdim. Nə qədər ürək-dirək verdimsə də, dediklərimə ancaq sözdə razı oldu, necə deyərlər, onu qərq olduğu qəm dəryasından ayıra bilmədim. Mənim dediklərimə özünəxas diqqətlə qulaq asırdı. Ayrılarkən dərindən köksünü ötürür sönük və istehzalı gülüşlə bircə onu dedi ki, əgər ünvanıma deyilənlərin heç olmasa yarısı düz olsaydı və rayondakı bəzi kiçik çatışmamazlıqlar tək Beyləqanda olsaydı... Beyləqanda müəyyənləşdirilən bəzi qüsurlar respublikanın ən qabaqcıl sayılan rayonlarında da xarakterik olanlardı və həmin rayonlardakından qat-qat azdır. Bu bizim sonuncu görüşümüz oldu.

Bir neçə gündən sonra zəng vurub əhvalını soruşdum və may bayramını birlikdə keçirməyi təklif etdim. O isə cavabında bildirdi ki, MK-nın məlum qərarı Beyləqanda plenumun müzakirəsinə verilir və orada iştirak etməlidir. Ona görə də rayona getməyə hazırlaşır. Söz verdi ki, rayondan qayıdandan sonra arxayınlıqla mənimlə görüşəcək. Özünə məxsus yumorla yenə də qeyd etdi ki, heç bir xidməti qayğısı olmayan, işsiz adam kimi istədiyi qədər mənim sərəncamımda ola bilər. Bu da bizim sonuncu telefon danışığımız oldu. Mayın 2-də evinə zəng vurdum. Ömür-gün yoldaşı Tofiqə xanım bildirdi ki, həmin gün səhər tezdən Vahid Beyləqanda keçiriləcək plenumda iştirak etmək üçün ora getdi. Heç onun da ağlına gəlməzdi ki, bu onun son gedişi olacaq.

Həmin 3 may axşamı xəbər yayıldı ki, Vahid İsmayılov rayona gələrək iştirak edəcəyi plenumda ona qarşı ciddi «hazırlıqdan» xəbər tutub. Hansısa rəzil, mənfur təkliflərlə çıxış etmək üçün hazırlanmış dönüklər və qeyriləri barədə xəbərlərdən məlumatlanaraq simasız insanların ədalətsizliyinə etiraz və üsyan kimi özünü intihar etmək qərarına gəlib. O, cəmiyyət arasında «günahsız müqəssir» qismində görünməyi özünə rəva bilməyib. Yəqin ki, daha nələr, nələr barədə fikirləşib... Görünür, Vahid müəllim hələ eramızdan xeyli əvvəl, məşhur yunan filosofu Aristotelin müəyyən etdiyi yol ilə getməyə üstünlük verib. Dünya şöhrətli Aristotel deyib: «O şəxsə əsl kişi deyirlər ki, o, qorxmadan gözəl ölümə doğru gedir». (Simfoniya razuma, Moskva 1977, səh.345).

V.İsmayılov çoxlarının cəsarət edə bilmədiyi ən ağır addım atdı. O, işıqlı həyatı və yarımçıq dünyası ilə xudahafizləşməzdən əvvəl, ölümlə həyat arasındakı son dəqiqələrində yazıb: «...52 yaşım var. Ömrümün 30 ilə yaxın dövrünü namusla, qeyrətlə, vicdanla, yorulmaq bilmədən, dincəlmədən dövlətə, xalqa xidmət etmişəm, təpkilərə dözmüşəm. Ancaq bu yolda adamların üzüdönüklüyünə dözə bilmədim. Mən yenə də dövlətə və xalqıma sadiq qalıram. Qoy tarix özü ədalətsiz şəxslərin cəzasını versin...»

Yəqin ki, rəhmətlik «...qoy tarix özü...» deyəndə onun ölümünə səbəb olan ədalətsiz adamları Allaha tapşırırmış. Çünki biz hamımızın, o cümlədən, Vahid müəllimin rəsmi söhbətlərdə, çıxışlarda, yazılarda daim ürəyimizdə olan Allahımızın adını çəkməyə cəsarətimiz çatmazdı. Bilirdik ki, haradasa onu da başımıza qaxacaqlar ki, bəs filan kommunist, katib, nazir, daha nə bilim kimlər, guya Marksist-Leninçi elmi-ateizm tərbiyəsi görməyib... Bu heç də mənim quramam deyil, o vaxtın reallığı belə idi. Ona görə də Vahid müəllim hətta, ölüm ayağında da həmişə inandığı, tək onun yox, hamımızın «sitayiş» etdiyimiz kommunist əqidəsindən dönməyərək ürəyində qadir Allahı tutsa da, «tarixə» tapşırıb həmin o üzü dönükləri. Allahın səbri genişdir. Və gec-tez hər kəs öz layiq olduğu cəzanı alır və hələlik almayanlar da gələcəkdə mütləq alacaqdır. Biz həmişə inanmışıq ki, atalar dediyi kimi «haqq, ədalət nazilər, ancaq üzülməz». Ancaq nədənsə, Vahid müəllim üçün nazildi də, şəxsi mənada onun üçün üzüldü də... Neyləmək olar. Bəlkə, elə bu da tarixin bir ədalətsiz hökmü kimi olmalıymış. Oldu da».



V.İsmayılovun başına gətirilən və faciə ilə nəticələnən, nə sovet qanunlarına, nə də İslam dünaysının qanunu sayılan şəriət normalarına sığmayan ədalətsizliklərin acı nəticələri mərhumun övladları və başqa doğmalarından da yan keçmədi. Təxminən 80-cı illərin sonlarına kimi onlara qarşı tuşlanan təqiblər də səngimirdi. Zaman keçdikcə bu ailə barəsində də haqq-ədalətin bərpası yönümündə istər KİV-də, istərsə də dövlət rəsmilərinin münasibətlərində müsbət olaylar yer alırdı. Nəhayət, Ümummilli lider H.Əliyev ikinci dəfə respublika rəhbəriliyinə qayıdandan sonra, 90-cı illərin əvvəllərindən başlayaraq V.İsmayılovun ədalətsizliyin qurbanı olması Azərbaycan xalqına çatdırıldı. Bu barədə AzTV-də, «Azərbaycan», «Respublika», «Xalq qəzeti» və bir çox iqtidar yönümlü mətbu orqanlarda yazıldığından, onların məzmunu barədə ətraflı təkrara ehtiyac yoxdur.

V.İsmayılovun əziz xatirəsinə həsr etdiyim kitabdan başqa, onun barəsində yazılan daha üç kitabları bir daha xatırlamaq istəyirəm. Hələ 1998-ci ildə şair-jurnalist Vaşif Cəfərlinin «Ömür də bir şam kimidir» çox maraqlı poeması ayrıca kitab kimi nəşr olunmuşdu. Bu əsəri bütün beyləqanlıların ürək ağrılarının ifadəsi və Vahid müləlimə olan dərin hörmət kimi qəbul etmək olar.

Hüquqşünas həmkarım Mobil İsmayılovun 2003-cü ildə çap etdirdiyi «Atam haqqında əsl həqiqətlər» kitabı bir çox maraqlı məqamlara aydınlıq gətirir. Elə həmin il nəşr olunan

şair Əziz Musanın V.İsmayılovun xatirəsinə həsr olunmuş poeması da bu qəbildən olan qiymətli əsərlərdəndir. Güman edirəm ki, qədirbilən qələm sahibləri gələcəkdə də bu mövzuya müraciət edərək, onun mənalı həyatını gələcək nəsillərə çatdıracaqlar.

* * *

İndi isə «Yaşatmaq üçün yaşanmış yarımçıq ömür» kitabına ötən 8 ildə respublika KİV-də gedən yazılar və oxucu münasibəti barədə qeyd etmək istəyirəm. İlk növbədə bildirmək istəyirəm ki, bu barədəki qeydlər hansısa müəllif «istedadını» deyil, ancaq və ancaq V.İsmayılov dəyərlərinə olan münasibəti bildirməkdir.

Kitab üç min nüsxə tirajla nəşr edildi. Bazar iqtisadiyyatı dövründə həm də satış üçün olmayan bu sayda nəşr böyük tiraj sayılır. Kitabın ilk oxucusu uzun illər AzTV-də «Səhər» musiqili-informasiya redaksiyasının baş redaktoru FED, professor Qulu Məhərrəmov olmuşdur. Qulu müəllim kitabla tanış olduqdan sonra, 2000-ci il oktyabırn əvvəllərində «Səhər»in «Yeni nəşrlər» rubrikasında efirə çıxardı. Həmin gündən başlayaraq Vahidsevərlərin mənə telefon zəngləri başladı. Onların hamısının adlarını yazmağa ehtiyac yoxdur. Belə hallarda həmişə ilk zəng yaddaqalan olur. Həmin gün «Səhər» verilişi qurtaran anda zəngilanlı ziyalı Xuduş İskəndərov mənə zəng etdi. İlk sualı «Kitabı hansı mağazadan almaq olar?» oldu. Bildirdim ki, kitab satış üçün deyil. Kim istəsə onu məndən və Vahid müəllimin oğlu Mobildən götürə bilər. Bu danışıqdan təxminən 30 dəqiqə keçmiş Xuduş müəllim yanımda oldu, özünə və hər ikimizin yaxınlarımız üçün bir neçə kitab götürdü. Beləliklə, V.İsmayılovun şərəfli ömür yoluna həsr olunmuş bu nəşr əsasən Cəbrayıl, Zəngilan, Qubadlı, Ağcabədi, Beyləqan oxucularına, eləcə də İsmayılovlar ailəsinin və müəllifin Bakı şəhərində, respublikanın əksər rayon və şəhərlərindəki yaxınlarına paylandı.



2001-ci il yanvarın ortalarında Respublika Teleradio Şirkətinə dəvət olundum. Burada məni qarşılayan radionun elm və təhsil redaksiyasının baş redaktoru Bəxtiyar Bəxtiyarov qısa tanışlıqdan sonra əsas mətləbə keçdi. İlk dəfə görüşdüyüm mehriban həmyerlim, uzun illər radioda işləyən Bəxtiyar müəllim hələ 60-cı illərdən V.İsmayılovun səriştəli və hərtərəfli təşkilatçılıq məharətinə malik rayon rəhbəri kimi tanımasını dilə gətirdi. Ona həsr olunmuş kitabda Vətənə və xalqa sədaqətlə xidmət, dostluğa təmənnasız sadiqlik əks olunması amillərini nəzərə alaraq, bu barədə radio verilişi hazırlamaqda israrlı olduğunu bildirdi. Beləliklə, ilk növbədə Bəxtiyar müəllim Vahid İsmayılov barədə məlumatı, ona həsr olunmuş sənədli povestdə gənc nəslin tərbiyəsi üçün gərəkli saydığı məqamları, sonra isə mənə verilən suallara cavabımı lentə köçürdü. Yüksək peşəkarlıqla hazırlanmış 30 dəqiqəlik veriliş yanvarın 21-də efirə çıxarıldı.

Kitaba günü-gündən artan oxucu marağının artmasının əsas səbəblərindən biri də, bu nəşr barədə respublika qəzetlərində vaxtaşırı gedən yazılar olmuşdur. Onlardan bir neçəsinin adlarını çəkmək istərdim:

Respublika mətbuatının flaqmanı «Azərbaycan» qəzeti 12 dekabr 2000-ci il sayında tanınmış juranlist Əliqismət Bədəlovun ətraflı yazısını dərc etmişdir. Müəllif maraqlı oxunan bu yazısına başlıq kimi kitabın adını seçmişdi;

Uzun illər xidmət yolu keçdiyim Milli Təhlükəsizlik Nazirliyinin orqanı, vaxtaşırı «qonağı» olduğum «Sərhəd» qəzeti də 2001-ci il 27 sentyabr tarixli sayında ətraflı yazı vermişdi. Redaktorluq tərəfindən hazırlanmış məqalə qəzetin «Əməkdaşlarımızın yaradıcılığı» rubrikası altında səhifəyə çıxarılmışdı. Müəllif öz yazısı ilə yanaşı, «Azərbaycan» qəzetinin 12 dekabr 2000-ci il tarixli sayında olduğu kimi, kitabın cildinin 1-ci səhifəsinin fotoşəklini də qəzetin səhifəsinə çıxarmışdır.

Səbəbi isə Ulu öndər Heydər Əliyevin 1970-ci illərdə Ağcabədi və Beyləqan rayonlarında V.İsmayılovla birlikdə pambıq və taxıl tarlalarında zəhmət adamlarının arasında olduqları vaxtlar çəkilmiş 6 ədəd fotoşəklin cildin 1-ci səhifsəinə mantaj olunmasıdır;

Hüquq qəzeti «Ədalət»in 4 noyabr 2000-ci il sayında «O, əsl kişi idi» başlığı ilə Vahid müəllim barədə çox maraqlı yazı vermişdir. Müəllifi Arif Xəlilov olan bu yazıda kitaba müsbət münasibətlə yanaşı, mərhumun bütün ömür yolu işıqlandırılır. Məqalədə deyilənləri Cəbrayıl, Zəngilan, Ağcabədi və Beyləqan rayon zəhmət adamlarının və ziyalılarının fikri kimi də qəbul etmək olar.

Tanınmış jurnalist, uzun illər Zəngilan rayon qəzeti «Kənd həyatı»nın baş redaktoru işləmiş, H.Zərdabi adına və «Ustad» ali jurnalist mükafatları laueratı M.Qocayevin Cəbrayıl RİH-nin orqanı «Xudafərin» qəzetinin 1 yanvar 2001-ci il sayındakı «Ömür yarımçıq qalsa da — yaşayır xatirələrdə» məqaləsi də kövrək notları ilə diqqəti cəlb edir. Bu yazıda Mürsəl müəllim kitaba münasibətlə yanaşı, Vahid müəllimlə çiyin-çiyinə işlədiyi 1960-cı illərin tarixə dönmüş xatirələrini ustalıqla qələmə alır. Bu yazı həm də Zəngilan və Cəbrpayıl oxucularını bu qonşu rayonların o vaxtlar dəbdə olan qarşılıqlı «Sosializm yarışı»na qoşulduqları 60-cı illəri göz öünə gətirir. Məqalə ilə birlikdə səhifədəki hər iki rayonun birinci katibləri, çox mehriban həmyerli dostlar Vahid və Vaqif müəllimin əks olunduqları rayonların qarşılıqlı yoxlama briqadası üzvlərinin fotoşəkilləri o dövrün Vətən ovqatlı bəxtəvər günlərindən xəbər verir. Nəzərə alsaq ki, mənim də yaxşı tanıdıqlarım 16 nəfər fotodakı partiya, komsomol və təsərrüfat fəallarının əksəriyyəti dünyalarını dəyişiblər, bəziləri isə qaçqınlıq şəraitində Vətən dərdi ilə yaşadıqları üçün, bu yazı daha ağır mütəəsiredici təsir bağışlayır;

Müstəqil ictimai-siyasi qəzet «İcmal»ın baş redaktoru şair, jurnalist Teyfur Çələbinin bu qəzetin 10 yanvar 2001-ci il sayında dərc etdiyi «Şəxsiyyətlər ölmürlər və öləndə də milli sərvətimiz kimi diri qalırlar» başlıqlı məqaləsi də yetərincə kövrəldici ovqatlı yazıdı. Müəllif «yaşatmaq üçün...» kitabının ayrı-ayrı məqamlarını dіə gətirərək hələ uşaqlıq-gənclik illərindən tanıdığı Vahid müəllimin parlaq həaytının faciəli sonluğuna ürək yanğısını çox qabarıq məzmunda şərh edir. O, həm də belə bir sağlam əqidə sahibinin namərdlər oxuna tuş gəlməsini,

*Mərd atıyla namərd atı*
*Yanaşı çox gedə bilməz!*

poetik misraları ilə qısa da olsa, çox sərrastlıqla ifadə edərək şeytan xislətliləri ustalıqla lənətləyir.

V.İsmayılov barədə kitabın oxucularından mərhumla 1948-53-cü illərdə Gəncə Kənd Təsərrüfatı İnstitutunda oxumuş üç nəfər sədaqətli tələbə dostlarının və üç nəfər zəngilanlı ziyalıların mənə göndərdikləri məktublar barədə qeyd etmək istərdim.

Tələbəlik illərinin çox mehriban dostları, mənim də uzun illər dostluq münasibətində olduğum Zaqataladan Cucuy Yalıyevin 9 dekabr 2000-ci il, Tovuzdan Nəsrəddin Abbasovun 12 noyabr 2002-ci il tarixli və bu günə kimi şəxsən tanış olmadığım Füzuli rayonu Arayıtılı kəndindən Əli Camalovun 18 dekabr 2006-cı il tarixli, çox ətraflı məktublarını həyəcansız oxumaq mümkün olmur. Göründüyü kimi, məktublar mənə bir neçə illərlə ölçülən fasilələrlə göndərilib. Amma onların hər üçündə üst-üstə düşən Vahidlə dostluq və onun şərəfli həyat yolundan sevinc və qürur, vaxtsız, faciəli ölümündən isə kədər hissləri eyni dərəcədə sezilir. Uzun illər təmsil etdikləri rayonlarda partiya, sovet orqanlarında və təsərrüfat işlərində rəhbər vəzifələrdə çalışmış bu dostlar Vahid müəllimi

faciə ilə nəticələnən son addımını atmağa vadar edən səbəbləri yaxşı dərk edirlər. Bu kədəri bir qədər yumşaltmaq məqsədilə həyatda əvvəllər də baş vermiş oxşar hadisələri, eyni zamanda dünyaşöhrətli mütəfəkkirlərin belə cəsarətli addımlarla bağlı deyim və poetik misralarına müraciət etməyi də unutmurlar.

Təkrar da olsa bir daha qeyd edim ui, bu nəşrlə bağlı mənimlə fikirlərini bölüşdürənlər çox olub. Onların hamısının adlarını çəkmək istəmirəm. Ancaq istisna kimi kitabla tanışlıqdan sonra mənimlə görüş və telefon danışıqları vaxtı fikirlərini bölüşən, Vahid müəllim barədə xoş sözlər deyən bir neçə görkəmli elm xadimlərinin adlarını çəkmək istərdim. Onlardan mənimlə uzun illərdən bəri yaxın dostluq və tanışlıq münasibətlərində olanlar xalq şairi B.Vahabzadə, xalq yazıçısı Sabir Əhmədov, AMEA-nın akademikləri F.Köçərli, T.Hacıyev, Prezident yanında İdarəçilik Akademiyassı kafedra müdiri, professor T.Rəsulov, BDU-nun professorları Şirməmməd Hüseynov və Nəcəf Quliyevə dərin minnətdarlıq və ehtiramımı bildirirəm.

Qədirbilən zəngilanlı oxucular da V.İsmayılova və onun barəsində yazılan kitaba biganə qalmadılar. Onların da çoxsaylı oxucularından mənimlə fikir mübadiləsi aparanlar son 6 il müddətində yüzlərlə olub. Yenə də məlum səbəbdən onların hamısını sadalamağa lüzum görmürəm. Ancaq onlardan Vahid müəllimin Zəngilanda işlədiyi illərdə gördüyü müsbət fəaliyyətinə, sağlam mənəviyyatına bələd olan, həmin illərdə təhsil şöbəsində işləmiş 3 nəfər ziyalının mənə göndərdikləri yazılı rəyləri barədə qeyd etmək istəyirəm.

2000-2002-ci illərdə Əməkdar müəllim, Respublika Yazıçılar Birliyinin üzvü, şair Hacı Seyid Miriş Hüseynovdan və rayonumuzun Gülətağ kənd orta məktəbində uzun illər ədəbiyyat fənni üzrə pedaqoji fəaliyyətdə olmuş təcrübəli metodist müəllim Qüdrət Bəxtiyarovdan çox geniş məktublar aldım. Onların hər ikisi V.İsmayılov barədə öz müşahidələrini yetərincə işıqlandırırlar. Təbii ki, kitabda toxunulmuş bəzi məqamlara da münasibət bildirir, mərhumun parlaq həyatının faciəli sonluğuna kədərlərini qələmə alırlar.

Qüdrət müəllimin məktubundan bir maraqlı məqamı oxuculara çatdırmaq istəyirəm. O, məktubunu məqalə kimi tərtib endərək, «Azərbaycan müəllimi» qəzetinə, surətini də mənə göndərmişdi. Kitabda şərh olunanları müsbət qiymətləndirərək, Vahid müəllimlə öz görüşləri və eşitdiklərini də qeyd etmişdi. Bu görüşlərdən biri barədə yazdığı və telefonla mənə dediyini xatırlamaq yerinə düşər. Bu olayı müəllifin öz ifadəsilə demək istəyirəm:

— 1967-ci ilin payızında kənddə xəbər yayıldı ki, RPK-nin 1-ci katibi payız əkininin gedişi və mal-qaranın qışlanmasına hazırlıqla əlaqədar kolxoz və kəndin digər fəalları ilə müzakirə keçirmək üçün Gilətağa gələcək. Biz hamılıqca kolxoz idarəsinə tlplaşıb rayon rəhbərlərini gözləyirdik. Təyin olunmuş vaxtdan bir neçə dəqiqə tez kəndə gələn V.İsmayılov maşınını kolxoz idarəsinə yox, birbaşa məktəbə sürdürdü. Təbii ki, biz müəllimlər də onu qarşılamaq üçün ora toplaşdıq. O, hamımızla mehribanlıqla görüşdü, vəziyyətimizlə maraqlandı. Sonra məktəbin qış mövsümü üçün odun tədarükü, tədris ləvazimatı və digər problemləri ilə ətraflı maraqlandı. Gələcəkdə hər hansı bir çətinliklə bağlı zərurət baş versə ona müraciət etməyi tapşırdı. Sonra isə kolxoz idarəsində nəzərdə tutulan tədbiri ətraflı və işgüzar şəraitdə müzakirə etdi və müvafiq tapşrıqlarla yekunlaşdırdı. Vahid müəllimin təhsilə göstərdiyi qayğını, sahəni ən vacib işi saymasının bu nümayişi tək məktəb kollektivində yox, bütün kənd əhalisində onun gənc nəslin gələcəyini düşünən uzaqgörən rəhbər və əsl ziyalı olması təsəvvürünü yaratdı...

Hər iki məktub müəllifləri Hacı Miriş və Qüdrət müəllimin üst-üstə düşən fikirləri isə V.İsmayılovun çox vaxtsız aramız-

dan getməsini tək cəbrayıllılar və işlədiyi rayonlar üçün yox, bütün respublika ictimaiyyəti üçün böyük itki olması kimi səciyyələndirməlidir.

Nəhayət, zəngilanlı ziyalı, təhsil şöbəsinin məsul işçisi Asif Bağırovun 2002-ci ildə mənə göndərdiyi irihəcmli yazı barədə. Asif müəllim kitabın 15 bölməsinin hamısının ayrı-ayrılıqda, belə demək mümkündürsə, tədqiq edib, toxunulan hər bir məsələyə öz münasibətini dəqiqliklə qələmə alıb. Çap olunmuş on səhifəlik avtoreferat məzmunlu bu yazıda da müəllif haqlı olaraq baş mövzunu — V.İsmayılovun yüksək dəyərlərini kifayət qədər qiymətləndirə bilmişdi.

Adlarını çəkdiyim bütün KİV, görkəmli alimlərə və başqa fərdlərə, bəhs olunan mövzu ilə bağlı yazılı və şifahi rəylərini bildirənlərin hamısına böyük hörmət və ehtiramımı bildirməyi, təkrar da olsa, özümə borc bilirəm. Həmin rəylərin hamısında ifadə olunan xoş sözləri bütünlüklə V.İsmayılovun əziz xatirəsinə ithaf kimi qiymətləndirmək ədalətli olardı.

* * *

Adətən Vahid İsmayılov da daxil olmaqla qısa ömür yaşamış, lakin dövlətə, xalqa sədaqətlə xidmət edərək, böyük işlər görmüş şəxsiyyətləri hər dəfə xatırlayarkən bir bayatı yadıma düşür. Deyilmə tarixi və müəllifi bilinməyən bu bayatıda deyilir:

*Əzizim baxar gedər,*
*Su gələr axar gedər.*
*Dünya bir pəncərədir,*
*Hər gələn baxar, gedər.*

Bu bayatını bəlkə də kimlərsə həmqafiyəli sətirlər kimi «deyişi gözəl» gəlsin deyə boğazdan yuxarı deyilmiş ifadələr kimi qəbul etsinlər. Əgər belə olsaydı, bu deyim əsrlərin dərinliklərindən, nəsillərdən-nəsillərə miras kimi, yaşadığımız günlərə gəlib çıxmazdı. Məhz bu səbəbdən də dərin məna kəsb edən misralar hamımızı düşündürən qiymətli kəlamlardır. Deyilmi? Şübhəsiz ki, Vahid müəllim də həyat səhnəsinin pəncərəsindən nə vaxta qədər baxacağını bilməsə də, necə baxmağı özü müəyyənləşdirib. Qarşısında qoyduğu sonuncu suala sağlam düşüncə, ölçülüb-biçilmiş əqidə və səmərəli əməyi ilə cavab verib.

Əslində hamı baxır bu pəncərdən. Bircə fərq var ki, ömür adlandırdığımız vaxt çərçivəsində kimi az görünüb bu pəncərədə, kimi isə bir qədər çox. Hünər istəyir ki, bu pəncərədən bircə an boylanmağa imkan tapasan və minlərin, milyonların içində nəzər-diqqəti cəlb edəsən, yaddaşlara köçəsən, qəlblərdə qalasan. Vahid İsmayılov «hər gələnin» baxıb getdiyi o pəncərədən elə-belə boylanmayıb. Təmiz ad-san, şirin, kövrək xatirələr qoyub gedib onu tanıyanların qəlbində.

Bütün deyilənlərə əsaslanaraq əminliklə demək olar ki, V.İsmayılov xalqımızın yazılı tarixində və qədirbilən insanların xatirələrində daima yaşayacaq. İndiki və gələcək nəsillər tərəfindən layiqincə xatırlanacaq, anılacaq.

***10 oktyabr 2006-cı il***

# MÜDRİKLİK VƏ ƏSL ZİYALILIQ MÜCƏSSƏMƏSİ



*Əli Rəsulov*

Zaman keçdikcə həyatda baş verən hadisələr bizdən uzaqlaşır, tarixə dönür, bəziləri isə hafizələrdən silinir. Ancaq yaşadığımız tarixi zənginləşdirən elə şəxsiyyətlər var ki, cəmiyyət üçün xeyirxah əməlləri və faydalılığı baxımından, onları unutmaq sadəcə olaraq mümkün olmur.

Ömrümün səkkizinci onilliyinin sona çatdığı bir vaxtda arxada qalan ayları, illəri göz önünə gətirərkən, ünsiyyətdə olduğum, dostluq etdiyim bir çox şəxsiyyətlər və ailələri xatırlayıram. Onlardan bəziləri ilə bu günə kimi dostluğumu davam etdirirəm. Ancaq yaddaşıma əbədi həkk olan elə şəxslər də var ki, onlar taleyin heç kəs üçün qaçılmaz olan hökmü ilə əbədiyyata qovuşduqlarından, gücüm həmin şəxsləri ancaq vaxtaşırı ruhlarına böyük hörmət və ehtiramla xatırlamağa çatır. Belə əbədiyaşar əsl ziyalılardan biri də füsunkar təbiətli Gədəbəy rayonunun Düzrəsullu kəndində 1907-ci ildə dünyaya gəlmiş görkəmli dövlət və ictimai xadim Əli Nağı oğlu Rəsulovdur.

Çox şərəfli və gələcək nəslə örnək olan ömür yaşamış Ə.Rəsulovun anadan olmasının 100 illiyi ərəfəsində barəsində ötən əsrin 40-50-ci illərindən qəlbimdə gəzdirdiyim xoş xatirələrimi qələmə almağı özümə mənəvi borc bilirəm.



İlk növbədə, hələ yarım əsrdən çox müddətdə mənə məlum olan Ə.Rəsulovun maraqlı həyat yoluna qısa nəzər salmaq istərdim. O, 1926-cı ildə Qazax Müəllimlər Seminariyasını bitirmişdir. 1929-cu ilə kimi Gədəbəy rayonu Düzrəsullu və Kiçik Qaramuradlı kəndlərində məktəb direktoru işləmişdir. Təhsilini davam etdirərək, 1929-cu ildə Azərbaycan Pedaqoji İnstitutuna daxil olmuş, 1933-cü ildə həmin institutu bitirəndən sonra Tovuz şəhərindəki Puşkin adına orta məktəbdə tarix müəllimi, eyni zamanda rayonun «Qızıl Tovuz» qəzetinin redaktoru işləyib. Rayonun ictimai-siyasi həyatında fəallağını nəzərə alaraq onu eyni zamanda rayon Partiya Komitəsinin büro üzvlüyünə seçiblər ki, bu da gənc müəllimə göstərilən ən yüksək etimad idi və nadir hadisə sayılırdı. 1930-cu illərin sonuna yaxın o, rayonun Böyük Qışlaq kənd orta məktəbinə direktor təyin olunub...

Ə.Rəsulovun yüksək intellekti, təşkilatçılıq qabiliyyəti rayonun və mərkəzin partiya orqanlarının diqqətini cəlb edir. Onun imkanlarından xalqın və dövlətin mənafeyinə daha səmərəli istifadə etmək məqsədilə 1942-ci ilin avqustunda Qax RPK-nə şöbə müdiri, 1943-cü ilin martında isə sərhəd rayonu Zəngilana RPK-nin katibi seçilib. 1952-ci ilin iyununda Gədəbəy RİK-ə sədr göndərilir. 1960-cı ildə bu rayonun Maarif Şöbəsinə müdir təyin olunub ki, ömrünün sonuna kimi bu sahədə ləyaqətlə gənc nəslin təlim-tərbiyəsilə məşğul olub.

Ə.Rəsulovun həyat və fəaliyyətində qırmızı xətlə keçən bir məqamı xüsusilə qeyd etməliyəm. Bu da ondan ibarətdir ki, hələ 1926-cı ildə Gədəbəy rayonunda başladığı pedaqoji fəaliyyətini, rəhbər partiya — sovet vəzifələrində olduğu Qax, Zəngilan və Gədəbəy rayonlarında da davam etdirib. Bu da Əli müəllimin lap gənc yaşlarından seçdiyi peşəyə daxilən bağlandığından irəli gələn istək və arzu olub.

Ə.Rəsulovun çox maraqlı həyat və fəaliyyətinə qısa ekskursiyadan sonra, bu dağ vüqarlı insanla yaxın təmasda ol-

duğum, 1940-50-ci illərdəki Zəngilan dövrünü xatırdamaq istəyirəm...

Yaşlı nəsl o illərin son dərəcə ağır iqtisadi, siyasi və sosial durumunu yaxşı xatırlayır. Arxa cəbhədə «hər şey qələbə üçün» şüarı altında çox ciddi tələbkarlıq şəraitində tədbirlər həyata keçirilirdi. Belə bir çətin şəraitdə yerlərdə təşkilatçılıq işlərini həyata keçirmək üçün hər şeyə qadir, vahid və hegemon kommunist partiyasının etimadını qazanaraq daha məsuliyyətli rəhbər vəzifəyə irəli çəkilməyin nə olduğunu geniş şərh etməyə ehtiyac duymuram. Əli müəllim də məhz belə çətin dövrdə bizim rayona göndərilmişdi.

Respublikanın bütün rayonlarında olduğu kimi, Zəngilanda da əli silah tutan müəllimlər cəbhəyə səfərbər olduğundan məktəblərdə bu kadrlara ciddi ehtiyac yaranmışdı. Vəziyyətdən çıxış yolu kimi həmin 1943-cü ildə bizim rayonun mərkəzində də ibtidai məktəb müəllimləri hazırlamaq məqsədilə 9-10-cu siniflərdə babat oxuyan şagirdləri cəlb etmək üçün 3 aylıq kurslar təşkil olunmuşdu. Mən də həmin kursu bitirib, rayonumuzun ən ucqar Əmirxanlı kəndindəki ibtidai məktəbə müdir və müəllim təyin olundum. Rayon mərkəzinə demək olar ki, çox nadir hallarda gəlirdim. Belə gəlmələrim ya əmək haqqı almaq üçün, yaxud da hansısa başqa xidməti işlər üçün olurdu. Beləliklə, Əmirxanlıda işlədiyim 11 ay müddətində Əli müəlimlə heç vaxt şəxsi təmasda olmadım və onu bir neçə dəfə kənardan gördüm. 1944-cü ildə orduya səfərbər olunan da Ə.Rəsulov barədə bilgilərim çox bəsit idi. Xatirimdə onun çox yaddaqalan qaməti, nurəni çöhrəsi, bir də adının camaat tərəfindən çox nüfuzlu şəxsiyyət kimi çəkilməsi qalmışdı.

Böyük Vətən müharibəsi qurtarandan sonra, 1945-ci ilin oktyabrında, müəllim və aqronomların ordudan vaxtından əvvəl tərxis olunması fərmanına əsasən mən də tərxis olunub rayona qayıtdım. Rayon hərbi komissarlığında (RHK) uçota



dayanmaq üçün müraciət etdiyim hərbi komissar müavini kapitan Bəhram Məmmədov məni öz yanında məxfi işlər müdiri vəzifəsinə götürdü. İşlədiyim ilk günlərdə də RHK-nın inzibati binasında özü yaşadığı mənzilə yanaşı bir otaq da mənə yaşamaq üçün ayırdı. Qısa müddətdə Bəhramla aramızda son dərəcə mehriban münasibət yarandı ki, bu da onun ömrünün sonuna — 1999-cu ilə kimi davam etdi. Mən ordudan qayıdan vaxt Ə.Rəsulov rayonda RPK katibi vəzifəsində işini davam etdirirdi. Elə həmin 1945-ci ildən bu maraqlı şəxsiyyətlə aramızda şəxsi tanışlıq və yaxın ünsiyyət başladı.

Desəm ki, tutduğum vəzifəmlə əlaqədər, yaxud başqa göstəricilərimə görə Əli müəllimlə tez-tez görüşür, yaxın münasibətdə olurdum. Əlbəttə, bu inandırıcı olmaz. Çünki aramızdakı istər yaş və istərsə də şəxsi nüfuz fərqi onun xeyrinə çox böyük idi. Həqiqətdə isə, doğurdan da həmin illərdə mənim böyük hörmət qazanmış bu nurani insanla aramda şəxsi yaxın münasibətlər yaranmışdı ki, bunun da əsasən iki səbəbi vardı:

RHK-na düzəlməyimin əsas təşəbbüskarı B.Məmmədovla işlədiyim ilk günlərdən onunla Əli müəllim arasında yaxın şəxsi münasibətləri hiss edirdim. Sonradan mənə məlum oldu ki, onlar arasında həm də qohumluq əlaqələri var. Arabir Əli müəllimlə Bəhramgildəki görüşlərdə mən də iştirak edirdim. Məktəblilərin yay tətili vaxtında onlar ailələrini öz rayonlarına, yaxud Zəngəzur bölgəsindəki yaylaqlara göndərirdilər. Həmin müddətdə Bəhramın mənzilində əsasən bazar günləri, iş gündərində isə axşamlar çox vaxt üçlükdə bir yerdə olardıq;

İkinci səbəb isə 1948-49-cu dərs ili Zəngilan şəhər orta məktəbinin 10-cu sinifində qonşuluqda yaşayan Əli müəllimin oğlu Rafiqlə eyni qrupda oxumağımız, əksər vaxtlarda mənim tək yaşadığım mənzilimdə dərslərə birgə hazırlaşmağımız idi.

1941-45-ci illər Böyük Vətən müharibəsi qurtarandan so-

nra başlanan bərpa illərinin ilk dövrləri iqtisadi və sosial durum baxımından müharibə illərindəki vəziyyətdən az fərqli idi. Çünki dünya tarixində ən dəhşətli savaşın vurduğu yaraların tez bir zamanda sağaldılması o qədər də asan iş deyildi. Ona görə də ölkədəki vəziyyəti yaxşılaşdırmaq üçün yerlərdə səriştəli təşkilatçılıq işləri, gərgin əmək, insanları işıqlı sabaha inandırmaq tələb olunurdu. Bu keyfiyyətlər Əli müəllimdə yetərincə var idi. Onun kənd və qəsəbələrdə hər görünüşü zəhmət adamları tərəfindən ehtiramla qarşılanırdı. Rayonun digər rəhbərləri ilə əl-ələ verərək bir hədəfə vurur, kütləni öz arxalarınca apara bilirdi.

Rayonda uğurla həyata keçirilən tədbirlər həm rayon rəhbərliyi, həm də sıravi zəhmət adamları üçün müsbət nəticələr verirdi. Yaxşı yadımdadır, 1947-ci il Oktyabr İnqilabı qələbəsinin 30 illiyilə əlaqədar SSRİ-nin bütün respublika və rayonlarında yüksək öhdəliklər ili elan olunmuşdu. Həmin ilin nəticələrinə görə Zəngilan da qaliblər sırasına çıxmışdı. Əldə olunmuş yüksək nəticələr ittifak və respublika rəhbərliyi tərəfindən layiqincə qiymətləndirilmişdir. Bunun nəticəsi kimi rayon rəhbərliyi, ziyalılar və kənd zəhmətkeşlərinin böyük bir qrupu dövlət mükafatlarına layiq görülmüşdü. Ə.Rəsulovun da gərgin əməyi SSRİ-nin ən Ali mükafatıyla — Lenin ordenilə qeyd olunmuşdu. Söz yox ki, bu orden onun dövlət və xalq qarşısındakı xidmətlərinə verilən birinci və sonuncu mükafatı deyildi. Onun ən yüksək mükafatı isə ona olan ümumxalq məhəbbəti idi desəm çox ədalətli qiymət olardı. Belə deməyə kifayət qədər əsaslar var.

Ə.Rəsulovun xarakterində belə bir cəhəti önə çəkmək istəyirəm. Bu da ondan ibarətdir ki, keçirdiyi görüşlərdə və ona müraciət edənlərlə münasibətdə başlıca olaraq insan amilinə həssas yanaşırdı. Bunu dərk etməmək mümkün deyildi. Çünki onun insanlara olan qayğıkeşliyi, xeyirxahlığı və digər insani keyfiyyətləri tək onunla birgə işləyənlər və ona müraciət edənlərin deyil, bütün əhalinin qarşısında büruzə verirdi. Onu çoxlarından fərqləndirən cəhətlərdən biri də, müraciət edənləri, digər həmsöhbətlərini səbrlə, diqqətlə dinləmək məharəti idi. Məhz bu səbəbdən də RPK-nə xidməti və şəxsi iş üçün üz tutanlar əsasən Əli müəllimə müraciət etməyə üstünlük verirdilər.

Bu baxımdan iştirakımla olan bir olayı göstərmək istərdim:

Təxminən 1946-cı ilin noyabr-dekabr ayları olardı. B.Məmmədovla birlikdə onun kabinetində işləyirdik. Bu zaman o, telefon zənginə cavab verdi və kimləsə xeyli danışdı. Danışıq qurtarana yaxın bir qədər gülümsəyərək «yəqin Sübhanverdizadəni deyirsiniz» ifadələrini işlədəndə telefon xəttinin o biri başında Ə.Rəsulovun olduğunu yəqin etdim. Telefon danışığı «bu saat, yoldaş Rəsulov, verərəm Bəxtiyar gətirər» sözlərilə qurtardı.

Bu ifadələrə aydınlıq gətirmək üçün buradaca bir haşiyəyə çıxmaq istərdim:

Yaşlı nəslin nümayəndəsi kimi, mənim də yaxşı yadımdadır ki, 1940-cı illərin ortalarından başlayaraq görkəmli ədib Süleyman Rəhimovun «Saçlı» romanı həmin illərdə Respublika Yazıçılar İttifaqının orqanı olan «İnqilab və mədəniyyət» (indiki «Azərbaycan» — B.S.) jurnalında hissə-hissə dərc olunurdu. Əli müəllim həmin jurnalı alırdı və onu sonradan oxumaq üçün Bəhrama da verirdi. Onlar öz aralarında kiməsə şərti olaraq romandakı çox riyakar mənfi sürət kimi verilən «Sübhanverdizadə» adını vermişdilər. Arabir söhbətlərində bu günə kimi mənə məlum olmayan həmin şəxsi, zarafata salıb bu soyadı ilə xatırlayırdılar...

Telefon danışığı qurtarandan sonra Bəhram mənzilindən «İnqilab və mədəniyyət» jurnalının onda olan nüsxəsini gətirdi və onu Əli müəllimə qaytarmağı məndən xahiş etdi.

Mən RPK-də Ə.Rəsulovun qapısını döymək istərkən, içə-

ridə ucadan qışqıra-qışqıra danışan səs eşitdim. Bir qədər gözlədikdən sonra qapını açan kimi məni içəri dəvət etdi və jurnalı almadan əyləşmək təklif etdi. Yanında, təxminən 6-10 yaşlarında olan üç uşağı ilə şikayətə gəlmiş çox acınacaqlı görkəmdə olan qadın isə ağlaya-ağlaya, qışqırıqla kəndlərindəki kolxoz sədri və briqadirin ünvanına şikayətlərini davam etdirirdi. Onun deməsindən aydın olurdu ki, bütün il boyu kolxozda işləyib, pambıq becərib, barama təhvil verib və başqa işlər görüb. Ancaq onun nə əmək günü, nə də əmək haqqı düzgün hesablanmayıb, həm də şikayətlərinə heç kəs məhəl qoymur. Yenə də ucadan danışaraq rayonda da, kənddə də haqq-ədalətin, qanunun olmamasından şikayətlənirdi. Yaranmış gərgin vəziyyətdə mən istədim ki, qadını sakitliyə dəvət edəm. Bunu hiss edən Əli müəllim əlinin işarəsi ilə söhbətə müdaxilə etməməyi mənə bildirdi. Eyni zamanda o, qadına müraciət edərək özünü də, çox nimdaş geyinmiş uşaqlarını da sobaya yaxın oturdub isinməyə, sakit danışmağı təklif edərək onu dinləməyə kifayət qədər vaxtı olduğunu bildirdi. Belə ustalıqla söhbəti tam normal məcraya yönəltdi və söz verdiyi kimi, qadını sözü qurtarana kimi dinlədi.

Bir neçə dəqiqədən sonra o dövrlərdə kolxozların fəaliyyətinə nəzarət edən Rayon Torpaq Şöbəsi adlı qurumun rəhbərliyindən kiməsə telefon açdı, qadını qəbul etməyi, diqqətlə dinləməyi, lazım olsa ərizə yazdırıb götürməyi və şikayətçinin dediklərini səlahiyyətli mütəxəssis tərəfindən yerində araşdırılıb, lazımı köməklik göstərilməsini tapşırdı. Eyni zamanda bu məsələ onun nəzarətində olduğu üçün nəticəsini ona bildirməyi xahiş etdi. Bayaqdan bəri son dərəcə həyəcanla danışan qadın-şikayətçi kabinetdən çıxarkən çox kövrək vəziyyətdə Ə.Rəsulovdan üzr istədi, öz hərəkətlərindən peşmançılıq bildirərək, qayğı göstərməsinə, diqqətinə görə ona Allahdan uzun ömür dilədi və adıçəkilən idarəyə yollandı.

Şikayətçi gedəndən sonra, həmin qadının barəsində eşit-



dikləri ədalətsizlikdən, müharibəyə göndərilmiş ərinin hələ də yolunu gözləyərək, uşaqlarını dolandırmaq üçün imkansızlıq məngənəsində sıxılan insanın söylədiklərindən yaranmış acı təəssüratdan bir təhər ayrılaraq mənimlə qısaca fikrlərini bölüşdürdü və dedi:

— Bilirəm, Bəxtiyar, mənə kömək üçün qadını sakitləşdirməyə cəhd etmək istəyirdin. Yaxşı ki, qarışmadın. Rayonun ən uzaq kəndindən hər şeydən ümidini itirərək rayon rəhbərliyinə pənah gətirən insana çox həssas yanaşmamaq və onu ürəyi boşalana kimi dinləməmək çox böyük günah və qəbahət olar, ağır nəticəsi ola bilər.

Əli müəllimdən eşitdiyim bu tövsiyə, məzmunlu sözlər, ondan qabaq isə onun qadınla söhbətindəki həssaslıq, səbr, alicənablıq, sözün əsl mənasında məni silkələdi, sanki ayıltdı. Etiraf edim ki, o vaxtlar mənim, kənd şəraitində böyümüş, hələ dövlət qulluqçusu kimi heç bir təcrübəsi olmayan bir gənc olaraq, insanlara münasibətdə belə incəlikləri dərk etməkdə təcrübəm yox idi. Məhz ona görə də Əli müəllimdən aldığım bu dərsi bu günə kimi unuda bilmirəm.

Ə.Rəsulov Zəngilanda işlədiyi illərdə yetərincə təcrübəli siyasi rəhbər, təşkilatçılıq bacarığına malik şəxsiyyət olmasına baxmayaraq, həyata keçiriləcək tədbirlərlə bağlı rayonda uzun illər müxtəlif rəhbər vəzifələrdə işləmiş, ötən əsrin 20-ci illərinin əvvəllərindən Sov.İKP üzvləri, nüfuzlu şəxslər sayılan insanlarla və başqa ağsaqqallar və ziyalılarla görüşüb, məsləhətləşərdi.

Belə sayılıb-seçilənlərdən İsfəndiyar Sayılov, Kiçikxan Quliyev, Adil Məhərrəmov, Sücəddin Abdullayev (Xanlıq k.), Həsənqulu Bayramov, Qara Zamanov, Heydərqulu Kərimov, Həmid Seidli, onlarla müqayisədə nisbətən gənc zəngilanlı partiya fəalları Şəhriyar Quluyev, hazırda məcburi köçkün kimi Bakıda məskunlaşan, Əli müəllimlə birlikdə RPK-da işləmişDavud Həsənov və başqalırını göstərmək

olar. 1990-cı illərin əvvələrinə kimi müxtəlif illərdə dünyaları-nı dəyişmiş bu qədirbilən insanlar Əli müəllim rayondan gedəndən sonra da ömürlərinin sonuna kimi, yeri gəldikcə Ə.Rəsulovun adını böyük hörmət və ehtiramla çəkərdilər. Belə adamlar mənim həmyaşıdlarım arasında indi də az deyil...

Ə.Rəsulovda olan qayğıkeşlik, diqqətçillik və mərhəmətdən mən də mənəvi cəhətdən xeyli faydalanmışam. Bütün bunlar barədə geniş söz açmaq oxucu üçün yorucu olardı. Ancaq mənim üçün çox əziz, yaddaqalan və kövrək bir xatirəni demək istəyirəm.

Qeyd etdiyim kimi, 1948-49-cu dərs ilində mən Əli müəllimin oğlu Rafiqlə Zəngilan şəhər orta məktəbində oxuduğumuz vaxtlarda bəzən elə hallar olurdu ki, rus dərsinə hazırlaşan vaxt bilmədiyimiz ifadələri öyrənmək üçün Rafiq atasına məxsus, akademik Heydər Hüseynovun redaktorluğu ilə çap olunan Rusca-Azərbaycanca lüğətini istifadə üçün gətirərdi. Bir dəfə, təsadüfən həmin kitabı evə qaytarmağı unutduğu gün, təxminən gecəyarı olardı Rafiq yanıma gəldi və atasına lazım olduğu üçün lüğəti aparacağını bildirdi. O yaranmış vəziyyətdən hiss olunan narahatçılığımı bildi və bunun üçün heç bir əsasın olmadığını, əksinə, atasının belə işlərə normal hal kimi baxdığını bildirdi.

Bu əhvalatdan təxminən iki il sonra Ə.Rəsulov Gədəbəy rayonuna RİK-nin sədri təyin olundu. Zəngilandan köçəndən bir gün öncə səhər tezdən Rafiq, əlində həmin lüğət, yenə də mənzilimə gəldi və atasının onu mənə bağışladığını bildirdi. Mənim — «deyəsən bu işdə sənin barmağın var», — deməyimdən sonra o, mənim dediklərimə qəti etirazını bildirdi. Çox səmimi olaraq dedi ki, dünən atası öz kitablarını qablaşdırarkən lüğəti kənara qoydu və onu mənə çatdırmaq tapşırığını verdiyini söylədi. Rayonda böyük nüfuz sahibi olan Rəsulovlar ailəsinin buradan köçməsi, mənim dostum Rafiqlə ayrılmağım və nəhayət Əli maüəllimin mənə göstərdiyi diqqətin üst-üstə düşməsi məni kövrəltmə dərəcəsinə kimi mütəəsir etdi.

Ola bilsin ki, çoxcildli müxtəlif lüğətlər bolluğunda yaşayan müasir gənclər mənə qarşı olan bu diqqəti yetərincə qiymətləndirməsinlər. Yaşadığımız, indi isə tarixə dönmüş keçmişin çətinliklərini dərk etməyənlər üçün bunu normal hal kimi qəbul etmək olar. Mənim şəxsi kitabxanamda hazırda çoxcildli, daha çox söz tutumu olan müxtəlif lüğətlərin olmasına baxmayaraq, Əli müəllimin mənə çox qiymətli hədiyyə kimi bağışladığı bu lüğəti böyük ürək sahibindən mənə yadigar, həm də əmanət kimi saxlayıram.

Zaman keçdikcə həyatımızda baş verən dəyişikliklər də yer alırdı. B.Məmmədov Zəngilandan gedəndən sonra bir neçə rayonda, o cümlədən 1950-ci illərin ortalarında beş ilə qədər Gədəbəydə hərbi komissar işləyərək yenə də Əli müəllimlə birlikdə oldular. Mən isə 1952-ci ildən Dövlət Təhlükəsizlik orqanlarına çağrılaraq respublikanın müxtəlif bölgələrində olsam da, Rəsulovlar və Məmmədovlar ailələrilə yaxın dostluq əlaqələrimizi bu günə kimi davam etdiririk.

On ildən artıq Mingəçevir şəhərində hərbi xidmətdə olduğum 70-ci illərdə, Bəhram istefayə çıxaraq Bakıda yaşayırdı. Biz onunla dəfələrlə Əli müəllimi ziyarət etmək üçün Gədəbəyə getmək barədə razılaşmışdıq. Bu səfəri etmək vaxtını dəqiqləşdirməyi də Bəhram öz üzərinə götürmüşdü. Çox təəsüflər olsun ki, 1977-ci ilin payızında o, mənə Bakıdan telefonla Əli müəllimin dünyasını dəyişdiyini xəbər verdi. Böyük ürək sahibi, geniş qəlbli belə bir insanın vaxtsız vəfatı tək Gədəbəylilərə yox, bütün respublika ziyalılarına və təhsil sahəsi ictimaiyyətinə üz verən ağır itki kimi bizi də dərindən mütəəssir etdi. Rəsulovlar ailəsinin kədərini bölüşdürmək üçün birlikdə Əli müəllimin uyuduğu Gədəbəy torpağına ziyarətə getdik.

Ə.Rəsulov barədə bildiklərimi yığcam da olsa qələmə alar-

kən onun vəfalı ömür-gün yoldaşı Bilqeyis xanım və nəslin ləyaqətli davamçıları olan övladları barədə heç olmasa qısa da olsa qeyd etməsəm, bu ailə barədə fikirlərimi bitmiş saya bilmərəm.

Əsl azərbaycanlı xanımlarına xas olan mənəviyyatı, təvazökarlığı, zəhmətsevərliyi və digər müsbət keyfiyyətləri özündə birləşdirən Bilqeys xanım barədə onun layiq olduğu yüksək fikir, mənim öz şəxsi müşahidələrimlə yanaşı, həm də Zəngilanda yaşadıqları vaxt Rəsulovlar ailəsi ilə yaxın qonşuluq münasibətlərində olmuş qohumlarımın və başqa həmyerlilərimin birmənalı dediklərindən formalaşmışdır. Bu ailə Zəngilandan köçənə kimi mən hələ ailə qurmamışdım. Ona görə də həyat yoldaşım Simuzər xanımla onlar tanış olmamışdılar. Sonradan iş elə gətirdi ki, xidmətimlə əlaqədar mən Zəngilan şəhərinə təyinat aldım və 60-cı illəri vaxtilə Rəsulovlar ailəsinin yaşadığı mənzildə yaşamalı oldum. Bu müddət ərzində Bilqeys xanımla hər gün yaxın təmasda olan qonşu xanımlar onun mehribanlığı, sadəliyi, mərdliyi barədə kifayətqədər Simuzəri də məlumatlandırmışdılar. Sonuncu belə bir insanla şəxsən tanış olmamağına çox təəssüflənirdi...

Mingəçevirdə xidmətdə olduğum müddətdə, təxminən 1975-ci, bəlkə də 1976-cı ilin yazında vaxtilə DTK-da həmkarım olmuş dostum, Əli müəllimin bacanağı, Yusif Haqverdiyevin Gəncə şəhərində vəfat etməsi xəbərini eşitdik. Bu hadisə ilə bağlı mərhumun yaxınlarına başsağlığı vermək üçün ora getməli olduq. Yas yerində iştirak edəcəyi qadınlar məclisində heç kəslə şəxsi tanışlığı olmadığını güman etdiyim üçün həyat yoldaşıma Bilqeys və Fatma (mərhumun həyat yoldaşı -B.S.) xanımlara yaxınlaşmağı məsləhət bilmişdim. Məclisdə belə bir tanışlıq olmuşdu və qonağın kimliyini bilən an Bilqeys xanımın «... ay Allah, gör kim gəlib, Bəxtiyarın yoldaşı...» sözləri ilə hərarətlə qarşılanan Simuzər xanım, tanışlıq barədə söhbət edərkən bu əvəzsiz xanım barədə, sözün ən yaxşı mənasında desək, həyəcanını gizlədə bilmirdi. Birlikdə olduqları təxminən iki saat ərzində Bilqeys xanım Zəngilan, zəngilanlılar, uzun illər burada qonşuluq etdiyi və əsasən təmasda olduğu xanımlar, onların övladları barədə ətraflı maraqlanması, onların şəxsində həmsöhbətinə son dərəcə səmimilik və mehribanlıq göstərməsi onu valeh etmişdi. Gəncə şəhərinə etdiyimiz bu səfərin məramı ürəkaçan olmasa da, Mingəçevirə qayıdarkən mənim də sonuncu dəfə mehribancasına xudafisləşdiyim Bilqeys xanımın səmimiyəti və mehribançılığı tərəfimizdən ehtiramla xatırlanır. Keçən əsrin 90-cı illərinin ortalarında dünyasını dəyişən bu səmimi insana daima Ulu Tanrıdan rəhmət diləyirik.

Vaxtilə sözügedən ailənin bütün qayğılarını şərəflə daşıyan Əli müəllimin və Bilqeys xanımın onları tanıyanların qəlbində əbədiyaşarlığının əsas səbəblərindən biri də budur ki, onlar cəmiyyətdə yetərincə xeyirxah və fəal mövqe tutan övladlar böyütmüşlər. Böyük məmnuniyyət hissi ilə qeyd edim ki, bu ailə ilə tanışlığımdan ötən 60 ildən artıq müddətdir onların övladları ilə dostluq əlaqələrimizi davam etdiririk. Tək mənimlə deyil, həm də Rəsulovlar ailəsini daima hörmətlə xatırlayan həmyerlilərimlə səmimi əlaqələrin əsas daşıyıcıları, 1940-50-ci illərdə Zəngilan şəhər orta məktəbində təhsil almış Tofiq, Rafiq və Xəzail müəllimlərdir. Bu qardaşlara milli məişətimizdə hörmət əlaməti olaraq müraciət forması kimi işlədilən «müəllim» ifadəsini deyilişi gözəl olsun deyə işlətmədim. Onlar bütün mənalı həyatlarını ən nəcib peşəyə — elmi-pedaqoji fəaliyyətə həsr etmiş, bu gün də davam etdirirlər.

Bu ailənin ağsaqqallıq missiyasını layiqincə davam etdirən Tofiq müəllim 1950-ci illərin əvvəlində, o vaxtlar BDU-nun Tarix fakultəsinin nəzdindəki fəlsəfə bölməsini bitirmiş, həmin vaxtlardan başlayaraq ixtisası üzrə elmi axtarışlarla məşğul olmuş, alimlik dissertasiyası müdafiə edəndən bu günə kimi respublikanın rəhbər orqanlarında, xalq təsərrüfatının

müxtəlif sahələrində işləmək üçün rəhbər kadrların hazırlanmasında uğurla çalışmışdır. Hazırda Respublika Prezidenti Yanında İdarəetmə Akademiyası təşkil olunduğu ilk gündən orada professor, kafedra müdiri vəzifəində çalışır. Keçən əsrin 40-cı illərinin ortasından Zəngilanda şagirdlik vaxtlarından dostluq etdiyim Rafiq və Xəzail qardaşları isə texniki elmlər sahəsində alimlik dərəcəsinə yüksəlmiş, yarım əsrə yaxındır ki, müvafiq olaraq Azərbaycan Dövlət Neft Akademiyasında və Texniki Universitetlərində elmi-pedaqoji fəaliyyətlərini davam etdirirlər.

Rəsulov qardaşlarının işlədikləri ali təhsil müəəsisələrinin hər üçündə uzun illərdən bəri mənim yaxın qohum və dostlarımdan onlarla məzunlar təhsil almışlar. Onların əqidələrinə yaxından bələd olduğum üçün əminliklə deyə bilərəm ki, nəyinsə xatirinə dərs dedikləri tələbələrə doğma-ögey münasibətdə olmaqdan çox uzaqdırlar. O ki, qaldı bu qardaşların zəngilanlı məzunlara insani münasibət baxımından mehribanlıq göstərərək hal-əhval tutmalarına, rayonumuzda tanıdıqları adamlarla maraqlanmalarına, bu onların mənən saflıqlarından, təmənnasız səmimiliklərindən xəbər verir. Özümün şəxsi müşahidələrimə və göstərdiklərim yaxın adamların birmənalı fikirlərinə əsaslanaraq deyə bilərəm ki, bu qardaşlar, bəzi təhsil müəssisələrində tələbə-müəllim münasibətlərində mövcud, heç kəsə sirr olmayan neqativ hallardan da çox uzaqdırlar.

Eyni məzmunlu müsbət fikirlərimi, hələ məktəbəqədər və məktəbli yaşlarından tanıdığım, Əli müəllimin başçılıq etdiyi ailədə ərsəyə gəlmiş qızları barədə də deməyi özümə borc sayıram. Onlardan Dareko xanım biologiya alimi kimi Respublika MEA-da, Validə və Solmaz xanımlar ümumtəhsil sistemində, Xalidə və Bəsti xanımlar isə həkim kimi səhiyyə sistemində çalışır, ev, ailə-övlad qayğıları ilə yanaşı, mənsub olduqları nəslin nəcib ənənələrini davam etdirirlər.

Əgər kimsə mənə «hansı ailəni mənəvi zənginlik mücəssəməsi adlandırarsan?» sualı ilə müraciət etsə, yaxşı tanıdığım bir neçə ailəni xatırlayar, bu qəbildən olanlar sırasında, ilk növbədə «Rəsulovlar ailəsinin adını çəkərdim. Belə bir rəyi tək özümün deyil, bütün Zəngilanlarımın yaşlı və orta nəslə mənsub olanların fikri kimi də deməyə cəsarət edərdim. Çünki, bu yüksək qiyməti Ə.Rəsulov həyatda yaşadığı, işlədiyi, böyük və ləyaqətli ailəyə başçılıq etdiyi illərdə özü qazanmışdır.

Ə.Rəsulov mənalı həyatını 50 ildən artıq həsr etdiyi pedaqoji fəaliyyətinə görə çoxdan layiq olduğu «Əməkdar müəllim», «Xalq müəllimi» fəxri adları ilə rəsmən təltif olunmasa da, o, yetirmələri və saysız-hesabsız tanıyanların qəlbində xalqın müəllimi, əsl ziyalısı, təmsil etdiyi xalqın uzaqgörən müdrik oğlu kimi, əbədi yaşayacaqdır.

*5 noyabr 2006-cı il*

# İMAN DÜNYASINA KÖKLƏNMİŞ VƏTƏNDAŞ



*Abdulla İbrahimov*

Bu dünyada yaşamış o insanlar xoşbəxt sayılırlar ki, onlar axirət dünyasına qovuşandan sonra da xeyirxah əməlləri ilə anılırlar. Belə insanlardan biri də öz doğmaları ilə yanaşı, çoxsaylı dost və həmkarları tərəfindən heç vaxt unudulmayacaq Hacı Abdulla Hacıbaba oğlu İbrahimovdur.

Mən onun haqqında düşünəndə həmişə gözüm önündə 46 il əvvəl olan ilk görüşümüz canlanır. Həmin vaxtdan ötən müddət ərzində, çox maraqlı ömür yaşamış bu insanla görüşlərim yetərincə olub və bunların hamısı yox, bəzi yaddaqalan məqamlar barədə söz demək istərdim.

Əvvəlcə ilk, həm də qeyri-adi şəraitdəki görüşümüz barədə yazmaq istərdim.

1956-cı ildə Zəngilan rayonu Mincivan stansiyasında DTK bölməsinin rəisi təyin olunmuşdum. Burada işlədiyim dövrdə 1962-ci il mart ayının ortalarında SSRİ Nazirlər Sovetinin sədrinin 1-ci müavini rayonun ərazisindən xüsusi qatarla keçərək Ermənistan SSR-nin Qafan rayonuna getməli idi. Protokol qaydalarına görə lazımı təhlükəsizlik tədbirləri həyata keçirmək məqsədilə Bakıdan Respublika NS Sədrinin müavini Əli Kərimov, DİN-nin müavini və bu nazirlik nəzdindəki Baş Milis İdarəsinin rəisi, milis polkovniki Abdulla İbrahimov və nəqliyyatda DTK-nin bir qrup məsul əmkədaşları da Zəngilana gəlmişdi.



Vəzifə bölgüsünə görə mən Abdulla müəllimlə birlikdə işləməli idim. Belə də oldu. Xidməti işlər prosesində o, məndən, yerli şəraitə yaxşı bələd olan adam kimi maraqlandığı məsələlər barədə, həm də özümlə bağlı nəyisə soruşurdu. Söhbətdə mən ona DTN-də işə qəbul olunduğum, 1952-ci ildə Abdulla müəllimin özündən kiçik qardaşı, hazırda Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü Davudla birgə xidmətimi deməyim də onda xoş təəssürat yaratdı. Dostluq münasibətlərimiz buradan başlandı.

60-cı illərin sonuna yaxın Bakıda Dzerjinski (indiki Şəhriyar adına mədəniyyət sarayı) adına klubda respublika, partiya-sovet və inzibati orqanların rəhbər işçilərinin növbəti toplantısı keçirilirdi. Fasilə vaxtı Ali Məhkəmənin sədri kimi iştirak edən Abdulla müəllim bizə yaxınlaşdı. Səmimi görüşdən sonra söhbətimizi davam etdirdik.

Çox dərin və hərtərəfli intellekt sahibi olan Abdulla müəllim səmimiliyi və şirin söhbətilə, hətta ilk tanış olduğu adamların da diqqətini özünə cəlb edə bilirdi. Bununla bağlı bir fakt demək istəyirəm.

1971-ci ilin yanvarında xidmət dairəsinə Qarabağ, Şirvan, Şəki, Zaqatala bölgələrinin 9 şəhər və rayonları daxil olan DTK-nın Mingəçevir şöbəsinə işə təyin olundum. 1972-ci ilin yazında şöbəmizin baş əməliyyat müvəkkəili Həsən Ələkbərovla Zaqatala şəhərində ezamiyyətdə olduq. Xidməti işlə əlaqədar RPK-nın birinci katibi ilə görüşməli idik. Həmin vaxt Nəzir Əhmədov məzuniyyətdə olduğundan onu əvəz edən ikinci katib Rəhilə xanım Əhmədova ilə görüşdük və müvafiq məsələ brədə fikir mübadiləsi aparırdıq. Sonra gözləmədiyim halda Rəhilə xanım mənə: «Bəxtiyar müəllim, Abdulla İbrahimov yoldaşı tanıyırsınızmı?» — sualı ilə müraciət etdi. «Əlbəttə, Ali Məhkəmənin sədri Abdulla müəllimi yaxşı tanıyıram», — dedim.

Çox fikirləşmədən Rəhilə xanım məndən ərkim çatırsa

A.Ibrahimovu ən azı iki günlüyə Zaqatalaya qonaq dəvət etməyi xahiş etdi. Səbəbini özü açıqlayaraq belə izah etdi: «Bu yaxınlarda Az.KP MK-nın məsul nümayəndəsi qismində Abdulla müəllim iki gün rayonumuzda oldu. Açığını deyim ki, bu qeyri-adi xarakterli, hərtərəfli dərin zəkalı, insanı valeh edən səviyyədə şirin söhbətli adamla ilk dəfə rastlaşdım. Həyatın hansı sahəsinə toxunurdumsa, bu barədə dünyaşöhrətli filosofların, başqa mütəfəkkirlərin fikirlərindən sinədəftər iqtibas gətirir, bu günlərlə əlaqələndirirdi. İş elə gətirdi ki, az qala onun ezamiyyətə gəldiyi məsələ ilə məşğul olmağı unudaq. Bizim hədsiz marağımızı hiss edən Abdulla müəllim özü yumorla: «Mən bura sərbəst mühazirəçi kimi yox, konkret iş üçün gəlmişəm», — dedi.

Mən Rəhilə xanımın arzusunu Abdulla müəllimə çatdıracağıma söz verdim. Ancaq məlum səbəblərdən respublika səviyyəli rəhbər işçinin istədiyi rayona icazəsiz getməsinin mümkünsüzlüyünü də qeyd etdim.

Abdulla müəllim dostları arasında olarkən hamıya diqqətliliyi, bəzən də özünəxas çevikliyi ilə fərqlənirdi. Bununla bağlı daha bir görüşümüzü xatırlamaq istərdim: Mingəçevir şəhərində 10 illik xidmətdən sonra 1981-ci ilin yanvarında Bakıya DTK-nın mərkəzi aparatında işə təyinat aldım. Həmişə olduğu kimi, o illərdə də DTK-da qeyri-rəsmi də olsa, 6 günlük iş həftəsi rejimi mövcud idi. Ancaq şənbə günləri saat 16-17-də işdən gedə bilərdik. Həmin 81-ci ilin payızında şənbə günü işdən çıxdım və evə getməzdən öncə dənizkənarı bulvarda gəzintiyə çıxdım. Dəniz vağzalı tərəfə gedərkən Abdulla müəllim daxil olmaqla əks istiqamətdən gələn dörd nəfər dost-tanışlarımla rastlaşdım. O, məni görcək bir-iki addım qabağa çıxaraq: «Hə, bu da Mingəçevirin rəisi Bəxtiyar», deyərək məni həmsöhbətlərinə təqdim etdi. Eyni zamanda, Məmməd Xələfovu müəllimim olduğu üçün tanıdığımı dedi. 1950-1960-cı illərdə DTK-da həmkarım olmuş, təqaüdə çıxandan sonra isə dəmir yolu idarəsi sərnişin xidməti rəisi işləyən dostum İrşad



Hacıyev (Azərb. Respublikası Konst. Məhkəməsinin ilk sədri Xanlar Hacıyevin atası) təqdim olunmağı gözləmdən mənimlə çox səmimi qucaqlaşdı. Nəhayət, məni o illərdə dəmir yolu idarəsi rəis müavini işləyən Tofiq Bağırovla tanış etdi. Mənim Tofiq mülləimə Bakıda DTK-ya qəbul olunduğum 1952-ci ilin iyul ayında onun Biləcəri stansiyasının rəisi işlədiyi vaxt tanış olduğumu, hansı şəraitdə və kimin tanış etməsini dəqiqliyi ilə deməyim onların hamısında xoş, bir qədər də təəccübləndirici ovqat yaratdı. Elə bu məqamda Abdulla müəllim təbəssümlə hər iki əllərini çiyni bərabərində tutaraq: «Bəxtiyar, mənim heç bir sözüm yoxdur», — dedi. Sonra isə unudulmaz müəllimim Məmməd Xələfov da Abdulla müəllimə öz «iradını» əsirgəməyərək, özünəməxsus təmkinlə: «Sənin çox işdən xəbərin yoxdur. Bəxtiyar bir ilə yaxındar ki, Bakıda işləyir, sən isə onu bizə Mingəçevirin DTK rəisi kimi təqdim edirsən», — deyəndə Abdulla müəllimi olmayan günahını mənə yönəldərək nə üçün bu barədə ona demədiyimi soruşdu.

Beləliklə, mən də bu mehriban dostlarla təxminən bir saata yaxın birgə gəzintidə heç vaxt unuda bilməyəcəyim maraqlı söhbətlərin iştirakçısı oldum.

1990-cı ilin payızında yarım əsrə yaxın dostluq münasibətlərində olduğum, MTN-nin veteranı Həsən Ələkbərli ilə, respublika Səhiyyə Nazirliyi dördüncü Baş İdarəsinin Mərdəkandakı bir saylı sanatoriyasında dincəlirdik. Bizdən iki gün sonra Abdulla müəllim də ora gəldi. Maraqlı həmsöhöət olduğu qədər də mehriban olan dostumuzla 22 gün birgə olmağım, onun xarakterinin bütün cizgilərilə dərindən tanışlığım baxımından əvvəlki bütün görüşlərimi kölgədə qoydu...

Məşhur Bakı milyonçusu Ş. Əsədullayevin bağ iqamətgahında yerləşən bu sanatoriyanın geniş həyətində qaçış cığırı ilə hər gün səhər-axşam saatlarla gəzintidə olurduq.

Bir-birindən maraqlı söhbətlərdə onun nə qədər hərtərəfli biliyə, fenomenal yaddaşa malik olmasının bir daha şahidi oldum.

Yuxarıda qeyd etdiyim kimi, 22 günlük istirahətimiz vaxtı mən Abdulla müəllimi, sanki yenidən kəşf etdim, desəm, yanılmaram. Burada olan maraqlı söhbətlərimiz vaxtı milli adət-ənənələrimizlə, həyatın müxtəlif sahələri ilə bağlı hansı məsələlərə toxunurduqsa, o mütləq müqəddəs Quranın müvafiq ayələri, Peyğəmbərin (ə.s.) hədisləri və digər deyimləri ilə yerli-yerində əlaqələndirirdi. Söhbətləri elə qururdu ki, mən bəzən özümü başqa bir maraqlı aləmdə sayırdım. İslamın hər bir müsəlman üçün vacib sayılan beş sütunundan ürək dolusu danışırdı.

1991-1996-cı illərdə M.Ə.Sabir adına Pedaqoji Kollecdə



***Soldan: B.Süleymanlı, Abdulla İbrahimov, Şahin Səfərov və Abuzər Xələfov. 1990-cı il, Mərdəkan***

«Qanunvericiliyin əsasları» fənnindən dərs deyirdim. Kollecin direktoru filoloq-alim Nurlana xanım Əliyeva 1994-1995-ci dərs ilindən başlayaraq yeni ilahiyyət qrupunun açılması ilə əlaqədar bu qrupda islam hüququndan tədrisi də mənə həvalə etdi. Bu fənn üzrə proqram və dərslik də yox idi. Vəziyyətdən çıxışı həmin illər BDU-nun hüquq fakültəsində və Qızlar Seminariyasında ilahiyyət dərsləri deyən Abdulla müəllimə müraciətdə gördüm. Onun dəvətilə Seminariyaya çatan kimi məni





***H.Abdulla, dostları professorlar S.Səfərov və A.Xələfovla. Mərdəkan, 1990-cı il.***

sonuncu saat dərsi olan auditoriyaya apardı. Abdulla müəllim məni öz hüquqşünas həmkarı və «əsl müsəlman ailəsindən olan dostu» kimi təqdim etdi, dərs xoş ovqat şəraitində davam etdi. Cəmi bir saat dərs müddətində Abdulla müəllimin qız tələbələrlə davranmasına, müəllim-tələbə münasibətilə yanaşı, onlara atalıq qayğısı, bütün etik normalara həssaslığına heyran olmamaq mümkün deyildi.

Auditoriyadan müəllimlər otağına gedərkən qəflətən: «Bəxtiyar, oruc tutursanmı?» — sualını verdi. Mənim «yox» cavabıma çox qısa və qəti formada: «Bəxtiyar gecikirsən», — dedi. Mən Abdulla müəllimə bu barədə Mərdəkandakı söhbətimizi, ürəyin işemiyasına görə, demək olar ki, hər gün dərman qəbul etdiyimi xatırlatdım. O, yenə də eyni ciddiliklə xəstələrə oruc tutmağı da Qurani-Kərim günah saydığını dedi.

Bu qısa söhbətdən sonra mənə lazım olan dərslik üçün, Abdulla müəllim öz dostu, hazırda şərqşünaslıq fakültəsinin professoru Hacı Zahid Hüseynova müraciət etməyi məsləhət

gördü. Bu məqsədlə biz birlikdə BDU-ya gəldik və məsələni çox mehriban və səxavətli insan, hazırda mənim dostum olan Zahid müəllim yüksək səviyyədə həll etdi.

1995-ci ilin payızında görkəmli xalq yazıçısı İsmayıl Şıxlının vəfatı ilə bağlı yeddi mərasimi keçirilirdi. Bu məclisə ayrılıqda gəlsək də, oradan Hacı Abdulla ilə birlikdə çıxdıq. O, məni yaxınlıqdakı türk kitab mağazasına dəvət etdi. Oradan bir ədəd cocuqların hüququna aid kitab aldı. Söhbətarası saata baxıb, axşam namazı yaxınlaşdığından mənimlə çox gəzməyəcəyini bildirdi. Onun üçün namaz hər şeydən əziz idi.

Hər ikimizin hüquqşünaslığımızı dilə gətirərək, fəaliyyətdə olduğumuz sovetlər dövlətində, eləcə də sonrlar da rəhbər tutduğumuz qanunların mövcud ictimai-siyasi mühitlə bağlı tez-tez dəyişikliklərə məruz qalmasına baxmayaraq, biz onun aliliyini qəbul etmişik. Başqa münasibət ola da bilməzdi. Nazil olmasından 14 əsrdən çox vaxtda heç bir dəyişikliyə məruz qalmayan İslam dünyasının ən müqəddəs abidəsi Qurani-Kərimin hər bir müsəlman üçün vacib sayılan tələblərinin də imkan dairəsində icra etməyin vacibliyini öz ürək arzusu kimi tövsiyə sayağı bildirərək məndən ayrılıb namaza getdi.

Bax, budur dünyəvilik, müasirlik və inam dünyası kimi qəbul etdiyi islam dəyərlərinə sədaqəti öz qəlbində yaşadan Hacı Abdulla xisləti.

Hacı Abdulla müəllim haqqında xatirə və düşüncələrimə sonluq kimi, bu müqəddəs şəxsi özünün ifadəsini iqtibas etməklə yekunlşdırmaq istərdim.

Hüquqşünas alimlərimizin bayraqdarı Məmməd Xələfova həsr olunmuş «Haqqa qovuşan insan» adlı kitabdı Hacı Abdulla müəllimin ürək sözləri səmimiliyi və kövrəkliyi ilə oxucunun diqqətini cəlb edən «Onu yada salmaq ibadətdir» başlıqlı yazısını həyəcansız oxumaq mümkün deyil. Mən bu sətirləri Hacı Abdulla müəllimin pak və müqəddəs ruhu qarşısında İBADƏT sayır, ona Ulu Tanrıdan rəhmət diləyirəm.

*12.08.2005-ci il*



# ELM VƏ MƏDƏNİYYƏT XADİMLƏRİ

# NƏSİLLƏRƏ NÜMUNƏ ALİM QARDAŞLAR



*Alim qardaşlar Ziyad Məmmədov və Atlıxan Xanməmmədov*

Doğma Zəngilanımızın bağlı-bağatlı, yaşıllığa qərq olmuş gözəl guşəsində — Məlikli kəndində, İskəndər baba ilə Yaxşı nənənin ailəsində keçən əsrin 11-ci ilində dünyaya qoşa gəlmiş əkiz qardaşlar — Ziyad və Atlıxan haqqında bilgilərimi, unudulmaz xatirələrimi qələmə almaq mənim üçün necə də xoşdur... Bu nəslə bələd olmayanlar üçün qısa da olsa, ilk növbədə bildirmək istərdim ki, rayonumuzun nüfuzlu Xanməmmədovlar nəslinə mənsub olan bu iki qardaş tək Zəngilanda deyil, bütün respublika alimləri və ziyalıları içərisində öz dəsti-xətləri ilə sayılan ziyalı alimlərdir. Onların elmi axtarışlarına, uğurlarına bələd olsam da, həmin sahələrin mütəxəssisi olmadığım üçün onların bu fəaliyyətlərini qiymətləndirməkdə çətinlik çəkirəm. Bu, onların alim həmkarlarının işidir. Mənə gəldikdə isə bir sıravi zəngilanlı kimi ancaq gördüklərimi və bildiklərimi demək istəyirəm.

Dünyaya gəlmiş övladlara bütün ailələrdə nəslin davamçıları kimi baxılır və təbii ki, valideynlər də bununla həmişə fəxr edirlər. İslam dünyasında isə övladların dünyaya gəlişi Tanrı payı kimi qiymətləndirilir. Bunu da biz hamımız belə qəbul etmişik. İndi isə keçək əsl mətləbə və bu qardaşlar barədə bildiklərimizi xatırlayaq.

Əvvəlcədən oxuculara müraciətim bundan ibarətdir ki, alim qardaşlar, xüsusilə də Ziyad Məmmədov barədə, Zəngilan fəaliyyətinin müəyyən məqamlarını qələmə alarkən o dövrdə onunla işləyən, dostluq edən insanlar, görkəmli şəxslər, rayonda və bölgədə baş verən bəzi hadisələr barədə xatırlamalarımı heç də mövzudan kənara çıxmaq kimi qiymətləndirməsinlər. Məqsədim rayonumuzun fəxri olan bu ziyalılar barədə xatirələr demək imkanından istifadə edərək, səkkiz ilə yaxın müddətdə düşmən tapdağında olan Zəngilanımızı daha çox anmaq, respublikanın müxtəlif rayonlarına səpələnmiş həmyerlilərimizi, zəngilanlı günlərimizi yaşatmağa qaytarmaqdan ibarətdir...

Düzünü deyim ki, Alman faşizminin ölkəmiz üzərinə qəfil hücumuna kimi rayonumuz və onun fəalları barədə bilgilərim çox bəsit idi. 1939-cu ildə kəndimizdəki məktəbdə komsomola qəbul olandan sonra komsomol fəalı kimi, sonra 1942-ci ildə təhsilimə fasilə verərək rayonumuzun beş ucqar kəndini özündə birləşdirən sovetliyin mərkəzi Bartazdakı poçt bölməsinin rəisi işləyəndə də tədbirlərdə iştirak etmək üçün tez-tez rayon mərkəzi Pirçivan kəndinə (o vaxtlar Zəngilan şəhəri belə adlanırdı) gəlsəm də, bu səfərlər bilgilərimi zənginləşdirməzdi. Çünki 30 km-lik yolu hər dəfə piyada qət edib rayon mərkəzində ictimai təminat və poçt idarələrindən orduya gedənlərin ailələrinə çatacaq müavinətləri, poçt baratlarını alıb,

axşama da həmin yolu qət edərək kəndə qayıdırdım. Haqqında danışılan qardaşlar barədə onu bilirdim ki, onların hər ikisi ali təhsil alıblar. Ziyad Məmmədov müharibənin 2-ci ili Rayon İcrayə Komitəsinin sədri, Atlıxan müəllim isə Zəngilan orta məktəbinin direktoru işləyirdi. Çox keçmədən mən də müharibəyə getmək üçün səfərbər olundum. Respublikamızın hər yerində olduğu kimi, rayonumuzda da gənc və orta yaşlı kişilər orduya çağırıldığı, yerdə qalan bütün əmək qabiliyyətli insanlar isə «Hər şey cəbhə üçün, hər şey qələbə üçün» şüarı altında birləşərək arxa cəbhədə yorulmadan çalışdıqları şəraitdə, ölkə üçün son dərəcə taleyüklü vaxtda Ziyad müəllim rayonumuzda rəhbər vəzifədə yorlumadan çalışırdı...

Böyük Vətən müharibəsi qurtarandan sonra, 1945-ci ilin oktyabrında mən də Şimali Qafqaz hərbi dairəsindən tərxis olunub rayonumuza döndüm və həmin aydan rayon hərbi komissarlığında işə qəbul olundum. Bu vaxt Ziyad müəllim RİK-in sədri vəzifəsində işini davam etdirirdi. Atlıxan müəllim isə işlədiyim yeddi il ərzində o vaxtlar o qədər də böyük olmayan yaşayış məntəqəsində kimin kim olması, xüsusilə rayon rəhbərləri ilə təmasda işləyərək onlar barədə dəqiq təsəvvürə malik olmaq imkanım oldu. Desəm ki, rayon mərkəzində işlədiyim andan Ziyad müəllimlə sıx əlaqədə olur, onunla dostluq edirdim, əlbəttə, bu inandırıcı orlmaz. Keçmiş Sovetlər dövrünün bütün rayonlarında olduğu kimi, bizim rayonda da sanballı iki vəzifə var idi — vahid və hegemon Kommunist Partiyasının birinci katibi və sovet orqanları rəhbəri RİK-in sədri. Mənimlə bu rəhbərlər arasındakı həm vəzifə pillələrinin səviyyəsi, həm də yaş fərqi buna imkan vermirdi. O ki qaldı Ziyad müəllimin sadəqəlbliliyi, hamı üçün münasibliyi, bu başqa söhbətin mövzusudur və bu barədə bir qədər sonra.

Bildiyimiz kimi, 1941-1945-ci illər müharibəsindən sonrakı bərpa illərində vəziyyət o qədər də ürəkaçan deyildi. "Kartoçka" sistemi davam edirdi. İşçi qüvvəsi az idi. Tez bir vaxt ərzində müharibənin fəsadlarını aradan qaldırmaq, iqtisadi dirçəlişə nail olmaq, əhalinin güzəranını yaxşılaşdırmaq o qədər də asan deyildi. Amma tələbkarlıq çox böyük idi. Sadaladığım sahələrdə dönüş yaratmaq üçün mərkəzi ittifaq və respublika rəhbərliyinin tələbi çox kəskin idi. Belə bir şəraitdə rayon rəhbərliyindən əmək qabiliyyətli əhalini səfərbər etmək, özlərinin isə qabaqda getmələri birmənalı tələb olunurdu. Hamımız üçün iş vaxtının hər dəqiqəsi nəzarətdə idi desəm, yəqin ki, yaşlı nəslin fikrini ifadə etmiş olaram. Qarşıda duran çətinlikləri aradan qaldırmaq üçün tez-tez kənd əhalisinin arasında olmaq tələb olunurdu. O vaxtlar rayon rəhbərliyinin nə sonralar gördüyümüz kimi dəbdəbəli kabinetləri, iş şəraitləri, nə də rahat limuzinləri var idi. Ən yaxşı halda — dediyim iki rəhbər vəzifə sahiblərinin istifadəsində Amerika istehsalı olan hansısa markalı hərbi BMP adlanan döyüş maşınını xatırladan minik maşını və yaxud da «polutorka» deyilən tonyarımlıq yük maşını, bir də ki, əsasən minik atları vardı. Belə bir şəraitdə Ziyad Məmmədovun əsl təşkilatçılıq, rəhbərlik və işgüzarlıq məharəti özünü göstərdi.

Həmin illərdə Zəngilan da pambıqçılıq rayonlarından biri idi. Bu sahə demək olar ki, rayonun iqtisadiyyatının əsas sahəsi hesab orlunurdu. Strateji məhsul hesab olunan pambığın becərilməsi və toplanıb dövlətə satılması üçün pambıq əkən təsərrüfatların işçi qüvvəsi həmişə azlıq edirdi. Ona görə də, pambıq əkməyən dağ kəndlərinin kolxozçularını mövsümi səfərbər edib pambıqçılıq təsərrüfatlarına göndərmək də asanlıqla başa gəlmirdi. RİK-in sədri Z.Məmmədov şəxsi nüfuzuna görə bu işlərin öhdəsindən gələ bilirdi. İqtisadiyyatı çox zəif olan rayonumuzun qayğıları həmin illər həddindən artıq çox idi. Qarşıda duran bəzi mövsümi işləri «daxili imkanlar» adlanan tədbirlər hesabına görmək lazım olurdu. Həmyerlilərimin xatirində yaxşı qalan bir məsələni də demək istərdim:

Mənbəyini əzəli Azərbaycan torpağı olan Zəngəzurun qarlı dağlarından götürən Həkəri və Oxçu çayları ilə əkin sahələ-

rinin suvarılıb, necə deyərlər, qida mənbəyi olmasıyla yanaşı, həm də yaz mövsümündə öz sahilləri boyu yerləşən yaşayış məntəqələrinə, əkin sahələrinə bəlalar da gətirirdi. Sərt qış aylarından sonra yazda leysan yağışla həmin çaylar yatağından çıxıb əkin sahələrini yuyur, əhali üçün təhlükə yaradırdı. Bütün bu fəlakətlər, demək olar ki, əksər illər təkrar olunurdu. Belə qəzaların qarşısını almaq üçün sahilbərkitmə işləri görmək lazım gəlirdi ki, bunun üçün yenə də dağ kəndlərinin və rayon mərkəzinin əhalisini səfərbər etmək zərurəti yaranırdı. Bu işdə rayonun bütün rəhbərliyi ilə birlikdə Ziyad müəllim yenə də öndə gedir, nəticədə az itki ilə fövqəladə vəziyyəti aradan qaldıra bilirdi. Belə tədbirlərin hamısında biz hamılıqla bir yerdə olurduq.

Yaxşı yadımdadır, 1947-ci il Böyük Oktyabr Sosialist inqilabının 30-cu ildönümü yubileyi ili olduğu üçün bütün ittifaqda yüksək öhdəliklər ili elan olunmuşdu. Həmin il Zəngilanda da bu münasibətlə ciddi iş gedir, bütün imkanlar son dərəcə gərgin iş üçün səfərbərliyə alınmışdı. Belə bir şəraitdə rayonda gedən iş sahələrinin hamısının ahəngdar fəaliyyətini təşkil etmək çox vacib idi. Ziyad müəllim də daxil olmaqla rayonun bütün rəhbər işçiləri bilik və bacarıqlarını bu yubiley ilinin uğurla başa çatdırılmasına yönəltmişdir. Görülən gərgin işlər də əbəs olmadı. Həmin yubiley ilində bütün sahələr üzrə, o cümlədən pambıqçılıq başda olmaqla kənd təsərrüfatının bütün plan və tapşırıqlarına artıqlaması ilə əməl olundu. Yubiley ilinin yekununda bütün göstəricilər üzrə əldə edilmiş və rayonun tarixində misli görünməmiş yüksək rəqəmlər ittifaq rəhbərliyi tərəfindən yüksək qiymətləndirildi, RİK-in sədri Ziyad Məmmədov, kənd təsərrüfatının inkişafında misilsiz xidməti olan MTS-nin direktoru Şəfaət Mehdiyev, baş aqronom Allahverən Həsənov və b., cəmi 14 nəfər SSRİ-nin ən yüksək mükafatı olan Sosialist Əməyi Qəhrəmanı adına, yüzlərlə digər zəhmət adamları isə ölkənin başqa yüksək orden və medallarına layiq görüldülər. Onları ilk təbrik edənlər



arasında mən də var idim.

1940-ci illərin sonu və 50-ci illərin əvvəlində Ziyad müəllim başda olmaqla rayon rəhbərliyinin həyata keçirdiyi, Zəngilanın bütün əhalisi üçün son dərəcə həyati əhəmiyyət kəsb edən, rayonumuzun tarixinə əbədi həkk olan, mənim də nəinki gözümün qarşısında olan, eləcə də iştirak etdiyim iki əsaslı işi xatırlamaq istərdim. Rayon mərkəzinin durmadan artan əhalisi su sarıdan, yəni istər içməli və istərsə də suvarma üçün sudan son dərəcə korluq çəkirdi. Bunu xatırlamaq üçün mənim də təmsil olunduğum və orta yaşlı nəslin Pirçivan dəmir yol stansiyası yanındakı yeganə çeşmədə qız-gəlinlərin gecə keçənə kimi sənəklərlə su növbəsində durmalarını yada salmaq kifayətdir. Rayon mərkəzindən cəmi 4 km məsafədə yerləşən çoxsulu «Çeşməgözü» adlanan bulağın şəhərə çəkilməsi üçün ümumrayon iməciliyi elan olundu. Bu kəmərin dəmir boruları dövlət hesabına, bu məsafədə boruların yerinin qazılıb basdırılması isə əhalinin iməcilik yolu ilə həyata kei\çirməsi qısa müddətdə başa çatdırıldı. Rayon mərkəzinin əhalisi, demək olar ki, bu qayğıdan xilas olundu.

Deyəcəyim ikinci məsələ rayon mərkəzindən Mincivan qəsəbəsinə kimi 11 km-lik yolun çəkilməsidir. Rayonun bu iki ən böyük yaşayış məntəqələrinin arası yük və sərnişin daşımaları baxımından ən gur hərəkət xətti idi. Həmin məsafəni birləşdirən torpaq yol həm Qıraxmuşlan, Üdgün və Turabat kəndlərindən, həm də dağın döşü ilə keçirdi ki, bu yolun genişləndirilməsi mümkünsüz idi. Belə vəziyyətdə rayon rəhbərliyi yeganə çıxış yolunu Zəngilan-Mincivan arasındakı dəmir yolunun kənarı ilə əsrlər boyu keçilməz cəngəllik və bataqlıq kimi görünən sahənin təmizlənib yerində nümunəvi asfalt yol çəkilməsində görürdü. Belə də oldu. Bu işin də iməciliklə görülməsi planlaşdırıldı və qısa müddətdə yerinə yetirildi. Rayonun bütün rəhbər işçilərindən tutmuş sıravi fəhlə və qulluqçularına kimi hamı bir nəfər kimi, həm də çox böyük sevinclə bu işə girişmişdi. Çəkilmiş enli, ox kimi düz asfalt döşə-

məli yolun hər iki kənarı ilə minlərlə ağac əkildi və xalqın istifadəsinə verildi. Bu yolun çəkilişi kollektivlər arasında elə bölünmüşdü ki, bütün məsafədə işlər eyni vaxtda gedirdi. Ən ürəkaçanı da o idi ki, RİK sədri Ziyad Məmmədov işin əsas təşkilatçılarından biri kimi müntəzəm olaraq bütün iş sahəsi boyu kollektivlərə baş çəkir, hal-əhval tutur, əlinə belə, düşər alıb kömək edər, ağac əkərdi ki, bu da bizim kimiləri daha da ürəklə işə girişməyə çağırırdı. Bu minvalla Ziyad Məmmədov 11 km-lik məsafəni iş başa çatana kimi bir neçə dəfə piyada qət edib.

Yaşıdlarımız hər dəfə tikintisində iştirak etdiyimiz bu yola nəzər salarkən «yaşıl tunel»i xatırladan bu mənzərənin yaradılmasında Ziyad müəllimin fəaliyyəti və iştirakı ilə edirdik. Nə etməli, bu da bəlkə taleyin hökmü imiş ki, doğma diyarımızı ziyarət etməkdən hələ ki, məhrum olmuşuq.

Bu da bir həqiqətdir ki, 1960-1970-ci illərdə rayonumuza təyin olunmuş yeni rəhbərlər nəsli də az iş görməmişdir. Onlar da ürək yanğısı ilə rayon əhalisinə ləyaqətlə xidmət etmişlər. Rayon mərkəzinə daha uzaq məsafədən — 20 km Rzadərə-Zəngilan — daha güclü su kəməri də çəkmişlər, 100 kilometrlərlə yeni yollar da salmış, pambıq əvəzinə iqtisadi cəhətdən daha gəlirli üzümçülük, şərabçılıq, tütünçülük və sosial təyinatlı obyektlər tikmişlər. Ancaq bunların hamısı dünyada ən üzücü müharibənin qurtarmasından cəmi 4-5 il sonra, rayonun iqtisadi durumunun çox zəif olduğu vaxtda tikilmiş, o vaxtlarda sözün əsl mənasında, Zəngilan üçün möhtəşəm görünən tikintilər təəssüratını bağışlamışdı...

Qeyd etdiyim kimi, Zəngilan RHK-da işlədiyim 1945-1952-ci illərdə Z.Məmmədovun RİK-in sədri kimi, bizim xidmətimizə göstərdiyi diqqəti qeyd etməsəm Ziyad müəllim barədə fikrim tamamlanmamış olar. Həmin illərdə həmişə olduğu kimi, hərbi komissarlıqlarda hər il gənc çağırışçıların qeydiyyata alınması, orduya çağırış kompaniyası, 50 yaşa kimi ehtiyatda olan hərbi və nəqliyyat vasitələrinin qeydiyyatla-



rının dəqiqləşdirilməsi kimi kütləvi tədbirlər keçirilirdi. Bütün bu tədbirlər rayon soveti icrakomunun gündəlik işləri olduğundan, vaxtaşırı müzakirə olunurdu. Bu tədbirlərin rayon mərkəzində keçirilməsi ciddi ehtiyac duyulan çoxsaylı işçi qüvvəsinin günlərlə vaxt itirməsinə səbəb olardı. Məhz buna görə də respublika və rayon rəhbərliyinin göstərişinə əsasən rayonun uzaq sovetliklərinə, o cümlədən Həkəri çayı boyunca yerləşən Hacallı, Məmmədbəyli, Ağalı, 1950-ci ilə kimi Zəngilan rayonu ərazisinə daxil olan, sonra isə Qubadlı rayonuna qatılan Zilanlı, Xanlıq, Həmzəli, Çaytumas və digər kəndlərə səyyar hərbi-tibbi komissiya getməli olurdu. Bu komissiyanın tərkibi, nəqliyyat məsələsinin həlli və yerlərdə işin təşkilinə Ziyad müəllim xüsusi diqqət yetirir, həm də dövlət əhəmiyyətli bu tədbiri nəzarətdə saxlayırdı. Bəzi böyük sovetliklərdə sadaladığım işləri başa çatdırmaq üçün 5-6 gün qalmalı olurduq. Həmin günlərdə yerlərdə təsərrüfat işlərinə baş çəkmək üçün Ziyad müəllim və digər rayon rəhbərləri də gəlirdi. Belə hallarda Ziyad müəllim mütləq bizimlə görüşər, işimizin gedişi ilə ciddi maraqlanar və rastlaşdığımız çətinliklərin aradan qaldırılması, normal iş şəraiti yaradılması barədə yerindəcə sovetliyin və kolxozun rəhbərlərinə göstərişlər verərdi. Bütün bunlar Ziyad müəllimin dövlət əhəmiyyətli işlərə yetərincə qiymət verməsinə dəlalət edirdi.

Bu sətirlər dünyaya bir neçə dəqiqə fərqi ilə qoşa gəlmiş və bir neçə ay fərqi ilə dünyalarını dəyişmiş unudulmaz həmyerlilərimiz, əkiz alim qardaşlar Ziyad və Atlıxan Xanməmmədovlara həsr olunduğu üçün, onların barəsində bildiklərimi qeyd edirəm. Yenə də dillər əzbəri atalar sözü «Tək əldən səs çıxmaz», yaxud «De, görüm, dostların kimdir, onda deyərəm sən kimsən» ifadələrinə söykənərək Ziyad müəllimin rayona rəhbərlik etdiyi illərdə həmkarlıq etdiyi yaxın silahdaşları, ləyaqətli insanları xatırlamaq çox savab iş olardı. Oxucuları yormamaq üçün onlardan iki nəfərin adını bir daha çəkmək istərdim:

Zəngilanda on ildən artıq ikinci katib işləyən, əslən gədəbəyli, mənim də çox yaxşı tanıdığım Əli Rəsulovun adını çəkmək istərdim. Hələ gənc yaşlarından çox nurani görünən Əli müəllim özünün yüksək intellektual səviyyəsinə, alicənablığına, işgüzarlığına, qayğıkeşliyi və əsl ziyalılığına görə rayonda çox böyük nüfuza malik idi. Zəhmət adamları, ziyalılar hər hansı bir problemlə üzləşəndə, katibə yox, əksər hallarda məhz bu gözəl insana müraciət etməyə üstünlük verərdilər. Ona görə də həmin illərdən bizi yarım əsrdən çox vaxt ayırsa da, Əli müəllimin əziz xatirəsi həmyerlilərimizin qəlbində əbədi yaşayır.

Xatırlayacağım ikinci şəxs Ziyad müəllimin yaxın dostu olmuş, yaxşı insan, səriştəli təşkilatçı, uzun illər Zəngilanda rəhbər vəzifələrdə çalışmış Şəfaət Mehdiyevdir. O, əslən bizə Zəngilan qədər doğma olan Qubadlının Qəziyan kəndindən olsa da, Zəngilan onun üçün böyük sınaq, sözün həqiqi mənasında, qəhrəmanlıq meydanı olmuşdur. Şəfaət müəllimdə rəhbər işçiyə, el ağsaqqalına xas olan keyfiyyətlər cəmlənmişdi. Bütün bu keyfiyyətləri ilə yanaşı o, həm də kəskin tələbkarlığı ilə seçilirdi.

Bax, Ziyad müəllimin fəaliyyətinin Zəngilan dövründə nailiyyətlərinin əsas səbəblərindən biri və həm başlıcası Ş.Mehdiyev, Ə.Rəsulov kimilərin bir komandada birləşməsi, bir hədəfə vurmaları idi. Belə birliyin və səmimiyyətin nəticəsində onların birgə fəaliyyətləri istənilən bəhrəni verirdi ki, bütün bunlar da, qeyd etdiyim kimi, dövlət tərəfindən yüksək qiymətləndirilirdi. Nəticə göz qabağındadır: Ziyad Məmmədov və Şəfaət Mehdiyev Əmək Qəhrəmanları adına, Əli Rəsulov fəaliyyətinin Zəngilan dövrünə görə SSRİ-nin ən yüksək mükafatı — Lenin ordeni və başqa təltiflərə layiq görüldülər.

Z.Məmmədov rayon rəhbərləri ilə birlikdə həyata keçirilən təsərrüfat və ictimai-siyasi tədbirlərdə rayonun digər qabaqcıl ziyalıları, eləcə də nüfuzlu ağsaqqalları olan İsfəndiyar Sayılov, Bəhlul Kərimov, Soltan Səfərov, Kiçikxan Quliyev, Əliş



Əliyev, Ədil Məhərrəmov, həmin illər üçün rəhbər işçi sayılan Nəriman Ağayev və başqaları ilə *(yəqin ki, adlarını çəkə bilmədiyim həmyerlilərim məni bağışlayarlar — B.S.)* məsləhətləşmələr aparır, onların imkanlarından səmərəli istifadə edirdilər...

Rayonumuzda eyni vaxtda işlədiyimiz müddət ərzində Ziyad müəllimə yaxın olan şəxslərdən bir neçə nəfərlə birlikdə mənim də ilk və sonuncu dəfə şam süfrəsi arxasında olduğum bir kövrək görüşü qeyd etmək istərdim. Unudulmaz dayım, Ziyad müəllimlə çox mehriban münasibətdə olan İ.Sayılov, ya böyük oğlu Cəmilin institutu qurtarması, ya da hərbi xidmətə yola salması ilə əlaqədar öz evində qonaqlıq təşkil etmişdi, dəqiq yadımda deyil. Bu hadisə 1951-ci ilin payızında baş vermişdi. Ora Z.Məmmədovdan başqa Ş.Mehdiyev, Bakıdan MTS-ə ezamiyyətə gəlmiş, soyadını unutduğum, dayımın çox yaxın qonşuları və dostları Soltan Səfərov və Bəhlul Kərimov da dəvət olunmuşdular. Cəmillə mənim məclisdə iştirakımız çox simvolik xarakter daşıyırdı. Çünki bizim hər ikimizin əsas vəzifəmiz «ofisiant»lıqdan ibarət idi. Süfrə arxasında görünməyimiz isə ağsaqqalların, əsasən də Şəfaət və Ziyad əmilərin Cəmillə bağlı deyəcəkləri xoş arzulara qulaq asmaq üçün olurdu. Bir də axı o dövrlərdə ağsaqqallarla bizim kimi gənclər arasında, indi də milli adət-ənənələrimizə uyğun, həm də bəlkə arzu olunan sədd məsələsi də var idi. O vaxta kimi biz, təcrübəsizlikdən, yaxud təcrübəliliyimizdən asılı olmayaraq hamımız rayon rəhbərlərinə bütün şəraitlərdə «yoldaş» deyə müraciət edərdik. Həmin məclisdə dayım arabir mənə və Cəmilə «Şəfaət əminə çay gətir», «Ziyad əminə qulluq elə!» ifadələrindən sonra biz onlara bir müddət «əmi» deməyə də cəsarət edirdik.

Həmin şam qonaqlığı bazar gününə təyin olunmuşdu və bu səbəbdən də oraya toplaşan qonaqlar nisbətən sərbəstlik şəraitində 4-5 saat bir yerdə istirahət edə bildilər. Bizim əsas «xidmət» yerimiz eyvanda, otağa açılan pəncərənin qabağında ol-

duğu üçün qonaqların çox maraqlı, həm də tay-tuşların yumorla müşayət olunan söhbətləri bizim üçün çox maraqlı idi. Söhbətlərində rayonumuzun qayğılarından, özlərinin keçmişlərindən bəzi məqamlara toxunurdular. Həmin görüşdə mən ilk dəfə idi ki, Ziyad müəllimin Gəncədə AKTİ-ni bitirəndən sonra Bakıətrafı Maştağa rayonunda müxtəlif rəhbər vəzifələrdə, qəzet redaktoru işləməsini, sonradan hansısa elmi müəssisədə çalışması, məhz oradan rayonumuza İcrayə Komitəsinin sədri vəzifəsinə gəldiyini eşitdim. Mənim üçün xoş xatirəyə dönmüş və bu görüşdən təxminən bir neçə il sonra Ziyad əmi Bakıya, hələ 40-cı illərin əvvəlində özülünü qoyduğu elmi işini davam etdirməyə qayıtdı, mən isə əvvəlcə dövlət təhlükəsizlik orqanlarında xidmətə Bakıya, sonra isə Naxçıvan MR-ın Culfa şəhərinə göndərildim. Beləliklə, bizim bu qardaşlarala görüşümüzdə neçə il fasilə yarandı.

1956-cı ilin sonuna yaxın mən rayonumuzun Mincivan stansiyasındakı DTK-nın bölməsinə rəis, bu bölmə rayon bölməsi ilə birləşəndən sonra isə 1970-ci ilə kimi birləşmiş şöbələrin rəisi kimi rayon mərkəzi Zəngilan şəhərində işləməli oldum. Bu vəzifələrdə olduğum 15 il ərzində Ziyad müəllim və Atlıxan müəllimlə, demək olar ki, hər il rayonumuz ərazisində, artıq köhnə dostlar kimi görüşürdük. Çünki onlar əsasən, yay aylarında məzuniyyətlərinin bir hissəsini rayonumuzda keçirir, böyük qardaşları, hamımızın hörmət bəslədiyimiz Xanməmməd və Almas əmilərə, başqa doğmalarına baş çəkərdilər.

Yaxşı xatirimdədir, 60-cı illərdə Bakıdan, respublikanın partiya, hökumət rəhbərlərindən kənd təsərrüfatı mütəxəssislərindən gələnlərin əksəriyyəti Ziyad və Atlıxan müəllimlə maraqlanardılar. Bəzən belə hallar onların rayonda olduqları vaxta təsadüf edirdi. Belə olan təsadüflərdə rayon rəhbərliyi qonaqlarımızın bu mehriban qardaşlarla görüşlərini təşkil edərdilər. Belə görüşlərin bir neçəsində mən də, Xanməmmədovlar nəslinin çox dəyərli nümayəndəsi, bütün mənalı həyatını xalqımızın sağlamlığının qorunmasına həsr edən həkim İskəndər İskəndərov və başqa yaxınlarımız da iştirak edərdilər. Yeri gəlmişkən, qeyd edim ki, əmilərilə həmişə fəxr edən İskəndər həkim məlum hadisələr nəticəsində torpaqlarımızın işğalından sonra Bakıda məskunlaşdı. Bakı nə qədər doğma və əzəmətli olsa da, o, Zəngilansız, Məliklisiz günləri yaşamağı qəbul etmədi. Öz canından əziz tutduğu mehriban əmilərini xeyli qabaqlayaraq axirət dünyasına qovuşdu. Rayonumuzun nüfuzlu ziyalılarından olan Musa Cəfərovun təbirincə desək, İskəndərin ölümü adi ölüm deyildi, sözün əsl mənasında, o da şəhid oldu...

Ziyad və Atlıxan Məmmədov qardaşları ilə bağlı xatirələrimi davam etdirərək bir neçə məqama da toxunmaq istərdim. Zəngilandan sonra 10 ildən artıq xidmətimin Mingəçevir dövründən sonra, 1981-ci ildən Bakıya qayıtdım. Həmin vaxtdan başlayaraq yenə də rayonumuzun həmişə fəxr etdiyi qardaşlarla şəhərdə keçirilən müxtəlif tədbirlərdə mehriban görüşlərimiz olurdu. Atlıxan müəlimlə yaşadığımız evlər cəmi 50 metr məsafədə olduğu üçün onunla və sədaqətli ömür-gün yoldaşı Fizzə xanımla nisbətən tez-tez görüşlərimiz olardı. Hər dəfə də el-obamızdan, yaxın qohum və dostlarımızdan söz salardıq. Atlıxan müəllimin mənimlə söhbətlərdə arabir dayım oğlu, onunla da yaxın qohumluq münasibətində olan Cəmil haqqında zarafata salıb: «Sənin bu dayın oğlu nə vaxt bizi bağına toplayacaq, sən onu bir hərəkətə gətir görək», — deyərdi. Çox təəssüflər olsun ki, bir-birinə çox yaxın olan bu zəhmətkeş alimlər, həm Atlıxan müəllim, həm də 45 ilə yaxın mənalı həyatını N.Tusi adına ADPU-da elmi-pedaqoji fəaliyyətə həsr etmiş professor Cəmil müəllimlə bağlı söhbətlərimizi keçmiş vaxta aid edirik. Nə etmək, taleyin hamı üçün qaçılmaz olan hökmünə məhkum olan Ziyad və Atlıxan qardaşları da, digər adlarını çəkdiyim və çəkə bilmədiyim qohum və dostlarımız da dünyalarını dəyişsələr də, yeganə təsəllimiz onların nəsillərinə və mənsub olduqları ailələrə layiq övladları ilə

imkan daxilində görüşüb, onları anmaqdadır. Onların tərbiyə etdikləri, həyatda düzgün mövqe seçə bilən övladlarından bir neçəsinin adını çəkmək istərdim.

Ziyad müəllimlə bu yaxın vaxtlarda dünyasını dəyişən vəfalı Məhrizə xanımın ailəsində boya-başa çatan övladlardan — Adilə xanım Abbasovanı lap kiçik yaşlarından, anası Məhrizə xanım əlindən tutub Zəngilan orta məktəbinin 1-ci sinfinə apardığı ilk günlərdən tanıyır və bu gün onun nailiyyətləri ilə fəxr edirəm. Belə ki, Adilə xanım Bakı Dövlət Universitetini bitirəndən sonra Respublika EA-da fəaliyyətə başladı. Orada elmlər namizədi dissertasiyasını müdaiə edəndən sonra, elmi axtarışlarını davam etdirmək məqsədilə dünyada elm məbədlərindən biri sayılan Moskvaya yollandı. Burada fizika-riyaziyyat elmləri doktoru dissertasiyasını uğurla müdafiə etdi. Azərbaycan müstəqilliyini bərpa edəndən sonra, 92-ci ilin əvvəllərində Vətənə döndü. Elə həmin vaxtdan o, respublika Milli Məclisində məsul vəzifədə çalışır. Hazırda əsas şöbələrdən birinə başçılıq edir. Adilə xanım rayonumuzun ilk professor qadınıdır. O həm də dünyanın qadınlar probleminə həsr olunmuş bir neçə beynəlxalq forumunda iştirak edərək dolğun məruzələrlə çıxış edib və fəxri adlara layiq görülüb. Adı İngiltərə Beynəlxalq Bioqrafiya Mərkəzi tərəfindən XX əsrin görkəmli şəxsləri ensiklopedik kitabına daxil edilib. Bu nailiyyətlərlə hər birimiz fəxr edə bilərik.

Ailənin böyük oğlu Namiq Ziyad oğlu 1969-cu ildə Azərbaycan Tibb İnstitutunu bitirəndən sonra əvvəl ona doğma olan Zəngilanda çalışdı, indi isə Bakının böyük klinikalarından olan 5 saylı xəstəxanada aparıcı cərrahlarından biridir və şöbə müdiri vəzifəsində çalışır. Eyni zamanda elmi fəaliyyətini davam etdirir. Hazırda tibb elmləri namizədidir.

Nəhayət, sonbeşiyi Aydın Ziyad oğlu 1973-cü ildə Bakı Xalq Təsərrüfatı İnstitutunu bitirib. 1987-ci illərin əvvəlinə kimi Bakıda iqtisadiyyat və xidmət sahələrində rəhbər vəzifələrdə işləyib. Hazırda Moskva şəhərində Moskva Dövlət «Xidmət» Universitetində professordur.



Atlıxan müəllimin övladları da nəcib peşə sahibləri olmuş və öz həkimlik sənətləri ilə xalqımıza xidmət edirlər.

Atlıxan Xanməmmədov və Fizzə xanımın övladlarından — qızı Aidə xanım 1965-ci ildə Azərbaycan Tibb İnstitutuna daxil olub, 1971-ci ildə oranı fərqlənmə diplomu ilə bitirib. 1975-ci ildə institutun aspiranturasını bitirib, 1988-ci ildə Moskvada dissertasiya müdafiə edib tibb elmləri namizədi adına layiq görülüb. Məhkəmə təbabəti kafedrasının dosentidir. Respublika və beynəlxalq qadın təşkilatları sahəsində də ictimai fəaliyyətini davam etdirir.

Oğlu Mansur — Neft Kimya İnstitutunu bitirib. Mühəndisdir.

Ramiz isə orta təhsilini başa vurandan sonra Tibb İnstitutuna daxil olub. Oranı müvəffəqiyyətlə bitirərək nəcib peşəyə — həkimlik peşəsinə yiyələnib. İxtisası üzrə fəaliyyətini davam etdirir, bir neçə il Səhiyyə Nazirliyi aparatında məsul vəzifələrdə çalışıb. Hazırda paytaxtımızın poliklinikalarından birinə rəhbərlik edir.

Bəli, belə övladları olan hər bir ailə nəslin xeyirxah ənənələrinin davam etdiriləcəyinə əmin ola bilər.

Nəhayət, qeyd edim ki, respublikamızda və xüsusən də el-obamızda yaxşı tanınan, həmişə xatırlanacaq həmyerlilərimiz, gözəl insanlar Ziyad Məmmədov və Atlıxan Xanməmmədov haqqında ürək sözlərimlə yanaşı, imkan daxilində onlarla təmasda olan, xüsusilə də Ziyad müəllimin fəaliyyətinin Zəngilan dövründə həmkarlıq etdikləri, silahdaşları və ağsaqqal dostlarını da xatırlamağımı özümə borc saydım. Güman edirəm ki, həmyerli dostlarım məni əsas mövzudan kənara çıxmış hesab etməyəcəklər.

Yeri gəlmişkən, bir məqama da toxunmaq istərdim. Bilirik ki, cəmiyyət heç vaxt mənsub olduğu xalqa ləyaqətlə xidmət edən insanlardan xali olmayıb. Dünən də belə olub, bu gün də belədir və heç şübhə yox ki, gələcəkdə də belə olacaq. Ancaq

nə etmək olar ki, tək özləri üçün düşünənlərdən də, şəxsi mənafeyini güdənlərdən də, şəxsi marağı tələb etdikdə kimlərəsə yaltaqlananlar və yeri gəldikdə, mənəviyyatını alçaltmağı da özlərinə rəva bilənlərdən də cəmiyyət xali deyil. Belə adamların adlarını yaxşı insanlarla yanaşı çəkməyə də onlar layiq deyil. Çünki ən amansız hakim zamanın özüdür. Ona görə də vaxt yetişəndə zaman özü hər şneyi saf-çürük edir. Dənizdə fırtına vaxtı üzərindəki çürük çör-çöpləri qanadına alıb kənara tulladığı kimi, aramızda olan tək-tük nadürüstləri, nankorları da elə cəmiyyət özü öz sıralarından təcrid edir. Məhz elə bu baxımdan da, hər birimiz çalışmalıyıq ki, tək dünyalarını dəyişənləri yox, həm də fəaliyyətdə olan, yaşayan, yaradan, cəmiyyətimizin ağrılarını öz qayğısı hesab edənləri layiqincə qiymətləndirək. Özü də nə qədər ki, gec deyil...

Son söz əvəzi nə demək istərdim? Qəlbimizdə həmişəyaşar Ziyad və Atlıxan qardaşlarının bu il doğmaları, yaxın dostları və həmkarları yubiliyarların özlərinin iştirakı ilə anadan olmasının 90 illiyini təntənə ilə qeyd edəcəkdilər. Nə edək ki, taleyin hökmü ilə bu artıq bizim üçün əlçatmazdır, borcumuzdur ki, bu yubiley ilində mərhum qardaşlara Ulu Tanrıdan rəhmət diləyək, onların laiyqli övladlarına və digər doğmalarına isə nəslin ənənələrini layiqincə davam etdirməkdə uğurlar diləyək.

*25.07.2007-ci il*



# MƏĞRURLUQ ZİRVƏSİNDƏ ƏBƏDİYAŞAR ŞƏXSİYYƏT



*Məmməd Xələfov*

Dünyasını dəyişməsindən illər keçməsinə baxmayaraq əsl ziyalı, ləyaqəti və məğrurluğu ilə nəsillərə nümunə ola biləcək dəyərli insan, unudulmaz müəllimim və dostum professor Məmməd bəy Xələfov barədə həqiqəti gələcək nəsillərə çatdırmaq belə bir bir müqəddəs şəxsin ruhuna hörmət, həm də böyük savab işdir.

Bu baxımdan, bu nadir şəxsiyyət — Məmməd bəy haqqında çox dəyərli əsər yazmış görkəmli alim Telman Əliyevə çoxsaylı Məmmədsevərlər adından dərin minnətdarlığımı, hüquqşünas həmkarım, cəsarətli jurnalist Əyyub Kərimov başda olmaqla, «Femida»nın yaradıcı heyətinə, M.Xələfov barədə kitabı və xatirələr silsiləsini çap etmək kimi nəcib işlərinə görə səmimi təşəkkürümü bildirirəm.

Professor M.Xələfovla ilk tanışlığım 1956-cı ilə təsadüf edir. M.Xələfov BDU-nun hüquq fakültəsinin qəbul komissiyasının məsul katibi idi. Qəbul imtahanlarından sonra bütün abituriyentlər kimi məni də «keçid balları» maraqlandırırdı. İki fənndən «beş», birindən «dörd» və ən acınacaqlısı da o idi ki, ən çox çalışdığım tarix fənnindən (bu, əsas fənn idi) «üç» qiymət almağım məni narahat edirdi. Başqa abitu-

riyentlərdən fərqli olaraq, mən 1942-ci ildə orta məktəbi yarımçıq qoyaraq işləməyə başlamış, 1943-cü ildə müharibəyə getmişdim. Orta məktəbi yalnız 1949-cu ildə, 24 yaşımda bitirmişdim. BDU-nun tarix fakültəsinin fəlsəfə bölməsinə daxil oldum, lakin son dərəcə ağır ailə vəziyyətim təhsilimi davam etdirməyə imkan vermədi. Beləcə illər keçdi...

Səhər saat 9-da Məmməd müəllimin qəbuluna gəldim. Dedilər ki, içəridə qəbul imtahanlarının nəticələri yekunlaşdırılır. Üç nəfər onu gözləyirdik. Məsul katib hər üçümüzü birlikdə içəri dəvət etdi. Məmməd müəllim məni çox diqqətlə dinlədi, qovluqlardan birini qaldırıb siyahıya baxdı. Qovluğu təmkinlə bağlayıb yerinə qoydu. Bildirdi ki, hələ yekun vurulmayıb, ancaq həyəcanlanmağınıza ehtiyac yoxdur. Bir neçə gün sonra rektor akademik Y.Məmmədəliyevin tələbə qəbulunun nəticələri haqda əmrində adımı görəndə bu peyğəmbər baxışlı insanın təmkinlə mənə dediyi, «həyəcanlanmağınıza ehtiyac yoxdur» sözlərini xatırladım.

Bizim qrupda mülki hüquq dərslərini Məmməd müəllim aparırdı. Mühazirə və seminar məşğələlərində onun son dərəcə ciddi, tələbkar, zəhmli olması, açığını deyim, bizim məsuliyyətimizi artırırdı.

Zaman keçdikcə Məmməd müəllimin yüksək insani keyfiyyətləri, zəngin daxili aləmi, son dərəcə obyektivliyi və ədalətliliyi diqqətimizi çəkirdi. Mühazirələrini nəfəs dərmədən dinləməkdən zövq alırdıq. İmtahana ciddi hazırlaşmağıma baxmayaraq, mülki hüququn ümumi hissəsindən «qeyri-kafi» qiymət aldım. Məmməd müəllim özünəxas olan təmkinlə bildirdi ki, səthi biliklə qiymət almağa cəhd etmə. İmtahandan sonra bizimlə paralel əyani şöbədə Lenin təqaüdçüsü, dostum, uzun illər prokurorluq orqanlarında rəhbər vəzifələrdə işləmiş Sayılxan İsgəndərova vəziyyəti danışdım. O, bildirdi ki, Məmməd müəllim heç vaxt biləni kəsməz, bilməyənə də qiymət verməz.





*M. Xələfov fakültə kollektivi arasında*



*M. Xələfov dostları arasında (soldan: Hidayət Mirzəzadə, Məmməd Xələfov, İrşad Hacıyev, Tofiq Bağırov)*

Növbəti imtahan sessiyası ərəfəsində, göndərişlə imtahana gəldim. Çox ciddi hazırlaşmışdım. Məmməd müəllim cavablarımdan razı qaldı, «yaxşı» yazdı. Özümdə cəsarət tapıb, mülki hüququn xüsusi hissəsindən verəcəyim növbəti imtahana daha ciddi hazırlaşdım. Bilet çəkib oturdum. Bir qədər sonra Məmməd müəllim «hansınız gəlirsiniz», — deyə soruşdu. Mən də əlimi qaldırdım. O, məni yox, Zirəddin Hacıyevi dəvət etdi. Zirəddin yaxşı oxuyan tələbələrimizdən olsa da, sualların birinin cavabında ilişdi. Gözləmədiyim halda, Məmməd müəllim həmin sualı məndən soruşdu. Cavab verdim, razı qaldı. Biletimə cavab verəndə 1-ci sualın cavabından sonra, 3-cü süalın cavabını söyləməyi təklif etdi və onu da axıra qədər danışmağa qoymayıb «əla» yazdı. Böyük hüquqşünas alim və görkəmli pedaqoqun mənə yazdığı bu əla qiymət sonrakı fəaliyyətimdə dönüş nöqtəsi oldu.

1962-ci ildə dövlət imtahanı qurtaran kimi komissiyanın sədri, o vaxt Azərbaycan SSR Nazirlər Soveti hüquq şöbəsinin müdiri M.Həsənov Moskvaya uzunmüddətli ezamiyyətə getdiyi üçün diplomu ancaq ilin axırına yaxın ala bildik. Buna görə də Bakıya gələndə dekanımız Məmməd müəllimlə görüşə getdim. Dissertant kimi mövzu üzərində işləmək barədə fikrimlə maraqlandı. Sual mənim üçün gözlənilməz olduğundan bir qədər tərəddüdlə DTK rəhbərliyinin belə işlərə mənfi münasibətini bildirdim. Zaman keçdikcə məsələlərə rəhbər işçilərin münasibətinin də dəyişməsi mümkünlüyünü dedi və gələcəkdə əgər onun dediyi təklifin üzərinə qayıtmalı olsam, müraciət etməyimi tapşırdı. Elə oradaca katibəni dəvət etdi və dedi ki, nə qədər bizim qrupun sənədləri arxivə verilməyib, fənlər üzrə qiymət cədvəlimi tərtib etsin. Həmin cədvəl aspirant və dissertantların təqdim edəcəyi sənədlərə əlavə olunur. Söhbətimizin sonunda qiymət cədvəlini imzalayıb mənə verdi və bu barədə fikirləşməyimi məsləhət gördü.

Həmin görüşdən təxminən 5-6 ay sonra DTK-nın sədri general Kardaşovun qəbulunda olarkən mənə olunan təklif barədə məruzə etdim. O, xasiyyətcə mülayim olsa da, bu məsələ barədə cavabı çox qısa oldu: «Bizim orqanda işləyənlər dövlətin təhlükəsizliyi barədə fikirləşməlidirlər, elmi iş yazmaq barədə yox». Bu məsələyə sonuncu nöqtə buradaca qoyuldu, Məmməd müəllimin imzalayıb mənə verdiyi qiymət cədvəlini isə bu günə kimi şəxsi arxivimdə əziz xatirə kimi saxlayıram.

M.Xələfovun bütün professor-müəllim dostları, onun hərtərəfli yüksək insani keyfiyyətlərinə və dərin elmi biliyinə bələd olan pərəstişkarları, onun doktorluq dissertasiyasının müdafiəsi gününü səbirsizliklə gözləyirdilər. Nəhayət, 1974-cü il aprelin əvvəllərində sədaqətli dostum Məmmədxan Rəsulov telefonla M.Xələfovun doktorluq dissertasiyası müdafiəsinin Tbilisidə olacağını dedi. Müdafiə aprelin 29-na təyin olunmuşdu. Məmmədxan müəllim bunu mənə xəbər verərkən qanım qaraldı. Çünki DTK hər il inqilabi bayramlar sayılan 28 Aprel və «Bir May» ərəfəsində, təhlükəsizlik tədbirləri planına uyğun aprelin 25-dən mayın 5-nə kimi «kazarma vəziyyəti» adlanan ciddi iş rejiminə keçirdi. Bunu Məmmədxan müəllim bilirdi. Ona görə də mənə — Tbilisiyə gedəcək BDU alimləri və başqa qonaqlar üçün, oradakı «İveriya» mehmanxanasında ən azı 8 yer bronlamağı tapşırdı. Mənim vaxtilə Tbilisidə işləməyimi xatırladaraq, gürcülərin hansı balığı daha çox sevdiklərini soruşdu. «Naqqa balığı» deməyimi zarafat sayaraq, ürəkdən güldü. Sözümü təkrar edəndə dedi ki, Məmməd müəllimə bildirməmək şərtilə həmin balıqdan bir qədər hazırla, mən Tbilisiyə gedərkən onu götürəcəyəm.

1974-cü il may ayının ortaları idi. Məmməd müəllimi təbrik etmək üçün fakültəyə gəldim. Yenə də Məmmədxan müəllimlə birlikdə sevimli dekanımızın iş otağına gəldik. Təbrikimdən çox xoşhal olduğunu bildirdi. Tbilisiyə gedə bilmədiyim üçün ondan üzr istəyəndə o, özünəxas ləyaqətlə, meh-

manxana və balıq məsələlərini nəzərdə tutaraq, məni həmin tədbirin fəal iştirakçılarından saydığını dedi. Xoş ovqatla tamamlanan həmin görüşümüzün sonunda təklif etdi ki, Bakıya növbəti gəlişimin birində istirahət gününü şəhərdə olum və onun bağında görüşüb söhbət edək.

Professor Məmməd Xələfovun daxili zənginliyi, əyilməzliyi, mənəvi paklığı onun xarici görünüşü və davranışında tam açıqlığı ilə görünürdü. Onun dost dediyi adamlar da özünə layiq idilər. İstər haqqında yazılan «Haqqa qovuşan insan»da, istərsə də sədaqətli ömür-gün yoldaşı Çimnaz xanımın «Məni yaşadan xatirəndir» yazısında, görkəmli dövlət xadimləri, alimlər, hüquqşünasların yazdıqları xatirələrdə adları sadalanan dostlarının, demək olar ki, hamısını tanıyıram və əksəriyyətilə dostluq münasibətindəyəm. Əsərin müəllifi, görkəmli alim Telman Əliyevi (ona həm də məmmədşünas alim-tədqiqatçı deyərdim) tanımadığıma təəssüflənirəm.

Dostlarımız arasında Məmməd müəllim xatırlananda bu nadir şəxsiyyətin yoxluğuna hamımız eyni dərəcədə göynəyirik. Çünki sağlığında onunla az-çox ünsiyyətdə olanlar onun tam kamil insan kimi tanıyırdılar.

Övladlarım əsasən, texniki institutlarda, biri isə tarix fakültəsində təhsil alırdılar. Sonbeşiyim Hikmət isə hüquqşünaslığa həvəs göstərdiyindən 7-ci sinifdən başlayaraq ciddi hazırlaşırdı. O, orta məktəbi bitirdiyi 1978-ci ildə, bəzi neqativ halları aradan qaldırmaq məqsədilə bu fakültəyə qəbula məhdudiyyətlər qoyuldu. Bu barədə Məmməd müəllimlə məsləhətləşməli oldum. O, mənimlə təmasda olduğu müddət ərzində ilk dəfə gördüm ki, çətinlik qarşısında qaldı. Amma çox uzaqgörənliklə həmin məhdudiyyətin müvəqqəti olacağını bildirdi. Allah sənə rəhmət eləsin, uzaqgörən Məmməd müəllim! Məsələ onun dediyi kimi oldu, 1982-ci ildə həmin məsələyə aydınlıq gətirildi. Oğlum Hikmətin arzusu gözündə qalmadı...



1990-cı ilin parlament seçkisində professor M.Xələfov qələbə çaldı, Ali Sovetin daimi komissiyasının — Hüquq komissiyasının rəhbəri oldu, yorulmaz və prinsipial fəaliyyət göstərdi.

Dünyasını dəyişənlərin yenidən həyata qayıtması möcüzəsi heç vaxt baş verməyib və bundan sonra da olmayacaqdır. Ancaq Məmməd bəy Xələfov kimi bənzərsiz insanlar əbədi yaşmalıdır və yeni nəsillər üçün nümunə olmalıdır. Bu xatirə ona xidmət üçün yazılmışdır!

***20.03.1999-cu il***

# TORPAQ BOYDA DƏRDLƏ NİGARAN DÜNYASINI DƏYİŞƏN ALİM



*Qulu Xəlilov*

Vətən və torpaq təəssübü qanına hopmuş, tanınmış tənqidçi, yazıçı, alim Qulu Xəlilli yaşasaydı, əsrin sonuncu ilinin noyabrında ömrünün 70-ci baharını doğmaları və dostları ilə qeyd edəcəkdi. Təəssüf, çox təəssüf ki, uzun sürən ağır xəstəlik pəhləvan cüssəli, son dərəcə dözümlü bu insanı təlatümlər dolu ömrünün 65-ci baharının tamam olmasına cəmi 4 gün qalmış axirət dünyasına qovuşdurdu. Həmin ağır gündən artıq beş il keçir. Uzun illərdən bəri fəal oxucusu olduğum Qulu müəllim barədə qələmə alacağım bu xatirəyə belə başlıq seçməyim və «torpaq» ifadəsi ilə başlamağım heç də təsadüfi deyil. Desəm ki, torpaq təəssübü, torpaq qeyrəti Qulu müəllimin bütün yaradıcılığının baş mövzusu, həyatının başlıca mənası olub, yəqin ki, səhv etmərəm. Mənim bu fikrimi Qulu müəllimin bütün yaxınları, qələm dostları, həmkarları və çoxsaylı tələbələrinin də bölüşməsinə zərrə qədər şübhəm yoxdur. Onun qəlbində əbədi kök salmış bu hisslər barədə bir neçə misalla bir qədər sonra. Onun istər alim, istərsə də yazıçı və cəsarətli tənqidçi kimi fəaliyyətini təhlil etmək, qiymətləndirmək fikrində də deyiləm. Çünki bu iş mənim yox, yazıçıların, filoloq alimlərin və peşəkar juranlistlərin, tənqidçilərin işidir. Mənə gəldikdə isə Qulu müəllimin ömrünün son on iki ilini onunla yaxın təmasda olduğu üçün xarakterinin məziyyətləri barədə, həm də çoxysalı kitablarının bəziləri barədə oxucu rəyi söyləməyə ixtiyarlıyam...



Qulu Xəlillinin yaradıcılığı və keçirdiyi həyat tərzinin bəzi məqamları ilə tanışlığım onun ilk samballı kitabı, özünün də şah əsəri saydığı, 60 -cı illərin əvvəllərində doğma Zəngilanımda xidmətdə olduğum vaxt oxuduğum «Yaşamaq istəyirəm» povesti ilə başlandı.

Qulu müəllim bu kitabda həyatının ən iztirablı, düçar olduğu üzücü xəstəliklə necə çarpışması, onun fəsadlarına mərdliklə sinə gərməsi, ölümün pəncəsindən xilas edən həkimlərin peşələrinə sadiqliyini çox yüksək peşəkarlıqla qələmə almışdı. Məhz, bu səbəbdən də povestin işıq üzü gördüyü ilk gündən bu kitab əldən-ələ gəzirdi.

Kitabın çox geniş oxucu kütləsinin diqqətini cəlb etməsinin əsas səbəbi onun oxunaqlığı, səmimiliyi, dil sadəliyi, hadisələrin bədii dildə yazılması və nəhayət, povestin qəhrəmanı olan müəllifin dəyanəti, cəsarəti idi. Qulu müəllim bu əsəri ilə nəinki xəstəliyə düçar olanları, həm də sağlam insanları yaşamaq uğrunda mübarizəyə səsləyirdi. Bu gün cəsarətlə deyə bilərik ki, Qulu müəllimin insanlara belə müraciət etməyə tam ixtiyarı vardı. Çünki o, yaşadığı 65 ilin qırx beşini əziyyətlə də olsa, yaşadı\, həm də sadəcə gün keçirməklə yox, xalqına, millətinə namusla xidmət edərək yaza-yaza, yarada-yarada, ləyaqətlə yaşadı.

Qulu müəllimlə görüşmək və şəxsi təmasda olmaq mənə nəsib oldu. Bu görüşlərimiz isə oğlum Azərlə Qulu müəllimin qızı Almaz xanımın ailə qurmaq arzuları ilə əlaqədar adətənənələrimizə uyğun görüşlər idi. Bu məsələ ilə bağlı ikinci görüşümüz onun evində, xalq yazıçısı Əli Vəliyevin iştirakı və xeyir-duası ilə oldu. Həmin vaxtdan başlanan görüşlərimiz və söhbətlərimiz məndə onun barəsində əsl zəhmətsevər, dərin zəkalı, açıq fikirli, həm də çox ciddi, çılğın, ədalətsizliyə döz-

məyən bir şəxsiyyət obrazı yaratdı. Qulu müəllimlə hər görüşümüzdə onun çöhrə və baxışlarında daxili aləmindəki narahatlıq, təlatümlü anların, səhhəti ilə bağlı keçirdiyi dəhşətli çarpışmaların cizgiləri duyulurdu. Həm də çox nikbin, həyata ümidsizlikdən çox uzaq görünürdü.

Qulu müəllimin həm mənən, həm də cismani torpağa bağlılığını xüsusilə qeyd etmək istərdim. Buna bir daha əmin olmaq üçün onun kitabları, publisistik yazıları və çıxışları ilə tanış olmaq kifayətdir. Çünki bu hisslər Qulu Xəlillinin bütün yaradıcılığından qırmızı xətlə keçir.

Kitablarına, 1980-90-cı illərdə çap etdirdiyi publisistik və digər tənqidi yazılarına verdiyi adlara bir diqqət yetirin: «Torpağın ə\tri» (1984), «Torpağın göz yaşı» (1989), «Hər şeydən keçilər, Vətən keçilməz» (1995), «Azərbaycan təbiəti» jurnalının sorğusuna cavab» (1975), «Kişilikdən deyil» (1991), «Qarabağın qara günləri» (1992), «Qurban olum xalqıma» (1992), «Suyumuz bir, çörəyimiz bir» (1990), «Gəlin açıq danışaq» (1982) və s...

Bu kitab və məqalələri oxuyanda oxucu sanki Qulu müəllim ilə üz-üzə oturur və toxunduğu ağrılı-acılı problemlər barədə fikirlərini bölüşür, düşünür və çıxış yolu axtarır. Qarabağın qara günləri başlayandan sonra biz hamımız erməni fitnəkarlığına qarşı etiraz səslərimizi qaldırır, bu arxalı köpəklərə dayaq duran imperiya cəlladlarına nifrət hissləri bildirirdik. Amma Qulu müəllimin bu barədə yazdıqları «sapı özümüzdən olan baltalar»a qarşı tutarlı çıxışları ilə müqayisədə bizim dediklərimiz çox zəif səslənir. Hələ Topxana meşəsi qırılarkən o, səsini ilk çıxaran ziyalılardan idi. «Kommunist» qəzetində gedən yazısından və xalq qarşısında həyəcanlı çıxışından sonra ürəyi sakitləşmək bilmirdi. Sanki həyəcan təbili çalmaq üçün daha yüksək tribuna, daha geniş meydan axtarırdı!

Qulu müəllimin sakitləşmək bilməyən həyəcanlarını dərk



etmək çətin deyil. Çünki əsrin əvvəllərində qədim torpaqlarımız, o cümlədən, Zəngəzur Ermənistana «hədiyyə» ediləndən sonra, əsrin sonunda Qarabağın dilbər guşəsi üzərində qara buludlar görünəndə onun dərdinin üzərinə dərd gəldiyini dərindən hiss edirdi, sanki köhnə yarası yenidən qövr edirdi.

Təkrar da olsa qeyd edim ki, Qulu müəllimin mənən torpağa bağlılığı kimi də fiziki bağlılığı var idi. 60-cı illərin ortalarından Bakının Şağan kəndi yaxınlığındakı bağ sahəsində olarkən bütün ağrı-acılarını, qayğılarını unudardı. Onun ürəyindən keçirdi ki, ucsuz-bucaqsız dünyamızın bütün bölgələrində mövcud olan meyvə və bəzək ağaclarının hamısından onun bağında olsun. Əkdiyi ağaclara qulluq etməkdən doymurdu. Sanki o, özünün və anası Tavad xalanın dünyaya gəldiyi Sisyanın Qızılcıq kəndinin, uşaqlıq və gənclik illərini keçirdiyi Ağcabədi torpağının ətrini həmin bağ sahəsindən alırdı. Yaxşı yadımdadır.

1989-cu ilin payızında Qulu müəllim məni və oğlum Azəri bağına dəvət etmişdi. Biz bağa çatanda həyat yoldaşı Gözəl xanım, qızı Rəna və oğlu Azərlə birlikdə bizi gözləyirdilər. Nahar süfrəsi hazır olana qədər məni bağda gəzdirərək əkib-becərdiyi ağaclar barədə məlumatlandırır, arabir səsini qaldıraraq suvarma vaxtı ötən ağacların quruma təhlükəsinə görə oğlu Azəri danlayırdı. O isə iradları qəbul etməsini bildirərək rus dilində «Papa uçtem» ifadəsini də işlətdi. Bu ifadənin nəyə yönəldiyini təxmin etdim, amma üstünü vurmadın. Biz hər ikimiz həyətdə qoyulmuş çay süfrəsi arxasında söhbətləşirdik, Azərlər isə yaxınlıqdakı manqalın yanında yenə də rusca danışırdılar, Qulu müəllim özünü saxlaya bilməyib: — Ə, burda rus var ki, rus dilində qırıldadırsınız? — dedi. Oğlu Azər isə, — «Papa mı sovremennıe intelliqentı, doljnı vse umetğ», — cavabını verdi. Qulu müəllim çöhrəsində özünəxas ciddiliyi saxlamağa cəhd etsə də, ürəkdən gülməyə hazırlaşdığı hiss olunurdu. Mənə baxaraq: — Öz aramızdı, sənin oğ-

lunda \da az yoxdu ha! Elə ki, bizim Azərlə birləşdilər, hoqqabazlıq edirlər! — dedi. Mən işin nə yerdə olduğunu bir daha dərk etdim. Bu anda Azərlər hazırladıqları yeməyi süfrəyə gətirdilər. Qulu müəllim mənim oğluma baxaraq: — Nə olub sizə, nə vaxtdan rusdilli olmusunuz?, — dedi. Azər isə: — Zdes niçeqo ploxoqo, vse normalno, — deməsi ilə bizim ürəkdən, gözlərimiz yaşarana kimi gülməyimiz başlandı. Azərlər isə sanki heç nə baş verməyib kimi, çox sərbəst, guya, ciddi və öz hərəkətlərindən razı kimi daxilən gülür, məqsədlərinə nail olmuşlar kimi, görünürdülər. Qeyd etməliyəm ki, Qulu müəllimin bütün tapşırıqları və tövsiyələri oğlu tərəfindən çox ciddi qəbul olunurdu və ləyaqətlə icra olunurdu. Ancaq elə vaxtlar olurdu ki, Azər atasının əsəb gərginliyi keçirdiyi məqamları bir qədər yumşatlmağa nail olurdu. Belə məsələlərdə yeznə-qayın Azərlər səylərini birləşdirəndə daha yaxşı və təbii alınırdı. Qulu müəllim də bu iki Azərin səmimi dostluq etmələrindən xüsusi zövq alırdı. Yuxarıda qeyd etdiyim kimi, Azərlərin arabir rus dilində danışmaları Qulu müəllimdə növbəti xoş ovqat yaratmaq, bir qədər kefini açmaq və onu tükənmək bilməyən qayğılarından ayırmaq məqsədi güdürdü. Onların «ssenariləri» də çox təbii alındı...

Qulu müəllimin bir tənqidçi kimi fəaliyyətinə yaxından bələd olan bir oxucu kimi də münasibətimi bildirmək istərdim. İlk növbədə qeyd etmək lazımdır ki, Azərbaycanın ədəbi-tənqidi irsi tarixinin bütün dövrlərində tənqidçilərimiz olub və hər birinin də özünəməxsus fəaliyyəti, tənqid hədəfi və üslubu olub. Qulu müəllim isə özünü süni surətdə heç kəsə bənzətməyən və çox cəsarətli tənqidçilərdəndir. Onun öz tənqidçilik fəaliyyətinə həsr etdiyi və 1986-cı ildə çap etdirdiyi «Tənqidçilik çətin peşədir» monoqrafiyası çox sanballı tədqiqat əsəridir. 14 yanvar 1987-ci ildə öz avtoqrafı ilə mənə bağışladığı bu kitab demək olar ki, mənim ən çox vərəqlədiyim kitablardandır. Marağıma səbəb olan odur ki, bu kitabda o, xalqımızın poeziya, nəsr tarixinə, elmin başqa sahələrinə əbədi həkk olunmuş korifeyləri, o cümlədən, S\.Rəhimov, S.Vurğun, Y.Məmmədəliyev, M.İbrahimov, M.Arif, R.Rza, M.Rahim, Ə.Rahim, Ə.Vəliyev, M.Cəfərov, İ.Şıxlı, C.Xəndan, M.Paşayev, B.Nəbiyev, X.R.Ulutürk və bir çox görkəmli şəxslərlə birgə işləməsi, həmkarlıq və bəziləri ilə dostluq etməsidir. Bu barədə çox səmimiyyətlə qələmə aldığı kövrək xatirələrini oxuyanda Qulu müəllimin yaxınları, dostları, qədirbilən çoxsaylı tələbələri qürur hissi keçirir və ona ən yaxşı mənada qibtə edir. Müəllifin həmin yazıları ilə tanış olanda, hələ tələbəlik illərindən cəlb olunduğu ictimai fəaliyyəti dövründə əyilməz tənqidçiliyinə, hazırcavablığına, cəsarətinə və başqa müsbət keyfiyyətlərinə heyran olmamaq mümkün olmur. Mənim də bir oxucu kimi ən çox marağıma səbəb olan onun hələ tələbəlik illərində respublikanın çox nüfuzlu alimləri ilə görüş və mübahisələri, bəzilərinin ünvanına cəsarətli tənqidi çıxışları, onların diqqətini özünə cəlb etməsidir. Onlardan bir neçəsini yada salmaq istərdim.

Kitabda «Onun yeri görünür» başlığı ilə verdiyi yazısını əllinci illərdə Yazıçılar İttifaqının katibi M.Hüseynə həsr edir. Qeyd edir ki, hələ Azərbaycan Dövlət Universitetinin IV kurs tələbəsi olduğu vaxt Azərbaycan Yazıçılar İttifaqı tərəfindən Naxçıvanda keçirilən «Gənclər günü»ndə bir neçə gənc şair barədə fikir söyləmək Qulu Xəlilliyə tapışırılır. Çıxış o qədər kəskin olur ki, tənqid olunan müəlliflərin hamısı ondan şikayət edirlər. Əgər Ə.Vəliyevlə M.Hüseyn onu müdafiə etməsəymişlər, bu çıxış gənc Qulu üçün baha başa gələrmiş. Həmin cəsarətli çıxışdan sonra S.Vurğun, M.İbrahimov, M.Hüseyn və Ə.Vəliyev onu çağırıb Yazıçılar İttifaqına qəbul edəcəklərini bildiriblər. Sonradan iş elə gətirir ki, 1954-cü ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirir və «Ədəbiyyat və incəsənət» qəzetinə təyinat alır. İşi ilə əlaqədar M.Hüseynlə tez-tez görüşməli olur... Bir gün sto-

lun üstündə imzasız bir yazı görür. Oxuyandan sonra «Məqalə zəif olduğu üçün çapa gedə bilməz» dərkənarı yazaraq arxivə verir.

Bir müddət keçəndən sonra M.Hüseyn ədəbi işçi Qulunu həmin yazı ilə yanına çağıraraq çox ciddi halda soruşur:

— Qulu Xəlilov, məqaləmi nə üçün çap etməmisən?

O isə deyir:

— Mehdi müəllim, o yazınız zəif idi.

Mehdi müəllim dərkənarı bir də oxuyandan sonra:

— Yoldaş ədəbi işçi, nə cəsarətlə bu sözləri yazmısan? Məqaləni arxivdən birbaşa mətbəəyə yolla, — göstərişini verir. Sonra bu göstəriş icra olunur. Bu əhvalatdan çox keçməmiş Qulu Xəlilliinin səhhəti ağırlaşır. Mehdi müəllim respublikanın ən nüfuzlu həkimlərinə onu müalicə etmələrini xahiş edir. Həkimlər isə onu Moskvaya göndərməyi təklif edirlər. Bunün üçün də Mehdi müəllim əlindən əgələni edir. Moskva xəstəxanasında müalicə olunduğu vaxtda da onu diqqətində saxlayır. Nə yaxşı ki, dünya alicənab, kin-küdurət bilməyən, ədalətli, tənqidi qəbul etməyi bacaran, bax, elə Mehdi müəllim kimi kişilərdən xali deyil. Təsəvvür edək ki, Qulu müəllimin M.Hüseynin «zəif yazısı»na verdiyi qiyməti indiki gənc ədəbi işçilərdən biri özündən çox-çox nüfuzlu məşhur yazıçının məqaləsinə verə...

Hələ bu harasıdır. Gör sonralar gənc Qulu daha kimlərlə «güləşməli» olur. 1957-ci ildə yazıçıların portret-oçerklərini buraxmaq üçün kitab hazırlanarkən Qulu müəllim Əbülhəsəndən yazmaq fikrinə düşür. Məsələdən xəbər tutan M.Hüseyn bir neçə yazıçının yanında bu barədə yazmağı öz üzərinə götürmək arzusunu bildirir. Əbülhəsənin «nə üçün» sualına o, yarızarafat Qulunun nöqsanları deməkdən çəkinmədiyini söyləyir. Sonralar M.Hüseynin «Qara daşlar» romanı, «Cavanşir» pyesi barəsində Qulu müəllimin kəskin tənqidi çıxışları ilə əlaqədar aralarında qarşıdurmaya bənzər



münasibətlər yaranır. Lakin bütün bunlar Mehdi müəllimin Quluya olan münasibətinə pis təsir göstərmir. Əksinə, bütün bu hadisələrdən sonra o, Qulu müəllimə bağışladığı «Ürək» kitabına «Prinsipial və dotələb tənqidçi dostum» avtoqrafı yazır və ömrünün sonuna kimi dostluqları davam edir.

Yenə həmin kitabda «Arif müəllim» başlığı ilə verdiyi yazı da çox maraqlıdır. Bu yazı görkəmli alim-tənqidçi, həmin illər Azərbaycan elmi ictimaiyyətinə tənqidimizin «Vicdan səsi» kimi tanınan akademik Məmməd Arif Dadaşzadəyə həsr olunub. Qulu müəllim xatirəsində Arif müəllimlə xidməti təmasda olması, onun alicənablığı, qayğıkeşliyi və digər insani keyfiyyətləri ilə yanaşı, həm də onun son dərəcə tələbkarlığını qələmə alır. Eyni zamanda, Qulu müəllimin gənc ədəbi işçi kimi özünün də çevik, fərasətli, cəsarətli və xarakterinin çoxlarının müyəssər ola bilmədiyi məziyyətləri ilə tanış oluruq.

Qulu müəllim Azərbaycan Dövlət Universitetində oxuyarkən tələbə elmi cəmiyyətinin sədri, divar qəzetinin redaktoru, fakültə komsomol bürosunun üzvü kimi ictimai işlərdə fəal olub. Ona görə də partiya sıralarına qəbul olunur.

1956-cı ildə «Ədəbiyyat və İncəsənət» qəzetində onun «Ədəbi tənqidimizə aid qeydlər» məqaləsi çap olunur. Bu yazıda o, bir çox görkəmli yazıçı və alimləri adbaad kəskin tənqid etdikdən sonra Nizami adına Ədəbiyyat və Dil İnstitutunun direktoru işləyən Arif müəllimlə rastlaşır. Qulu dinməmiş o deyir:

— Məqaləni oxudum. Yaxşı yazmısan, yaxşı da demisən.

Qulu müəllimin tutulduğunu və yazıçılar ittifaqında ona hədə-qorxu gəlindiyini dinləyərək, Arif müəllim əlavə edir:

— Tənqid belədir də. Hamı ondan danışır, amma heç kəs xoşlamır. Müdafiə edərsən, gələrsən Nizami institutuna, səni işə götürərəm!

Belə də olur. Dissertasyiasını müdafiə edəndən sonra Arif müəllim Qulunu institutun nəzəriyyə şöbəsinə elmi işçi

götürür. Çox keçmədən baş elmi işçi vəzifəsinə keçirmək üçün Azərbaycan Elmlər Akademiyasının prezidenti, akademik Yusif Məmmədəliyevin qəbuluna aparır. Bu nəcib, mehriban insanın «neçə il iş stajın var?» sualına, 30 yaşlı Qulu «26 il» cavabını verir. Hamıda təəccüb doğuran cavabdan sonra Y.Məmmədəliyev dəqiqləşdirmək üçün təkrar soruşur:

— Bu, necə ola bilər? Neçə yaşın var?

Bu vəziyyətdən də Qulu cəsarətlə çıxır. Akademikin bu sualı nəyə görə verdiyini, yəni, elmi fəaliyyətini, yaxud əmək kitabçasına yazılmış iş satjını soruşduğunu bilsə də, cəsarətli gənc alim çəkinmədən deyir:

— Otuz. ...Yusif müəllim, təəccüb etməyin, kənd uşağı 4-5 yaşından əməyə alışır. 26 ildir ki, mən işləyirəm.

Daha heç nə soruşmadan onu baş elmi işçi keçirirlər. Başqa cür ola da bilməzdi. Ən azı ona görə ki, Qulunu bu vəzifəyə keçirməyi təklif edən Arif müəllim kimi bir alim və alicənab şəxs idi. Ən əsası da o idi ki, müvafiq təklif dünya şöhrətli alim, çox alicənab, qayğıkeş, əsl ziyalı, mənim də hüquq fakültəsində təhsil aldığım vaxt üniversitetin rektoru işləyərkən ilk dəfə qəbulunda olduğum, həssaslığını, böyük ürək sahibi olmasını ömrüm boyu unuda bilməyəcəyim böyük şəxsiyyət Y.Məmmədəliyevin yanında müzakirə olunurdu. Qulu müəllimin təbirincə desək, onun üçün elm məbədgahı olan bu institut və Arif müəllim ilə birgə işləmək Qulu Xəlillinin gələcək elmi və həyati talyeini həll edən əsas amilə çevrilir.

Qulu Xəlillinin «Tənqidçilik çətin peşədir» və başqa kitablarında həm özü barədə, həm də dünyaşöhrətli elm korifeyləri ilə görüşləri və əməkdaşlığı barədə və yaxud dediyim kimi kövrək, qibtə etməli xatirələrindən çoxlu faktlar göstərmək olar. Mən bunların hamısı barədə yazıb, oxucunu yormaq istəməzdim. Qulu müəllim özü də görkəmli şəxslərlə əlaqələri ilə uzun-uzadı söz salıb öyünməyi sevməzdi. Lakin onun unudulmaz xalq şairi, Azərbaycan poeziyasının iftixarı Səməd



Vurğunla bağlı xatirələrindən çox göynərtili faktı yazmasam, bu yazımı bitməmiş sayardım.

Qulu müəllim Azərbaycan Dövlət Universitetinin son kursunda oxuduğu vaxt Azərbaycan Yazıçılar İttifaqında şeirimiz barədə məruzə ona tapşırılmışdı. Onun çıxış və məruzələrinin tənqidi ruhuna həmişə hörmətlə yanaşan Səməd Vurğun onun bu dəfəki məruzəsininin mətnindən xəbər tutduğu üçün iclas başlanmamış Qulunu yanına çağırır və mərhum şairimiz Z.Xəlili çox kəskin tənqid etməməyi təklif edir. Çünki məruzədə sonuncunun bir neçə şeiri ciddi tənqid olunurdu. Söz yox ki, Səməd Vurğunun belə bir təklifi onun üçün o qədər ürəkaçan olmur. Bir qədər tutulur və heç bir söz demədən gedir. Hesab etmək olardı ki, Səməd Vurğun kimi böyük nüfuz sahibinin təklifi şəksiz icra olunacaq. Sən demə, bu təklifi büruzə vermədiyi daxili tərəddüdlə qarşılayan Qulu dediyindən dönməmək üçün çıxış yolu axtarırmış və bu yolu tezcə tapır. Beləliklə, məruzə üçün söz ona verilən kimi tribunadan deyir:

— Mən xahiş edirəm ki, deyəcəyim fikirlərin bəziləri hörmətli sənətkarların xoşuna gəlməsə, məni bağışlasınlar, çünki mən fikr\irlərimi elə qurmuşam ki, onları yumşatlmaq mümkün deyil.

Belə bir «özünü sığortalama» girişdən sonra keçir əsl məqsədə. Məruzənin gedişində Qulu müəllim dahi şairimiz Səməd Vurğunu gözaltı süzür və onun məruzəçiyə nəzər salıb mehribancasına gülümsəməsini görəndən sonra daha da cəsarətlə çıxışını davam etdirir. Həmin məruzədə Z.Xəlilin və başqalarının tənqidi ilə yanaşı, o zamanlar yüksək tribunadan təriflənməsi qeyri-rəsmi də olsa yasaq olunan Əliağa Vahidə də geniş yer verildiyindən, iclas iştirakçılarının bəziləri tərəfindən Qulu Xəlilliyə qarşı hücum meylləri başlanır.

Bəlkə də bəziləri güman edə bilərdi ki, qələm yoldaşı şair Xəlilə qayğı və humanistlik göstərmək arzusu ilə etdiyi təkli-

fin qəbul olunmamasına görə S.Vurğun da gənc Quluya qarşı başlanan təqiblərə rəvac verərdi və həqiqətən də, onun buna böyük imkanları danılmazdır. Yox, belə fikirləşənlər böyük günah işlətmiş olardılar və heç Səməd də zaman keçdikcə günü-gündən dahiləşən Səməd olmazdı. Güman olunan yalnış fikirlərin əksinə olaraq Səməd Vurğun çıxışında deyir:

— Yoldaşlar, əgər bu gün Ə.Vahidin kitablarını əlaltında baha qiymətə alırlarsa, bu, bizi düşündürməlidir... Ə.Vahidin adını Yazıçılar İttifaqında çəkməmək olar, ancaq onu xalqın qəlbindən silmək çətindir... Buna görə də mən cavan oğlanın Ə.Vahidə belə hörmətlə yanaşmasını bəyənirəm.

Həmişə yüksəklikdə duran Səməd Vurğun iclas iştirakçıları tərəfindən gurultulu alqışlarla qarşılanan bu çıxışı ilə həm özünü bir daha yüksəldir, həm də gənc Qulunu təqiblərdən xilas edir və məruzəsinə yüksək qiymət verir. Bu azmış kimi müşavirə qurtaran kimi «Azərbaycan» jurnalının redaktoru, xalq yazıçısı Ə.Vəliyevi yanına çağırıb deyir:

— Əli Qaraoğlu, xahiş edirəm ki, bu məruzəni elə beləcə də çap edəsən.

Belə də olur. Həmişə olduğu kimi Səməd Vurğun öz dahiliyində, Qulu da elə öz dönməzliyndə və ölməzliyində qaldı.

Səməd Vurğunla Qulu Xəlillinin qələmə alacağım ikinci görüşü daha ağır, sarsıntı doğuracaq qədər kədərlidir. Belə ki, bu görüş dahi şairimizin vəfatından bir qədər əvvəl ağır xəstəliyinin müalicəsi üçün sonuncu dəfə Moskvaya getdiyi vaxt, elə Qulu müəllimin də həmin şəhərə ağır cərrahiyyə əməliyyatına getdiyi vaxt qatarda olur. Bu barədə onun özü, 1988-ci il aprelin ortalarında əziz anam Məşədi Əzət xanımın dünyasını dəyişməsilə əlaqədar evimdə keçirdiyim növbəti cüməaxşamı mərasimi vaxtı bir neçə dostlarımızla birlikdə olarkən danışdı. Söhbət əsnasında biz onun səhhəti ilə maraqlandıqda o da Bakıda və Moskvada müalicə olunmalarından söhbət açdı. Elə həmin söhbətdə Səməd Vurğunla bir vaqonda



Moskva səfəri barədə çox qısa danışdı. Bu məsələyə toxunmasının əsas məqsədi də özü barədə deyil, tükənməz ilham sahibi, Vətəninə, xalqına xidmət üçün yaradıcılığının zirvəsinə qalxmış dünya şöhrətli bir şəxsin tam olmayan 50 yaşında amansız ölümün pəncəsindən xilas olmasının mümkünsüzlüyünə acıyırdı. Bu sözləri deyərkən bu dəyanətli insan qəhərini boğaraq ədalətsiz hökmünə görə az qala, ulu Tanrıya da etiraz edirdi.

1987-ci ildə mənə bağışladığı kitabda həmin Moskva səfəri barədə onunu xatirələrini özüm oxudum. Bu sonuncu, xatirənin qısa təfərrüatı belədir:

— 1955-ci ilin dekabrında Qulu Xəlilli təkrar cərrahiyyə əməliyyatı üçün Moskvaya gedərkən hələ Bakı Dəmir yolu vağzalında ikən Səməd Vurğunun da onunla bir vaqonda Moskvaya müalicəyə getməsindən xəbər tutur. Qatar tərpənəndən bir qədər keçmiş şairi müşayət edən qardaşı, Azərbaycan Dövlət Universitetində Quluya beş il dərs demiş Mehdixan Vəkilov onun kupesinə gəlir, mehribancasına görüşəndən sonra deyir:

— Səni Səməd çağırır. Yəqin ki, xəstəliyin, operasiyan barədə soruşacaq. Amma elə danış ki, onu qorxuzmayasan.

Səməd müəllimlə görüşdən bir qədər sevinc və yüngüllük hiss edən Quluya şairin ilk sualı belə olur:

— A bala, Moskvaya təkmi gedirsən?

— Bəli.

— Birinci dəfə də tək getmişdin? Bəs xəstəxanada sənə kim baxırdı?

Bu syallardan kövrələn Qulu başını aşağı salır. Belə bir üzücü məqamda Səməd Vurğun kupedən çıxır və çox keçmədən gözləri dolmuş halda geri qayıdaraq soruşur:

— Ə, bəs sənin ananın ürəyi daşdırmı? Yaxın bir qohumun yoxdurmu?

İki saata qədər çəkən söhbətdən sonra Qulunun utandığın-

dan çay içməkdən imtina etməsini görən şair ona istirahət etmək üçün öz kupesinə getməyi təklif edir. Eyni zamanda, yemək, dərman-dava lazım olsa, müraciət etməyi tapşırır...

Bakı-Moskva qatarı Rostova çatanda M.Şoloxov üçün vaqonda kupe hazırlandığından xəbər tutan Qulu məşhur yazıçını yaxından görəcəyindən xoşhal olur... Bir qədər keçəndən sonra o, kupedən çıxanda Səməd Vurğunla M.Şoloxovun vaqonun keçidində dayanıb söhbət etdiklərini görür. Səməd müəllim onu çağırıb həmsöhbəti ilə tanış edir və söhbətlərini davam etdirirlər. Az ömür sürüb, çox iş görən istedad sahiblərinin adı sadalanarkən Səməd Vurğundan Puşkinin, Lermontovun, Bayronun adlarını eşidən Qulu Dobrolyubovun adını çəkir və şair Nekrasovun bu isteadlı tənqidçiyə həsr etdiyi şeirdən yadında qalan:

*Sən ey təbiət! Bu cürə insanları*
*Əgər sən göndərməsəydin yer üzünə arabir,*
*Solğun, ölgün qalardı bu həyatın vadisi...*

misralarını əzbərdən deyir və Səməd Vurğun onları rus dilinə sərrast tərcümə edir. Sonra hər iki böyük sənətkar söhbətlərini Nekrasov barədə davam etdirirlər.

Bax, Qulu belə Qulu olub. Əlbəttə, bu üç misranı əzbərdən söyləməyi Qulu kimi istedadlı gəncə böyük qəhrəmanlıq kimi səciyyələndirmək fikrindən uzağam. Söhbət Qulu Xəlillidə lap gənclik illərindən ulu Tanrı tərəfindən bəxş edilən cəsarət, fərasət, özü ilə müqayisə olunmaz dərəcədə böyük şəxslərlə ağıllı surətdə təmas qurmaq və onların hörmətini qazanmaq məharətini gənclərə çatdırmaqdan gedir.

Bax elə Nekrasovun şeirindən dediyi bu üç misranın da məhz Dobrolyubov kimi tənqidçiyə həsr olunduğu üçün bu misralarda həyat, təbiət və inam ifadəsi olduğu üçün Qulu müəllimin qanına hopmuş hisslər baş qaldırır, səslənir, nə-



həyat, onun yaddaşına həkk olunur. Demək olar ki, yaşlarına və beynəlxalq aləmdəki nüfuzlarına görə o vaxtlar özündən çox-çox yüksəklikdə duran şəxslərin söhbətlərinə ağıllı bir formada nəinki müdaxilə edir, hətta, onların toxunduqları mövzunu daha da zənginləşdirir, yeni məzmun verir.

Bəzən elə olur ki, Qulu müəllimin və digər yaradıcı insanların fəaliyyətinin qaynar çağında səhətləri ilə bağlı əziyyətli həyat tərzini, nəhayət, dünyalarını həm nigaran, həm də yarımçıq dəyişmələrini fikirləşib, təəssüf keçirəndə «taleyin hökmü», «alın yazısı» kimi hamıya təskinlik gətirən kəlamları xatırlamalı və baş vermişlərlə haradasa barışmalı olursan. Professor Qulu Xəlilli istər Azərbaycanın elmi ictimaiyyətində, istərsə də qohumları, dostları, geniş xalq kütləsi arasında xarici görkəminə görə çox ciddi, özünə və ətrafındakılara çox tələbkar bir insan kimi tanınırdı. Bu keyfiyyətlərlə yanaşı, həm də o, çox mehriban, qayğıkeş və təvazökar adam idi.

1990-cı il noyabrın 20-də Qulu müəllimin tamam olacaq 60 yaşını qeyd etmək barədə ailə üzvləri və ona çox yaxın olanlarla birlikdə əvvəlcədən razılığa gəlmişdik. Yubileyə bir neçə gün qalmış bu barədə ona bildirəndə o, birmənalı «yox» cavabını verdi. Beləliklə, 60 yaşı tamam olan günü bizim onun başına toplanmağımız baş tutmadı. Həmin dövrdə Azərbaycana rəhbərlik edən rəsmilər, eləcə də Yazıçılar İtifaqı tərəfindən bu yubileyin demək olar ki, sükutla qarşılanmasını Qulu müəllim dilinə gətirməsə də, özünə qarşı belə diqqətsizliyinə və yubiley tədbirimizə etirazına sanki rəvac verirdi. Nəhayət, onun vəfalı ömür-gün yoldaşı Gözəl xanım, mehriban qızları Almaz və Rəna xanımlar, Xəlillilər nəslinin ləyaqətli davamçısı — oğlu Azər belə bir tədbirin keçirilməsinə onun razılığını aldılar. Beləliklə, noyabrın 23-də Qulu müəllimin ailə üzvləri, Bakıda, Bakıda yaşayan bacı-qardaşlarının ailə üzvləri Xətai rayonu ərazisindəki Nizami parkındakı restoarana toplaşdıq. Uzun illər yaxın qonşuluq və mehriban dost-

luq etdikləri Faiq və Nurlana xanım Əliyevlərdən başqa, yubiley gecəsinə heç kəsi dəvət etməmişdi...

Gecədə iştirak edənlər toplaşan kimi Qulu müəllim yarı zarafat, yarı ciddi mənə müraciətlə:

— Bəxtiyar müəllim, bu camaat sənin komandanı gözləyir. Onları stola dəvət elə və məclisə də özün rəhbərlik elə, — dedi.

Belə bir təklifi çox böyük məmnuluq hissi ilə qəbul edib, fəaliyyətə başladım. Məclisimizin başlanğıcından hamımızda xoş əhval-ruhiyyə yaranmasının təşəbbüskarı da elə yubilyarın özü oldu.

Gecənin başlanmasından təxminən bir saat keçmişdi ki, Qulu müəllimin tələbəliyinin ilk günündən başlayaraq onunla dostluq edən, xalqımızın sevimli şairi Xəlil Rza oğlu Təbrizlə birlikdə heç kəsin gözləmədiyi halda yubilyarı təbrik etməyə gəldi. Nəzərə alsaq ki, 1990-cı il yanvar ayında Bakıda, imperiya quldurlarının sapı özümüzdən olan baltaların köməyi ilə törədilmiş amansız qırğına etiraz səsini qaldırdığına görə həbs olunan şair Moskvanın məşhur Lefertovo həbsxanasında bir neçə ay yatandan sonra, həm də indi dillər əzbəri olan «Davam edir 37...»-sini yazandan sonra gəlmişdi. Onun məclisdə iştirakının dəyərinin nə olduğunu anlamaq çətin deyil. İndi hər iki dostun aramızda olmadığı vaxt daha bir incəliyi də qeyd etmək istərdim. Onların yaxınları, qələm dostları və əksər oxucularına məlumdur ki, 80-ci illərin sonuna kimi Qulu Xəlilli ilə Xəlil Rza arasında xeyli müddət soyuqluq olmuşdu. Lakin ölkəmizin başı üstdə qara buludlar cərəyan etdiyi bir vaxtda xalqımızın cəsarətli yaradıcı ziyalı oğlanları «dost arası sözsüz olmaz» el misalına söykənərək umukūsünü kənara qoyub, xalqımızın gələcəyi naminə bir mövqedən çıxış etmək üçün birləşməyə üstünlük verirlər. Bütün bunları göz qabağına gətirəndə, artıq mərhumlar deyə müraciət etdiyimiz Xəlil Rza Ulutürk, həmin yubiley gecəsindən çox



keçməmiş erməni işğalçı faşistlərinə qarşı döyüş meydanına atılan və qəhrəmancasına həlak olmuş, indi artıq milli qəhrəman kimi xalqımızın qəlbində əbədi yaşayacaq Təbrizin görüşə gəlməsi yubilyar üçün çox qiymətli sürpriz oldu. Bu ata-oğul gəlişi məclisin gedişinə, sözün ən yaxşı mənasında, yeni abhava gətirdi...

Qulu müəllimlə Xəlil müəllimin söhbət-dialoqları çox maraqlı idi. Söhbətə başlayarkən ürəyini boşaltmadan sakitləşmək bilməyən Qulu Xəlilli, bilərəkdən dostunu dinləməyə üstünlük verirdi. Ürəyi sinəsinə sığışmayan, ağzından od-alov püskürən Xəlil Rza Ulutürk isə toplantının əsl məramından uzaqlaşmadan imperiya cəlladlarına, onların əlaltılarına, öz təbirincə desək, quyruq bulayanlara, boşqab didi yalayanlara, ucuz tərif naminə meydan sulayanlara, ədaləti tapdalayanlara, ağa qara deyənlərə və bunlara bənzərlərə nifrətini bildirirdi. Bütün bunlarla yanaşı, qeyd etdiyim kimi, istər unudulmaz şairin söhbətlərində, istərsə də başqalarının çıxışlarında Qulu müəllimin həyat və fəaliyyəti, yaradıcılığı, digər insani keyfiyyətləri yetərincə qiymətləndirilir, ona xoş arzular bildirilirdi. Bir neçə saat davam edən bu toplantı yubilyarın adına layiq məzmunda və xoş ovqatla başa çatdı.

Həmin gecədən təxminən bir həftə sonra dövri mətbuatdan saxladığım seçmələrə göz gəzdirərkən «Kommunist» qəzetinin 11 noyabr 1990-cı il tarixli nömrəsində xalq yazıçısı Süleyman Rəhimovun 90 illiyi ilə əlaqədar Qulu müəllimin «Dağ vüqarlı sənətkar»» başlığı ilə gedən yazısı əlimə keçdi. Məqaləni diqqətlə bir də oxudum və müəllifin bu yazısı mənim diqqətimi çox cəlb etdi. Həmin yazıda müəllif xalq şairi Səməd Vurğunun Süleyman Rəhimovun nəsr janrı sahəsindəki böyük fəaliyyətini yüksək qiymətləndirərək onu ədəbiyyatımızın «uzaqvuran ağır artilleriyası» adlandırmasını qeyd edərək, qısa giriş-arayışdan sonra yazıçının vaxtilə ona yazdığı iki məktubunu olduğu kimi çap etdirir. Məktublar çox

maraqlıdır. Süleyman müəllimin həmin məktublarının birincisinə «Tənqidçi, nəzəriyyəçi Qulu Xəlilovla 30.V.65 Bakı şəhəri», ikincisinə isə «Qulu, əzizim Qulu! 28,XI.1970. Gecədir, saat 5-dir. Bakı», başlığı verir.

Birinci məktubda S.Rəhimov özünün «Şamo», «Saçlı», «Mehman» əsərləri barədə, yaratdığı müsbət və mənfi obrazlar, qarşıda qoyduğu məqsədlər, xüsusən, rüşvətxorlara qarşı barışmazlığı barədə fikirlərini Qulu ilə səmimi bölüşür. Bəlkə də, güman etmək olardı ki, məktub müəllifi özündən daha yüksəklikdə duran şəxsə hesabat verir. Əlbəttə, belə hesab etmək ən azı nadanlıq və səbatsızlıq olardı. O, Vətəni və millətindən başqa, kimlərinsə qarşısında hesabat versəydi, hər hansı bir formada «elastik»lik göstərsəydi, onda heç xatirələrdə, Azərbaycan tarixində əbədiyaşar, dağ vüqarlı Süleyman olmazdı. Bu yazıda o, Qulu dəyərini qiymətləndirir və onunla fikirlərini bölüşür...

İkinci məktubunda Qulunun da uşaqlıq illərini keçirdiyi ata yurdu Ağcabədidən, Mirzə Cəlildən, M.F.Axundovdan, «Şamo»sundan geniş bəhs edir. Ən əsası da odur ki, o, Qulunun bəzi tənqidi yazılarına toxunaraq onu «Koroğlu cəsarətli tənqidçi» adlandırır. Bu məktubunu o «...Qulu! Ən böyük arzum «Qafqaz qartalı»ndan sonra «Şamo»nun IV cildi olacaq... Sağlıq olsun, 1970-ci ilin II yarısında bu «dağ»ın altına girəcəyəm! Yoruldum, bəsdir qardaş. Oldu saat «7»dir, dərin hörmətlə Süleyman Rəhimov», — abzası ilə tamamlayır.

Bu məktublar da Qulu Xəlilli barədə çox şey deyir. Geniş təfsirə ehtiyac duymuram.

Q.Xəlillinin səriştəli qələm sahibi, cəsarətli ədəbi tənqidçi kimi formalaşması üçün Ulu Tanrı ona yetərincə fərasət və cəsarətini əsirgəməmişdi. Məhz bu səbəbdən də, mətndə göstərdiyim kimi, hələ onun ədəbi fəaliyyətə yeni başladığı lap gənc yaşlarında poeziyamız və nəşrimizin ən nüfuzlu şəxsləri S.Vurğun, S.Rəhimov, Ə.Vəliyev, akademik M.A.Dadaşzadə və b. onunla hesablaşırdılar.



Xalqına, millətinə və doğma torpağına bağlı olan, ona sədaqətlə xidmət edən, öz sözü olan bu kişi, çox təəssüf ki, uzunömürlü ola bilmədi. Ədəbi və pedaqoji fəaliyyətinin ən məhsuldar dövründə — 65 yaşına çatmamış dünyasını dəyişdi. Həm də parçalanmış torpağımızın, Qarabağımızın dağlıq hissəsi və ətraf rayonlarımızın düşmən tapdağında olması dərdini də haqq dünyasına özü ilə apardı... Ancaq əbədi irsi sağlığında olduğu kimi, xalqımızın tərəfindən sevilə-sevilə oxunur. Respublikamızın elmi ictimaiyyəti və geniş oxucu kütləsi tərəfindən o, həmişə xatırlanacaq və onların qəlbində əbədi yaşayacaq.

*25.08.2000-ci il*

# UNUDULMAZ İNSAN, GÖRKƏMLİ HÜQUQŞÜNAS



*Məmmədxan Rəsulov*

Görkəmli hüquqşünas alim, professor Məmmədxan Rəsulov yaşasaydı, onun doğmaları və çoxsaylı sədaqətli dostları bu il aprelin 28-də onun 73 yaşının tamam olması ilə təbrik edəcəkdilər. Amma, amansız və qəfləti ölüm bu gözəl insanı, elmi və ictimai fəaliyyətinin qaynar çağında, ötən əsrin 98-ci ilinin qızmar avqust günlərində aramızdan apardı. Beləliklə, artıq 8-ci ildir ki, ölümünə inanmasaq da, Məmmədxansız günlərə dözmək zorundayıq.

Unudulmaz müəllimim, həmyerlim və dostum Məmmədxan müəllim barədə qələmə alacağım yazıma «Məmmədxansız günlərimiz» başlığı vermək istəyirdim. Lakin «Məmmədxansız» sözünü ona yaraşdıra bilmədim. Ən azı ona görə ki, bu yazını oxuyanlar dünyasını nigaran dəyişmiş bu qeyri-adi xarakterli, qaynar, enerjili insanı xatırlayarkən onun xeyirxah əməllərini, yumorlu anlarını göz önünə gətirəcəklər. Məhz bu səbəbdən də mən sədaqətli dostumuzla keçirdiyimiz çoxsaylı görüşlərdən bəzi məqamları, heç olmasa, mənən onunla birgə olduğumuz günlərin ovqatını xatırlamaq fikrinə gəldim. Bu, həm də heç vaxt unutmayacağımız əziz müəllimimizin müqəddəs ruhuna xoş olardı.

Öncə qeyd etmək istəyirəm ki, bu yazıda M.Rəsulovun hələ 1950-ci illərin əvvəllərindən BDU-da tələbəlik illərindən



komsomol, partiya, həmkarlar təşkilatlarında ictimai fəaliyyətindən, 1960-cı ildən isə universitetdə başladığı elmi-pedoqoji və digər işlərini təhlil etmək fikrində deyiləm. Bu missiya onunla uzun illər çiyin-çiyinə işləmiş həmkarlarının işidir. Dərin minnətdarlıqla bildirim ki, onlar bu işləri layiqincə görürlər.

Xeyirxah, dosta sədaqətli, Məmmədxan müəllimin həyatını və mənəviyyatını özünə etalon kimi qəbul edən hüquq fakültəsinin kafedra müdiri, elmlər doktoru Alış Qasımovdur. O, «Azərbaycan» qəzetinin 1 may 1999-cu il və 30 aprel 2003-cü il tarixli saylarında həmin missiyanı layiqincə şərh etmişdir. Cəsarətlə deyə bilərəm ki, Alış müəllimin bu dəyərli yazılarını tək hüquq fakültəsinin deyil, universitetin bütün kollektivinin M.Rəsulova verdiyi qiymət kimi də səciyyələndirmək olar.

İndi isə professor M. Rəsulova müəllimlə yadda qalan ilk görüşümü xatırlamaq istərdim. Əvvəlcə qeyd edim ki, mən Zəngilanın nisbətən böyük kəndlərindən biri, Ermənistanın Mehri və Kafan rayonları ilə həmsərhəd Bartaz, Məmmədxan müəllim isə 10-12 km məsafədə yerləşən Baharlı kəndlərində dünyaya gəlmişik. İstisna etmirəm ki, uşaqlıq və gənclik illərimiz də qonşu kənd uşaqlarının adi təsadüfi rastlaşmaları kimi, bizim də 50-ci illərə kimi belə görüşlərimiz olub. Lakin bunların heç biri əlamətdar olmadığı üçün xatirimdə qalmayıb.

Həmişə təəssübkeşliyi ilə çoxlarından fərqlənən Məmmədxan müəllimlə ilk görüşüm 1954-cü ilin yayında, o vaxtlar «AQU» kimi dillər əzbəri olan BDU-də olub. Həmin il mən universitetin tarix, həmyerlim, sonralar uzun illər rayonun müxtəlif rəhbər vəzifələrində işləmiş Musa Cəfərov isə jurnalistika fakultələrinin qiyabi şöbələrinə qəbul imtahanları vermişdik. Qəbul olunanların siyahıları asılan dəhlizdə idik. Müsa müəllim qəbul olunmuşlar siyahısında vardı. Mən isə

konkursdan keçməmişdim. Məlum əhval-ruhiyyədə olduğumuz məqamda Məmmədxan müəllim zəngilanlılardan qəbul olanları öyrənmək üçün yanımıza gəldi. Vəziyyətlə tanış olandan sonra birlikdə Musa müəllimi təbrik etdik. Söhbət əsnasında mənə məlum oldu ki, M.Rəsulov hüquq fakultəsinin 5-ci kursuna keçib. Bu qayğıkeş insan da mənim işim və oxumaq barədə gələcək planlarımla maraqlandı. Bildirdim ki, SSRİ DTK-nın Azərbaycan dəmir yolu üzrə nəqliyyat idarəsi Culfa bölməsində baş əməliyyat müvəkili işləyirəm. Təhsil almaq üçün 2 il ciddi hazırlaşandan sonra hüquq fakultəsinə daxil olmağa özümü sınayacağımdan çox razı qaldığını bildirdi. Əlavə etdi ki, hüquqşünaslıq mənim xidmətimin profilinə daha uyğun olduğu üçün o da belə məsləhət vermək istərdi.

1956-cı ilin iyulunda hüquq fakultəsinə qəbul olundum. İki aydan sonra — sentyabrda DTK-nın Mincivan stansiyasındakı bölməsinə rəis təyin olundum. Bu vaxtdan keçən təxminən bir il ərzində Məmmədxan müəllimlə rayonumuzda cəmi bir dəfə səmimi görüşümüz oldu. 1957-ci ildə xəbər tutdum ki, o, Universitetin Komsomol Komitəsi 1-ci katibliyindən Respublika Dövlət Təhlükəsizliyi Komitəsinin əkskəşfiyyat xidmətinə əməliyyat işinə qəbul olunub.

Yaxşı demişlər ki, «Niyyətin hara, mənzilin də ora». M.Rəsulovun hüquqşünaslıq üzrə elmi-pedoqcji fəaliyyətə olan istək və arzusu onu 1961-ci ildə, sonradan bütün mənalı həyatını həsr etdiyi BDU-nun hüquq fakultəsinə qaytardı. Burada o, müəllim, baş müəllim, dossent olaraq pedaqoji fəaliyyət göstərdi. Vəzifə pillələri ilə isə fakultənin dekanı vəzifəsinə kimi yüksəldi və bu vəzifədə 1989-cu ildən başlayaraq ömrünün sonuna qədər ləyaqətlə çalışdı. O, 1961-ci ildə fakultəyə qayıtdığı vaxt mən bu fakultənin 5-ci kursunda oxuyurdum. Beləliklə, Məmmədxan müəllim mənə son ilyarımda dərs dedi, həm də diplom işimin rəhbəri oldu. Həmin ildən başlayaraq, bu qeyri-adi dəyərlər sahibi insanla, onun yarımçıq qırılmış ömrünün sonuna kimi mehriban dostluq əlaqələrimiz davam etdi.



1960-cı illərin sonuna kimi xidmətdə olduğum Zəngilana vaxtaşırı əsasən də yay tətili aylarında qohum-əqrabaya baş çəkməyə gələrdi. Rəsulovlar ailəsinin ağsaqqalı, rayonumuzun Bakıda yaşayan ən nüfuzlu ziyalılarından biri, böyük qardaşı professor Ataş müəllimlə gələrdilər. Rəsulov qardaşlarının Zəngilana gəlmə səbəblərindən asılı olmayaraq onların hər gəlişi rayonun rəhbərliyi, ziyalıları və başqa həmyerlilərimiz tərəfindən böyük hörmətlə qarşılanardılar.

Zəngilan görüşlərimiz çox olsa da onlardan birini xatırlamaq istərdim. 1960-cı illərin ortaları, yay ayları idi. Səhhətimlə bağlı bir neçə gün evdə müalicə olunmuşdım. Hazırlaşırdım ki, nahar fasiləsindən sonra işə gedim. Həmin gün, saat 1200 radələrində Məmmədxan müəllimin mənzilimin aynabəndinə daxil olmasını görəndə gözlərimə inanmadım. Mənim qəzet oxuduğumu görən kimi ürəkdən gülərək, mənə salam verməmiş geriyə baxaraq:

— Ataş, gəlin, xəstə ayılıb, mütaliə edir, — dedi.

Mən onunla görüşüb, tez həyətə çıxaraq rayonun hərbi komissarı polkovnik-leytenant Məmməd Babayevin müşayəti ilə gələn Ataş müəllimi qarşıladım. Evə daxil olandan sonra Məmmədxan müəllim aramızda olan çox isti münasibətə uyğun olaraq çox şirin, duzlu zarafatlarla mənə «hücuma» keçdi:

— Maşallah olsun, gümrahsan, xəstəyə oxşamırsan. Getdik iş yerinə, dedilər rəis xəstədir. Gəlirdik səni yoluxmağa, komissarla təsadüfi rastlaşdıq, o da bizi muştuluqladı ki, səninlə danışıb, artıq sağalmısan. Neçə il tələbəmiz oldun, bir stəkan çaya da qonaq eləmədin. İndi də qorxma, M.Babayev bizi qonaq aparacaq, gəldik səni də dəvət edək.

Mən öz növbəmdə tələsməməyi, onun dediyi eyhama rəğmən: "heç olmasa bircə stəkan çay içəndən sonra baxarıq" — dedim. Belə də oldu. Arada Məmmədxan müəllim həyətə çı-

xıb, qayıdan kimi yenə də gülümsəyərək M.Babayevə:

— Komissar, Simuzər xanım manqala od vurub, gözün aydın. Sənin qonaqlığın qaldı özünə, — dedi.

Beləliklə, biz birlikdə, yaranmış son dərəcə xoş əhval-ruhiyyə ilə nahar etdik. Nahar fasiləsi qurtarandan sonra M.Babayev işə qayıtdı, biz isə çay süfrəsi arxasında söhbətimizi davam etdirdik.

Bir qədər sonra Ataş müəllim söhbəti başqa məcraya yönəltdi. Dedi ki, bu dəfə rayona gəlməkdə məqsədləri kənddə, ata yurdunda yaşayan kiçik qardaşları Qasımın evlənməsi ilə bağlıdır. Bu məsələ ilə əlaqədar Baharlının yaxınlığındakı Dəlləkli kəndinə mənimlə birlikdə elçiliyə getmək təklif etdi. Mən bu təklifə məmnunluqla razı oldum. Şərtləşdiyimiz kimi, sabahı günü biz həmin kəndə, qızın valideynləri evinə yollandıq. Ev sahibləri və kəndin nüfuzlu ağsaqqalları Rəsulov qardaşlarının gəlmələrinə böyük ehtiram göstərdilər və bizi hörmətlə qarşılayaraq, Qasımın gələcək həyat yoldaşının «hə»sini verdilər.

1971-ci ilin yanvarından DTK-nın Mingəçevir şəhərindəki rayonlararası şöbəsinə rəis təyin olundum. Orada işlədiyim 10 ildən artıq müddətdə Məmmədxan müəllimlə görüşlərimiz istər Mingəçevirdə və xidmət ərazimə daxil olan şəhər və rayonlarda, istərsə də Bakıda daha tez-tez olurdu. Bu görüşlərimizin bəziləri barədə hər ikimizin müəllimimiz olmuş, görkəmli hüquqşünas alim, əsl aristokrata — Məmməd Xələfova həsr etdiyim «Məğrurluq zirvəsində əbədiyaşar şəxsiyyət» başlıqlı yazımda xatırlamışam. Bu yazı «Femida» qəzetinin 21 avqust 1999-cu il sayında, sonra isə professor Telman Əliyevin M.Xələfovun parlaq həyat və yaradıcılığı barədə 2000-ci ildə nəşr etdirdiyi «Haqqa qovuşan insan» kitabına daxil edilmişdir. Bu da onunla bağlıdır ki, mənim professor M.Xələfovla BDU-da, Gəncədə və başqa yerlərdə əksər görüşlərim Məmmədxan müəllimin iştirakı ilə olmuşdur.



Bütün bunlarla yanaşı Məmmədxan müəllimlə bağlı yaddaşıma əbədi həkk olunmuş, həyəcansız xatırlaya bilmədiyim bir neçə görüşləri də qeyd etmək istərdim.

Yaxşı yadımdadır, 1976-78-ci illərdə Məmmədxan müəllim BDU-də xarici tələbələrin təhsili üzrə dekan işləyirdi. 1977-ci ilin iyun ayının sonunda, günortaya yaxın Mingəçevirdə işdən evə gedirdim. Dram teatrı yaxınlığında arxamızca gələn bir maşından bizə əylənmək işarəsi verildi. Baxdım ki, Məmmədxan müəllim və Universitetin Komsomol Komitəsinin I katibi, hazırda Biofakın dekan müavini Sabir Mustafayevlə maşından düşdülər. Həmişə olduğu kimi çox mehribanlıqla görüşərək, bizim evə gəldik. Həyətə girən kimi çoxillik şam və meyvə ağaclarını, qızılgüllüyü, bostan-tərəvəz güşəsini seyr edəndən sonra Məmmədxan müəllim yenə də «hücuma» keçdi:

— Sənə nə var, Kürün qırağında osobnyakda kef çəkirsən, biz isə Bakıda istidən boğuluruq, — deyəndən sonra söhbəti normal məcraya yönəltdik.



*Professor M. Rəsulov xanımı Sənubər və uşaqları ilə*

O, yaşadığım birmənzilli evin nə vaxt tikildiyini və əvvəllər kimə mənsub olduğu ilə maraqlandı. Ətrafdakı çoxsaylı belə mənzilləri göstərərək, bütün bunlar Mingəçevir Su Elektrik Stansiyasının (SES) tikintisinə başlanan 40-cı illərin sonunda inşaatçılar üçün tikilmiş «domik»lər adlanan mənzillərdir, — dedim. Mənim mənzilimin ilk sakini, 50-ci illərin əvvəllərinə kimi burada yaşamış, tanınmış partiya-dövlət xadimi Kamran Hüseynovun, sonra mənə kimi şəhərin rəhbər işçilərinin yaşadıqlarını bildirdim.

Ayaqüstü 10-15 dəqiqəlik söhbətdə Məmmədxan müəllim dedi ki, Gəncə-Qarabağ bölgələrində ezamiyyətdə olublar. Məqsədləri yay tətili vaxtı vətənlərinə qayıtmayan xarici tələbələrin istirahətləri üçün yer seçmək olub. Eyni zamanda bildirdi ki, bir saat öncə Tərtərin keçmiş prokuroru, hər ikimizin dostumuz Ataxan Mürsəlova qonaq olublar və bu səbəbdən də ciddi təkidimə baxmayaraq mənə qonaq olmaqdan imtina etdilər.

Bakıya yola düşməzdən əvvəl Məmmədxan müəllim dedi ki, bir neçə gündən sonra ailə üzvləri razı olsalar, onları bizə bir aylıq qonaq gətirəcək. Onu da qeyd etdi ki, qızı Gülnarənin qəbul imtahanlarına hazırlaşması üçün buradakı sakitlik və başqa şəraitdən istifadə etmək istəyir. Əvvəllər də buna bənzər zarafatları olduğu üçün bu sözləri də daxilən qeyri ciddi qəbul etsəm də, ailəsinin gəlməsini məmnunluqla gözləyəcəyimi bildirdim. Gələsi olsalar əvvəlcədən telefonla bildirəcəyini deyib, yola düşdülər.

Böyük razılıq hissi ilə bildirim ki, bu dəfə M.Rəsulov dediyinə əməl etdi. Bir neçə gündən sonra o, ömür-gün yoldaşı Sənubər xanımla, oğlu, o vaxt hüquq fakultəsi tələbəsi Eldar və qızı Gülnarə ilə bizə gəldilər. Bakıdan zəng vurmamasını da, yenə zarafatla bildirdi ki, əsl dostlar bir-birindən icazə almamalı, bir daha sınamaq üçün qəfləti gəlməlidir. Sabahı günü Bakıya qayıdarkən bildirdi ki, uşaqları iyulun axırına



yaxın aparmağa gələcək. Ancaq belə olmadı. Cəmi bir həftədən sonra yenə də qəfləti Mingəçevirə, uşaqları aparmağa gəldi. Səbəbini belə izah etdi ki, konkursun böyük olacağı gözlənildiyi üçün Gülnarənin Bakıda, ayrı-ayrı fənn müəllimləri tərəfindən hazırlaşdırılmasını vacib sayır. Səbəbi elə əsaslandırdı ki, etirazımıza yer qalmadı...

Bizim BDU-də oxuduğumuz illərdə çox sağlam, qibtə ediləcək dərəcədə müəllim-tələbə münasibətlərini xatırlamağa dəyər. Belə pak, vicdanlı, son dərəcədə ciddilik sevən müəllimlərimizdən biri də professor Qasım Manayev idi. Bütün bunlarla yanaşı onun bəzi məsələlərdə ifrat dərəcədə, xırdaçılığa varması Qasım müəllimin xarakterinin özəlliyi kimi onu tanıyanlara yaxşı məlum idi. Mən IV kursda oxuduğum vaxt ən kiçik anlaşılmazlıqla bağlı Qasım müəllimlə aramızda baş verən münaqişəyə Məmmədxan müəllimin hər dəfə ürəkdən güldüyünü xatırlamaq istəyirəm.

Bildiyimiz kimi BDU-nin əsas binası keçmiş Kommunist (indiki İstiqlal) küçəsi 6-da yerləşirdi. Darısqallıqdan hüquq, tarix və filologiya fakultələri Nizami küçəsi 145-də yerləşirdi. Əsas binaya gedərkən dayanacaqların birində mən mindiyim traleybusa Qasım müəllim də əyləşdi. Bilet paylayan konduktora bir biletin də pulunu verərək, xahiş etdim ki, məni göstərməmək şərtilə bileti ona versin. Konduktor Qasım müəllimə «pulu çatıb» deməsilə, onun ucadan «Kim verib?» sualı ilə təxmin etdiyim hadisə başladı. Gizlənməyin faydasızlığını görüb, mən onlara yaxınlaşdım. Tərs kimi, həmin vaxt traleybus da hansısa nasazlıqdan bir neçə dəqiqə dayandı ki, bu da unudulmaz Qasım müəllimin ucadan apardığı «təhqiqat»ın sərnişinlərin eşitməsinə səbəb oldu. Belə ki, sakitlik şəraitində o, mənə ünvanlanan «...kimsən, adın nədir, harada oxuyursan, mən sənə dərs deyirəmmi?» suallarını yağdırdı. Bütün suallara qısa, olduğu kimi cavab verdim. Son sualına isə nisbətən ətraflı «Siz mənə keçən il «Roma hüququ» fənnindən

dərs demisiniz, imtahan da vermişəm», — dedim. İş o yerə çatdı ki, yanımızdakı orta yaşlı, danışığından ziyalıya oxşayan kişi çox mülayim tərzdə Qasım müəllimə iradını bildirərək, belə kiçik, adətə uyğun hərəkətə görə cavan oğlanı pisikdirməyə dəyməz dedi. Qasım müəllim də eyni tərzdə onun işinə qarışmamağı xahiş etdi. Sonra isə konduktordan ona yeni bilet verməyi və mənə 4 qəpiyi qaytarmağı xahiş etdi. Belə də oldu...

Mən Universiteti bitirəndən bir neçə il sonra Qasım müəllimlə mənim aramda Bakıda, traleybusda baş verən bu əhvalatı Məmmədxan müəllimə danışdım. Bizim onunla yumorla, xoş əhval-ruhiyyəli söhbətimiz çox olurdu. Amma, bu əhvalata bu qədər ürəkdən güldüyünü heç vaxt görməmişdim. Bunun səbəbini soruşanda, Qasım müəllimlə tələbələr arasında buna bənzər əhvalatların çox olduğunu, lakin heç birini də yadında saxlamadığını bildirdi. Yenə də zarafatla məni Q.Manayevlə barışdıracağına söz verdi. Lakin buna da ehtiyac olmadı. Mən vaxtaşırı fakultəyə gələndə bütün müəllimlərimlə olduğu kimi Qasım müəllimlə də mehribanlıqla görüşürdük.

Mingəçevirdə xidmətə başladığım 70-ci illərin əvvəllərində Məmmədxan müəllimdən xahiş etmişdim ki, fakultəmizin müəllimlərindən mənim xidmət ərazimə daxil olan şəhər və rayonlara gələnlər olsa mənə bildirsin. Bu xahişimə rəğmən çox az da olsa bir neçə müəllimlərimizlə görüşlərimə təşəbbüs göstərdi. Bunlardan birini — Qasım müəllimlə olan görüşümüzü xatırlamaq istərdim.

1980-cı ilin iyul günlərinin birində M.Rəsulov Bakıdan mənə telefon etdi. Bu qəribə xarakterli, çox mehriban insan həmişə olduğu kimi, yenə də müqəddiməsiz, qısa yumorla əsas məqsədə keçdi. Onun dediklərini öz ifadəsi ilə demək istərdim:

— Yoldaş Süleymanov, istəyirəm Qasım Manayevlə səni





*M. Rəsulovun təklifilə istəkli dostları professorlar Yusif Mehdiyev (ortada əyləşən) və Qasım Manayev (ayaqüstə, sağdan ikinci) Mingəçevirdə. Onlarla keçmiş tələbələri: 2-ci sıra soldan prokuror F. Ağamirov oğlu Fəridlə və B. Süleymanlı oğlu Hikmətlə (sağdan 1-ci), iyul 1980-ci il.*

barışdırım. Bu məqsədlə sənin adından onu Mingəçevirə qonaq çağırmışam. Xoş təsadüfdən o da müəllimin olmasa da, yaxın dostun Yusif Mehdiyevi özünə yoldaş seçib. Xəbərdar edirəm ki, traleybus əhvalatını onun yadına salsan, həmin dəqiqə Yusif müəllimi də orada qoyub Bakıya qaçacaq. Növbəti şənbə Bakı-Gəncə qatarı ilə gələn qonaqları Yevlaxda qarşıla, — dedi.

Unudulmaz müəllimimin bu təklifini mənə olan böyük hörmət kimi qəbul etdim və təyin olunmuş gün əziz qonaqlarımı qarşıladım. Mingəçevir dənizində kiçik paraxodla gəzinti və istirahət Qasım müəllimin ürəyincə oldu. Təəssüf ki, qonaqlar iki gündən artıq qalmadılar. Onlar Bakıya qayıdan-

dan sonra yenə də Məmmədxan müəllim telefonla mənə dedi:

— Qasım müəllimin sənə dərslərdən hansı qiymət verməsini bilmirəm, ancaq qonaq qəbulu və səyahətə görə sənə «beş» verdi.

M.Rəsulov doğma Vətənə və millətə çox bağlı adam idi. Keçmiş SSRİ-nin ən uğursuz, maymaq başçısı Qarbaçovun «xeyir-duası» ilə cinayətkar erməni separatçı quldurlarının Azərbaycanın Dağlıq Qarabağ bölgəsində, eləcə də ətraf rayonlarında törətdikləri vəhşiliklərin ilk günlərindən o, rahatlığını itirmişdi. Həmin illərdə mütəşəkkil ordumuzun olmadığından, Ermənistanla sərhəd rayonlarda olduğu kimi, Zəngilanda da yerli əhali və özünümüdafiə batalyonları torpaqlarımızın müdafiəsinə qalxmışdı. Bu qüvvələr vahid mərkəzdən idarə olunmadığına görə onların köməyə ehtiyacları var idi. Məmmədxan müəllim Bakıda yaşayan dövlət idarə və müəssisələrində işləyən həmyerlilərimizi ətrafına toplayaraq, «Zəngilan xeyriyyə cəmiyyəti» yaratdı. Bu qurumu idarə etmək, rayonla daimi əlaqə saxlamaq üçün mən də daxil olmaqla, seçilmiş 15 nəfərlik işçi qrupuna özü rəhbərlik edirdi. Bütün imkanlarımızı səfərbər edərək düşmənlə üz-üzə duran döyüşçülərimizə vacib olan ərzaq, döyüş, digər hərbi ləvazimatı və başqa gündəlik tələbat malları toplayıb çatdıra bildik. Lakin, keçmiş DQMV-də ermənilərin əlinə keçmiş Sovet Ordusunun 366-cı alayı, Ermənistanın və bu respublika ərazisindəki başqa dövlətə mənsub hərbi birləşmələrin iştirakı ilə, tərkisilah edilmiş özünümüdafiə qüvvələrimizə qarşı müqayisə olunmaz qeyri-bərabər qanlı döyüşlərin acı nəticələrinin geniş şərhə ehtiyacı yoxdur...

Bu acı reallıqla üzləşdiyimiz vaxtlar hamımız kimi Məmmədxan müəllim də nikbin idi və yaxın gələcəkdə doğma torpaqlara qayıdacağımız ümidini itirmirdi. Çox təəssüflər olsun ki, amansız ölüm onun bu arzusunu da ürəyində qoydu. Zəngilanla yanaşı başqa rayonların azad olmamasından da nigarançılıqları az deyildi. Qeyd etdiyim kimi, nəslin ağsaqqalı, uzun sürən ağır xəstəlikdən əziyyət çəkən böyük qardaşı professor Ataş müəllimdən, məcburi köçkün kimi 1993-cü ildən Bakıda məskunlaşan əziz bacısı Yaxşıxanım və onun həyat yoldaşı Əli müəllimin də aqibətlərindən nigaran getdi. Özündən sonra sonuncuların hər üçünün də ardıcıl son mənzilə yola salanların arasında Məmmədxan müəllimin yeri görünürdü.

Bu gün M.Rəsulov aramızda olmasa da, onun əziz xatirəsi qədirbilən insanlar tərəfindən layiqincə xatırlanır və anılır. Buna əminlik kimi BDU-da keçirilən bir tədbiri xatırlayaq. 2003-cü ilin aprelində Məmmədxan müəllimin 70 yaşının tamam olması ilə əlaqədar universitetin böyük iclas zalında, ali təhsil müəssisələrinin bayraqdarı olan bu kollektivin alimləri və şəhər ictimaiyyəti nümayəndələrinin iştirakı ilə çox maraqlı yubiley gecəsi keçirildi.

Bu tədbirin təşkilatçısı və aparıcısı BDU-nin rektoru, AMEA-nın müxbir üzvü, professor Abel Məhərrəmovun Məmmədxan müəllim barəsində dediyi bir maraqlı məqamı qeyd edirəm. O, dedi ki, SSRİ-nin süqutundan bir neçə il öncə, guya Bakı Ali məktəblərində beynəlmiləl tərbiyənin zəifliyi barədə Moskvaya şikayətlər daxil olmuşdu. Məsələni öyrənmək üçün oradan gələn nümayəndələr BDU-da da oldular. Onların görüşdükləri alimlərdən biri də M.Rəsulov oldu. O, Moskvalıların sualına çox qısa və məntiqi cavab verir:

— Bakı bütün SSRİ məkanında ən beynəlmiləl şəhərdir. Universitet Kirovun adınadır, yerləşdiyi küçəyə P.Lümumbanın adını veriblər, üstdəki küçə Avakyanın şərəfinədir, müəllim-tələbə kollektivləri də ki, çoxmillətlidir.

Bu tutarlı cavabdan sonra qonaqlar yoxlamanı bitmiş hesab etdilər...

Abel müəllimin M.Rəsulovun cavabını belə xatırlaması mərhum dostumuzun parlaq obrazını gözümüz önündə bir

daha canlandırdı.

Rəsulovlar ailəsi və onların yaxınları üçün Məmmədxan müəllimin dünyasını dəyişməsi sarsıntısı səngiməmiş, ailənin yeganə oğlu Eldarın da 42 yaşında qəflətən vəfatı bu ailəyə ağır zərbə və sağalmaz göynərti gətirdi...

8 ilə yaxındır ki, Məmmədxan müəllimin ocağının istisini, işığını ömür-gün yoldaşı Sənubər xanım, ləyaqətli qızı Gülnarə xanım, bir də canından əziz tutduğu nəvələri saxlayırlar. Onları hifz edən isə Azərbaycanın ləyaqətli oğlu Məmmədxan müəllimin nigaran ruhudur.

*28 Aprel 2006-cı il*



# GÖRKƏMLİ BƏSTƏKAR, BÖYÜK VƏTƏNDAŞ



*Tofiq Quliyev*

Ötən əsrin 30-40-cı illərində Azərbaycanın «dahi bəstəkarı» sözlərini eşidəndə tək o dövrün biz gəncləri deyil, bütün cəmiyyətdə millətimizin iftixarı Üzeyir Hacıbəyov düşünülürdü. Zaman keçdikcə çox şey dəyişsə də, Üzeyir bəy tək musiqi mədəniyyəti sahəsində deyil, həm də böyük pedaqoq, ictimai xadim, publisist olmaqla yanaşı, həm də müasir professional musiqi sənətinin və milli operamızın banisi olaraq, dahi bəstəkarlıq zirvəsində şəriksiz əbədiləşdi.

Bütün bunlarla yanaşı Ü.Hacıbəyov məktəbinin davamçıları içərisində dahi bəstəkarlıq adını qazananların sırası da genişləndi. Belələrindən biri də bütün mənalı həyatını millətinə və dövlətinə, milli musiqi mədəniyyətimizin inkişafına həsr etmiş, ona dünya şöhrəti qazandıran dahi bəstəkar, professor, xalq artisti, Dövlət mükafatları laureatı, ictimai xadim Tofiq Ələkbər oğlu Quliyevdir.

T.Quliyev barədə bu sətirləri qələmə almaqla heç də qarşımda onun çoxcəhətli yaradıcılığını, o cümlədən dram və musiqili komediya səhnə əsərlərinə, kino filmlərə bəstələdiyi musiqiləri, yüzlərlə mahnıları təhlil və təbliğ etmək kimi, öhdəsindən gələ bilməyəcəyim çox məsuliyyətli və ağır işi görmək məqsədi qoymamışam. Tofiq müəllim kimi nəhəng sə-

nətkarın və ictimai xadimin barəsində sadaladığım işin öhdəsindən onun adına layiq səviyyədə gəlmək üçün ən azı onun həmkarı, yetirməsi, yaxud da əsərlərinin ifaçısı olmaq gərəkdir. Mən isə bu qeyri-adi istedad sahibinin bir-birindən dəyərli əsərlərinin tamaşaçısı və dinləyicisi, şəxsiyyətinin isə pərəstişkarlığından irəli gedə bilməmişəm...

1968-ci ildən Respublika Bəstəkarlar İttifaqının rəhbərliyində təmsil olunan, 1990-cı ildən ömrünün sonuna (2000-ci ilin oktyabrına) kimi isə bu İttifaqın sədri olmuş T.Quliyev haqqında qələmə alacağım bu yazıda bu böyük insanın 34 il öncə Şimali Qafqazda doğma Azərbaycanımızı təbliğ etməsi üçün öz təşəbbüsü və ağır zəhmətilə həyata keçirdiyi və mən də iştirak etdiyim çox maraqlı bir tədbiri oxuculara çatdırmaqdır.Uzun illərdir bu böyük vətənpərvər şəxsiyyət barəsində ürəyimdə gəzdirdiyim bu istəyimi indi, dahi bəstəkarın anadan olmasının 89-cu ildönümü ərəfəsində deməyi həm də özümə mənəvi borc bilirəm...

Məlum olduğu kimi, 1972-ci ilin dekabrında SSRİ təşkilinin 50 illiyilə əlaqədar ittifaqın bütün respublikalarında bu yubileyə həsr olunmuş təntənəli mərasimlər keçirilirdi. Həmin ilin payızında mən SSRİ DTK-nın Yessentuki şəhərindəki «Yessentuki» sanatoriyasında müalicə olunurdum. Müalicə müddətimin sonuna yaxın şəhərin parkında 1955-ci ildən bu günə kimi ailəvi dostluq münasibətində olduğum, keçmiş həmkarım 1960-cı ildən sonra isə Sov.İKP MK-da işləyən Moskvalı Aleksey və arvadı Sofa Komarovlarla təsadüfən rastlaşdım. Söhbət əsnasında məlum oldu ki, onlar da partiya işçilərinin buradakı «Kalinin» adına sanatoriyasına yenicə gəliblər. Bu səmimi görüşdən sonra qalan günlərimin sonuna kimi boş vaxtlarımızı birgə keçirirdik. Növbəti görüşlərimizin birində Aleksey məni onların sanatoriyasında keçiriləcək «SSRİ — 50»-yə həsr olunmuş təntənəli «Azərbaycan gecəsi»nə dəvət etdi. Söz yox ki, bu dəvəti çox sevinclə qəbul etdim. Təyin olunmuş vaxt yubiley şənliyinə gəldim. Sanatoriyanın 300-dən artıq adam tutan kino-konsert zalı ağzına kimi dolu idi. Buradakı hər şey Azərbaycan kaloritinə uyğun çox yüksək səviyyədə tərtib olunmuşdu. Zalın dəhlizində mərasim iştirakçılarının dadması (dequstasiyası) üçün milli mətbəximizin ləziz xörəklərindən və şərq şirniyyatı nümunələrindən ibarət sərgi də zövqlə təşkil olunmuşdu. Burada yaxın dostluq münasibətində olduğum görkəmli alimlər, uzun illər Bakı Ali Partiya Məktəbinin direktoru işləmiş akademik Tofik Köçərli və 70-ci illərdə Azərb.KR MK-da məsul vəzifədə işləmiş hazırda Respublika İdarəetmə Akademiyasında kafedra müdiri işləyən professor Tofiq Rəsulovla görüşməyim məndə daha xoş ovqat yaratdı. Bu təsadüfi görüşdən sonra bu tədbirlərin respublika rəhbərliyinin göstərişilə adıçəkilən rəhbər partiya işçiləri tərəfindən həyata keçirilməsinə məndə heç bir şübhə yeri qalmadı. Əslində isə belə deyilmiş. Bütünlükdə bu tədbirlərin keçirilməsinin ağırlığını bəstəkar T.Quliyev öz üzərinə götürməsinin təfərrüatı barədə bir qədər sonra.

İndi isə yubiley gecəsinin məzmunu haqda. Aparıcı gecəni giriş sözü ilə açaraq Azərbaycan SSR-nin 1922-1972-ci illərdə xalq təsərrüfatının bütün sahələrində əldə etdiyi nailiyyətlər barədə məruzə üçün akademik T.Köçərliyə söz verildi. Tofiq müəllim son 50 ildə respublikamızın keçdiyi inkişaf yolu, o cümlədən sənaye, xüsusilə neft sənayesi, kənd təsərrüfatı, elm, təhsil, mədəniyyət, incəsənət və sosial məsələlər sahələrində əldə edilən nailiyyətlər barədə yetərincə maraqlı və alqışlarla qarşılanan məruzə söylədi. Sonra Azərbyacanda son illərdə, əsasən Heydər Əliyevin respublika rəhbərliyinə gəlişindən sonra başlanan quruculuq, mənzil, sosial obyektlər, emal müəssisələrinin tikintisinin geniş vüsət alması, respublikanın füsünkar təbiətindən bəhs edən qısametrajlı film nümayiş etdirildi. Kiçik fasilədən sonra çox maraqlı konsert proqramı başlandı.

Yəqin ki, «konsert proqramı» deyəndə, hansısa çalğı alətləri ansamblı və yaxud arkestrın müşayətilə bir neçə müğənninin həyata keçirdiyi konsert proqramı başa düşülür. Əslində, belə deyil. Konsertin cəmi iki nəfər ifaçısı var idi, — bəstəkar T.Quliyev fortepianoda, klassik musiqilərdən solo ilə onun müşayətilə hələ 1949-cu ildə Moskva Dövlət Konservatoriyasını bitirmiş vokalçı (lirik tenor), professor, xalq artisti Rauf Atakişiyevin böyük peşəkarlıqla oxuduğu Azərbaycan, Rus və Qərb ölkələrinin dünya şöhrətli bəstəkarlarının klassik musiqi əsərlərindən ariyalardan, başqa mahnı və romanslardan ibarət idi. Hər iki böyük müsiqişünas sənətçinin ifasında səsləndirilən nadir musiqi nümunələri, dinləyiciləri heyrətləndirdi və onlar tərəfindən dəfələrlə davamlı alqışdandı. Hətta, dostumun xanımı, Moskvada aristokrat ailəsi mühitində böyümüş, klassik musiqi barədə dərin duyumu olan Sofa Alekseyevna R.Atakişiyevin növbəti ifası alqışlanarkən heyrətini bildirərək, çöhrəsində təbəssüm, gözlərində isə sevinc yaşı «..qədim Rus romansıdır, çoxdandır ki, belə yüksək məharətli musiqiçilərin ifasını dinləmirdim» — deyərək Azərbaycan musiqiçilərinə, hətta mənə də təşəkkür bildirməyi unutmadı.

Son dərəcə məzmunlu keçirilən gecədən iki gün sonra mən Bakıya qayıtdığımdan, adı çəkilən həmyerlilərimlə görüşə bilmədim. Tofiq Quliyevlə növbəti görüşümüz həmin il dekabrın 14-də Bakıda, H.Əliyev (o vaxtlar Lenin) adına Respublika Sarayının açılışı günü, «SSRİ-50» yubileyinə həsr olunmuş Ümumrespublika tədbirində oldu. Yessentukidə keçirilən Azərbaycan gecəsinin onun təşəbbüsü və təşkilatçılığı ilə keçirilməsindən xəbərsiz olduğum üçün, sadəcə olaraq oradakı görüşümüzü xatırladıq...

2004-cü il dekabrın 31-də qarşıdakı yeni il münasibətilə növbəti dəfə akademik T.Köçərli ilə bir-birimizi təbrik etdik. Telefon söhbətimizi davam etdirərək mən, onun professor





*Tədbirdə iştirak edən moskvalı Aleksey və Sofa Komarovlar və Bəxtiyar Süleymanlı. Sentyabr 1972-ci il.*

T.Rəsulovla birlikdə Yessentukidə 1972-ci ildə təşkil etdikləri yubiley gecəsini, oradakı maraqlı konsert proqramını xatırlatdım. Eyni zamanda 4 oktyabr 2000-ci ildə dünyasını dəyişmiş bəstəkar T.Quliyevin də ruhuna rəhmət dilədik. Elə bu anda həmsöhbətim söhbətin məcrasını dəyişməyilə yaxşı mənada, məni olduqca təəccübləndirdi. İndi akademik T.Köçərlinin dediklərini öz sözlərilə qeyd etmək istərdim:

— İlk növbədə bildirim ki, «SSRİ-50» yubileylə əlaqədar Azərbaycan gecəsi keçirilməsi barədə heç birimiz Respublika rəhbərliyindən tapşırıq almamışdıq. Bu tədbirin təşkili və keçirilməsi o vaxt Yesentukidə müalicədə olan bəstəkar T.Quliyevin təşəbbüsü və ağır zəhmətilə baş tutmuşdu. Həmin vaxt mən və T.Rəsulov Kislovodskda «Partiyanın 17-ci qurultayı» adına sanatoriyada müalicədəydik. Bizim orada olmağImIzdan xəbər tutan Tofiq müəllim, onunla birlikdə həmin sanatoriyada müalicə olunan, o vaxtlar Azərb.KP.MK-da şöbə müdiri işləyən Fərid Musabekovla birlikdə yanımıza gəldi və

həmin tədbiri keçirəcəyi barədə bizi məlumatlandırdı. Bildirdi ki, «Kalinin» adına sanatoriyanın rəhbərliyi ilə burada yubiley gecəsi keiçirilməsi razılığını alandan sonra hazırlıq işlərinə başlayıb. Bunun üçün SSRİ tərkibində olduğu son 50 ildə Azərbaycanın nailiyyətlərini əks etdirən qısametrajlı filmi Bakıdan gətirdib, konsert vermək üçün klassik musiqinin yaxşı ifaçısı vokalçı xalq artisti Rauf Atakişiyevi dəvət edib; Azərbaycan Milli mətbəxi nümunələrinin sərgisinin təşkili məqsədilə bu sahənin mütəxəssisi Şərifov soyadlı bir nəfəri də Bakıdan dəvət edib. Sonra isə gündəlikdə duran mövzuda məruzə ilə çıxış etməyi məndən xahiş etdi. Mən, onun təklifini məmnunluqla qəbul etdim. Beləliklə, Tofiq Rəsulovla və Kislovodskidə bizimlə eyni vaxtda sanatoriyada olan, o vaxt Qax RPK-nın I katibi işləyən Səfiyyə xanım Dibirova ilə birlikdə Yessentukiyə gəlməyimiz beləcə baş tutdu. Yubiley şənliyinin necə yüksək səviyyədə keçməsini də təkrar etməyə ehtiyac yoxdur. Azərbaycanı belə hərtərəfli təbliği üçün bütün təşəkkürlər mərhum bəstəkarımız Tofiq Quliyevə ünvanlanmalıdır.

Akademik T.Köçərlinin keçirilən tədbirin təfərrüatı barədə dedikləri xalqımızın ləyaqətli, bütün varlığı ilə millətinə sədaqətlə xidmət edən oğlu Tofiq Quliyevi gözümdə, könlümdə daha da böyütdü. Elə həmin an bu barədəki olayları oxuculara çatdırmağı özümə borc bildim. Ən azı ona görə ki, ciddi müalicə təyinatlı sanatoriyaya gələn xəstə üçün heç bir dövlət rəsmisi tapşırığı olmadan, bütün göndəriş (putovka) müddətini Vətəninin və mənsub olduğu millətinin təbliğinə həsr etməyi öz sağlamlığından üstün tutan adamlara o qədər də tez-tez rast gəlinən hadisə deyil. Belə hərəkəti ancaq dahi bəstəkar, böyük vətənpərvər və əsl ziyalı Tofiq Quliyev kimi şəxsiyyətlər edə bilərlər.

Adıçəkilən yubiley gecəsində SSRİ-nin bütün respublika və vilayətlərindən gələn partiya, sovet və başqa sahələrin



nümayəndələri ilə yanaşı, həm də Varşava İttifaqına daxil olan digər sosialist ölkələrinin Kommunist Partiyaları fəallarının iştirakını nəzərə alsaq, Tofiq müəllimin kçirdiyi bu tədbirin, respublikamızı dünyaya tanıtmaq baxımından dəyərini və miqyasını müəyyən etmək o qədər də çətin olmaz.

Xalq artisti, professor T.Quliyevin böyük xidmətləri və ictimai fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilib, neçə-neçə yüksək dövlət mükafatlarına, fəxri adlara layiq görülüb. Bütün bunları sadalamağa ehtiyac görmürəm. Bunlardan ancaq birini, T.Quliyev şəxsiyyətinə verilən qiymətlərin zirvəsi sayılanını xatırlatmaq istəyirəm.

Bildiyimiz kimi, Respublika Prezidenti Cənab Heydər Əliyevin sərəncamı ilə dahi bəstəkarın anadan olmasının 80 illiyi 7 noyabr 1997-ci ildə respublika səviyyəsində böyük təntənə ilə qeyd olundu. Bu yubiley gecəsində dövlətimizin başçısı böyük təbrik nitqini belə tamamladı:

— Biz hamımız bu dünyadan gedəcəyik. Ancaq mahnı, musiqi yaşayacaq. Tofiq Quliyevin mahnıları, musiqisi daim yaşayacaqdır. Eşq olsun musiqiyə! Eşq olsun incəsənətə! Yaşasın Tofiq Quliyev!»

*(H.Əliyev, «Müstəqilliyimiz əbədidir» kitabı, 13-cü cild, səh.214).*

Dövlətimizin başçısı, Ulu öndərimiz H.Əliyev tərəfindən T.Quliyevin xalqımız qarşısındakı misilsiz xidmətinə verdiyi bu yüksək qiyməti, yubiley mərasiminin iştirakçıları kimi dahi bəstəkar özü də aldığı bütün mükafat və fəxri adların zirvəsi kimi qəbul etdi. Nə qədər ki, Azərbaycan var, Tofiq Quliyevin milli musiqimizin bütün janrları üzrə əsərlər də qızıl fondda və xalqımızın qəlbində əbədi yaşayacaq. Allah rəhmət eləsin!

***25.09.2007-ci il***

# XATİRƏYƏ DÖNMÜŞ ALİM ÖMRÜ



*Cəmil Sayılov*

Bəzən adam keçdiyi ömür yolunu xatırlayarkən elə kövrək məqamlar yadına düşür ki, bir də həmin anları yaşamalı olur.

Mən də belə düşüncələrdən xali olmayan yaşlı nəsl mənsublarının biri kimi, tez-tez belə acılı-şirinli, hətta çox üzücü anlara qərq oluram. Son vaxtlar uşaqlıq və gənclik illərimi yada salarkən, heç vaxt unuda bilmədiyim həmkəndlim və yaxın qohumum professor Cəmil Sayılovun əziz xatirəsi tez-tez gözüm önünə gəlir. Onunla münasibətimiz o qədər səmimi olub ki, bəzən aramızdakı dayıoğlu-bibioğlu kimi yaxın qohumluğumuz, dostluğumuzla müqayisədə, ikinci plana keçib.

Cəmil müəllimi hər dəfə xatırlayarkən ilk növbədə dünyaya gəldiyimiz, uşaqlıq və gəncliyimizin ilk çağlarını yaşadığımız Zəngilanın Bartaz kəndində keçirdiyimiz 1930-40-cı illərin günlərini yaşamalı oluram. Bütün doğmalarımız kimi, məni də ən çox üzən on il öncə bu nəcib və mehriban insanın 69 yaşı tamam olmamış aramızdan getməsidir. Nə qədər ki, zamanın bəzi olaylarını öz axarından döndərməkdə bəşəriyyət acizliyini davam etdirir, alın yızısı deyilən aqibət də qaçılmaz olacaq. Cəmil müəllim də taleyin hökmü ilə, 11 dekabr 1998-ci ildə haqqın dərgahına qovuşdu. Yaşasaydı 2009-cu ilin yanvarında 80 yaşını doğma və dostları ətrafına toplaşıb, onu təbrik edəcəkdilər. Ancaq nə etməli ki, həmin yubiley günündə cəmilsizliyimizin 11-ci ilini yaşamaq zorunda qalacağıq...

Cəmil müəllim dünyasını dəyişəndən beş il öncə erməni cinayətkar separatçı qüvvələri, xarici himayədarlarının bilavasitə köməyilə, DQMV-nin ətraf rayonlarından sonuncu işğal olunan Zəngilanı da nəzarətinə keçirdi. Bu beş il ərzində elə görüşümüz olmazdı ki, doğma yurd yerlərimiz işğaldan azad olunan kimi birincilər sırasında rayona, Bartaza gedib, valideynlərimizin uyuduğu torpağı ziyarət etmək arzumuzu dilə gətirməyək. Çox acı təəssüf ki, o, vətənə qovuşmaq boyda nisgilli kədəri də ürəyində axirət dünyasına apardı. Bütün bunlara rəğmən, Cəmillə gənclik günlərimizi keçirdiyimiz el-obamıza sözlə də olsa ekskursiya etmək istəyirəm.



*Cəmil xanımı Həmidə, oğlu Mais və qızı Cəmilə ilə*

Cəmil İsfəndiyar oğlu Sayılov 1929-cu il yanvarın 10-da Zəngilan rayonunun Bartaz kəndində anadan olmuşdur. Natamam orta məktəbi bu kənddə, orta məktəbi isə 1945-ci ildə Zəngilan şəhərində (o vaxtlar Pirçivan kəndi adlanırdı) bitirmişdr. Mən 1944-cü ildə orduya səfərbər olunana kimi onların ailələri də kəndimizdə yaşayırdı. Sonradan isə Cəmi-

lin atası İ.Sayılov uzun illər rayon mərkəzində müxtəlif rəhbər vəzifələrdə işlədiyi üçün ailəsini də ora köçürməli oldu.

Mən 1945-ci ilin oktyabrında hərbi xidmətdən tərxis olunub rayona qayıtdım. Hərbi komissarlıqda (RHK) uçota durmaq üçün müraciət edəndə, mənə elə orada iş təklif olundu. Beləliklə, həmin vaxtdan hərbi komissarlıqda işə qəbul etdilər. Bu vaxt Cəmil Dövlət Bankının Zəngilan şöbəsində mühasib köməkçisi işləyirdi. Mənə bu da məlum oldu ki, Cəmil həmin il orta məktəbi bitirdikdən sonra, hansı səbəbdənsə ali məktəbə girmək barədə fikirləşmədən işə başlayıb. Təhsilini davam etdirməməsinin səbəbi bu olub ki, onunla bir sinifdə orta məktəbi bitirənlərdən bir çoxları da, onun kimi işləməyə üstünlük verdikləri üçün, o da belə etdi. İkinci səbəb həmkəndlimiz, hər ikimizin yaxın uşaqlıq dostumuz, mənimlə Bartazda 5-ci sinfə kimi birgə oxumuş Bəşir Hacıyevin onu bankda işə dəvət etməsi olub. Qeyd edim ki, həmin vaxtlarda Bəşir bankın baş mühasib müavini işləyirdi. Baxmayaraq ki, bizim hər üçümüzün kənddə, məktəblilər kimi (mən Bəşirlə bir sinifdə, Cəmil isə iki sinif aşağıda oxuyurdu) yoldaşlıq etməyimiz oradan başlamışdı, amma əsl səmimi, bəzi əlamətdarlıqları ilə yaddaqalan və uzun illər davam edən dostluğumuz ötən əsrin 40-cı illərindən başlamışdı...

Zaman keçdikcə biz ayrılmaz üçlüyün də həyatında baş verən olaylar da öz axarları ilə davam edirdi. Cəmil 1946-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstituna (ADPİ), Bəşir isə 1948-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) hüquq fakultəsinə daxil oldular.

Yaranmış çətinliklər ucbatından Bəşir hüquq fakultəsinin 2-ci kursundan təhsilini davam etdirə bilmədi. 1950-ci illərin ortalarından başlayaraq Bakının Nərimanov RİK-də şöbə müdiri, az sonra isə Mənzil Təsərrüfatı İdarəsinin rəisi işlədi. Eyni vaxtda Azərbaycan Xalq Təsərrüfatı İnstitunun (indiki İqtisadiyyat Universiteti) qiyabi şöbəsini bitirdi. 1960-cı illərin ortalarından Azərbaycan SSR Yerli Sənaye Nazirliyində aparıcı şöbələrin birinə başçılıq etdi.





*Tələbəlik illərinin dostları Vaqif və Cəmil, Bakı, 1950-ci il*

B.Hacıyev həyatı və əmək fəaliyyətinin qaynar çağında çox ağır xəstəliyə düçar oldu. 1971-ci ilin mayında Leninqradda 2-ci cərrahiyə əməliyyatından sonra dünyasını dəyişdi. Bəşirin 43 yaşı olmamış vəfatı bütün doğmaları kimi, Cəmillə məni də sarsıtdı. Uzun illər hər dəfə bu qeyri adi mərdlik və sədaqət örnəyini xatırlayarkən acı sarsıntı hisslərini keçirmişik və indi də həmin göynərti mənimlədir.

C.Sayılov Bakıda təhsilini davam etdirdiyi bütün illərdə dostluq əlaqələrimiz davam edirdi. RHK-da xidmətimin xarakterinə görə hər ay 2-3 dəfə Bakıda ezamiyyətdə olurdum. Hələ 2-ci kursda oxuduğu vaxt məni tanış etdiyi yaxın dostu Zərdablı Vaqif Salmanovla hər Bakıya gəlişimdə birlikdə olardıq. Cəmillə Vaqifin yetərincə sadəqətli dostlarından biri də sonuncunun həmkursu, əslən Şərurlu Seyfəddin Əliyevdir.



*Üç dostlar: Cəmil (sağdan 1-ci), Vaqif və Bəxtiyar, Bakı, 1954-cü il*

Onunla Cəmil məni 1960-cı illərin əvvəllərində tanış etdi. Budur, yarım əsrə yaxındır ki, Seyfəddin müəllimlə adi tanışlıqdan başlanan münasibət mehriban dostluğa çevrilib və bu günə kimi də davam edir.

Yaxşı deyiblər ki, həyatda baş verən hər bir olaylar vaxtla hesablaşır. Vaxt isə heç bir şeylə hesablaşmadan öz axarı ilə davam edir. 1950-ci ildə Cəmil institutu bitirərək rayonumuza təyinat aldı. Bir ildən sonra ondan eşitdim ki, Vaqif və onun səmimi dostu Seyfəddin (o vaxt onun barəsində Cəmilin dostu kimi qiyabi məlumatım vardı) öz rayonlarına təyinat alıblar.

Cəmil müəllim 1950-ci ildən başlayaraq vaxtilə bitirdiyi orta məktəbdə təbiət fənni üzrə müəllimliyə başladı. 1951-53-cü illərdə Sovet Ordusunda həqiqi hərbi xidmətdə oldu. Bundan sonra o, Zəngilana qayıtmadı. Elə həmin il AMEA-nın Kimya İnstitunda kiçik elmi işçi kimi fəaliyyətə başladı.





*Dostlar və qohumlar: Cəmil, Bəxtiyar, Bəşir və Sabir, Bakı, 1962-ci il*

1957-ci ildə seçdiyi elmin dərinliklərinə bələd olmaq arzusu onu vaxtilə məzunu olduğu APİ-nun aspiranturasına gətirdi. Mən də 1952-ci ildən Dövlət Təhlükəsizliyi orqanlarında xidmətə çağrıldığımdan bir neçə ay Bakıda xidmətdən sonra Füzuli rayonuna, 1953-cü ilin yanvarından isə Naxçıvan MSSR-nin Culfa şəhərində xidmətə başladım. Beləliklə, 6 ilə yaxın müddətdə ciddi rejimli hərbi-əməliyyat xidmət şəraiti Bakı ilə əlaqəmi xeyli azaltdı. Oradakı dostlarımla əlaqəm ancaq bayramlarda təbrik məktubları ilə olurdu.

Budur, gözüm önündə Zəngilanda çıxan «Kənd həyatı» qəzetinin 7 noyabr 1963-cü il tarixli sayı 45-illik zamana dözmüş və saralaraq rəngini dəyişdiyindən çətinliklə oxunan qəzet yenə də məni həmin illərə qaytardı. Qəzetdə «Arzu arzudan doğar» başlıqlı yazı Cəmil müəllimin aspiranturanı uğurla başa vuraraq 1962-ci ilin dekabrında Biologiya elmləri



*Aspirant Cəmil bibisi Məşədi Əzət xanım və onun oğlanları Bəxtiyar və İsmixanla, Zəngilən, 1956-cı il*

namizədlik dissertasiyasını müdafiə etməsinə həsr olunub. Bu maraqlı yazının müəllifi çox sədaqətli dostumuz, o vaxtlar AMEA-nın elmi işçisi işləyən biologiya elmləri namizədi Seyfəddin Əliyevdir. Bu yazını sevinc dolu hisslərlə qələmə alan müəllif C.Sayılovun həmyerlilərinə gənc alimin elmi axtarışlarının maraqlı nəticələrini ərməğan edib.

Yeri gəlmişkən, Seyfəddin müəllim barədə də böyük sevinc və məmnunluq hissi ilə qısa məlumat verməyk istərdim:

Bütün mənalı həyatını elmə həsr etmək marağı Seyfəddini də doğma Şərurda qərar tutmağa qoymadı. Qısa müddət rayonda işləyəndən sonra Bakıya qayıdaraq, Respublika Elmlər Akademiyasında işə düzəldi. Yarım əsrdən artıq müddətdə o, Azərbaycanda mövcud olan bütün elmi rütbələri, o cümlədən Biologiya sahəində elmlər namizədi, elmlər doktoru, professor, AMEA-nın müxbir üzvü (2001) və AMEA-nın həqiqi üzvü (2007) — Akademik zirvəsini fədakarlıqla fəth edib.



Bəli, akademik S.Əliyev bütün bu nailiyyətlərə öz zəhmətsevərliyi, prinsipiallığı və elmi axtarışlara ciddi münasibətilə nail olub.

Professor C.Sayılov barədə xatirələrimi qələmə alarkən, onun apardığı elmi tədqiqat işlərinin nəticələri, elmi-pedaqoji və təsərrüfat səmərəsi baxımından əhəmiyyətini dəyərləndirmək üçün Seyfəddin müəllimə müraciət etmək qərarına gəldim. Mənim təklifimi məmnunluqla qəbul edən bu səmimi dostumuz qısa bir müddətdə qələmə aldığı yetərincə kövrək, həm də kifayət qədər qiymətli «Cəmil mənim sədaqətli dostum və ürək sirdaşım idi» başlıqlı yazısını mənə təqdim etdi. Bu maraqlı yazını olduğu kimi oxuculara təqdim edirəm:

«Mən 1947-ci ildə APİ-nin kimya-biologiya fakultəsinə daxil olanda Cəmil bu fakultənin 2-ci kursunda oxuyurdu. Tələbə elmi cəmiyyətinin yığıncaqlarında, komsomol iclaslarında iştirak edərkən onun mədəni davranışı, təmkinli danışığı, məntiqli çıxışları, özünə xas olan duruşu-yerişi və digər xüsusiyyətləri məndə ona qarşı xoş hisslər oyadırdı və onunla ünsiyyətdə olmağa çalışardım. Artıq 2 il arxada qalmışdı. Bir gün mənimlə bir kursda oxuyan dostum Salmanov Vaqif məni institutun yaxınlığında kirayədə yaşadığı evə dəvət etdi. Biz içəri girdikdə Cəmili orada gördüm. Vaqif məni onunla tanış etdi və dedi ki, Cəmil də mənimlə burada qalır. Əyləşdik, bir qədər söhbət etdikdən sonra Vaqif qarmonu götürüb tərəkəmə oyun havasını şövqlə çalmağa başladı. Sonra Cəmil qarmonu ondan alıb, əvvəlcə segah, bunun ardınca bir neçə xalq mahnılarını çaldı. Çalınan mahnılara çox heyranlıqla qulaq asdım və onların hər ikisini alqışladım.

Cəmillə ilk tanışlığım buradan başlandı. Sonralar bura tez-tez gələrdim, oturub keçmiş xatirələrdən, gələcək arzulardan söhbət açar, özümüzü dünyanın ən xöşbəxti sanardıq. Hər üçümüzün başlıca arzusu aspiraturada oxumaq və alimlik dərəcəsinə yüksəlmək idi.

Günlər beləcə ötüb gedir, biz isə arzuların qanadında uçurduq.

Yeri gəlmişkən deyim ki, Vaqif institutu qurtaran kimi doğulduğu Zərdab rayonunda uzun müddət Maarif şöbəsinin müdiri işlədi. Sonra Bakıya gələrək əvvəlcə Müəllimləri Təkmiləşdirmə institutunda işlədi. Sonra ömrünün axırına qədər kimya və biologiya təmayüllü Litseyin direktoru oldu. Bu dövrdə o, müdafiə edərək kimya elmləri namizədi adına layiq görüldü.

Cəmil 1998-ci ildə, Vaqif isə 2001-ci ilin axırlarında dünyasını dəyişdi. Allah onların hər ikisinə rəhmət eləsin. İndi bu üçlükdən mən qalmışam. Görünür Allahın yazısı beləymiş. Tanrı yazanı pozmaq olmaz, vaxtım çatana qədər mən də bu yolun yolçusuyam. Bu haqqda belə yazmışam:

*Allah nə veribsə o əzəl gündən,*
*Alıbdır birbə-bir, alıbdır məndən.*
*Durmuşam ölümün astanasında,*
*Növbə gözləyirəm keçim körpüdən.*

Vaxtım çatanda mən də bu dünyadan köçəcəm. Baş daşıma iki tarix yazılacaq, oldu-öldü arasında kiçik bir xətt olacaq. Demək, mənim bütün həyatım bu kiçik xətdə yerləşəcək. Bax, budur yaranmışın sonu, dünyanın faniliyi, vəfasızlığı. Nə isə mətləbdən uzaqlaşmayaq.

1950-ci ildə Cəmil institutu bitirdi, onun təyinatını Pircivan orta məktəbinə verdilər. Heç bir il keçməmiş o, orduya çağırıldı. 1953-cü ildə ordudan tərxis olundu. O, inadından dönmədi, ürəyində yaşatdığı arzusuna çatmaq üçün Bakıya gələrək Azərbaycan Milli Elmlər Akademiyasının kimya institutunda kiçik elmi işçi vəzifəsində işə düzəldi. Burada 4 il işlədi. 1957-ci ildə məzunu olduğu doğma instituta qayıtdı, zoologiya kafedrasının aspirantı oldu və ömrünün axırına qədər bu kafedrada müəllim işlədi. Beləliklə Cəmil müəllim öz arzusuna möhkəm inam, dönməz iradə və tükənməz səbrlə nail ola bildi. Kafedranın təklifi əsasında ona «Qızılağac Dövlət qoruğunda balıqyeyən quşların parazit qurdları» adlı dissertasiya mövzusu verildi və onun elmi rəhbəri parazitologiya sahəsində görkəmli mütəxəssis olan əməkdar elm xadimi, biologiya elmləri doktoru, professor Zəhra xanım Şahtaxtinskaya oldu.

Azərbaycanın səfalı bir guşəsində yerləşən Qızılağac qoruğu 1929-cu ildə təşkil olunmuş respublikanın ən böyük qoruğu olub. 88,36 min hektar sahəni əhatə edir. Onun 52 min hektarı su və bataqlıqdan ibarətdir. Hər il bura Qərbi Sibirdən, Qazaxstandan, Cənubi Uraldan, Alpdan, Anadoludan, Nildən və dünyanın digər yerlərindən qışlamaq üçün yüz minlərlə köçəri həyat keçirən adi qaz, ördək, qızıl qaz, Vağ, Bəzdək, Qu quşu, Qaşqaldaq, Qutan və s. müxtəlif növ quş gəlir.

Cəmil müəllim yaxşı bilirdi ki, balıqyeyən quşların parazit qurdlarını öyrənmək nə qədər çətindirsə, onun icrası zamanı yeni nəticələr əldə etmək bir o qədər də məsuliyyətlidir.

C.Sayılov böyük elm və təsərrüfat əhəmiyyətinə malik olan bu mövzunu gərgin əmək və yuxusuz gecələr hesabına yerinə yetirmişdir. O, 1962-ci ilin ortalarında BDU-nun biologiya fakultəsinin müdafiə şurasında professor Z.M.Şahtaxtinskayanın rəhbərliyi, professor P.P.Popov və biologiya elmləri namizədi T.K.Mikayılovun rəsmi opponentliyi ilə müdafiə edərək biologiya elmləri namizədi adına layiq görülmüşdür.

C.Sayılovun yazdığı dissertasiya başda SSRİ EA-nın akademiki, dünya şöhrətli alim, SSRİ-də helmintologiya elminin banisi, Sosialist Əməyi Qəhrəmanı A.İ.Skryabin olmaqla əsərinə Rusiyanın və Azərbaycanın görkəmli alimlərindən A.M.Petrov, A.İ.Paxulski, V.E.Sudarikov, S.M.Əsədov, İ.Ə.Sadıxov, S.M.Vahidova və başqaları yüksək qiymət vermiş və bu əsərin böyük elmi və təsərrüfat əhəmiyyətinə malik

olduğunu göstərmişlər.

C.Sayılov 1957-1962 illər ərzində apardığı tədqiqat nəticəsində balıqyeyən quşlarda 149 helmint (parazit qurd) aşkar etmişdir ki, bunlardan indiyə qədər elmə məlum olmayan 11 növü C.Sayılov tərəfindən təsvir edilmişdir. 6 növü keçmiş ittifaqın, 59 növü isə Azərbaycanın faunası üçün təzə olmuşdur. Daha sonra C.Sayılov 47 növ parazit qurdun balıqlar və quşlar arasında ciddi xəstəliklər törətməsini aşkar etmişdir.

C.Sayılov dissertasiyanın icrası zamanı 377 balıqyeyən quş yarmış, onların parazitlərlə yoluxma dərəcəsini, xəstəlik törətmə qabliyyətini, parazit qurdların növlər üzrə miqdarını, sahibin yaşından, ilin mövsümündən və qidadan asılı olaraq dəyişilməsini ətraflı surətdə öyrənmiş və parazitlərin törətdikləri xəstəliklərə qarşı bir sıra profilaktik mübarizə tədbirləri hazırlamışdır.

Artıq 10 ildir ki, Cəmil müəllim bu dünyada yaşamır. Lakin onun əməlləri — yazdığı 67 elmi əsəri, 75 çap vərəqi həcmində 7 dərs vəsaiti və dərslikləri, 2 metodik göstərişi indi də yaşayır. Vay o kəslərin halına ki, onlar səssizcə doğulur, səssizcə də dünyadan köçür, onlardan bu dünyada nə əməl qalır, nə də bir iz.

Onun Ali məktəblər üçün yazdığı dərs vəsaitləri içərisində «Onurğasızlar zoologiyasından laboratoriya məşğələləri» (17 çap vərəqi), «Parazitologiyadan ixtisas kursu» (1-ci və 2-ci hissə. 14 ç.v.), «Onurğasızlar zoologiyası» (1-ci və 2-ci hissə 12 ç.v.) xüsusi əhəmiyyət kəsb edir və tələbələrin gündəlik masaüstü kitablarıdır.

Azərbaycan Ali Attestasiya Komisiyası C.Sayılovun bu xidmətini və onun uzun illərdən bəri qüsursuz müəllimlik fəaliyyətini nəzərə alaraq ona 1964-cü ildə dassent, 1992-ci ildə isə professor diplomu vermişdir.

Professor C.Sayılov parazitologiya sahəsində tanınmış alimdir, onun bu sahədə yazdığı müxtəlif səpgili əsərlər mütəxəsis alimlər tərəfindən yüksək qiymətləndirilmiş və onlar öz işlərində C.Sayılovun əsərlərinə dönə-dönə istinad etmiş və etməkdədirlər.



C.Sayılov gənc kadrların hazırlanmasında da az iş görməmişdir. Belə ki o, respublika üçün saysız-hesabsız biologiya müəllimi hazırlamış, parazitologiya sahəsində çalışan elmi işçi və aspirantlara vaxtaşırı elmi məsləhətlər vermiş və onların müdafiələrində opponent olmuşdur.

Professor C.Sayılov respublikada, keçmiş SSRİ-nin müxtəlif şəhərlərində keçirilən parazitoloji qurultay, konfrans və simpoziumlarda dəyərli məruzələrlə çıxış etmiş, həmçinin institutun içtimai işlərində yüksək fəallıq göstərmişdir. C.Sayılov uzun müddət fakultənin dekan müavini, partiya təşkilatının katibi və digər vəzifələrdə çalışmışdır. O, elmi-pedaqoji və içtimai fəaliyyətinə görə bir neçə dəfə tərifnamə ilə təltif edilmiş, keçmiş SSRİ-nin «Ali məktəb əlaçısı» fəxri adını almış və «Əmək veteranı» medalına layiq görülmüşdür.

Cəmil müəllim bu səviyyəyə çatmaq üçün çox əzab-əziyyətə qatlaşmış, psixoloji sıxıntılar keçirmiş, iqtisadi çətinliklərlə, mənzilsizlik dərdi ilə üzləşməli olmuşdur.

Yaxşı yadımdadır, Cəmil maliyyə çətinliyi üzündən pəncərəsi yerdən 8-10 sm hündürlükdə olan qapısız, qaranlıq bir zirzəmini kirayə eləmişdi. Ora girib-çıxmaq üçün pəncərədən istifadə olunurdu. Bir ailə üçün çox kiçik olan bu zirzəmidə üstəlik vaxtaşırı Bakıya gələn qohumlar da qalırdı.

Mənzil almaq üçün Cəmilin müraciət etmədiyi yer qalmamışdı. 10 il bu cansıxıcı zirzəmidə yaşadıqdan sonra ona Lenin prospektində başqa bir ailə ilə birlikdə 4 otaqlı mənzil verdilər. Onun 2 balaca otağında Cəmilin ailəsi qalırdı. Burada da onun bəxti gətirmədi. Qalmaqal, dava-dalaşla üzləşdi. Necə deyərlər, yağışdan çıxıb yağmura düşdü. Axırda iş məhkəməyə gedib çıxdı. Cəmil bir neçə il də belə ömür sürdü. Nəhayət, məhkəmənin qərarı ilə ona həmin küçədə 2 otaqdan

ibarət mənzil verildi. Ancaq nə fayda o, bu «xoşbəxtliyə» yaşının ahıl, saçının ağarmış vaxtında gəlib çatdı. Bizim dar günlərimiz çox olub. Belə günlərdə bir-birimizin yanında tez-tez olardıq. Dərdimizi birlikdə bölüşər, vəziyyətdən çıxış yolları axtarar, birlikdə məsləhətləşmələr aparardıq.

İllər biri-birini əvəzlədikcə bizim dostluğumuz daha da möhkəmlənir, ailəviləşirdi. Biz yenə də tez-tez görüşərdik. Xeyirdə-şərdə bir yerdə olardıq. Bəzən Cəmilin Novxanıdakı bağına gedər, tələbə dövrünün xatirələrindən, çəkdiyimiz əzab-əziyyətlərdən, gələcək arzulardan söhbət açardıq.

Xeyli vaxt olardı ki, Cəmillə zəngləşmirdik.1998-ci il dekabrın əvvəlində Cəmilə zəng vurdum, keyfini soruşdum, dedi yaxşı deyiləm, evdə yıxılmışam, qolum sınıb, yatıram. Hazırlaşırdım yanına gedim, iş elə gətirdi ki, gedə bilmədim. Heç 10-15 gün keçməmişdi dekabrın 11-də qızı Cəmilə mənə zəng vurdu, ağlaya-ağlaya atasının rəhmətə getməsini bildirdi. Bu qəfil xəbərdən bərk sarsıldım. Tez taksiyə oturub getdim. Həyətə girəndə mağarı görcək özümü saxlaya bilmədim, məni hönkürtü tutdu. Bir kənara çəkilib ürəyim boşalana qədər ağladım.

Həyatımda iki dəfə hönkür-hönkür ağlamışam. Bir atam rəhmətə gedəndə, bir də Cəmil dünyasını dəyişəndə. Ona görə ki, onun görüşünə gecikdim, onunla vidalaşa bilmədim. Ona görə hönkür ağladım ki, son ayrılıq məqamında onun gələcək arzularını, dost tapşırıqlarını eşidə bilmədim. Ona görə hönkür ağladım ki, ürək sirdaşımı, sədaqətli dostumu itirdim. Elə bu vaxt əlimi göyə qaldırıb dedim: "Ey ulu tanrı! Nə üçün, niyə insanlıqda yeri olmayan alçaq, murdar adamlara uzun ömür, yaşaması vacib olan yaxşı insanlara az ömür verirsən? Onları bu fani dünyadan vaxtsız aparırsan. Cəmili də bu dünyadan tez apardın. Onun ölməli vaxtı deyildi. O, yaşamaq istəyirdi. Yazıb-yaratmaq istəyirdi"...

Klassik ədəbiyyatımıza ötəri bir nəzər salsaq orada



ölümün dəhşəti, yaşamaq eşqi, dünyanın puçluğu, vəfasızlığı haqqında nələr deyilməyibdir. Fikrimizə qüvvət olsun deyə onlardan bəzilərini xatırlamaq istəyirəm.

*«Ah, mən gündən-günə bu gözəlləşən,*
*işıqlı dünyadan necə əl çəkim?».*

**M.Müşfiq**

*«Sirrini verməyir sirdaşa dünya,*
*Nə ömrə acıyır nə yaşa dünya».*

**S.Vurğun**

*«Fani dünya səndən sorum əvvəli,*
*Adəmlə Həvvanı neylədin, dünya?!*
*Tanrı mənəm deyən Firon, Şəddadı,*
*İskəndər-Zülqərneyi neylədin dünya?!».*

**Molla Cümə**

Qəribədir axirət dünyası, ruhlar aləmi dindarlar tərəfindən nə qədər təriflənsə də heç kəs bu dünyanı tərk etmək istəmir. İnsan du dünyanın sərt qışına da, acısı, ağrısına da, əzabına da, zillətinə də dözür yenə də yaşamaq istəyir. Zərif otlar, güllər, çiçəklər də daşları, qayaları, yolların asfalt örtüyünü deşib çıxır ki, yaşasın.

Ah-zar içində yaşayan, dünyanın əlindən zara gələn «ölmürəm ki, bir dəfə canım qurtara» deyən əldən düşmüş qoca bir qarı da ölmək istəmir. O, bunu dilində söyləsə də ürəyində dərhal "lənət şeytana"— deyir.

Deyirlər 200 il ömür sürən Loğman çəməndə dincələrkən əzrayıl qəfil peyda olub, ona deyir: gəlmişəm canını almağa. Loğman deyir: sözüm yoxdur, ancaq mənə macal ver, gəl canımı burda yox, o çəmənlikdə al. Əzrayıl razılaşır. Loğman qalxır yerindən, asta-asta, dayana-dayana yeriyib dediyi çə-

mənliyə çatır. Əzrayıl soruşur: niyə istəmədin canını o çəmənlikdə yox burda alım. Axı ölüm üçün nə fərqi bu çəmən, ya o çəmən? Loğman dedi: «ordan bura gəlincə bir az ömür qazandım, onu da bu dünyadan özümə fayda sandım». 200 il yaşayan Loğmanın da həyatdan gözü doymur, o, yenə də yaşamaq istəyir.



*Cəmilin sədaqətli dostu akademik Seyfəddin Əliyev*

Sonda xüsusi qeyd etmək istəyirəm ki, Cəmil müəllim çox qayğıkeş, fədakar ailə başçısı və çox nəcib insan idi. 50 il onunla dostluq elədik, bir dəfə də olsun aramızda inciklik, giley-güzar olmadı.

Cəmil müəllim dünyadan vaxtsız getsə də tədqiqatlarının nəticələrini kitablara, məqalələrə toplamaqla kifayətlənmədi. O, eyni zamanda xalqımıza iki alim övlad da bəxş elədi. Oğlu biologiya elmləri namizədi, Sayılov Mayıs Bakı şəhəri 1 saylı Klinik xəstəxananın labaratoriya müdiri, qızı, tibb elmləri namizədi Cəmilə isə Tibb Universitetində əczaçılıq fakultəsinin dosentidir.

Zoologiya və parazitologiya elminin inkişafında xüsusi xidmətləri olan Cəmil müəllimi hamı xeyirxah, sadə, prinsipial insan, bütün varlığını elmə həsr etmiş zəhmətkeş və görkəmli alim kimi tanıyır. Cəmil müəllim artıq, dünyasını dəyişmişdir. O, indii aramızda yoxdur. Lakin onun əziz xatirəsi çoxsaylı tələbələrin, müəllim heyətinin, dostlarının, həmyerlilərinin, qohumlarının və onu tanıyan insanların qəlbində yaşayır və əbədi yaşayacaqdır.



***AMEA Zoologiya institutu Entomologiya şöbəsinin rəhbəri, akademik S.V.Əliyev»***

* * *

Akademik S.Əliyev xarakterinə görə çox mehriban, səmimi dost, xoş əhval-ruhiyyəli insan olduğu qədər də, təvazökar, maraqlı həmsöhbətdir. Həmişə çalışar ki, həmsöhbətlərində də nikbin və xoş ovqat yaratsın. Amma hər ikimiz üçün əziz olan Cəmil və Vaqif haqqında xatirələrini oxuyarkən çox mütəəssir oldum. Seyfəddin müəllimin vaxtından tez dünyasını dəyişmiş dostlarına həsr etdiyi nisgilli yazını, bir qədər də özü barədə bədbin notlarda olan sətrləri qələmə alarkən hansı həyacanları keçirməsini dərk etmək hər bir oxucu üçün çətin deyil. Gözlədiyimdən də daha geniş, kifayət qədər məzmunlu xatirələrə görə qədirbilən Seyfəddin müəllimə dərin minnətdarlıq və təşəkkürümü bildirirəm.

* * *

Professor C.Sayılov barədə xatirələrimi yazarkən onun ötən əsrin ortalarından başlayaraq ömrünün sonuna kimi mənən bağlı olduğu, çox dəyərli dostları Seyfədin və Vaqifə geniş yer verdiyimi yəqin ki, hörmətli oxucular əsas mövzudan kənara çıxmaq kimi səciyyələndirməzlər. Cəmil müəllimin çox sayda başqa dostlarını da tanıyıram. Amma onunla uşaqlıq və gənclik illərimizi Bəşirsiz təsəvvür edə bilmədiyimiz kimi, bu mehriban insanın yarım əsrə qədər Bakıda elmi-pedaqoji fəaliyyətdə olduğu illəri də Seyfəddinsiz, Vaqifsiz təsəvvür etmək, sadəcə olaraq mümkün deyil...

Cəmil müəllim daxilən çox sərbəst, belə demək mümkünsə, həm də azad adam idi. Adətən, mənən azad olmayanları tamahın güc gəlməsi, hansısa imkanlı həmkarlarına paxıllıq və

digər xoşagəlməz keyfiyyətlər əksər hallarda pis əməllərə sürükləyir. Xoşbəxtlikdən o, insanı alçaldan belə keyfiyyətdən çox uzaq idi. Bütün bunlarla yanaşı bəzən gözü önündə baş verən ədalətsizliklərlə barışa bilmirdi. Belə halları da yerli-yersiz hallandırmazdı, tək-tək hallarda düşüncələrini çox inandığı dostları ilə bölüşərdi.

1978-ci ilin payızında məzuniyyətimin bin neçə gününü Bakıda keçirdim. Bu günlərin əksər hissəsini Cəmillə birlikdə oldum. Bütün 70-ci illəri Mingəçevirdə xidmətdə olsam da, müstəsna hal kimi, ötən 1977-ci ildə DTK-nın rəhbərliyi tərəfindən mənə Bakıda 5 otaqlı mənzil verilmişdi. Bu xoş xəbər münasibətilə o çox sevindi və məni təbrik etdi. Eyni zamanda qeyd etdi ki, «işində möhkəm ol, az-çox qayda-qanun varsa, o da sizin orqandadır». Bəli, Cəmil müəllimin dediyində həqiqət vardı. Söhbətlərimizin birində mənə təklif etdi ki, uşaqlarımın birini də onun işlədiyi institutda oxumağa göndərim. Sözünü davam edərək əlavə etdi ki, qəbul imtahanında da məhdud imkanı daxilində kömək edə bilər. Mən də çox fikirləşmədən yarıciddi, yarızarafat: — Qəbulda kömək üçün neçə adama müraciət etməlisən? — dedim. O da bildirdi ki, ən azı üç mərhələyə — fənn müəllimi, dekan və rektoratda kiməsə. Dərin təşəkkürümü bildirdim və bir qədər də şişirdilmiş məzmunda dedim ki, BDU-də özüm də 1950-ci illərdə oxuduğum üçün, orada əlaqələrim, həm də kiməsə kömək üçün müraciət etmək lazım gəlsə, ona da imkanlarım da bir qədər genişdi. Belə deməkdə məqsədim bu həssas qəlbli insanı nigaran qoymamaq idi. O, mənimlə razılaşdı. Sonra bir qədər də təhsil müəssisələrində mövcud neqativ olaylardan danışdı. Qeyd etdi ki, o heç də APİ-də gördüyünü müstəsna hal kimi qiymətləndirmir. Respublikanın bütün ali və orta ixtisas təhsil müəssisələrində tələbə-müəllim münasibətlərində xoşagəlməz halların olmasının heç kəsə sirr olmadığını vurğuladı. Mən də onunla razılaşdım. Bundan sonra hər ikimizi təəccübləndirən bir olayı danışdı. Cəmilin dediklərini öz ifadəsilə qeyd etmək istərdim:

— Hansısa üzürlü səbəbdən çətinliyi olan tələbəyə köməklik məqsədilə barəsində edilən xahişlərə normal hal kimi baxırıq. Ancaq tək-tək hallarda humanist hisslərdən çox-çox uzaq, acınacaqlı sifarişlərlə rastlaşmalı olursan. Təxminən, bir-iki il öncə növbəti imtahan sessiyası vaxtı belə bir olayla rastlaşdım. İmtahan başlayandan bir neçə dəqiqə sonra tanıdığım, texniki sahə əməkdaşı auditoriyaya daxil oldu. Astaca siyahıda yaxşı oxuyan, çox tərbiyəli bir qızın adını göstərərək, ona qeyri-kafi qiymət verilməsi tapşırığını mənə çatdırdı. Düzünü deyim ki, ilk dəfə eşitdiyim belə məzmunlu tapşırıqdan çox təəccübləndim. Təxminən bir saatdan sonra həmin tələbə dəvət olunmadan, icazə alıb auditoriyaya daxil oldu. Əsl azərbaycanlı qızlarına xas olan utancaq vəziyyətdə körpə uşağının xəstə olmasını bildirərək növbədən kənar imtahan verməsini xahiş etdi. Bu tələbə barədə «sifariş» aldığım anda vəziyyətdən çıxış barədə qərar qəbul etmişdim. Mənim üçün çox çətin də olsa, ondan xahiş etdim ki, getsin evə, uşağın xəstəliyi barədə həkim arayışı alsın, sonra dekanlığın göndərişi ilə gələr imtahana. Təbii ki, mənim astadan dediyim cavab tələbəni təəccübləndirdi. Onun «nə üçün?» sualına, «belə lazımdır» — dedim. O, məndən narazı qalsa da, özünə xas ədəblə «sağ olun» deyib evə yollandı. Mən də siyahıya «gəlmədi» qeydi apardım. Sonra həmin tələbənin çox imkanlı ailədən olması məlum oldu. Sonra onun kimə imtahan verməsini biləndə də məndə heç bir təəccüb doğurmadı. Həmin tələbəni təxminən bir ildən sonra dövlət imtahanı vaxtı gördüm.

Güman edirəm ki, yaranmış vəziyyət barədə Gəmil müəllimin fikri ilə razılaşmamaq mümkün olmadığı kimi, onun tələbə barədə qəbul etdiyi qərarı da acizlik kimi qəbul etmək düz olmazdı...

Cəmil müəllim həyatda baş verən neqativ halları tək-tək

fərdlərin gələcəyi olmayan əməlləri kimi qəbul edərdi. Çoxluqda olan xeyirxah insanların sayəsində ədalətin zəfər çalacağına inanaraq, nikbin duyğularla yaşayardı. Yaxşı deyiblər ki, «sən saydığını say, gör fələk nə sayır». Cəmil müəllimin də özünün, əsasən də övladlarının, nəvələrinin gələcəyi ilə bağlı, xilaskarlarını gözləyən yurd yerlərimizin düşməndən azad olacağını gözlədiyi bir vaxtda, amansız ölüm onun arzularını ürəyində qoydu.

Bu gün Cəmil müllim aramızda olmasa da, bütün mənalı həyatını həsr etdiyi elmi-pedaqoji fəaliyyətini oğlu, biologiya elmlər namizədi Mais, qızı, tibb elmləri namizədi Cəmilə xanım uğurla davam etdirirlər.

Xeyirxah əməllərlə yaşamış professor Cəmil Sayılovun əziz xatirəsi onun yetirmələrinin və bütün tanıyanların qəlbində əbədi yaşayacaq və həmişə anılacaq.

*11.12.2008-ci il.*



# Xeyirxahlıq və mərdlik mücəssəməsi

## ÜRƏKLƏRƏ NUR SAÇAN MÖMİN KİŞİ




Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri Zəngilan bölgəsində Hacı Mirməhəmməd oğlu Seyid Həsən Ağa adlı bir mömin kişi vardı. Onun hörməti tək Zəngilanda deyil, bütün Zəngəzur, Qarabağ və Qərbi Azərbaycanda da böyük hörmətlə çəkilərdi və bu gün də dillər əzbəridir. Yəqin «Qərbi Azərbaycan» deyəndə oxucular Ermənistan ərazisi kimi başa düşəcəklər. Belədirsə, onlar çox düzgün qəbul edirlər. Əvvəla ona görə ki, indi Ermənistan adlanan respublikanın ərazisindəki bölgələrin (rayonların) böyük əksəriyyəti əzəli Azərbaycan torpaqları, oralarda yaşayan əhalinin də yarısından çoxu azəri türkləri olub. Bunları bir daha xatırlatmaq məqsədilə deyim ki, parçalanmış Zəngəzurumuzun XX əsrin əvvəllərindən Ermənistana qatılmış Qafan, Mehri, Sisyan, Gorus, bir qədər əvvəl isə Göyçəbasar, Vedibasar, Zəngibasar, nəhayət, İrəvan xanlığını yada salmaq kifayətdir.

Seyid Həsən Ağa barədə qısa da olsa xatirələrimi qələmə alarkən vaxtilə Ermənistana qatılmış yurd yerlərimizi qeyd etməyim heç də əsas mövzudan kənara çıxmaq deyil. Haşiyə kimi bunları deməkdə məqsədim bu müdrik el ağsaqqalının hörmət və nüfuz dairəsinin genişliyini bildirməkdir. Belə ki, 1950-60-cı illərdə xidməti işlərimlə əlaqədar sadaladığım bölgələrdə olduğum vaxtlarda oralarda yaşayan soydaşlarımız arasında Ağamızın nə qədər böyük hörməti olmasının şahidi olmuşam.



Mənim S.H.Ağa ilə ilk tanışlığım 1939-cu ildən başlasa da (bu barədə bir qədər sonra), onun valideynləri, eləcə də ümumilikdə nəslin şəcərəsi barədə məlumatım çox bəsit olub. Ancaq son vaxtlara kimi onu bilirdim ki, rayonumuzun Məlikli kəndində Hacı Mir Məhəmməd Ağa adlı böyük hörmət sahibi bir kişi olub. Onun bu rayonda dörd oğlanları — Seyid Həsən, Seyid Zeynalabidin, Seyid Hüseyn və Mir Bağır Ağa adlı oğlanları dünyaya gəlib. Bu qardaşların hamısı ilə yaxından tanış olmaq mənə də nəsib olub. Onların hamısı müxtəlif vaxtlarda haqqın dərgahına qovuşublar. Ulu Tanrıdan onların hamısına rəhmət diləyirəm.

Bu qardaşlardan ən uzunömürlüsü S.H.Ağa olub. O, 1984-cü ildə 96 yaşında Zəngilanda dünyasını dəyişib. Yeri behişt olsun. Artıq 24 ildir ki, Ağamız aramızda yoxdur. Amma o, sağlığında qazandığı böyük hörmətə görə tanıaynların qəlbində əbədiyaşarlığa qovuşub. Son illərdə Bakının fotostudiyalarından bir neçəsində bu mömin kişinin fotoşəklinin görünən yerdən asıldığını görmüşəm. Fotoqrafdan onun kim olduğunu soruşanda o, şəxsən tanımadığını, lakin çox \məşhur seyid olduğu barədə eşi\tdiyini deyir.

Həmyerlimiz, jurnalist, tanınmış şair və vətənpərvər ziyalı Teyfur Çə\ləbi S.H.Ağa barədə çox diqqətəlayiq xeyirxah iş görmüşdür.

Yaxşı yadımdadır, 1997-ci ilin yazında «İcmal» qəzetinin əməkdaşı kimi özünü təqdim edən Qurbanoğlu İlyas adlı bir nəfər mənə telefon açdı, O, qəzetin baş redaktoru T.Çələbinin adından müraciət edərək, Seyid Həsən Ağa barədə xatirələrimi yazmağı xahiş etdi. Bildirdi ki, Teyfur müəllim Ağa haqqında, xatirələr toplusu kimi kita\b nəşr etmək istəyir. Bu məqsədlə bölgələrin yaşlı adamlarından xatirələrini yazmağı

xahiş edir. Söz yox ki, məni sevindirdi. Bir neçə gündən sonra böyük məmnunluq hissləri ilə yazımı İlyas müəllimə təqdim etdim. «Özü boyda nur» başlıqlı yazım elə həmin il «İcmal»da nəşr edildi. Sonra isə 1998-ci ildə işıq üzü görən, baş redaktoru və tərtibçisi T.Çələbi olan «Seyid Həsən Ağa» adlı kitaba da həmin başlıqla daxil edildi.

Kitab S.H.Ağaya layiq olan qiymətli nəşrdir. Orada toplanmış xatirə müəlliflərinin yazıları çox maraqla oxunur. Ancaq bütün oxucular kimi, mənim də diqqətimi cəlb edən başqa məqamı qeyd etmək istəyirəm. Bu, Teyfur müəllimin kitabın 4-5-ci səhifələrində S.H.Ağanın təmsil etdiyi çox mötəbər nəslin şəcərəsi barədə topladığı yetərincə maraqlı məlumatlardır. Həmin bioqrafik arayışa heç bir dəyişiklik etmədən onu oxuculara təqdim etmək istəyirəm!

«...Xeyirxahlıq mücəssiməsi, xeyirxahlıq təcəssümüdür. Seyid ağır xarakterli, zabitəli baxışlı, nüfuz sahibi, əzəmətli insan olan Seyid Həsənin kövrək bir ürəyi vardı. Adı çəkilən yerdə ürəklər yumşalar, hirs-hikkələr soyuyar, küsülülər barışar, düşmənçilik aradan götürülər, adamlar ilahi varlığın xoşbəxt anlarını duyardılar. Yaşamaq nə qədər çətin, əzablı olsaydı da, ilahi işıqdan bir ümid payı, quş dimdiyində bir buğda dəni səpərdi ürəklərə!!

SEYİD HƏSƏN AĞANIN ATASI HACI MİR MƏHƏMMƏD AĞA: Uca kəramət, şəfqət və mərhəmət sahibi, haqq yolunun yolçusu, Seyid Həsən Ağanın atası Hacı Mir Məhəmməd Ağa XIX əsrin ortalarında Həzrət Əlinin uyuduğu torpaqda — Nəcəfül — Əşrəfdə anadan olub və orada mükəmməl ali ruhani təhsili alıb Ordubad şəhərinə göndərilir. Hacı bir müddət Ordubad mədrəsəsinə rəhbərlik edir, eyni zamanda dünyəvi elmlərdən dərs deyir. Lakin bəzi savadsız ruhanilərin gözü Hacı Mir Məhəmməd Ağanı götürmədiyindən Nəcəfül — Əşrəfə, ruhanilərin mərkəzinə Mir Kazım Ağaya şikayət edirlər. Bundan sonra Hacı gedib Ordubadın



Kilid kəndindəki məsciddə axundluq etməli olur. Az sonra yenidən əvvəlki iş yerinə qayıdır. Elə bu vaxt dövrünün tanınmış ziyalısı Abusəməd bəy Zəngilani məktub yazıb onu Zəngilana dəvət edir. Hacı təklifi qəbul edib Zəngilana gəlir və məsciddə axundluq edir. Qısa bir vaxtda Zəngilan camaatının məsləhət yeri olur, dərin zəkası və hafizliyi ilə hamının hörmət və məhəbbətini qazanır. Hacı vaxt tapan kimi ətraf kəndlərə gedər, məscidlərdə Qurani-Kərimi — Allah kəlamlarını izah edər, şəriətdən, islam tarixindən həvəslə söz açarmış.

Süceyli kəndi Zəngilanın yaxınlığında, Arazın o tayında, Cənubi Azərbaycanda yerləşir. Hacı həmin kənddən olan Lalə adında qızla ailə həyatı qurur və ömrü boyu Zəngilanın Məlikli kəndində yaşayır.

Mir Məhəmməd Ağa 1918-ci ildə vəfat edir və İçəri Müşlan kəndində dəfn olunur.

SEYİD HƏSƏN AĞANIN ÖMÜRLÜYÜ: Seyid Həsən Ağa 1888-ci ildə Zəngilanın Məlikli kəndində anadan olub, uşaqlıq və gənclik illərinin bir hissəsi bu kənddə keçir, sonra Muğanlı kəndinə köçüb və orada Kəblə Məhəmmədin qızı, 7 qardaşın bir bacısı Suğra xanımla ailə həyatı qurur. 1943-cü ildən isə Genlik kəndində yaşayıb. Seyid 1984-cü ildə, 96 yaşında vəfat edir. Onu özünə ikinci ata ocağı bildiyi, canından çox sevdiyi Muğanlıda torpağa tapşırıblar. İndi cəmi Zəngilan kimi Muğanlı kəndi, Seyidin mübarək məzarı da yad tapdağı altındadır. Ağanın cəddinin köməyilə biz o torpağı azad etməliyik.

3 oğlu, 2 qızı olub Seyidin (Kazım Ağa, Hacı Ağa, Seyid Əli, qızları Səriyyəxanım, Xədicə xanım).

Deyirlər, ömrünün son gününəcən gümrahlığını və səhhətini qoruya bilib Seyid. Yəqin ki, loğman ağlı və xeyirxahlığı sayəsində. Axı, çox vaxt onun üzündə xoş bir təbəssüm olarmış. Danışanda yumorla danışar, müsahibini özünə valeh edərmiş. Söhbətin nədən getməsinə baxmayaraq, hamı onun-

la razılaşar, mübarək əllərindən öpərmişlər. Seyid ən çətin anlarda belə zarafatından qalmaz, səmimi və təbii adamlardan xoşu gələrmiş. Bir də onda tərəf müqabilini bütün varlığıyla inandırmaq qabiliyyəti varmış. Mövzu ilə bağlı güləndə, kədərlənəndə məclisdəkiləri də sevindirib, kədərləndirərmiş. Saf və ləkəsiz bir insan olan Seyidin özünün həqiqət dünyası varmış— paklıqdan, xeyirxahlıqdan, Allaha məhəbbətdən yoğrulmuş ulu bir dünyası. Onun olduğu məclis ən urvatlı məclis sayılarmış. Seyid düz 96 il ömür sürüb və haqq dünyasına qovuşandan sonra onun mənəvi ömrü başlayır — qərinələrə sığmayan ömrü. Bu gərəkli ömür payının şüurlu dövründə əqidəsi böyük Yaradana, ali-əbayə və Qurani-Kərimə məhəbbət üstündə köklənmiş Seyid həmişə xalq arasında müdriklik və xeyirxahlıq mücəssiməsi, müdrik el ağsaqqalı kimi tanınmış, hamının məsləhət yeri, güvənc yeri olmuşdur...»

Bu yazıda Teyfur müəllim Allahın mömün bəndələri Hacı Mir Məhəmməd Ağa ocağının bir qədər uzaq keçmişi, törəmələrinin bizim günlərimizə kimi davamına yaxşı işıq salır. Həm də S.H.Ağanın özünün cəmiyyətdəki mövqeyini çox dəqiq qələmə alıb. Oxuyanda belə bir fikirə dalırsan ki, sanki onun barəsində deməyə söz qalmayıb. Əslində belə deyil. Ağanın camaat arasında çox geniş əlaqəsi, davamlı ünsiyyəti olduğu qədər də geniş qəlbi, xoş davranışı, qəlblərə yol tapması vardı ki, hamı onun barəsində xoş sözlər deməyi özünə şərəf bilir. Bunun üçün haqqında danışılan kitabda verilmiş onlarla müxtəlif yaş mənsubları və peşə sahiblərinin müsahibələrini oxumaq bəs edər.

S.H.Ağa xaraktercə, bütün adamlara münasibətdə dəyişməz idi. Onun heç vaxt dəyişməyən xarici görkəmi, xüsusilə hərbi sərkərdəni xatırladan geyimi vardı. Mən onunla ilk tanış olduğum 1939-cu ildən ömrünün sonuna kimi eyni biçimli geyimdə xatırlayıram. Dəyişməsi ancaq yenisi ilə əvəz olunması idi. Bir qədər tünd qızılı rəngli qaragüldən papaq, yüksək rütbəli zabitlərin geydiyi xaki (yaşılımtıl) rəngli keyfiyyətli parçadan köynək, şalvar, xrom çəkmə və aşırmalı zabit kəməri. Bir sözlə, bu kitabdakı şəkildə olduğu kimi. Adətən, seyidlər və digər din xadimlərini onlara məxsus geyimdə görmüşük. Amma S.H.Ağa belə geyim seçmişdi. Şux durumlu, qartal baxışlı, onsuz da yaraşıqlı kişiyə bu geyim çox yaraşırdı. Hər dəfə onu görəndə yenicə istefaya çıxmış general xatırlanırdı.

S.H.Ağa siyasətə, dövlət işlərinə qarışmazdı. Xatirələrdə yazıldığı kimi, bəzən ailədaxili, ailələrarası, ağır nəticəyə səbəb ola biləcək xoşagəlməz münaqişələrlə bağlı müraciət edənlərə xeyirxahlıq əlini uzadırdı... Bəzən də qanuna zidd hərəkət tötərmişlər də ona istintaq və məhkəmə baxışları vaxtı köməklik üçün müraciət edənlər olurdu. Belə hallarda Seyid düşünülmüş sözlər deyərdi. Bildirirdi ki, seyid, molla qanun yazmır. Qanunu dövlət qəbul edir və biz hamımız ona itaət etməliyik. Heç vaxt kimlərəsə arxayın olub qanunu pozmamağı tövsiyə edər, adamları düz yola qaytarardı.

* * *

Qeyd etdiyim kimi, 1998-ci ildə nəşr olunmuş «Seyid Həsən Ağa» kitabına mənim də yazdığım «Özü boyda nur» başlığı ilə gedən xatirələrim daxil edilmişdir. Hesab edirəm ki, bu yazıda da Seyidin xarakterinin bəzi incə məqamları, çoxlarına örnək ola bilən cəhətləri əks olunub. Həmin yazını bu kitabın oxucularına da təqdim etməyi lazımlı sayıram.

«... Özü boyda nur»: Bəxtiyar Süleymanovla görüşdük. Həmsöhbətimiz dedi: — Dünyaya gələn hər bir insan taleyinə qismət olan ömrünü yaşayır və hər kəs üçün qaçılmaz olan Tanrı hökmü ilə dünyasını dəyişir. Lakin onların heç də hamısı eyni dərəcədə xatırlanmır. Bu, belə də olmalıdır. Əks təqdirdə həyat maraqsız olardı...

Bəli, Zəngilanlıların qəlbində heç kəslə müqayisə olun-

mayacaq dərəcədə həmişəyaşar gözəl şəxsiyyət kimi qalan Seyid Həsən Ağanın adını çəkmək çox ədalətli olardı.

Seyid Həsən Ağanı xatırlayarkən hər şeydən əvvəl onunla ilk görüşüm indiki kimi gözüm önündə canlanır. Bu belə olmuşdur: 1939-cü ilin yazı idi. Bartaz kənd natamam orta məktəbin 7-ci sinfində oxuyurdum. Komsomola qəbul olmaq üçün Bartazdan Zəngilan şəhərinə (o vaxt Pirçivan kəndi adlanırdı) piyada gələrək birbaşa rayon komsomol komitəsinə çatdım. Raykomun həyətində dayım, mərhum İsfəndiyar Sayılovu bir nəfər diqqəti cəlb edən, şəxsiyyətli duruşu olan kişi ilə bir yerdə gördüm. Dayım mənimlə görüşəndən sonra həmin adama, — bacım oğludur, kənddən gəlir, — dedi. O da öz növbəsində atamı, anamı, kənddəki vəziyyəti soruşdu. Ancaq həmin kişinin kim olduğunu soruşmağa mənim cəsarətim çatmadı. O gedəndən sonra dayım onun Seyid Həsən Ağa olduğunu dedi. Lap kiçik yaşlarımdan kəndimizin adamlarının həmişə CƏDDİNƏ and içdiklərini eşitdiyim şəxsiyyətlə tanış olduğuma görə çox sevindim. Həmin vaxtdan sonra mən də nisbi mənada fəal həyata qədəm qoyduğum üçün rayon mərkəzinə, Mincivan qəsəbəsinə get-gəlim artdı və həmişə camaat arasında olan Ağa ilə görüşlərim çoxaldı.

Ağlım kəsəndən evimizdə anam Məşədi Əzət xanımın oruc tutması, namaz qılması və daima Allaha ibadət etməsini görmüşdüm. Məhz bu səbəbdən də o, kəndimizin sayılıb-seçilən ağbirçəklərindən sayılırdı. Anamın İslama bu qədər ürəkdən bağlılığını bilən Seyid Həsən Ağa hər görüşümüzdə anamı böyük hörmətlə soruşardı.

Mən 1943 və 1944-cü illərdə 2 dəfə orduya (o vaxt Qızıl Ordu deyilirdi) çağırılmışam. 1943-cü ilin payızında həmyaşıdlarımla birlikdə orduya göndərilmək üçün çağırıldıq. Bizi hərbi komissarlığın həyətində sıraya düzmüşdülər və elə bu vaxt Seyid Həsən Ağa oraya gəlib, hamımıza əl verib görüşdü



və "yaxşı yol" dedi. Lakin Biləcəri hərbi toplantı məntəqəsində tibbi yoxlanış vaxtı məndə qızdırma olduğu üçün məni birbaşa «Semaşko» xəstəxanısna, 15 günlük müalicədən sonra isə tam müalicə olmağım üçün 60 günlük möhlətlə evə göndərdilər.

1944-cü ilin noyabrında isə birbaşa döyüş cəbhəsinə çağırdılar. Qatarla yola salmaq üçün toplantı Mincivan stansiyasına təyin olunmuşdu. Çağırışçıların əksəriyyəti, yola salan qohumları ilə birlikdə ertədən vağzala toplaşmışdılar. Yerevan-Bakı qatarının gəlməsinə 5-6 saat var idi. Atam xəstə olduğu üçün məni yola salan anam, bacım Sitarə və başqa qohumlarla perronda gəzirdik ki, Seyid Həsən Ağanın aralıdan gəldiyni gördük. Hamının bədbin ovqatı nikbinliyə döndü. Nə gizlədək, dünyanın ən dəhşətli müharibəsinə yola düşməyin nə olduğunu izah etməyə ehtiyac yoxdur.

Bir haşiyə çıxmaq istəyirəm. Bizim kəndimizin danışıq ləhcəsi rayonumuzun başqa kəndlərindəkindən fərqlənir. Bu səbəbdən də Ağa bizim kəndlilərdən tanıdıqları adamlarla rastlaşanda mütləq söhbətinin başlanğıcını bizim ləhcədə zarafatla başlayardı. Bu görüşümüz də, gözlədiyim kimi, belə oldu. Bizə çatmağa 10-15 metr qalmış «Bəxtiyar, deməxdan sən də əsgərrığa gedersən?» sözləri ilə başladı. Yaxınlaşıb hamı ilə hal-əhval tutdu, çoxları ilə zarafat etdi, hamıda xoş əhval-ruhiyyə yaratmaq istədi. Lakin ağa ölüm-dirim müharibəsinə yollanan başıqırxıq əsgər balalara baxanda, onların gələcək talelərinin necə olması sualı onu düşündürdükcə, gizlətməyə çalışdığı nigarançılıq çöhrəsindən hiss olunurdu. Sonra yenə də mənə yaxınlaşıb, qolumdan tutub perronun başındakı baqaj anbarına tərəf çəkdi. Cibindən bir ədəd beşmanatlıq pul çıxartdı, üzərinə qol çəkib dörd qat edib mənə verdi və «Bərk yerə qoy, itirmə, başqa adamlara, xüsusən də xaçpərəstlərə göstərmə, əsgərlikdən qayıdandan sonra mənə göstərərsən» deyib bir daha yaxşı yol apzuladı. Mənə belə gəlir

ki, daha bir neçə nəfərə belə məramla yaxınlaşdıqdan sonra hamı ilə xudahafizləşib getdi.

Zaman keçdi, müharibə quratrdı, mən də tərxis olunub rayona qayıtdım və gəldiyim ilk gündən hərbi komissarlıqda işə qəbul olundum. Günlərin birində Seyid Həsən Ağa ilə görüşəndə həmin beşmanatlığı ona göstərdim. O, pulu alıb açdı, yazısına baxdı və gülərək «hə, mən verəndir» deyib özümə qaytardı. Dedim ki, Ağa, sizə nəzirim var. O, mənim sağ-salamat qayıtmağımın ən qiymətli nəzir olduğunu, bir də belə sözü danışmamağımı bildirdi, əli ilə kürəyimə ehmalca vuraraq ayrıldı.

Kəndimizə növbəti gəlişimdə Seyid Həsən Ağa ilə həmin görüşüm barədə anama danışdım. Anam isə onunla bağlı başqa bir əhvalatı söylədi. Dedi ki, mən orduya gedəndən sonra, mənim sağ-salamat gəlməyim niyyəti ilə özü toxuduğu xalçanı ona nəzir deyib. Mən qayıdandan sonra Zəngilan şəhərində yaşayan qardaşı İsfəndiyargilə gələrkən Ağanı orada görüb və nəzir barədə ona bildirib, nə vaxt və hara gətirməsini soruşub. Ağa isə anama deyib ki, həmin xalçanı onun adından Bəxtiyara versin. Elə də oldu.

1952-ci ildən başlayaraq mən Dövlət Təhlükəsizlik orqanlarında xidmət etməyə başladım. Əvvəlcə Bakıda, 1953-cü ildə isə Naxçıvanın Culfa şəhərində işlədim. 1954-cü ildə Yerevana ezamiyyətə gedirdim. Mənim iş yoldaşım, əslən Ermənistanın Zəngibasar rayonundan olan mərhum polkovnik Rzaqulu Quliyev Yerenvanda yaşayan qaynatası Hüseyn Cabbarova çatdırmaq üçün məktub verdi. Həmin şəhərin azərbaycanlıların sıx yaşadığı Knoni küçəsindəki 3 saylı evdə məktubu sahibinə çatdırdım. Mehmanxanaya qayıtmaq istədiyimi biləndə rəhmətlik Hüseyn kişinin mənimlə dərdləşmək arzusunda olduğunu bildim və onun təkidindən imtina edə bilmədim. Söhbətimizin əvvəlində mənim zəngilanlı olduğumu bilən kimi ilk növbədə Seyid Həsən Ağanı soruşdu. Mənim də



. Ağanı tanıdığımı biləndən sonra özünün Ağa ilə tanışlığından, onunla görüşlərindən, mərdliyindən və digər təəssüratlarını danışdı, ona salam və xoş arzularını çatdırmağı xahiş etdi.

Son on ildə xalqımızın başına gətirilən iztirablı, qanlı-qadalı bir dövrdə, Seyid Həsən Ağanın boya-başa çatdığı Zəngilan camaatının düşdüyü ağır bir məqamda, torpaqlarımızın erməni faşistlərinin işğalında olduğu bir vaxtda bu nurani şəxsiyyətin aramızda olmamasına təəssüflənməmək olmur. Onun bu ağır gündə, işgəncə və zillətlə müharibə aparan, çadır şəhərciklərində dözülməz şəraitdə yaşayan soydaşlarımızın arasında arabir görünməsi onların qövr edən yaralarına məlhəm olardı, nisbətən toxdaqlıq gətirərdi».

*25.03.1997-ci il*

*Allahın mömin bəndəsi, xeyirxahlıq və mərdlik örnəyi S.H.Ağa haqqında çox yazmaq olar. Həmişə gülər üz, xoş əhval-ruhiyyə sahibi olmaqla, əhatəsində olduqları insanlarda da eyni ovqat və nikbinlik yaradan bu kişi istənilən qədər xoş sözə layiqdir.*

*Mənim üçün xoş olan bir məqamı da qeyd etmək yerinə düşər. Bir təsadüfə baxın ki, Ağamız barədə qələmə aldığım bu xatirələri yekunlaşdırmaq da İslam dünyasının ən müqəddəs bayramı olan Mübarək Ramazan bayramı gününə təsadüf edir. Bu gün 30 sentyabr 2008-ci ildə oxunan dualardan Allahın mömin olduğu qədər səmimi və pak bəndəsi S.H.Ağaya da pay düşür. Bu unudulmazlığı, hörmət və ehtiramı o, öz sağlığında yetərincə qazanmışdır.*

*Bütün bu dediklərimizə rəğmən Seyid Həsən Ağa onu tanıyanların qəlbində əbədiyaşarlıq yeri alıb. Onu xatırlayan hər bir kəs çox da uzaqda yox, Ağanı öz qəlbində görür, həmişə anır, dərin hörmətlə xatırlayır. Bu gün də belədir, gələcəkdə də belə olacaq. Amin!*

**30.09.2008-ci il**

# MÜƏLLİFDƏN

*Dövrü mətbuat səhivələrində publisistik yazılarımla 1965-ci ilin noyabrından başlayaraq, arabir görünsəm də, kitab müəllifi kimi — "Yaşatmaq üçün yaşanmış yarımçıq ömür"dən sonra, bu kitabla hörmətli oxucularla ikinci görüşümdü. Yeri gəlmişkən qeyd edim ki, noyabr 65-ci ildə Zəngilanın "Kənd həyatı" qəzetində gedən ilk yazım olduğu üçün, yadımda dəqiq qalıb. Həm də həmin yazı özümün təşəbbüsümlə deyil, o vaxtlar sərhəd rayonunda hərbi xidmətdə (DTK-da) olduğum üçün, dövlət sərhəddinin mühafizəsi və digər təhlükəsizlik məsələləri ilə işlərin həllində ictimayyətin iştirakının təmini üçün, belə yazılarla KİV-də vaxtaşırı çıxış etməyimiz mərkəzi rəhbərlik tərəfindən bizdən tələb olunurdu.*

*İndi isə bu kitabın yazılmasının zərurəti barədə fikrimi demək istərdim. Bu xatirələr toplusu kitabına daxil edilən Ulu Öndər Heydər Əliyev başda olmaqla, on beş nəfər görkəmli dövlət, partiya, elm, mədəniyyət və ictimai xadimlər haqqındakı xatirələrimin yazılması, əsasən sifarişli yazılarımdır. İlk növbədə uzun illər respublikamızın və SSRİ-nin rəhbərliyində olmuş Heydər Əliyev barədə "Azərbaycan" və "Respublika" qəzetlərində son illərdə dərc olunan yazılarım MTN rəhbərliyinin, yaxud da həmin qəzetlərin redaksiyası tərəfindən, Ulu Öndərlə uzun illər işləmiş, təmasda olmuş MTO veteranı kimi, məndən tələb olunmuşdu. Başqa tanınmış şəxslər barədə xatirələrimi yazmağı isə onların ailə üzvləri və digər yaxınları tərəfindən, onların (barələrində xatirə yazılanların) həyat və fəaliyyətləri ilə bağlı yazılacaq kitablara daxil etmək və yaxud da qəzetlərdə dərc etdirmək məqsədilə mənə də yazı verməyi təklif etmişlər. Bu barədə kitabdakı mətnlərdə də qeyd olunub. Bu məsələ ilə bağlı da bəzi istisnalar var. Məsələn, general-mayor M.Əsədov və professor C.Sayılov barədə xatirələr yazmağı məndən xahiş edən olmayıb. Onların hər ikisini uşaqlıq və gənclik illərindən yaxşı tanıyır, yetkinlik vaxtlarında da dostluq münasibətində olmuşam. Onlardan birincisi DTO-da xidmətdə olduğu ötən əsrin 80-ci illərinin əvvəllərindən başlıyaraq həmkarlıq etmişik. İkincisi isə gənclik illərindən ömrünün sonuna kimi bütün mənalı fəaliyyətini elmə həsr edib. Çox təəssüflər olsun ki, onların hər ikisi çox vaxtsız aramızdan getdilər. Bu gün aramızda olmasalar da, əziz xatirələri tanıyanlar, respublika ictimaiyyəti, xüsusilə dünyaya gəldikləri Zəngilan rayon əhalisi tərəfindən əziz tutulur və anılır. Ona görə də M.Əsədov və C.Sayılov barədə xatirələrimi öz təşəbbüsümlə qələmə alıb, oxuculara çatdırıram.*

*Ulu Tanrının mənim taleyimə qismət etdiyi, yaşamaqda davam etdirdiyim ömrümün bu vaxtına kimi həyatda qənşərimə çıxan müdrik, xeyirxah əməl sahibləri və cəmiyyətdə özünə yaxşı imic qazanmış insanların sayı yüzlərlə, bəlkə də minlərlədir. Onların hamısı haqqında nəsə yazmaq mümkün deyil və səhhətimlə bağlı fiziki imkanım xaricindədir. Onların kimliyinin fərqi yoxdur — alimdir, dövlət xadimidir, hansısa sənət, sadə peşə sahibidir, yoxsa adi fəhlədir. Əsas odur ki, nəzərdə tutduğum bu insanlar halal zəhmətinə söykənən, ədalətə, haqqa itaət edənlərdir. Çox şükürlər olsun ki, onların böyük əksəriyyəti bu gün də həyatda fəaliyyətdədirlər, öz sağlam əqidələri ilə yaşayırlar.*

*Son illərdə ayrı-ayrı adamlar barəsində yazılmış çoxsaylı xatirələr toplusu nəşri geniş yer alıb. Mən oxuduğum belə kitabların, demək olar ki, hamısı onlarla müəlliflərin xatirə yazısını özündə birləşdirən nəşrlərdir. Belələrindən fərqli olaraq, hörmətli oxuculara təqdim olunan bu kitabdakı xatirələr bir müəllifə məxsusdur.*

*Dövrü mətbuatda dərc olunmuş xatirələr, məzmunlu yazılarımın bəzilərini seçib, bir qədər də genişləndirərək, yeni əlavələrlə bir kitabda birləşdirməyimin səbəbi də çox sadədir. Hər*

*hansı bir yazının tarixdə saxlanılması və vaxtaşırı oxunması üçün layiqdirsə, bunlardan istifadəyə münasiblik baxımından, qəzetlə müqayisədə, kitab daha əlverişlidir. Birmənalı bildirirəm ki, bu kitabda barələşmiş yazıların qəhrəmanları da daim xatırlanmağa, yad edilməyə və anılmağa çox yüksək səviyyədə layiqdirlər. Məhz bu səbəbdən də həmin yazıların bir kitabda nəşr olunması zərurəti yarandı.*

**Bəxtiyar Süleymanlı**



## MÜNDƏRİCAT

Redaktordan ....................................................3

**Dövlət, partiya və hərbiçi xadimlər ....................................5**

Dövlətçilik memarı, idarəçilik ustadı ulu öndər
*(Heydər Əliyev)* ....................................................6
Dövlətə sədaqət və pak əqidə örnəyi
*(Əbdül Xalıqov)* ....................................................57
Qəhrəmanlıq və cəsurluq nümunəsi
*(İsmayıl Sayılov)* ....................................................69
İlk Zəngilanlı general
*(Məhəmməd Əsədov)* ....................................................90
Qəhrəmanlar ölmür, ulduzlar sönmür
*(Riad Əhmədov)* ....................................................106
"Mən görən kişilər"dən biri
*(Vahid İsmayılov)* ....................................................121
Müdriklik və əsl ziyalılıq mücəssəməsi
*(Əli Rəsulov)* ....................................................146
İman dünyasına köklənmiş vətəndaş
*(Hacı Abdulla İbrahimov)* ....................................................160

**Elm və mədəniyyət xadimləri ....................................167**

Nəsillərə nümun alim qardaşlar
*(Ziyad Məmmədov və Atlıxan Xanməmmədov)* ..........168
Məğrurluq zirvəsində əbədiyaşar şəxsiyyət
*(Məmməd Xələfov)* ....................................................183
Torpaq boyda dərdlə nigaran dünyasını dəyişən alim
*(Qulu Xəlilov)* ....................................................190

Unudulmaz insan, görkəmli hüquqşünas
*(Məmmədxan Rəsulov)*..........................................208
Görkəmli bəstəkar, böyük vətəndaş
*(Tofiq Quliyev)*..................................................221
Xatirəyə dönmüş alim ömrü
*(Cəmil Sayılov)*..................................................228

**Xeyirxahlıq və mərdlik mücəssiməsi............................247**

Ürəklərə nur saçan mömin kişi
*(Seid Həsən Ağa)*.................................................248
Müəllifdən..........................................................258



**Bəxtiyar Süleymanlı**

**ƏBƏDİYAŞARLAR**

*(Publisistik xatirələr)*

**Kompüter dizaynı:** Ramiz Hümmətov
**Korrektor:** Rüfət İsmayılov
**Operatorlar:** Sənubər Mirzəyeva
Südabə Dadaşova

Yığılmağa verilmişdir: 14.10.2009. Çapa imzalanmışdır: 03.02.2010. Kağız formatı $60x84_{1/16}$. Şərti çap vərəqi 16.3. Tirajı: 1000.